Vəfaddin İbayev

# Zirvələrin ən ucası

Bakı - 2025



**İ.H. Kərimovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

"Azərbaycan Respublikasında hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə İkram Heydər oğlu Kərimov “Şöhrət” ordeni ilə təltif edilsin".

**İlham ƏLİYEV**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 04 aprel 2022-ci il

**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə**

Möhtərəm Prezident!

Əmək fəaliyyətimə verdiyiniz yüksək qiymətə – "Şöhrət" ordeni ilə təltif olunmağıma görə Sizə dərin minnətdarlığımı bildirirəm.

Böyük məmnunluq hissi ilə qeyd edim ki, hüquq sahəsində çalışdığım yarım əsrdən çox müddətin böyük bir hissəsi məhz Ulu Öndərimiz Heydər Əliyevin Respublikamıza rəhbərlik etdiyi dövrə təsadüf etmişdir.

1969-cu ilin noyabr ayında ilk nomenklatur vəzifəyə – Azərbaycan SSR prokuroru yanında mühüm işlər üzrə müstəntiq vəzifəsinə təyin olunmuşam. İş fəaliyyətimin bu dövrü ərzində qarşımıza qoyulan tələblər və yaradılmış mühit biz gənclərin gələcək həyat yolunun əsas istiqamətlərini müəyyənləşdirmiş oldu.

1979-cu ildə Əzizbəyov rayonuna prokuror vəzifəsinə təyinatla bağlı Respublika rəhbəri Heydər Əliyevin məni qəbul edərkən verdiyi tövsiyələri hər zaman xatırlayaraq, onlara əməl etməyə çalışmışam. Bu da mənə iş fəaliyyətimdə bir çox uğurlar qazandırmış və bu dövr ərzində yüksək dövlət mükafatları ilə – Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı (1972-ci il may), "Şərəf nişanı" ordeni (1982-ci il may) və "Əmək veteranı" medalı ilə təltif olunmuşam.

Əmək fəaliyyətimin sonrakı 25 ili isə ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı olmuşdur. So-

vetlər İttifaqının süqutundan sonra keçid-müstəqillik dövrünün ilk illəri ölkədə bir sıra müəmmalı, təzadlı və qarışıq hadisələrin baş verdiyi çox mürəkkəb zaman kəsiyinə təsadüf etmişdir. Həmin illərdəki təzyiq və təsirlərə baxmayaraq, insan hüquqlarının pozulmasına yol verilməmiş, ədalətli qərarların qəbul edilməsi, məhkəmənin müstəqilliyinin qorunması təmin olunmuşdur. Yalnız bir faktı göstərmək kifayətdir ki, o zamankı respublika rəhbərliyinin dəvəti ilə Moskvadan göndərilmiş istintaq qrupu tərəfindən aparılan cinayət işləri üzrə ittiham hökmü çıxarılmamışdır. Belə ki, qanunsuz həbs edilmiş bütün şəxslər bəraət almış, müstəntiqlər barəsində isə xüsusi qərar çıxarılaraq vəzifədən kənarlaşdırılmışlar.

Sumqayıt Apellyasiya Məhkəməsinin sədri vəzifəsinə təyinatım zamanı Sizin tələb və tövsiyələrinizlə yanaşı, ailə həyatım, övladlarımın təhsili ilə maraqlanmağınız, istintaq fəaliyyətimlə əlaqədar mühafizəçi "Maqomed"in adını xatırlamağınız Sizin ölkə rəhbəri kimi, həm də sadəliyiniz və səmimiliyinizin gözəl nümunəsi olaraq yaddaşımda həkk olunmuşdur. Sizin rəhbərliyiniz altında Respublikamızda həyata keçirilən məhkəmə-hüquq islahatları ölkəmizi bu sahədə də dünya standartları səviyyəsinə çıxarmış, hətta müəyyən istiqamətlərdə nümunə ola biləcək uğurlar qazanmışdır.

"Asudə vaxt – məsuliyyətdən azad vaxt demək deyildir" – bu sözləri əbədiyaşar rəhbərimiz 25 aprel 1979-cu ildə iştirakçı olduğum Ümumittifaq Elmi-

praktiki konfransda səsləndirmişdir. Təqaüdə çıxdıqdan sonra, asudə vaxtımda üş cilddən ibarət bioqrafik "Zirvədən-zirvəyə" adlı memuar yazmışam. Xatirələr əsasında tərtib olunmuş bu kitablarda Ulu Öndər daim xatırlanır və barəsində məlum olmayan bəzi xatirələr yeni nəslə çatdırlır.

Hörmətli Prezident!

Siz əvvəllər də əmək fəaliyyətimi yüksək qiymətləndirmisiniz: "Tərəqqi" medalı ilə təltif olunmuş, "Əməkdar hüquqşünas" fəxri adına layiq görülmüşəm. Mənə göstərdiyiniz diqqət və qayğıya görə Sizə şəxsim və ailəm adından bir daha təşəkkürümü bildirirəm.

Sizin Ali Baş Komandan kimi, rəhbərliyiniz altında torpaqlarımızın işğaldan azad olunmasını görməyi tale mənə qismət etdiyi üçün 3 övladı və 10 nəvəsi olan şəxs kimi, özümü çox xoşbəxt hesab edirəm.

Siz sözün həqiqi mənasında, fəxr ediləsi Rəhbərsiniz! Ulu Tanrı Sizi qorusun!

Yüksək rəğbət və böyük ehtiramla,

*Kərimov İkram Heydər oğlu*
*5 aprel 2022-ci il*

# ÖN SÖZ ƏVƏZİ

## Üç kitab, üç səbəb və ya xatirələr cığırıyla

*"Min dəfə zirvəyə baxmaq yerinə,*
*Bircə yol zirvədən baxmaq yaxşıdır".*

***Nəbi Xəzri***

Masamın üstündə müxtəlif vaxtlarda mənə təqdim olunmuş, "Zirvədən zirvəyə..." adlanan üç kitab, üç səbəbə görə həmin kitablarla bağlı düşüncələrimi qələmə almaq istəyim var.

Birincisi, hər üç kitabda çoxlarının qeyd etdiyi kimi, mənim də Azərbaucan Dövlət Universitetinin (hazırkı BDU) hüquq fakültəsində oxuduğum zaman müəllimim Firudin Səməndərovun söhbətlərindən tanığıdım İkram müəllimin yazıları və ya onun haqqında yazılanlar toplanmışdır. Eşitmişdim ki, İkram

müəllim tələbəlik vaxtlarından elmi araşdırmalarla məşğul olub, müstəntiq işlədiyi zaman qazandığı uğurları ilə respublika hüquqşünasları arasında tanınır, xüsusi hörmət və rəğbətə sahibdir.

İkram müəllimlə şəxsən 1999-cu ilin əvvəllərində tanış olmuşam. O, Bakı Şəhər Məhkəməsinin sədri kimi Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi ilə Avropa Şurası Venesiya Komissiyasının Əməkdaşlıq Proqramı çərçivəsində keçirilən "Muxtariyyətin konstitusiya statusu" seminarına dəvət almışdı (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. s. 335). Mən isə həmin vaxt Konstitusiya Məhkəməsində "Beynəlxalq hüquq məsələləri" şöbəsinin müdiri vəzifəsində işləyirdim. Seminarda xarici və yerli mütəxəssislərlə yanaşı, mən də çıxış etdim.

Fasilə vaxtı İkram müəllim mənə yaxınlaşdı, çıxışımda Ermənistan – Azərbaycan münaqişəsi, muxtariyyət və xalqın anlayışı ilə bağlı çox lazımlı məsələlərə toxunduğumu bildirdi, əvvəllər harada işlədiyimlə maraqlandı. O vaxtkı milis sistemində 16 il müstəntiq işlədiyimi biləndən sonra həmkar olduğumuzu, istintaqın böyük məktəb olduğunu vurğuladı. Söhbətimiz çox uzun çəkməsə də, səmimi alındı və onun diqqətcilliyi məndə xoş təəssürat yaratdı.

Sonralar İkram müəllimlə dəfələrlə ünsiyyətdə olmuşuq, hakim həmkar kimi müxtəlif tədbirlərdə, iş prosesində görüşmüşük. Onun insanlara, həmkar-

larına münasibəti məndə xüsusi rəğbət doğurub. Beləliklə, bir növ İkram müəllimin kitabları və özü haqqında fikirlərimi söyləməyə daxili bir ehtiyac hiss edirəm.

İkincisi, "Zirvədən zirvəyə..." kitabını oxuduqca bəzi hadisələr, təsvirlər mənə olduqca doğma, yaxın gəldi. Xatirələrin cığırına düşüb, analı günlərimi, uşaqlığımı, tələbəliyimi xatırladım. Yazı üslübunun, təsvir edilən hadisələrin yaxınlığı, xatirələrdə canlanan insanların bir çoxunun tanış simalar olması məni yenidən keçmişə qaytardı. Odur ki, bu doğmalıqlara münasibət bildirmək mənim üçün daxili bir tələbata çevrildi. Kitabda əksini tapan ana zəhməti, ana nəvazişi, ana qayğısı, ana məhəbbəti, ana tövsiyələri mənə o qədər məhrəm idi ki, bu barədə yazmaya bilməzdim.

Bir vaxtlar özümün də müstəntiq kimi fəaliyyət göstərməyim, elmi yaradıcılıqla məşğul olmağım, İkram müəllimin söhbət açdığı hüquqi məsələlər, tarixi şəxsiyyətlər haqqında fikirləri, eyni şəhər və ölkələrdə oxşar təəssüratları yaşamağım, fikirlərdəki təbiilik, məndə onlara münasibət bildirmək istəyini yaratdı.

Üçüncüsü, "Zirvədən zirvəyə..." kitabını oxuyanda həm də bir çox tanıdığım, əsasən hüquqşünas həmkarların, müəllimlərimizin, iş yoldaşlarımızın həyatı göz önünə gəlir. Onların çoxu ilə bizi xoş xatirələr birləşdirir. Yeri gələndə bəziləri haqqında söz demək

də ürəyimizdən keçir. Bəzən tanıdığım insanların məlum olmayan cəhətlərini xatirələrdə kəşf etməyim və sair kitabla bağlı yazı yazmaq istəyimi artırdı.

Onu da deyim ki, "Zirvədən zirvəyə..." kitabını oxuyanda üç insan həyatı yenidən yaşanır: biri təbii ki, İkram müəllimin həyatıdır. O özü, onun barəsində fikirlərini yazanlar İkram müəllimin həyatının müxtəlif anlarını xatırladıqca, həyatının müxtəlif səhifələrini vərəqlədikcə, oxucu xəyalında həmin hadisələri canlandırır, bir növ İkram müəllim oxucunun gözü önündə həmin həyatı yaşayır.

Yaşamın ikinci hissəsi xatirələri yazana aiddir. Yazar İkram müəllim haqqında danışanda özü ilə bağlı xatirələrdən söhbət açır. Beləliklə, onun öz həyatı da həmin sətirlər oxunduqca yaşanır.

Nəhayət, yaşamın üçüncü hissəsi kitabı oxuyana aiddir. Kitabı oxuyan həm xatirə yazanın¸ həm də xatirənin həsr olunduğu insanın həyatı ilə tanış olmaqla yanaşı, bir çox məqamlarda öz həyatını yaşayır. Məsələn, söhbət açacağım çörəkbişirmə prosesi mənə anamı, onun çörək bişirməsini xatırlatdı, mən uşaqlığımın həmin illərini bir də yaşadım. Yaxud, məsələn, İkram müəllim fakültəmizin dekanı Məmməd Xələfov, kafedra müdiri Məsumə Məlikova və ya digər müəllimlərdən söhbət açarkən mən oxucu kimi öz həyatımın həmin şəxslərlə bağlı anlarını yada salıb, o günləri yenidən yaşadım.

Burada bir məqam da yadıma düşür. Oxucu fikir verdisə, İkram müəllimin həyatı xatirələrdə üç kitabda yer alıb. Yuxarıda müxtəlif məsələlərlə bağlı üç cəhəti fərqləndirdik. Ümumiyyətlə, üç rəqəminin mənim həyatımda önəmi vardır.

İkram müəllimin "Zirvədən zirvəyə..." kitabının üç cilddə olmasını nəzərə alıb, Azərbaycan EA-nın müxbir üzvü, f.e.d. professor Fuad Qasımzadənin mənim "Qafqaz Müsəlmanları İdarəsi və Ermənistan-Azərbaycan münaqişəsi" kitabıma yazdığı "Ön söz"-dən "üç" rəqəmi ilə bağlı hissəni qeyd etməyi məqsədəmüvafiq hesab edirəm:

"Görünür ki, Vəfaddin İbayevə 3 rəqəmi yaxşı düşür. Yeri gəlmişkən deyim ki, bu rəqəm haqda müxtəlif ölkə və xalqlarda çox söhbətlər, çox rəvayətlər var. Xristianlıqda o, müqəddəs sayılır. Xristian dininin əsas ehkamlarından biri budur ki, bir olan, vahid olan Allah üç şəxsdə (ipostasda – yunanca hypistasis-mahiyyət, əsas deməkdir) təzahür edir: Allah-ata, Allah-oğul və Müqəddəs ruh-Allah.

Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda, Rusiyada "üç" sözü ilə başlanan, bu rəqəmlə bağlı olan toponimlər var. Məsələn, respublikamızda "Üçtəpə" adlı kəndlər (Ağcabədi, Xanlar, Cəlilabad rayonlarında) "Üçtəpə kurqanları" adlı arxeoloji abidə, Qarabağ silsiləsində "Üçtığ" adlı dağ da var və s.

Formal məntiqin əsas qanunlarından biri "Üçüncünün istisna prinsipi" adlanır ki, Aristotelin işlədiyi bu qanun təfəkkür üçün, idrak üçün mühüm əhəmiyyətə malikdir. Həmin qanuna görə iki zidd mülahizədən hər hansı biri digərinin təsdiq etdiyini inkar edərsə, bunlardan biri hökmən həqiqi olur. Məsələn, Günəş ulduzdur. (A B-dir), Günəş ulduz deyil (A B deyil) hökmündən biri həqiqətdir. Günəşin ulduz olduğu həqiqətdir və hamı tərəfindən qəbul edilib. Deyəndə ki, "Ermənistan təcavüzkardır", "Ermənistan təcavüzkar deyil" bu iki hökmdən biri, yəni "Ermənistanın təcavüzkar olması" həqiqidir və dünya ictimaiyyəti tərəfindən qəbul olunur...

Üç rəqəminin Füzuli yaradıcılığında ülvi rəmzi və mənaları vardır. Məsələn, "Səhhət və mərəz" əsərində insanın mühüm üzvləri arasında dahi şair ürəyi xüsusi qeyd edir, burada altı xüsusiyyətin məskən saldığını, yaşamaq nəşəsi qurduğunu yazır ki, bunlardan üçüncüsü məhəbbətdir, o məhəbbət ki, Füzuli poeziyasının mayasını təşkil edir. "Mətləül-etiqad"da Füzuli əqidə və təriqətlərdən danışarkən dörd rüknü (sütunu) qeyd edir ki, bunların da sırasında üçüncü rükn Vacibə (Tanrıya) aid olan bilik haqqındadır. 9 ülvi fələk cərgəsində üçüncü olaraq Venera fələki – fələküz-Zöhrə qeyd olunur. Mütəfəkkir şair mürəkkəb varlıqlar sırasında üç doğulmuş (məvalidi-səlasə) varlığı qeyd edir: mədəniyyat (camidlər); bitkilər; heyvanlar.

Şair qitələrinin birində feyz yetirən, nemətə, yaxşılığa çağıran müsəlman dünyasının üç tərkib hissəsini: ərəb, fars və türkdilli sahələri göstərir:

“Ey feyzrəsani-ərəb türkü-əcəm!
Qıldın ərəbi əfsəhi-əhli-aləm!
Etdin füsəhayi-əcəmi İsa-dəm,
Mən türkzəbəndan iltifat eyləmə kəm!”.

Doğrudan da maraqlıdır ki, müsəlman dünyası əsasən ərəb, fars və türkdilli xalqlardan ibarətdir. Füzuli özünü türkdilli (türkzəbanlı) adlandırır və Allahdan ona iltifat (hüsn-rəğbət göstərilməsini, mehriban, lütfkar münasibət bəsləməyi) edilməsini gözləyir...

Vəfaddin İbayevin hələlik bu vaxta qədər olan yaradıcılığı və nəşr olunmuş işləri “üç” rəqəmi, “üç” sözü ilə bağlıdır. Neçə deyərlər, başdan-ayağa üçdür. (Ruslar demişkən “кругом три”.) Rəy yazdığım, nəşrə layiq bildiyim və redaktə etdiyim “Qafqaz Müsəlmanları İdarəsi və Ermənistan – Azərbaycan münaqişəsi” onun sayca üçüncü əsəridir. 1-ci əsəri 1998-ci ildə nəşr olunmuş “İslam Konfransı Təşkilatı” kitabıdır. 2-ci əsəri 1999-cu ildə nəşr edilmiş (Hadi Rəcəbli ilə birlikdə) “Avropa Şurası” kitabıdır. Hər iki əsər maraqlıdır, gərəkli və faydalıdır. 3-cü kitab formaca da, məzmunca da 3 rəqəmi ilə bilavasitə

bağlıdır. Əvvəla, kompüterdə yığılmış 3 cilddə təqdim olunub. Bu formasına görə, elə məzmunu da əsasən 3 sahəni əhatə edir...” (Vəfaddin İbayev. Qafqaz Müsəlmanları İdarəsi və Ermənistan – Azərbaycan münaqişəsi”. Bakı. 1999. s. 3-14).

Xatirələrlə həyatı yenidən yaşamaq mənim yeniyetməlik hafizəmdə Nəbi Xəzrinin yaradıcılığından olan bir şeirlə həkk olunub. Ona görə də yazının başlığında ön söz əvəzi “xatirələr cığırıyla” ifadəsini də işlətmişəm. Nəbi Xəzrinin eyniadlı şeiri isə reallığı əks etdirən gözəl sənət nümunəsidir:

**Xatirələr cığırıyla**



Günlər gedir,
Ömür yarı,
Ömür də bir dağa bənzər.
Yaxınları, uzaqları
Xəyal gəzər,
Xəyal gəzər,
Xatirələr çığırıyla.
Diləklərdən diləklərə

İzlər gedər, izlər çatar,
Ürəklərdən ürəklərə
Sözlər gedər, sözlər çatar
Xatirələr cığırıyla.

İllər keçər gur su kimi,
Aşar kiçik təpələri;
Bəzən yorğun yolçu kimi
Uşaqlıq da
Dönər geri
Xatirələr cığırıyla.

Uzaqdakı uca dağ da
Yaxın gəlib baxar yenə,
İzi itmiş bir bulaq da
Nəğmə deyib
Axar yenə
Xatirələr cığırıyla.

Əl çatmayan şeiriyyətə
Dönə-dönə sən çatarsan,
Sönüb getmiş məhəbbətə
Yana-yana
Qayıdarsan
Xatirələr cığırıyla.

Getdikcə ay,
Ötdükcə il,
Qarlı dağlar aşar insan.
Bəlkə, bircə ömür deyil,
Neçə ömür yaşar insan
Xatirələr cığırıyla.

"Zirvədən zirvəyə..." kitabını oxuduqdan sonra mən bir daha əmin oldum ki, xatirələr cığırıyla ad-

dımlayan insan bir deyil, bir neçə ömür yaşayır.

"Zirvədən zirvəyə..." kitabının adı da mənə Nəbi Xəzrini xatırladır. Mənə elə gəlir ki, Azərbaycan ədəbiyyatında "zirvə" sözünü ən çox işlədən şair Nəbi Xəzridir.

İkram müəllim, həqiqətən, həyat yolunu Zirvədən zirvəyə addımlayıb. Atasının kişilik və mərdliklə bağlı tövsiyələrinə, anasının insanlara qayğı və saf istəklə bağlı öyüd və nəsihətlərinə əməl edərək, zəhməti hesabına əldə etdiyi bilik və bacarığını, savadını sevdiyi işinə sərf etmiş, rastlaşdığı çətin düyünləri açmış, yorulmaq bilmədən istintaqın sirlərinə yiyələnmiş, özünün yaradıcı təfəkkürü və yanaşmaları ilə bu sahədə sözünü demiş, maneələrə sinə gərərək hünərlə irəliləmişdir. Bu əzmkarlığı sayəsində o, zirvələrə baxmaq yerinə zirvədən baxmağa nail olmuşdur. Nəbi Xəzri demişkən:

Qoşulub dağların küləklərinə
Qayadan hünərlə qalxmaq yaxşıdır.
Min dəfə zirvəyə baxmaq yerinə,
Bircə yol zirvədən baxmaq yaxşıdır.

Şair başqa bir şeirində deyir:

"Zirvələr fəth edən bir qartalamsa,
Qoşa qanadımdır
Şeirimlə
Sevgim".

İkram müəllimin isə zirvərə qalxarkən qoşa qanadı onun zəhməti hesabına əldə etdiyi biliyi, Allahın ona bəxş etdiyi bacarığı olub. O, zirvələrdə qərar tutmaq üçün bilik və bacarığından istifadə etməyi, ətrafdakılarla ünsiyyət qurmağı, bu münasibətləri daim nizamında saxlamağı, cinayətkara qarşı mübariz və qətiyyətli, kömək ehtiyacı olana, kömək umana münasibətdə qayğıkeş olmağı, ən əsası isə qanuna və ədalətə istinad etməklə əsl insan kimi fəaliyyət göstərməyi bacarmış, "zirvələrə açılan geniş qapılar"la addımlamağa nail olmuşdur.



# BİRİNCİ YAZI

## Zirvələrin ən ucası

*Uca zirvələrin ucası anam,*
*Əsrin bəyazsaçlı qocası anam!*

***Nəbi Xəzri***
*"Ana" poemasından*

Mənə elə gəlir ki, hər kəs kitabı özünəməxsus tərzdə oxuyur və özünü qane edənlərə, özünə lazım olanlara daha çox diqqət ayırır. Bəzən eyni kitabı oxuyanlar onda müxtəlif məqamları yadda saxlayır, kitabda təsvir olunan, lakin maraq dairələrinə aid olmayan bəzi hadisələri isə heç xatırlamırlar. Mənim özümdə də belə hallar olur. Bəzən eyni kitabı müxtəlif yazılarla bağlı təkrar oxuyuram və hər dəfə özümə lazım olan müxtəlif məlumatları əldə edirəm.

İkram Kərimovun həyat və yaradıcılıq səhifələrini əks etdirən üç kitabdan ibarət olan "Zirvədən zirvəyə..." məlumat zənginliyinə görə çoxşaxəlidir, orada öyrənilməli, yadda saxlanılmalı, haqqında söz deyilməli məlumatlar həddən artıq çoxdur. Birinci kitabın ilk səhifələrindən məni cəlb edən məqamlardan biri kitabda ana ilə bağlı İkram müəllimin düşüncələri, ana sevgisi və ana ilə bağlı yazılanlar oldu. Ona görə ilk yazımı da bu mövzuya həsr etməyi qərara aldım.

Düşünürəm ki, insanda hər şeyin – sadəliyin, səmimiliyin, zəhmətsevərliyin, istedadın, qəhrəmanlığın, görkəmli dövlət xadimi kimi formalaşmanın, dahiliyin də təməlini ana südü yaradır. Əbəs deyildir ki, azərbaycanlılar əsl insanlar haqqında “ananın südü sənə halal olsun”, “halal süd əmib” ifadələrini işlədirlər.

İstər Azərbaycanın şifahi xalq ədəbiyyatı, istərsə də klassiklərin, müasir şair və yazıçıların əsərlərində, o cümlədən “Kitabi-Dədə Qorqud”da ana südünün müqəddəsliyi xüsusi vurğulanır. Dastanın birinci “Dirsə xan oğlı Buğac xan boyını bəyan edər, xanım hey...” boyunda Boz atlı Xızır Dirsə xanın oğlunu yaralı görüb yarasını sarıyandan sonra “Sana bu yaradan, qorxma, oğlan, ölüm yoqdur. Tağ çiçəgi anan südilə sənin yarana məlhəmdir” – deyir (Kitabi-Dədə Qorqud. Bakı.1988. s. 39).

Xalq şairi Bəxtiyar Vahabzadə “Fikir bahadırı” adlı məqaləsində Füzuli şeirinin böyüklüyündən danışarkən yazır: “...Analarımız bizə beşik başında laylanı muğam üstündə demişlər:

Sən yat şirin yuxuda,
Çəkim keşiyin laylay. –

sözləri – ana qəlbindən süzülən bu doğma kəlmələr muğamdakı incə xallar, Vətənimizin zəngin tarixini,

mübarizəsini, fərəh və kədərini, nəhayət, onun gözəl təbiətini – quşlarının səsini, çaylarının şırıltısını, çiçəklərinin rəngini bizim ruhumuza hopdurmuşdur.

Vətənimizin və xalqımızın doğma ruhunu, təbiətini analarımız südlə bərabər bizim ürəyimizə, mənəviyyatımıza elə hopdurmuşlar ki, heç bir qüvvə onu bizim ruhumuzdan, qəlbimizdən çıxara bilməz. Atalar demişkən: südlə girən sümüklə çıxar" (Bəxtiyar Vahabzadə. Sadəlikdə böyüklük. Bakı. 1978. s. 9).

Eyni fikirləri şair Nəriman Həsənzadə İkram müəllim haqqında yazdığı, "Bir ömrün mərhəmət illəri" adlandırdığı xatirələrində bu cür ifadə edir: "İkram müəllim! Sizin millətimizi sevməyiniz iliyinizdə, qanınızdadır. Bütün bunlar böyük hərflə yazdığım Namusunuzu, Vicdanınızı göstərir. Mən inanıram ki, Siz qəsdən heç kəsə pislik edə bilməzsiniz, bəlkə də, bacarmazsınız. Bu xeyirxahlıq ana laylalarımızdan gəlir, bayatılarımız, ağılarımız, adət-ənənələrimiz bunu deyir, bunu təbliğ edir" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 455).

Vətənə, xalqa həqiqi məhəbbətin yaranması üçün həmin xalqın nümayəndəsi olan ananın südü ilə qidalanmalısan. "Qurani-Kərim"in ayələrinin bir neçəsi doğulandan sonra anasının Musanı səbətə qoyub Nil çayına buraxmaqla ölümdən qurtarmağa çalışması ilə bağlıdır. O vaxt Misir fironu əsirliyində olan yəhudi xalqının artıb çoxalmasından ehtiyat

edərək yəhudi oğlan uşaqlarının anadan olan kimi öldürülməsi ilə bağlı əmr verir. Anası Musanın doğulmasını müəyyən müddət gizlətsə də, bu xəbər fironun adamlarına çatandan sonra ana Musanı ölümdən qurtarmaq üçün səbətə qoyub çaya buraxır. Səbətdə üzən Musa Allah-təalanın hökmü ilə fironun arvadının çayın kənarında istirahət etdiyi sahilə doğru üzür və fironun arvadı tərəfindən səbətdən götürülərək saraya aparılır, fironun ailəsində saxlanmasına, tərbiyə olunmasına qərar verilir. Ana balasını çaya buraxdıqdan sonra ürəyi dözmür, balaca qızı Məryəmi göndərir ki, çay boyu gəzib Musanın taleyi barədə xəbər gətirsin. Bacısı uşağın fironun arvadı tərəfindən götürüldüyünün şahidi olur. Musanı əmizdirmək üçün nə qədər qadınlar tapsalar da o, heç birini yaxın buraxmır. Axırda onun öz anası Allahın məsləhəti ilə Musanı yedirmək üçün dəvət olunur və Musa anasının südünü əmir, öz anasının südü ilə böyüyür.

"Qurani-Kərim"in "Taha" surəsində bu hadisə aşağıdakı kimi əksini tapıb:

"39. "(O zaman ki Mən anana buyurmuşdum:) "(Musanı) bir sandığa qoyub çaya (Nilə) at. Qoy çay onu sahilə çıxartsın və Mənə də, ona da düşmən olan birisi (Firon) onu (sudan tapıb) götürsün". (Ya Musa!) Gözümün qabağında boya-başa çatdırılasan deyə, Öz tərəfimdən (insanların ürəklərində) sənə sevgi yarat-

dım. (Mərhəmət nəzərim heç vaxt üstündən əskik olmadı. Elə etdim ki, Firon özü, arvadı Asiyə və ətrafındakıların hamısı səni sevdi).

40. O zaman bacın (sənin ardınca guya yad bir adam kimi saraya) gedib (oradakılara) deyirdi: "Sizə ona baxa biləcək (süd verəcək) birisini göstərimmi?" (Onlar razılıq verdilər, anan saraya gəldi). Artıq (salamat qalmağına görə) gözü aydın olsun və kədərlənməsin deyə, səni anana qaytardıq...".

Həmin ayələrə şərh verərkən Yusif Əli göstərir ki, "o təkcə yaxşı tərbiyə almadı; sonrakı ayədən göründüyü kimi, Allahın himayəsi ona öz anasını qaytardı, onu südlə bolluca təmin etdi və onun daxili inkişafını öz xalqının – İsrailin hissləri ilə əlaqələndirdi" (Значение и смысл Корана. 3-й том. Сура 12-24. Сура Йусиф до сура Ан-нур. Copyright by SKD Bavaria Verlag&Handel GmbH. Auflage. 1999. с.1440). (İstinad olunan kitabla bağlı bax: İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 562).

Lakin bunlar heç də təsadüfi deyildi. Allah-təala Musanı xalqını əsarətdən qurtarmaq üçün peyğəmbər hazırlayırdı. Əgər Musa yəhudi olan anasının südü ilə bəslənməsəydi, o, xalqının ona verdiyi əziyyətlərə dözə biməz, onu əsarətdən çıxara bilməzdi.

"Qurani-Kərim" valideynlərə körpəyə süd verməklə bağlı 7 göstəriş vermişdir ki, onlarla tanış olaq:

1. Analar körpəyə iki il süd verməlidir. "Analar öz övladlarına iki il tamam süd verməlidirlər" ("Bəqərə" 233).

2. Bu, o kəs üçündür ki, övladına kamil şəkildə süd vermək istəyir. "Bu (göstəriş), (körpənin) süd-əmmə müddətini kamil etmək istəyən kəs üçündür"("Bəqərə" 233).

3. Ana süd verən zaman yeməyi və geydiyi paltar, həyat ehtiyaclarının ödənməsi – atanın boynundadır. "Onların ruzi və geyimi(ni) orta həddə (təmin etmək) körpənin sahibinin (atasının) öhdəsinədir" ("Bəqərə" 233).

4. Nə ananın övladına ziyan vurmağa haqqı vardır, nə də atanın. "Ata-ana (öz aralarındakı ixtilafa görə) öz övladlarına zərər və ziyan vurmamalıdırlar" (Həmin ayə).

Yəni ana əri ilə dava etdiyi üçün körpəyə süd verməkdən imtina etməməlidir. Həmçinin ata həyat yoldaşı ilə dava etdiyi üçün süd yeyən körpəni ondan ayırmamalıdır.

5. Əgər ata ölərsə, süd verən ananın ehtiyacları varisləri tərəfindən təmin edilməlidir. "Belə bir vəzifə həm də (atanın) varisin(in) öhdəsinədir (ki, əgər ata ölsə və miras həmin körpəyə qalsa, yuxarıda deyilən şərtlərlə ananın dolanışığı həmin maldan ödənilməlidir)" (Həmin ayə).

6. Ana öz cismi və ruhi vəziyyətindən asılı olaraq, ərinin də razılığı ilə körpəni süddən kəsə bilər. "İndi

əgər ata və ana aralarındakı razılıq və məsləhətləşmə əsasında (körpəni nəzərdə tutulan zamandan qabaq) süddən ayırmaq istəsələr, onlara günah yoxdur" (Həmin ayə).

7. Bəzən elə olur ki, ana övladına süd verməkdən imtina edir. Bu zaman çarə düşünmək lazımdır. "Və əgər övladlarınıza süd vermək üçün dayə (tutmaq) istəsəniz, verməli olduğunuz şeyi yaxşılıqla və gözəl bir şəkildə ödəyəcəyiniz təqdirdə sizə bir günah yoxdur" (Həmin ayə).

Əli əmir əl-mömin (ə) buyurur: "Körpənin istifadəsi üçün heç bir süd ana südü kimi mübarək deyildir".

Bakuvi yazır: "Hər kəs öz uşağından ötrü dayə tutanda gərək gözəl, ağıllı, iffət və ədəb sahibi bir qadını seçsin. Uşaq süd verən qadının südüylə böyüdüyünə görə, o qadının bütün xasiyyətləri o uşaqda ortaya çıxır. Uşağın tərbiyəsində əsas rol anaya məxsus olduğuna görə gərək analar ağıllı və ədəbli olsunlar. Müsəlman qadını dayə tutmaq caiz olduğu kimi, habelə əhli-kitab – yəhudi və xristian dayə tutmaq da caizdir" (Hacı Mirməhəmməd Kərim əl-Bakuvi. "Kəşfül-həqayiq" Bakuvi, Quran Təfsiri. Bakı. 2014. I cild. s. 135).

Südün körpənin həyatında rolu başqa millətlər tərəfindən də yüksək dəyərləndirilmişdir: "Pyotr köhnə adətlə tərbiyə edilirdi. Beş yaşınadək o, saysız-hesabsız qadınların – mamaçanın və süd anasının, dayənin və başqa xidmətçilərin nəzarəti altında idi.

Müasirlərdən biri yazır: "Şahzadə oğlanın və ya şahzadə qızların tərbiyəsi ilə məşğul olmaq üçün müxtəlifrütbəli adamların arvadları içərisində ən xeyirxah və təmiz, südü dadlı və sağlam qadını seçirdilər". Pyotru uzun müddət süddən kəsmədilər, buna görə də onun iki süd anası var idi" (N. Pavlenko. Birinci Pyotr. Bakı.1991. s. 6).

Pyotrun anasına münasibəti ilə bağlı aşağıdakı fakt da maraq doğurur: "Anasının vəfatı çarın xarakterinin iki cəhətini üzə çıxardı: adətlərə etinasızlıq və təklikdə dərd çəkmək... O, anasının dəfn mərasimində iştirak etməmişdi... Pyotr anasının qəbri üstünə gəlmiş və tək-tənha göz yaşları axıtmışdı" (N. Pavlenko. Birinci Pyotr. Bakı.1991. s. 21).

"Zirvədən zirvəyə" kitabını oxuduqca müxtəlif şəxslər tərəfindən dəfələrlə İkram müəllimin xüsusi səliqə-sahmanla iş görməsinin qeyd olunmasına rast gəlirsən. Misallar:

Ali Məhkəmənin hakimi Firudin Hüseynbəylinin xatırladıqları: "...cinayət işi müstəntiq tərəfindən o qədər incəliklə, peşəkarlıqla, eyni zamanda estetik cəhətdən zövqlə hazırlanmışdı ki, onu oxuyarkən dəfələrlə ürəyimdə həmin müstəntiqə "afərin", "afərin" deyirdim" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 596).

Bakı şəhər prokuroru Əliş Əliyev yazır: "İkramın işində son dərəcə səliqə-sahmanla yanaşı, çəldlik də

var. (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 418).

Xətai rayon prokuroru Aydın Mahmudovun əxz etdikləri: "Bütün səliqə-sahman mənə İkram müəllimdən qalıb" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 436).

Ali Məhkəmənin sədri Abdulla İbrahimovun dediklərindən:

"Ali Məhkəmənin sədri işlədiyim dövr idi... Günlərin birində köməkçim mənə bir neçə cildlik cinayət işini təqdim etdi. İlk baxışdan səliqə-sahman məni valeh etdi. Etiraf edim ki, minlərlə cinayət işi əlimdən keçib. Ancaq o dövrə qədər, açığını deyim ki, ondan sonra da mən elə bir mükəmməl hazırlanmış iş görməmişəm" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 245).

İkram müəllimdə bu səliqə-sahmanın səbəblərini isə Xalq yazıçısı Elçin bu cür açıqlayır:

"İki gün Kürdəmirdə İkramın anası Səmayə ananın qonağı olduq. Aradan bu qədər illər keçib, ancaq o iki gündə görüb tanış olduğum Səmayə ana ilə bağlı təəssürat o vaxtdan bəri mənim xatirəmdədir və bu sətirləri yazarkən də onun – bu sözü çox işlədirlər, amma mən də o sözsüz keçinə bilməyəcəyəm – nurlu siması mənim gözümün qabağındadır. Səmayə ana tək yaşayırdı və mən mat qalmışdım ki, o zərif qadın təkbaşına o evi, həyət-bacanı necə ideal bir səliqə-

sahmanda, necə bir təmizlik içində saxlamışdı! Və həmin iki gündə mən bütün aydınlığı ilə gördum ki, bu səliqə-sahman, sadəcə, onun təbiətinin ifadəsidir, bu təmizlik onun daxili aləmindən, onun xislətindən, mənəvi təmizliyindən axıb gəlir...” (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 722).

Daim yaradıcılıq, kitab, məqalə yazmaqla məşğul olmasam da, bu fəaliyyət həyatımın müəyyən hissəsini təşkil edib. Xatırlayıram ki, iki həmkarım (Ali Məhkəmənin hakimi Əli Rüstəmov (2014), beynəlxalq hüquq üzrə hüquq elmləri doktoru Etibar Əliyev (2012) barədə xatirə kitablarındakı yazılarımda və 2018-ci ildə nəşr etdirdiyim “Çində 15 gün (dünya məhkəmə mədəniyyətinə töhfə vermək arzusu)“ kitabımda anamın həyatı və nəsihətləri ilə bağlı bir neçə sətir yazmış, sonradan həmin kitabları əlimə götürəndə yazıların məhz həmin hissəsini ilkin olaraq oxumuş, məmnun olmuşam. 2017-ci ilin sentyabr ayının 12-də ilk dəfə Bakıdan Pekinə uçanda “illüminatordan qaranlıq



səmaya bir qədər tamaşa etdikdən sonra istər-istəməz Çin barədə düşüncələrin ağuşuna düşdüm. Çin haqqında ilk dəfə nə vaxt və nəyi eşitdiyimi xatırlamağa çalışdım. Bu cəhdim məni qayğısız uşaqlıq illərinə apardı. Xoşbəxt uşaqlıq çağlarından qulaqlarımda anamın səsiylə "çini" sözü səsləndi.

Analar körpələrinə hər şeyin ən yaxşısını arzulayır, laylalarında bu arzularını ifadə edirlər. Bəlkə də, anam mənə layla deyəndə tez böyüməyimi, "çini" boşqablarda yemək yeməyimi də arzulayıb. Belə qənaətə gəldim ki, mən ilk olaraq "Çin" sözünü deyil, "çini" sözünü eşitmişəm. Həqiqət odur ki, anamın "çini" qabları, onların parlaq rəngli naxışları, evimizin rəflərində xüsusi səliqə ilə düzülüşü, qonaq otağının divarından asılmış xalça və pərdələrin üzərindəki rəngli tikmələrlə birlikdə bəzəyini təşkil edirdi. Anam "çini" qabları vaxtaşırı, Novruz bayramı qabağı isə hökmən rəfdən düşürər, yuyub parıldadar yenə də eyni səliqə ilə rəflərə düzərdi. Açığını deyim ki, "çini" nimçələr" (talışlar boşqaba "nimçə" deyirlər) evimizdə boşqabdan daha çox bəzək funksiyasını yerinə yetirirdi" (Vəfaddin İbayev. Çində 15 gün (dünya məhkəmə mədəniyyətinə töhfə vermək arzusu). Bakı. 2018. s. 16).

O xatirələr mənim üçün həmişə doğma, ülvi, saf və müqəddəsdir. Bunun səbəbi mən anamın istək və arzularının, nəsihətlərinin, söylədiklərinin, onun

südü ilə qanıma, qəlbimə, beynimə hopub orada özünə əbədi yer tapmasındadır. Bütün analara məhəbbətimi bildirib, onların qarşısında baş əymək istəyirəm. Ana, vətən və xalq bütövdür, ayrılmazdır. Ananı sevmək vətəni sevmək, torpağı sevmək, xalqı sevmək deməkdir. Əli Rüstəmovun 65 illiyinə həsr olunmuş xatirə kitabında yazmışdım: "...Günəşin üfüqdən doğduğu vaxt sular üzərinə saldığı ilk cığıra baxanda insanın qəlbində xoş arzular baş qaldırır. Son illərdə gündən-günə gözəlləşən Bakıya, rayonlarımıza, yollarımıza, parklarımıza baxanda qəlbimizdə xoş duyğular baş qaldırdığı kimi... Xoş hisslər insanı yaşamağa, yaratmağa səsləyir. İnanırsan ki, bu işıqlı yol xalqımızı, Azərbaycanımızı işıqlı gələcəyə aparacaq.

...Ədalət nədir? Bəşər övladı yaranandan ədalətə müxtəlif anlayışlar verib, onu izah etməyə çalışıb. Ancaq yenə də ona tərif verməkdə, məzmununu açmaqda çətinlik çəkirik. Ədalət həm də hadisədən hadisəyə, zamandan zamana müxtəlif məna yükü daşıdığına, ədalətin müəyyən edilməsində subyektiv daxili yanaşma amili mövcud olduğuna görə onu tapmaq üçün hər dəfə düşünməli, hadisəni qiymətləndirməli olursan. Mən ədalətə haqqın, düzlüyün ölçü vahidi kimi baxıram. Yəqin ki, ədalətin müəyyən edilməsində onu tapmaq istəyənin dünyagörüşü, mayasının nədən olması, xəmirinin necə yoğrulması,

daxili mənəviyyatı da mühüm rol oynayır. Rəhmətlik anam qonşudan bir çörək, iki yumurta borc götürəndə başqa vaxt həmin qonşuya beş dəfə artığını etməsinə baxmayaraq, borcu qaytarmayınca rahatlıq tapmırdı. "Bala, haqq-hesab düz olmalıdır", – deyirdi. Əmanət kimi saxlanca verilmiş əşyaya nə qədər ehtiyacı olsa da, ona toxunmazdı. "Başqasının haqqıdır", – deyirdi" (Ədalət keşiyində (Əli Rüstəmov – 65). Bakı. 2014. s. 84-86).

Anaların zəhmətini, heç olmasa, bir dəfə ana olanlar, ana olmasa da, ata kimi övladının qayğısına qalıb, onu böyüdüb boya başa çatdıranlar yəqin ki, bilir və ya ən azından bilməlidirlər. Mənim düşüncəmdə dünyada hər bir borcu ödəmək mümkündür, yalnız birindən başqa. Ödənilməsi mümkün olmayan borc – ana borcudur. Ana yolunda, Vətən, torpaq yolunda, məslək, namus yolunda həyatlarını qurban verib şəhid olanlar bu zirvəyə ən çox yaxınlaşmış insanlar olsalar belə, bəlkə, onlar da ana borcunu tam ödəyə bilmirlər. Maraqlısı bundadır ki, analar övladlarına verdiklərini heç də borc kimi qiymətləndirmirlər. Onlar həyatlarını övladlarına borc üçün deyil, övladlarının vətən övladı, xalq övladı, yaşadığı torpağın müdafiəçisi olmaq üçün sərf edir, bunu görəndə arzularına nəsib olduqlarını düşünürlər.

Bir daha "Kitabi-Dədə Qorqud"a müraciət edək. Dastanın "Salur Qazanın evinin yağmalandığı boyı

bəyan edər" boyunda Uruzun adından "Ana haqqı Tanrı haqqı" kimi dəyərləndirilir (Kitabi-Dədə Qorqud. Bakı. 1988. s. 47).

Var-dövləti talan edilmiş, mal-qarası, ilxıları, qoyun sürüləri, dəvə karvanları əlindən çıxmış, ailəsinin bütün üzvləri yesir edilmiş oğuz bəyinin namərd düşməndən yalnız bir təmənnası var: artıq qarımış anasını ona qaytarsınlar ki, savaşmadan qayıdıb getsin; təki anası at ayaqları altında tapdanmasın:

"Qarıcıq anam gətürüb durursan, mərə kafər,
anamı vergil mana
Savaşmadın, uruşmadın qayıdayım-geri dönəyim,
gedəyim, bəllü bilgil, – dedi".

*Kitabi-Dədə Qorqud.*
*Bakı, 1988. s. 48.*

Oğuz oğlu məğlub, peşman vəziyyətdə olarkən yalnız yaşlı ananın xilasını düşünüb, hər şeyin ananın xilasına qurban verilməsi bir daha təsdiq edir ki, ulularımızın mənəviyyatında "ana haqqı, Tanrı haqqıdır!".

Ananın və ana südünün müqəddəsliyi babalarımızın, dədələrimizin bizə öyüdü, əmanətidir.

İkram müəllim anası ilə bağlı xatirələrində yazır: "...Anamın müalicəsi ilə bağlı həkim ona mineral "İstisu" içməyi tövsiyə etmişdi. Rayonda isə onu tapmaq çətin idi. Dedilər ki, dəmiryol fəhlələrinə xidmət edən yeməkxanada suyu tapmaq mümkündür. Get-

dim yeməkxanaya müdirin yanına. O həm də mənim yaxın qohumum idi. Kabinetinin bir hissəsinə xeyli miqdarda "İstisu" butulkaları yığılmışdı. Ondan 10 şüşə su istədim. Vermədi. Bu əhvalatın üstündən 20 il keçmişdi. Rayon prokuroru işləyirdim. Həmin adam yanıma gəldi. Yenə də dəmiryolu yeməkxanasının müdiri vəzifəsində çalışırdı. Barəsində Nəqliyyat Prokurorluğu yoxlama aparırdı. Təlaş içərisində idi. Köməklik etməyimi xahiş edirdi. Respublikanın nəqliyyat prokuroru Yelmar Qarayev idi. Müavini Mayıl Abbasova zəng vurdum. Xahiş etdim həmyerlimə və qohumuma mümkün olan köməkliyi etsin. Mayıl müəllim mənə cavab verdi ki, getsin işinə. Narahat olmasın. Bir daha həmin yeməkxanada yoxlama aparmarıq. O, çox sevinclə getdi. Bir daha onu görmədim. Bu əhvalatı anama danışdım. Çox kinli olan anam məni məzəmmət etdi. Dedi ki, belə adamlara yaxşılıq etməyə dəyməz. Gərək onu qovlayardın" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 109).

Mən özüm də mənə pislik edənin xahişini həmişə yerinə yetirmişəm. Hətta şahidi olmuşam ki, bundan sonra da həmin adam yenə də mənə pislik edir. Ona görə düşüncədə, pislik edənə yaxşılıq etməyin tərəfdarı olmasam da, məqamında yenə də xahişlərini yerinə yetirirəm.

Sağlam düşüncədə isə Səmayə ananın mövqeyinə haqq qazandırıram. Bu bir növ cinayət törətmiş şəxsin

cəzalandırılmasına bənzəyir. Hər kəs əməlinə görə cəzasını almalıdır. Mənim Ayna anam da bu cür düşünürdü, Konfutsi kimi. Bir gün tələbə müəllimindən soruşur: "Düzdür ki, pisliyə yaxşılıqla cavab vermək lazımdır?" Müəllimi cavab verir: "Pisliyə necə yaxşılıqla cavab vermək olar? Pisliyə ədalətlə, yaxşılığa isə yaxşılıqla cavab vermək lazımdır".



Ayna anam

İkram müəllimin "Qəribə əhvalatlar silsiləsindən" xatirələrindən biri mənim üçün anamla bağlı doğma bir mövzudur. İkram müəllim yazır: "...Uşaqlıq dövrümə düşən illərdə doğumlar əksər hallarda tibb müəssisələrindən kənarda, evlərdə mamaçalar tərəfindən həyata keçirilirdi. Anamın da övladları ev şəraitində dünyaya gəlmişdi.

Şəhər məhkəməsinin sədri işləyərkən, Bakı Səhiyyə İdarəsinə rəhbərlik edən xanım həkim zəng edərək məni keçirəcəkləri tədbirə dəvət etdi. Tədbirin keçirilməsi son vaxtlarda xəstəxanalardan kənar doğum hallarının artması ilə əlaqədar narahatçılıqdan irəli gəlirdi. Zarafatla ona cavabım belə oldu: "Xanım,

mən bu mövzu ətrafında necə çıxış edə bilərəm ki, biz üç qardaşıq, üçümüz də ev şəraitində anadan olmuşuq". Sonra əlavə olaraq ona izah etdim ki, bu vəziyyətin köklərini səhiyyədə olan mövcud mühitdə axtarmaq lazımdır. "Məgər sizə agah deyil ki, xəstəxanalarda hökm sürən qeyri-rəsmi ödənişləri verə bilməmək ucbatından belə vəziyyət yaranıb? Bunu uzun-uzadı müzakirə etməyə dəyməz. Yaxşı olar ki, məsləhətə qulaq asın, belə müzakirələri öz daxilinizdə aparın". Qeyd etdiklərim əhalinin yaralı yeri olmaqdadır" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 409).

Respublikanın kəndlərində XX əsrin 80-ci illərinə kimi doğulmuş uşaqların çoxu yəqin ki, ev şəraitində dünyaya gəlib. O cümlədən, bizim evdə dünyaya gələn beş qardaş və bir bacı kimi. Ancaq mən evimizin uşaqlarının doğumu ilə bağlı deyil, anamın yuxusuz gecələrindən söhbət açmaq istəyirəm. Anam Böyük Vətən Müharibəsindən əvvəl Lənkəran tibb məktəbini bitirmiş və tibb bacısı ixtisasına yiyələnmişdi. Xatırlayıram ki, müharibə vaxtı ona verilmiş qırmızı hərbi biletini sandığında saxlayırdı. O vaxt tibb bacılarını qeydiyyata alır, zəruri hallarda müharibə ehtiyacları üçün cəlb edilmələri nəzərdə tutulurdu. Lakin buna ehtiyac olmamış, anamın hərbi bileti olsa da, müharibədə iştirak etməmiş, arxa cəbhədə fəaliyyət göstərmişdi. Mən anadan olandan, hüquq fakültəsini

bitirənə kimi anam kənd tibb məntəqəsində tibb bacısı kimi fəaliyyət göstərirdi. Müharibə illərindən 80-ci illərə kimi kənddə cərrahi əməliyyatlar istisna olmaqla, o vaxt tibbin demək olar ki, bütün sahələri üzrə fəaliyyəti yerinə yetirirdi. Yəni xəstələri müayinə edir, iynələr vurur, peyvənd aparır, yaraları sarıyır, hamilə qadınlara məsləhətlər verir, ev şəraitində uşaqları "tutur" (anam bu ifadəni işlədirdi), hətta müraciət edənlərin kəlbətinlə ağrıyan dişlərini də çıxarırdı.

Anam təkcə bizim kəndin deyil, qonşu kəndlərin də hamilə qadınlarının dünyaya uşaq gətirmələrinə yardımçı olardı. Bəzən həftənin hər günü anamın axrasınca evimizə gəlib onu yardım üçün apardılar. Xüsusən, gecə yatandan sonra anamı çağıran səsləri unuda bilmirəm. Həmin səslərdə yalvarışlı, xoşqılıqlı, mehriban tonlar öz əksini tapırdı: "Ayna, sənə qurban, arvad ölür, özünü tez çatdır...", yaxud "Ayna bibi, yenə mənəm səni narahat edən, arvadın ağrıları başlayıb..." və s. Anam heç bir etiraz etmədən şirin yuxusunu yarımçıq qoyub geyinər, əvvəlcədən hazır qoyduğu balaca çamadanını götürüb hava şəraitindən asılı olmayaraq gecə qaranlığında gələnlərə qoşulub yola düşərdi. Həmin vaxtlar kəndlərdə maşın qıtlığı olduğuna görə bu gedişlər piyada, bəzən iki-üç kilometr yolu qət etməklə nəticələnərdi. Anamın geri qayıdışları isə bəzən həmin gecə, bəzən isə bir sutka sonraya çəkirdi. Hamının işinə yarıdığına görə anamın

bizim və ətraf kəndlərdə böyük nüfuzu vardı. Onun sözünü heç kəs yerə salmağa cürət etməzdi. Hamı bilirdi ki, bir gün nə vaxtsa anamı axtarmalı olacaqdır. Məni tanımayanlar bəzən kimin oğlu olduğumu soruşub "Ayna" cavabını alanda – qadınlar "Onun başına dönüm. Bizə çox yaxşılıq edib", kişilər isə "Aynanın bu kənddə zəhməti çoxdur" kimi ifadələr işlədərdilər. Burada yenə Səmayə ananın sözləri yadıma düşür: "Ümumiyyətlə, çox ciddi arvad olmuşam... Arvad olub arvadlara, cavan olub cavanlara qoşulmamışam. Kişi kimi qadın olmuşam" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 103).

Anam da çox ciddi, olduqca təmizliyi sevən, həm də "kişi kimi qadın idi".

Kitabları oxuyanda İkram müəllimin "ana"ya münasibətində bir incəliyi də hiss etdim. İkram müəllim "ana"ya tək öz anası timsalında baxmır. Onun üçün, ümumiyyətlə, "ana" müqəddəsliyi var. O, analığı müqəddəs sayır. Təbii ki, bu hiss və duyğuların onda yetişməsində Səmayə ananın zəhməti əvəzsizdir. O, "ana"nı Səmayə ana timsalında görüb, ana deyəndə ilk olaraq gözləri önünə Səmayə ana gəlib, onu düşünüb. Sonradan isə bu məhəbbət bütün analar üçün ümumiləşib "ana" obrazına çevrilib.

Bu yerdə Ayna anama "anam" deyə müraciət edən, anamın isə "oğlum" çağırdığı Nüsrət Kəsəmənlinin "Analar" şeirini xatırlamaya bilmirəm:

## Analar

Dünyanın bir karvan köçündən gəlib,
Dözümün bitməyən gücündən gəlib,
Yoxsa nağılların  içindən gəlib, –
Özü nağıllara dönən analar.

Gül dedik, ovcunda çiçək bitirdi,
Sevinci paylayıb, qəmi itirdi,
Yuxusuz gözlərə yuxu gətirdi,
Laylalar üstündə dinən analar.

Saçına qar yağdı,
                    yaz verdi bizə,
Dünyanı görməyə göz verdi bizə,
Özünə bənzəyən qız verdi bizə,
Ömrünü min yerə bölən analar...

Özü şərik oldu ürək sirrinə,
Gün oldu işlədi kişi yerinə,
Bizimçün od aldı kipriklərinə,
Özü soyuqlarda donan analar.

Oğulu sevinib,
                    qızı güləndə,
Sanki  günəş gülür,
                    üzü güləndə.



Övladın qaşında düyün görəndə,
Buludtək qaralıb, dolan analar.

Saçını zamanın əlləri hörür,
Bu günlə yaşayıb sabahı görür,
Dünyaya təzə-tər övladlar verir,
Üzü çiçək kimi solan analar...

Vətənin özünə "Ana" dedilər,
Oduna közünə "Ana" dedilər,
Bir gün yad qızına "Ana"
dedilər,
Nəvə muştuluğu alan anlar!

Ömrümü-günümü almışam sizdən,
Damlayam, qopmuşam coşqun dənizdən,
"Oğlum" desəniz də, deməsəniz də
Mənim anamsınız,
anam, analar!..

Misallara müraciət edək:

"Addım" qəzetinin 1997-ci ilin aprel ayındakı sayında kişilər və qadınlar haqqında sualları cavablandırarkən İkram müəllim deyirdi: "Qadınlara münasibətim həddən artıq müsbətdir. 1-ci növbədə qadın dedikdə, ANA düşünürük. Gənc qızlarımızı gələcək ana kimi görməliyik. Təsadüfi deyil ki, Vətən-torpaq

dedikdə, biz onun qarşısına "ana" sözü əlavə edirik" (İkram Kərimov. Zirvədən zirvəyə… Üçüncü kitab. Bakı. 2020. s. 247).

İkinci kitabda Ağababa Rzayevin "Dərbənddən başlanan əzablı yol" kitabından bir hissə (118-128-ci səhifələr) verilmişdir. Həmin hissədə daha çox tanınmış şərqşünas Mirzə Kazım bəy və azadlıq mübarizi Şamildən söhbət açılır. Həmin parçadan Kazım bəyin xahişi ilə Şamilin öz həyatından nəql etdiyi kiçik bir epizoda toxunmaq istərdim: "Mən valideynlərimin yeganə oğlu olmuşam... Sonra mən çox ağır xəstəliyə tutulmuşam. Hamı məndən əlini üzüb... anamdan başqa. O yazıq ana mənim sağlamlığım üçün nələri etməyib, nələrə əl atmayıb! Qocaların, görüb-götürmüşlərin məsləhəti ilə məni kömürlü suya salıblar, müqəddəs sularda çimdiriblər, tüstüyə tutublar, yaşadığımız evi dəyişiblər... anamın çəkdiyi əzablar heç bir nəticə verməyib" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 564).

İkram müəllim də həyat yoldaşı Arifə xanımla oxşar ağır günlər yaşamış, azyaşlı oğulları Namiqin sağalmaz xəstəliyi ilə bağlı çox yerləri gəzmiş, çox qapıları döymüş, çox əzablı günləri bölüşmüşlər. Növbəti dəfə Kişinyovdan 130 kilometr məsafədə yerləşən Beltsıya şəhərində "Babka" adlandırılan ara həkiminin uşağın xəstəliyinin onluq olmaması barədə məlumatından sonrakı vəziyyəti İkram müəllim belə

təsvir edir: "Bizim, xüsusən ananın nə vəziyyətə düşməsini təsəvvür edin. Ananın hıçqırığı indi də gözlərimin önündə, qulağımdadır. Bu sətirlər necə yazılır, yazan bilir..."

**Həyatın çətin anlarıdır. Görünür hər bir həyatın öz acılı və şirinli günləri var. Mən bir məsələyə diqqəti yönəltmək istərdim. İkram müəllim yuxarıda qeyd olunan sətirləri yazanda "həyat yoldaşımın" və ya "Arifənin hıçqırığı" ifadəsini işlədə bilərdi, lakin o, "ananın hıçqırığı" ifadəsini işlədib. Çünki bu hıçqırıq İkram müəllim üçün nə "Arifə"nin idi, nə də "həyat yoldaşı"nın, bu, ananın hıçqırığı idi. İkram müəllim bildiyi, duyduğu, hiss etdiyi ana hıçqırığı. Oğullar üçün məhz analar bu cür hıçqıra bilərdi.**

Səmayə ananın xatirələrindən:

"Dərsdən buraxılanda, yay tətili zamanı onu həmişə aparıb fəhləliyə qoymuşam... Demişəm, bala, həmişə belə zəhmətlə çörək ye... onu Kürdəmir prokurorluğuna aparmışam, demişəm qoy baxıb öyrənsin..." (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 105).

Həmin sətirlərdə "fəhləliyə qoymuşam", "zəhmətlə çörək ye" ifadələri bizim uşaqlığımızın həyat tərzi hissəsi idi. Əvvəla, Lənkəran rayonunun Vilvan kəndindəki 0,25 ha-dan ibarət olan həyətyanı torpaq sahəsini valideynlərimiz ilə birlikdə şumlayar, yazqabağı pomidor, xiyar, badımcan, lobya, kələm şi-

tillərini yetişdirib, yazda sahəyə köçürər və payıza kimi onlara qulluq edib məhsullarını toplayar, bir hissəsini kənddə tərəvəz yığan tədarükçülərə, bir hissəsini də Rusiyaya tərəvəz aparan həmkəndlilərimizə satıb qış üçün zəruri olan dolanışığımızı təmin edərdik. 60–80-ci illərdə həyətyanı sahədən hər il 10–15 min manat pul qazanmaq, həm də qış üçün bəzi azuqələri toplamaq olurdu. Yay tətilləri vaxtı da sovxozun tərəvəzçilik briqadasında tərəvəz yeşiklərini maşınlara yığıb şəhərə aparar, tərəvəz vaqonlarına yükləyərdik. Sonra həmin vaqonlar Rusiyanın Moskva, Leninqrad və digər şəhərlərinə yola salınardı. O vaxtlar Lənkəran rayonu Rusiyanı tərəvəzlə təmin edən əsas bölgələrdən idi. "Azərbaycanın iri addımlarla irəliləməsində" bizim də zəhmət payımız var idi.

Gördüyümüz işlər uşaqların yaşına uyğun olmasa da, bəlkə də, sağlamlığımız üçün zərərli olsa da, həyatımızda müsbət rol oynamışdır.

Uşaqlıqdan zəhmətə alışmaq olduqca faydalıdır. Bu yerdə qardaşım (Allah rəhmət etsin!) Kamalın Hadi Rəcəbli (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 542-543**)** haqqında yazdığı kitabından kiçik bir yazısını xatırladım: "Anamın sübh tezdən – hələ dan üzü ağarmamışdan bizi oyadıb böyürtkən yığmağa apardığı günlərin bal dadı var bu yolda. Qoy səhər şehinə ayaqlarım islansın, "qıy-

mazlıqdan" geyinmədiyim təzə rezin qaloşlarım yada düşsün. Böyürtkən tikanları köynəyimdən keçib kürəyimə batsın və mənə xatırlatsın ki, ana nəfəsi duyulan yerdə həyat şirin bir nağıla dönür" (Kamal Tural (Rəhmanov). Düşüncələr işığında. Bakı. 2011. s. 8).

Bəli, ana nəfəsi duyulan yer şirin nağıllı məkana çevrilir, orada özünü rahat, təhlükəsiz, qayğısız hiss edirsən, oradan bal qoxusu, isti çörək ətri, ləvəngi, təndirdə bişmiş toyuq, balıq dadı gəlir, ən əsası isə ana nəvazişinin unudulmaz ləzzətini duyursan. Anaları həyatda olanlar, onları sevin, onlara "itaətdə rahib" olun! Bu sizin mənəvi zənginliyinizdir.

"Qurani-Kərim"in "Loğman"surəsinin 14-cü ayəsində buyurulur: "Biz insana ata-anasına (yaxşılıq etməyi, valideynlərinə yaxşı baxmağı, onlarla gözəl davranmağı tövsiyə etdik. Anası onu (bətnində) çox zəif bir halda daşımışdı. Uşağın süddən kəsilməsi isə iki il ərzində olur. Biz insana buyurduq: "Mənə və ata-anana şükür et. Axır dönüş mənədir!"

Həmin ayədə buyurulanları gözü ilə görüb, qulaqları ilə dinləmiş Xalq yazıçısı Elçin ana və oğul arasında sevgini belə təsvir edir: "Səmayə ana nə qədər zərif bir varlıq idisə, ondan gələn və elə bil səni dirçəldən, sənin daxilinə dolan müsbət enerji də bir o qədər güclü idi. Onun İkrama, İkramın da ona münasibəti də eləcə xatirimdədir; elə bil İkram onunla, o da İkramla nəfəs alırdı. Sonralar onun

İkramla bağlı müsahibəsini oxudum və orada dediyi bu sözlər onların bir-birinə bağlılığını çox dəqiq göstərir. Səmayə ana deyir: "Gecə-gündüz Allahdan arzum odur ki, onu pənahında saxlasın". "Onu", yəni İkramı. Ancaq Səmayə anada elə bir səmimi genişürəklilik vardı ki, bu ananın Allahdan arzusu, əslində, yalnız İkramla yox, tanıdığı və tanımadığı bütün övladlarla bağlı idi. Səmayə ana böyük hərflə yazılası Anaların təcəssümü idi".

Yazıçı daha sonra qeyd edir:

"1996-cı ildə UNESCO-da Məhəmməd Füzulinin 500 illik yubileyini keçirirdik və İkram Kərimov da nümayəndə heyətinin üzvü idi. Həmin səfər zamanı uzaq Parisdə də söhbətimiz əsnasında İkramın hansı bir doğmalıqla, hansı bir məhəbbətlə tez-tez Səmayə ananı xatırlaması mənim yaxşı yadımdadır".

İllər bir-birini əvəz edir, Səmayə ana isə xatirələrdə yaşamaqdadır. (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 722).

Peyğmbərin hədislərinin birində deyilir ki, bir nəfər Kəbə ziyarəti zamanı anasını çiyinlərində aparmış və sonradan Peyğəmbərdən soruşmuşdur: "Bununla mən öz öhdəliyimi onun qarşısında yerinə yetirdimmi?" Peyğəmbər ona cavab verir: "Yox, onun heç bir nəfəsi qədər də yox!" Yəni onun hamilə və doğuş vaxtı bir nəfəsi qədər də borcunu ödəyə bilməmişdir (Kutb) (Значение и смысл Корана. 4-й

том. Сура 25-41. Сура Аль-Фуркан до сура Фуссилат. Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. с. 1961).

"Əl-Əhqaf" surəsinin 15-ci ayəsində buyurulur: "Biz insana ata-anasına yaxşılıq etməyi (valideynləri ilə gözəl davranmağı, onlara yaxşı baxmağı) tövsiyə etdik. Çünki anası onu (doqquz ay bətnində) zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun (ana bətnində) daşınma və (süddən) kəsilmə müddəti otuz aydır. Nəhayət, (insan) kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: "Ey Rəbbim! Mənə mənim özümə və ata-anama əta etdiyin nemətə şükür etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməlisaleh et. Mən (günahlardan) Sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam! (Özümü cani-dildən Allaha təslim edənlərdənəm!)".

Uşaqların həm ata, həm də anaya qulaq asmalı olmalarına baxmayaraq, ananın rolu böyük və mühümdür, çünki uşaqlara görə çoxlu əzab-əziyyəti çəkmək ona nəsib olur.

Səmayə ananın kitabda verilmiş xatirələrinə qayıdaq: "Uşağıın əsas tərbiyəsi anadan asılıdır. Ata səhər gedir işə, axşam gəlir. Gəlib görür ki, uşaq yatıb, deyir ki, nə ağıllıdır. Amma ana hər şeyi, çatışmayan cəhətlərini bilir. Onu ana açmalıdır, anadan asılıdır." (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 103).

Səmayə ananın fikirləri Peyğəmbərimizin hədislərində də öz təsdiqini tapıb. Kimsə bir dəfə Peyğəmbərdən soruşur: "Kim hamıdan əvvəl məndən kömək gözləməyə haqlıdır?" Peyğəmbər ona cavab verir: "Sənin anan". Bundan sonra o soruşur: "Bəs daha kim?" Peyğəmbər yenə cavab verir: "Sənin anan". Müraciət edən yenidən soruşur: "Bəs daha kim?". Peyğəmbər cavab verir: "Sənin atan" (Значение и смысл Корана. 5-й том. Сура 42-114. Сура Ашшура до сура Ан-нас. Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. c.2405).

Heydər Əliyevin bu fikirlərlə şərikliyini 1 sentyabr 2001-ci ildə yeni dərs ilinin başlanması münasibəti ilə söylədikləri təsdiq edir: "Ana həyatda hər bir şeyin başlanğıcıdır. Ana Vətəni, ölkəni qorumaq üçün əsgər böyüdür, igidlər, qəhrəmanlar böyüdür. Ana cəmiyyətimizə zəkalı, istedadlı insanlar böyüdür, bəxş edir. Ana ailənin dayağıdır. Hər bir ailənin səadəti, əmin-amanlığı, birinci növbədə, ananın rolundan və onun fəaliyyətindən çox asılıdır. Hər birimiz anaya borcluyuq və hər bir qadın da ana olmaqla xoşbəxt olur. İnsanın həyatında vəziyyət cürbəcür ola bilər – çətinliklər də, məhdudiyyətlər də ola bilər. Amma hesab edirəm, analığa nail olan hər bir qadın dünyada ən xoşbəxt insandır. Bizim də borcumuz ananın hörmətini qaldırmaqdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. s. 41).

Heydər Əliyevin yuxarıda qeyd olunan "analığa nail olan hər bir qadın dünyada ən xoşbəxt insandır" fikri H. Cavidin ana olmağa hazırlaşan qadınlara Peyğəmbərin dili ilə verdiyi dəyərlə həmahənglik təşkil edir:

"Peyğəmbər:
Övlad eşqilə çırpınan
Bir qadın könlü, şübhəsiz,
Sayğısız qızlarınkından
Daha bakir, həm ləkəsiz..."

*Hüseyn Cavid.*
*Mənim tanrım gözəllikdir, sevgidir...*
*Bakı. 2016. s. 35*

Xalq şairi Süleyman Rüstəm (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 715) də ananın zəhməti ilə həyata gələn körpənin gəlişini ən gözəl və müqəddəs bir hadisə kimi qiymətləndirir:

"Bizim gözəl dünyamıza bir körpənin gəlişini
Açıq deyim,
Çox sevdiyim
İlk baharın gəlişinə dəyişmərəm!".

*Süleyman Rüstəm.*
*Əsərləri 6 cilddə. Birinci cild.*
*Bakı. 1983. s. 21*

Əli Kərimin şeirlərində ana təbii və sadə ifadələrlə müqəddəslik səviyyəsinə yüksəlir, ana torpaq, vətənlə eyniləşir:

“Demirəm göy kimi ucadır adın,
Yox, yox, alçalmasın söhbətin, sözün.
Sən ki yaranışdan oxşar olmadın,
Ancaq özün kimi böyüksən özün.
Əyilib alnından öpəndə hərdən
Könül dodağıma bir də öp, – deyir.
Ağarmış saçına əl vuranda mən
Əlim Şah dağının başına dəyir.
Mən səni bağrıma basanda bərk-bərk,
Gör nələr düşünüb, nələr duyuram!
Elə bil Göyçaydan Kamçatkayadək.
Vətən torpağını qucaqlayıram”.

*Əli Kərim. Seçilmiş əsərləri.*
*İki cilddə. Birinci cild. Şeirlər və poemalar.*
*Bakı. 1991. s. 24.*

Bu kiçik şeir parçasında adamı cəlb edən fikir odur ki, şair Vətəni anaya oxşadıb ona sevgisini ifadə etmir, ananı qucaqlayanda Vətəni hiss edir, Vətən anadan da irəli keçir, ana Vətənin bir parçasına dönür. İdeyanın məğzi ondadır ki, biz Vətəni qoruyuruqsa, Vətən uğrunda mübarizə aparırıqsa, Vətən uğrunda həlak oluruqsa, deməli, ananı qoruyur, onun

uğrunda mübarizə aparır, ana yolunda həlak oluruq.

Heydər Əliyev Vətənlə ananı eyniləşdirərək deyir:

“Amma ən əziz amil odur ki, hər bir insan dünyada həyatına görə, bütün varlığına görə anaya borcludur. “Ana” sözü müqəddəsdir. Təsadüfi deyil ki, biz Vətənə də “Ana Vətən” deyirik, torpağa da “Ana torpaq” deyirik. Hər bir insan üçün Vətəndən əziz heç bir şey yoxdur. Hər bir insan üçün onun doğma torpağından qiymətli heç bir şey yoxdur. Bu anlayışlar ana anlayışı ilə bərabərdir və biz Vətənə “Ana Vətən” deyəndə Vətənin nə qədər əziz, nə qədər qiymətli, müqəddəs olduğunu bir daha qeyd edirik. Anaya hörmət, hər bir insanın həyatda ana qarşısında borcunu yerinə yetirməsi onun ali vəzifəsi olmalıdır” (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab. s. 40-41).

Görkəmli ədib Cəlil Məmmədquluzadə də özünün kimliyini müəyyən etmək üçün ilk olaraq anasının kim olmasını müəyyən etmək qərarına gəlir.

Mirzə Cəlil kimdir? Bu sualı ədibin özü özünə verib:

“Bəzi vaxt otururam və papağımı qabağıma qoyub fikrə gedirəm, xəyalata cumuram, özümdən soruşuram ki:

– Mənim anam kimdir?”.

Burdan ədib özünü tanımaq üçün ilk növbədə anasını, yəni əslini, kökünü axtarır.

...Ana nədir? Ana yaradıcıdır, ana kökdür, əsasdır, bünövrədir. Bina əsasından, bünövrəsindən dağılsa, ona əlac olmadığı kimi, insan da öz kökünü, soyunu, varlığını itirsə, onun insanlığını, özlüyünü özünə qaytarmaq mümkün deyil, fikrinə gəlir.

“Öz-özümə də cavab verirəm ki:
Mənim anam rəhmətlik Zöhrəbanu bacı idi.
Dilim nə dildir?
Azərbaycan dilidir.
Yəni Vətənim haradır?
Azərbaycan vilayətidir...”.

Deməк, ədib əslini tapdı, dilini də, Vətənini də. İndi bəs bu Vətən, bu xalq və bu dil nə haldadır?

Bax mətləb bunun üstündədir. Və ədibin yaradıcılığı da məhz bu üç amilin üzərində qurulur: Vətən, xalq və onun dili!

Ədibin “Anamın kitabı” əsərində ana ideya, məslək, Vətən timsalı kimi ümumiləşdirilir, bütün kainata eyni bərabərdə işıq saçan günəşlə eyniləşdirilir, övladlar isə günəşdən ayrılan planetlər kimi qiymətləndirilir. Azərbaycanlı ailəsinin faciəsi ananın övladları arasında birliyin olmamasında təzahür edir. Ədib belə qənaətə gəlir ki, ailənin yaşamını davam etdirməsi, xoşbəxtliyi üçün övladları analarının ətrafında toplanmalıdır. Əsərin finalında Gülbahar anasının kitabını əlinə götürür, oradan atasının ana

dilində yazdığı vəsiyyətini oxuyur: "Yer, göy, aylar və ulduzlar göylərdə seyr edib gəzə-gəzə yenə əvvəl-axır günün başına dolanırlar, çünki bunlar hamısı qədim əzəldə gündən qopub ayrılmış parçalardır.

Mən etiqad edirəm ki, mənim balalarım dünyada hər yanı gəzib dolansalar, yenə əvvəl-axır anaları Zəhranın ətrafında gərək dolanalar; çünki ay və ulduz şəmsin parçaları olan kimi, bunlar da analarının ayı və ulduzlarıdır. Vay o kəsin halına ki təbiətin haman qanununu pozmaq istəyə".

...Atanın övladlarına bu vəsiyyətində ədib bir nəfərin deyil, bir ailənin deyil, bir böyük Vətənin adından danışır. Burada Mirzə Cəlil öz şəxsi dərdinin çərçivəsindən çölə çıxır. Vətənlə birləşir, övladlarını yaradan ana torpaqla eyniləşir.

...Ana ona görə böyükdür ki, özünü deyil, övladlarını düşünür; öz rahatlığını və xoşbəxtliyini balalarının yolunda qurban verir. Vətən oğlu da o zaman böyüyür ki, özündən əvvəl ananı – Vətəni, öz xeyrindən çox ana Vətənin xeyrini düşünür. Öz gələcəyini yalnız və yalnız ana Vətənin gələcəyində görür. Bu nöqtədə Vətən oğlu ana Vətənlə eyniləşir və belə oğullar ana Vətən adından danışmaq haqqı qazanırlar. "Anamın kitabı"da böyük ədib bu haqqı qazanmış, Vətən adından, Vətən oğullarını günəşin başına dolanan planetlər kimi Vətənin – ananın başına dolanmağa, yəni birliyə, əslimizə, kökümüzə,

sədaqətə çağırmışdır" (Bəxtiyar Vahabzadə. Dərin qatlarda işıq. Bakı. 1986. s. 41-42).

Plutarxın həyat təsvirlərində Qədim Afina və Romada tanınmış sərkərdələrin ana ilə bağlı yanaşmalarına rast gəlirik: "İskəndər öz anasına həmişə çoxlu hədiyyə göndərir, lakin ona dövlət və hərbi işlərə qarışmağa icazə vermir, onun bu barədə iradlarını mülayimliklə yola verirdi. Bir dəfə Antipatrın Olimpiadanı ittiham edən uzun məktubunu oxuyandan sonra İskəndər dedi: "Antipatr bilmir ki, ananın bir damla göz yaşı min bu cür məktubu unutmağa məcbur edir" (Плутарх. Избранные жизнеописания. В двух томах. Том второй. Москва. 1990. с. 402).

Ali kahin Metell öləndə senatda böyük nüfuzu olan iki məşhur insan – Serviliy İsavriyski və Katul bu vəzifəni əldə etmək üçün öz aralarında mübarizəyə qoşuldular. Sezar onların qarşısında geri çəkilməyərək Xalq Məclisində öz namizədliyini irəli sürdü. Belə məlum olurdu ki, bütün namizədlər eyni dərəcədə dəstəyə malikdirlər. Katul daha yüksək mövqedə olduğuna görə mübarizənin nəticəsinin qeyri-müəyyənliyindən qorxaraq Sezar ilə danışıqlara başladı və ona böyük məbləğdə pul təklif edərək namizədliyini geri götürməsini istədi. Sezar imtina edərək bildirdi ki, daha böyük məbləğdə borc almaq lazım olsa belə, o, mübarizəni davam etdirmək

əzmindədir. Seçki günü anası onu yola salanda gözlərinin yaşardığını görüb anasına dedi: "Ana, bu gün sən oğlunu ya ali kahin, ya da sürgünə gedən görəcəksən". Seçkilərdə Sezar qalib gəldi (Плутарх. Избранные жизнеописания. В двух томах. Том второй. Москва. 1990. с. 441).

Böyük Mahatma Qandinin (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 266) ana ilə bağlı fikirlərini də xatırlamaq yerinə düşərdi: "Uşaqların valideynlərdən aldığı irsi keyfiyyətlər fiziki xüsusiyyətlərdən az deyil. Ətraf mühit nə qədər vacib əhəmiyyətə malik olsa da, uşaq öz həyatına əcdadlarından aldığı irsi keyfiyyətlər əsasında başlayır" (Dhirenda Mohan Datta. Mahatma Qandi fəlsəfəsi. Bakı. 2017. s. 13).

Mahatma Qandi anasından... heç nəyin həqiqətdən yüksəkdə olmadığı prinsiplərini öyrənmişdi (Dhirenda Mohan Datta. Mahatma Qandi fəlsəfəsi. Bakı. 2017. s. 9).

İkram müəllim də anasından çox şey öyrənmişdi. Öyrəndiklərindən biri də təqaüddə olanlara xüsusi qayğı ilə yanaşmaq idi:

"...İstərdim Ata Əliyevlə aramızda olan bəzi söhbətləri xatırlayım. O, Sumqayıt şəhər prokuroru vəzifəsində işləyərkən yayın isti çağında Mərdəkana gəlmişdi. İstirahət günü idi. Bir gün bərabər olduq. Söhbət əsnasında ona dedim ki, rayonda bağları

olan xeyli məhkəmə, prokurorluq işçiləri var. Onların çoxunu tanımıram. Eləsi var heç adını da eşitməmişəm. Həmin qocaman təqaüdçülər müxtəlif məişət problemlərinin həlli ilə bağlı yardım üçün tez-tez mənə müraciət edirlər (su quyusunda nasazlığın aradan qaldırılması, telefon xəttinin çəkilməsi və s.). Bu barədə evdə söhbət edəndə anam mənə demişdi: "Çalış onlara köməklik et. Bilmirsən ki, məzuniyyətdə olanın sözünə baxmırlar, onda qalmışdı təqaüdçü ola". Ata müəllim məni dinləsə də, sözümə heç bir reaksiya vermədi. Bir müddət sonra Ata Rəhimoviç təqaüddə olarkən mənə dedi ki, "sənin anan təqaüdçülər haqda cox düzgün söz deyib" (İkram Kərimov... Zirvədən zirvəyə. Birinci kitab. Bakı. 2018. s. 693).

İkram müəllim haqqında yazılan xatirələrdə onun dost-tanışlarını, xüsusən təqaüddə olanları tez-tez başına toplaması, onlara qayğı göstərməsindən çox söz açılır:

Əliş Əliyev: "İkram ...dostlarını bir-bir axtarmağa, onların qulluğunda durmağa, təqaüddə olanlara ayrıca qayğı göstərməyə, aralarında səmimiyyət yaratmağa da vaxt tapır" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 418).

Aydın Ağazadə:

"Abdulla müəllim onun haqqında ürəkdolusu danışdı. ...Ümumiyyətlə, İkram müəllimin ən dəyərli xüsusiyyətlərindən biri elə vəzifədə olmayan, ya-

xud vəzifədə olub, artıq təqaüdə çıxan insanları arayıb-axtarması, onlara imkan daxilində yardım əli uzatmasıdır. Dəfələrlə olub ki, İkram müəllimlə növbəti görüşümüz hər hansı bayram ərəfəsinə düşüb, hər dəfə də yeddi-səkkiz iri sovqat bağlatdırıb, təqaüddə olan ağsaqqallara göndərib, qapısı, bəlkə də, çoxdan döyülməyən ahıl insanları sevindirib. O, belə tədbirlərini bu gün də davam etdirir, özü də son dərəcə təmənnasız. Sadəcə, insanlıq naminə" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 693-695).

1861–1865-ci illərdə ABŞ-nin prezidenti olmuş Avraam Linkoln həyatda olduğu, olacağı hər şeyə görə gözəl anasına borclu olduğunu hesab edərək deyirdi: "Mənə oxuduğum kitabların ən gözəlinin hansı olduğunu soruşsanız, söyləyim: Anamdır".

Analar necə də biri-birinə oxşarlarmış. Bu iqtibasdan sonra "Müqəddəs ocaqlar yurdundan başlanan yol: "Etibar – 55" kitabındakı yazımdan bir parçanı əlavə etmək qərarına gəldim:

"Uşaqlıqdan baharın vurğunuyam. Hər dəfə müxtəlif izahlar ilə bu istəyimə bəraət qazandırmışam. Düşünürəm, bəlkə, bu sevgi kəndin soyuq qış günlərində pəncərə qarşısında oturub kitab oxumaqdan yorulduğumdan, təbiətin qoynuna atılıb kəndimizin yaşıl çəmənliklərində həmyaşıdlarımla oynamaq, təpələrdə kol dibində bənövşə yığmaq,

yazın ətrini duymaq istəyimdən yaranıb. Baharın gəlişini həmişə səbirsizliklə, heyranlıqla gözləmişəm. Həyətimizdəki ağacların çiçəklərdən ağ don geyinməsinə həmişə vurğunluqla tamaşa etmişəm. Limon ağacı çiçəklərinin bihuşedici ətri həyətimizi cənnətə döndərəndə, anamın "həmişəbahar" adlandırdığı qızılgülün ətrini nəfəs dolusu ciyərlərimə çəkəndə özümü təbiətin bir parçası kimi hiss etmiş, bahara vurğunluğum artmışdır. Elə həmin hisslər də məni baharı həsrətlə gözləməyə vadar edib. Bu həsrətdən də sevgi, vüsala qovuşmaq istəyi yaranıb. Həmişə nəyi həsrətlə gözləyirsənsə, nəyə nail olmağa çalışırsansa, o, insan üçün daha şirin, sevimli olur.

Bir də baharın gəlişi həmişə yadıma uşaqlığımın şirin, qayğısız, mehriban, nəvazişli günlərini salır. Həmişə qışdan anam bahar bayramını qarşılamağa hazırlaşar, müxtəlif ərzaq, qoz, fındıq tədarükünü görüb, bayram payını ayrıca torbalara yığar, əlimiz çatmayan yerdən asardı. Hər bahar gələndə elə bilirəm ki, anam yenə də evdə təmizlik işlərinə başlayacaq, yaxın qohum-qonşudakı qız-gəlinlər başına toplaşıb, o vaxtlar böyük zövqlə dinlədiyim söhbətlərini edə-edə şəkərburaya naxış salacaq, şirin qoğal, badambura, paxlava bişirib, bir süfrə arxasında baharı qarşılayacağıq. Lakin evlərdə təmizlik işləri də görülür, şəkərbura, paxlava, şorqoğal da bişir, ancaq anamın səsini, nəfəsini, nəvazişini yalnız xatirələrdə

və yuxularda duya bilirəm. Onda xatırlayıram ki, ömür keçir, yaşa dolmuşuq, uşaqlıq ötüb keçib" (Müqəddəs ocaqlar yurdundan başlanan yol: "Etibar – 55". Bakı. 2012. s. 76-77).

Mənə elə gəlir ki, ana, ana əməyi, ana müqəddəsliyi haqqında söhbət açarkən Cəfər Cabbarlının "Ana" şeirini yada salmamaq olmaz. Bu cəhətdən fikirlərimiz İkram müəllimlə üst-üstə düşür (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 106-107).

İkram müəllim anasının vəfatını kədərli notlarla xatırlayaraq ana itkisinin ağırlığını qəlb ağrısı, böyük iztirabla bəyan edir, eyni zamanda həyatın qanunlarının dəyişməzliyini bilirdi. Həmin hadisədən bir neçə gün əvvəl isə İkram müəllimin ilk nəvəsi, anasının isə ilk nəticəsi anadan olur (İkram Kərimov. Zirvədən zirvəyə. Üçüncü kitab. Bakı. 2020. s. 478). İkram müəllim bu faktı xüsusi vurğulamasa da, "dünya bir yandan boşalıb, bir yandan dolan dünyadır". Əsas məsələ odur ki, həyat davam edir. Analarımızın iliyində, qanında olanlar nəvələrimizin, nəticələrimizin canında yeni həyatını başlayır.

Ananın dəfni ilə əlaqədar İkram müəllim yazır:

"Anam müntəzəm olaraq Hacı Mahmud babanın qəbrini ziyarət edər, günbəzdə təmizlik işləri apardı. Hətta ilk əməkhaqqıma təmizlik işləri ilə bağlı bəzi alətlər alıb günbəzə qoymuşdu. Təbii ki, anam dəfn olunan qəbiristanlıqda qəbirüstü abidə-

sinin qoyulması qərara alınarkən, onun həmin məkanla bağlılığının təsiri olmuşdu. Bu işi mənim xahişimlə dostum Ömər Eldarov yerinə yetirdi, hətta qəbiristanlıqda abidəni özü ucaltdı. O nəinki Azərbaycanın, deyərdim ki, zəmanəsində dünyanın ən məşhur heykəltəraşlarından biridir. Heykəl hazırlanarkən onun emalatxanasında oldum. Bu mənzərə mənə çox təsir etdi. Həyatda anamı görməyən müəllifin onun obrazını məharətlə yaratması, xarakterini açması məndə məmnunluq yaratsa da, digər tərəfdən bizə can vermiş ananın ancaq daş heykəlini yaratmaqdan uzağa getməyən bacarığımız məni çox məyus etdi. Bu əhvalatı şair dostlarımdan Nəriman Həsənzadə və Vahid Əzizə danışdım. Bununla bağlı onların bir-birindən xəbərsiz "Ana heykəli" başlıqlı şeirləri yarandı" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 724).

Bu məqamda 15 aprel 1997-ci ildə "Xalq rəssamı Ömər Eldarovun akademik Zərifə Əliyevanın xatirəsinə həsr etdiyi "Elegiya" əsərinin təqdimat mərasimində" Heydər Əliyev fikirlərini xatırlamaq yerinə düşür: "Ola bilər, mənim fikirlərim subyektiv olsun. Ancaq mən həmişə düşündüyümü demişəm. Ömər Eldarovun yaratdığı heykəl – Zərifə xanımın surətini əks etdirən heykəl, həqiqətən, böyük, gözəl bir əsərdir. Ömər Eldarov Azərbaycan mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmişdir...

Ömər Eldarovun yaratdığı heykəltəraşlıq əsərləri Azərbaycan xalqının mədəni, mənəvi sərvətidir və onlar Azərbaycan xalqının mədəniyyətini zənginləşdirmişdir.

...Eləcə də hər bir adam Ömər Eldarov kimi və başqa heykəltəraşlar kimi heykəltəraş ola bilməz. Bunun üçün xüsusi bir istedad, bilik, təcrübə, xüsusi daxili, fitri istedad lazımdır. Ona görə də, ola bilər, hər birimiz, o cümlədən mən də arzu edim, tövsiyəmi verim, ancaq həqiqi incəsənət ustası istənilən, arzu edilən o incəsənət əsərini yaratmaq üçün gərək bunu öz daxili aləmindən keçirsin, gərək bunu özü dərk etsin.

...Görürsünüz, bu, adi bir əsər deyil. Bu əsərdə məni valeh edən, – bu sözü tam həqiqətlə deyirəm – sevindirən və məndə böyük hissiyyatlar doğuran odur ki, bu əsərdə böyük fəlsəfə, məna vardır. Ən birincisi odur ki, Zərifə xanımın daxili mənəviyyatını, onun simasını, daxili və zahiri simasını Ömər Eldarov əks etdirə bilibdir. Eyni zamanda o, gözəl bir heykəltəraş kimi heykəltəraşlıq sənətinin, məktəbinin, – nəinki Azərbaycan heykəltəraşlıq məktəbinin, dünya heykəltəraşlıq məktəbinin elementlərini, yaxud onların müəyyən cəhətlərini – bu əsərində həyata keçirə, tətbiq edə bilibdir.

Bu, heykəltəraşlıq əsəri kimi mürəkkəb əsərdir. Çünki burada heykəltəraş üçün, xüsusən daş, ağ mərmər üzərində işləyən heykəltəraş üçün çox

çətinliklər vardır. Görürsünüz, bu heykəlin çox incə, nazik, zərif fraqmentləri vardır. Yenə də deyirəm, bunların hamısı bir tərəfdən bir heykəltəraş kimi Ömər Eldarovun əsərinin dəyərini nümayiş etdirir, amma eyni zamanda mənim üçün bu, mücərrəd əsər deyil. ...Mən Zərifə xanımın daxili mənəviyyatını tam bildiyim üçün görürəm ki, bu əsərdə bunların hamısı öz əksini nə qədər tapıbdır. Ona görə də bu əsər həm bədii, həm də fəlsəfi xarakter daşıyır və yüksək heykəltəraşlıq səviyyəsini nümayiş etdirir. (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Doqquzuncu kitab. s. 152-157).

Azərbaycanın Xalq şairlərinin Səmayə ananın qəbirüstü abidəsinə həsr etdikləri iki şeir:



*Xalq şairi Vahid Əziz*

İlahi, nəymiş sonuncu ağrı–
Fəryadmı, ölümmü qələbə
çaldı?!
Ruh kimi dağıdıb qara torpağı,
Başdaşı yerinə heykəl ucaldı.
Sevilsə, ömr edər adi bir xəzəl,
Hər kəsi dünyada sevgi
yaşadır,
Heykəlin özü də anatək gözəl –
Heykəlin özü də bir tamaşadır!
Mərmər qəlpələri açılıb-sönür,

Dinləsin, qəribə məxmər səsi var.
İnsanı yormadan heykələ dönür,
Görünür daşın da fəlsəfəsi var.
Elə bil taqətdən düşəcək qələm,
Burda məkan bitir, zaman dayanır!
Sanki hər məzarın daş heykəlindən
Dünyaya bir milyon insan boylanır.
Yanında yer saxla, sənə qurbanam,
Qoy öpüm yuxusuz kirpiklərini,
Sən mənə dünyanı bəxş etdin, anam,
Mən daşa döndərib yaşatdım səni...

*29 iyul 2006-cı il*



*Xalq şairi Nəriman Həsənzadə:*
Ay ana! Dünyaya gətirdin məni,
Can verdin, sevincin bir aləm
oldu.
Sonra mən ucaltdım daş
heykəlini,
İstədim dünyaya gətirəm səni.
Can vermək istədim,
gücüm kəm oldu,
Gördüm bu dünyanın hər üzü
qəmmiş,
Bu da bir ömürlük təsəllim oldu.

*21 noyabr 2016-cı il*

İkram müəllimin “Ana heykəli” yazısı altında bəhs etdiyi xatirəsində “bizə can vermiş ananın ancaq daş heykəlini yaratmaqdan uzağa getməyən bacarığımız məni çox məyus etdi” fikri yadıma Əli Kərimin “Qaytar ana borcunu” şeirini saldı. Həmin şeirdə şair ananın min bir əzaba qatlaşaraq sevimli oğul böyütməsi ilə bağlı hissləri çox reallıqla təsvir etmişdir. “Kədəri dalğa-dalğa ürəyə dolanda da, nə saç yolaraq əsən küləyə verməyən, nə şivən etməyən” analar, “ürəyində ağlasalar da”, balalarına “gülmək öyrədirlər”. Hər bir “dərdə, bəlaya dözərək” “öz boğazından kəsib balasına yedirdirlər”. Onların arzusu “gur catmaqaş, gensinə”, “atlını atdan salıb küləklərlə ötüşən, baxışından qızların ürəyinə od düşən”, “məktəb bitirib, ali məktəbə qızıl medalla girən”, “bir gözəl, bir sevimli oğul böyütməkdir”. Bu cür “sevimli oğullar” böyüdən analar özlərini arzularına çatmış hesab edir, dünyanın ən xoşbəxti olurlar.

İkram müəllim sağlığında anasına münasibətdə mümkün olanı etmiş, onun arzularını reallığa çevirmiş, insanların, dostlarının hörmətini qazanmaqla anasının xeyir-duaları onu bütün həyatı boyu müşayiət etmiş, Zirvədən zirvəyə addımlamaqla anasının mənəvi ucalığa çatmasına nail olmuşdur. Əslində Səmayə ana İkram müəllimdən ona lazım olanları sağlığında görmüşdü. Ana heykəli isə bu övlad sevgisinin əbədiliyinin rəmzinə çevrilərək başı üzərində ucalmışdır.

İkram müəllimin qardaşı Vətənin dedikləri fikirlərimizi bir daha təsdiq edir: “Anamı xatırlamaya bilmirəm. Bu, tamamilə başqa, böyük bir mövzudur. O, bizim əziyyətimizi, cəfamızı çox çəkib. “Kirpiyi ilə od götürmək” ifadəsi sırf onun ömrünə aiddir. O dövrün hər bir anını xəyalımda canlandıranda kövrəlirəm. Anam bizi çox sevirdi. Hər bir qayğımızı çəkirdi. Ancaq ərköyün də böyütməyib. Zəhmətə alışdırıb, insanları sevməyi, xeyirxah, dürüst olmağı öyrədib...

İkram çox ailəcanlı insandır. O, son ana qədər ata-anamızın qulluğunda durdu. Zabitəli bir qadın olan anamın arzuladığı bir övlad oldu. Onun hər bir arzusunu böyük məhəbbətlə yerinə yetirdi” (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 578-580).

Müstəntiq işlədiyim vaxt anamı Bərdəyə, Zaqatalaya, Qaxa, Şəkiyə və ətraf rayonlara aparıb gəzdirmiş, 1983-cü ildə Daşkənddə Milis Akademiyasında kursda olanda isə biraylıq Daşkəndə, Səmərqəndə aparmışdım. Anam həmin günləri həmişə xatırladıb, “oğul, sənin hesabına dünyanı gəzmişəm” – deyirdi. Bəli, analar onlara münasibətdə övladlarının hər xırda bir işini dağ boyda görürlər. Övladlarının hər bir uğuru onların sevinci, xoşbətliyi olur.

Zirvələrin ən ucası olan ana ilə bağlı yazımı “Zirvədən zirvəyə” kitablarını oxuyub qurtarandan sonra qeyri-ixtiyari olaraq ağlıma gələn bir suala

verdiyim cavabla bitirmək istəyirəm. Üç kitabda İkram müəllim haqqında çox insanlar, şəxsən özümün böyük hörmətlə xatırladığım, görüşdüyüm şəxslər biri-birindən dəyərli, həqiqəti əks etdirən fikirlər söyləmiş, sözlər demiş, onu yenidən zirvələrə qaldırmışlar. İkram müəllimi və onun haqqında söz deyənlərin əksəriyyətini şəxsən tanıdığıma, həmçinin həmin sözləri deyənlərin əksəriyyətinin ölkədə tanınmış nüfuz sahibi olmalarına və sözü söz xətrinə deyəcəkləri ehtimalının olmamasına əsaslanaraq yazılanların hər birininn səmimiliyini, ürəkdən gələnləri ifadə etməsini tam qəbul edirəm. Mənim üçün sual İkram müəllimi dəqiq xarakterizə edən ən yaxşı sözün kimin deməsi ilə bağlı idi. Əslində mən bu sualın cavabını da tapıb Xalq yazıçısı Elçinin yazdıqları (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 722) üzərində dayanmışdım. Elçin səhifəyarımlıq yazısında şəxsən İkram müəllim haqqında heç nə yazmayıb. Onun yazdıqları Səmayə ana haqqındadır. Ana zirvəsi İkram müəllimin fəth etdiyi ən uca zirvədir və onu səciyyələndirmək üçün tam kifayət edir.

**P.S.** Yazını yekunlaşdırıb kompüterin arxasından qalxdım. Gecə yarını keçdiyindən yataq otağına yönələcəkdim. Bundan əvvəl telefonda "Youtube" açıb yeni bir xəbərin olub-olmaması ilə maraqlandım. "Baku" TV-nin "Youtube"a yerləşdirdiyi "Dünyanın

danışdığı azərbaycanlı alpinist İsrafil Aşurlu" xəbəri diqqətimi cəlb etdi. Açıb dinlədim. Xəbərin məğzi ondan ibarət idi ki, azərbaycanlı alpinist İsrafil Aşurlu 8 min metr yüksəklikdə yerləşən, dünyanın doqquzuncu ən hündür zirvəsi sayılan Nanqa Parbatı fəth etmək üçün Pakistana gedib. İsrafil təxminən 7500 metr hündürlükdə olarkən zirvəni fəth etmənin son mərhələsində iki nəfərin – polşalı Pavel Kapets və pakistanlı Asif Phatınköməksiz vəziyyətdə olmalarını görüb, arzusunu həyata keçirməkdən imtina edərək köməyə ehtiyacı olanlara yardım etməyə qərar verir. Hadisəni zirvəyə qalxmaq istəyən, lakin hava şəraitinə görə bundan imtina edən italiyalı alpinistlər qrupu görsə də, təhlükəsizliklərini üstün tutaraq, darda qalanlara yardım etməkdən imtina edib aşağı enirlər. Lakin İ.Aşurlu yardımını davam etdirir. Polşalı alpinist Pavel Kapets onun qucağında həyatını dəyişir. Bundan sonra Aşurlu pakistanlı, görmə qabiliyyətini itirmiş alpinisti özünə bağlayaraq 7 min metrlik hündürlükdən aşağı endirir.

Əslində İsrafil Aşurlu zirvəni fəth edir. Bu dağın zirvəsi olmasa da, insanlıq zirvəsidir. Düşünürəm ki, İsrafil Aşurlunu da azərbaycanlı ana dünyaya gətirib. Bəlkə, elə o ananın da adı Səmayə anadır.

# İKİNCİ YAZI

## Xoşbəxt uşaqlığın izləri

*"Baxdım...*
*Xatirələr*
*Axdı bir anda,*
*Ömrün ilk baharı, yazı göründü.*
*Qayıtmaz illərin*
*Cığırlarında*
*İtmiş uşaqlığın izi göründü".*

*Nəbi Xəzri*

"Zirvədən zirvəyə..." kitabını (Birinci kitab) oxuyanda məni təsirləndirənlərdən biri də xoşbəxt uşaqlıq illərinə qayıdışım oldu. Xalq şairi, SSRİ Dövlət Mükafatı laureatı Nəbi Xəzri qayıtmaz illərin çığırlarında "itmiş uşaqlığın" izlərini görsə də, mən o cığırlarda xoşbəxt uşaqlığın izlərini görürəm. Nədənsə o illər mənə daha xoşbəxt illər kimi görünür. Bəlkə, bu, həmin illəri atalı, analı, qardaş və bacılı yaşadığıma, xoşbəxt həyatın hələ irəlidə olmasını düşündüyümə görə belədir... Bilmirəm. Bildiyim odur ki, uşaqlıq illəri mənim üçün daha şən, daha qayğısız və ümidli illər olub. Təbii ki, oxuduğum kitab mənim uşaqlığımdan bəhs etmir. Lakin mən İkram müəllimin uşaqlıq xatirələrinin bəzilərində öz uşaqlığımı gördüm, uşaqlığımı yenidən yaşadım.

Təkcə İkram məllimin uşaqlıq vaxtı rastlaşdığı hadisələr deyil, bəzi hadisələrin başvermə prosesi də mənə tanış və doğma təsir bağışladı. Nəbi Xəzrinin belə misraları da var:

"Ayrı sahillərin eyni dalğası
Doğma qəlbimizdən adlayıb keçir".

*Nəbi Xəzri.*
*Dərələr. Bakı 1970. s. 24*

Düşünürəm ki, İkram müəllimin təsvir etdiyi hadisələr "ayrı sahillərin" dalğası olsa da, onlarda bir doğmalıq var.

Ona görə imkan düşmüşkən onların ən çox oxşarları barədə qısaca danışmaq istəyirəm. Bu həm də İkram müəllimin həmin hadisələri olduqca canlı, həyatda olduğu kimi, elə uşaqlıq paklığı ilə qələmə alması ilə bağlıdır. Həm də, ümumiyyətlə, uşaqlıq və gənclik illərini xatırlamaq, onları yenidən yaşamaq insanı həmin illərə qaytarır, onu cavanlaşdırır. Mən İkram müəllimin sinif yoldaşı İzzət xanımın xatirələrində də bunu hiss etdim: "Düzü telefonda tanımadığım səsi eşidəndə mənə çox qəribə gəldi. İkram özünü təqdim etdikdə isə çox heyrətləndim. Çünki 58 il sonra sinif yoldaşımı dinləyəndə, məni həm sevindirdi, həm də fikrimi çox-çox uzaqlara apardı. Əziz məktəb yoldaşım, əvvəlcədən belə bir iş görməyə görə sənə öz minnətdarlığımı

bildirirəm" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı 2018. s. 93).

Elə mən də, uşaqlıq illərimi mənə yenidən yaşatdığına görə İkram müəllimə minnətdarlıq edirəm.

**Nənələrin çörək ətri**

"Nənəm təndirdə çörək bişirəndə ətri hər yanı bürüyərdi. Hətta itə də bir tikə atardılar ki, nəfsi qalmasın. Evə gələn adama çörək verərdilər. O, uşaqlar üçün kökələr də bişirərdi. Kökələrin təndirə yapılması sona saxlanılırdı və bu anı səbirsizliklə gözləyirdik. Çörəyin keyfiyyətli olması bir çox amillərdən asılı idi.

Əvvəla, un mütləq ələnməliydi. Bunun üçün nənəm qaraçılardan aldığı at tükündən toxunmuş "vala" adlanan xüsusi ələkdən istifadə edərdi. Əlbəttə, un yaxşı olmalı idi. Bu da buğdanın növündən, saxlanılmasından, üyüdülməsindən asılıdır. Su dəyirmanında üyüdülən sarı buğda növünə üstünlük verilərdi. Əlbəttə, mayasından (acıtması) və yoğrulmasından da çox şey asılıdır. Xəmirin üstünü möhkəm bərkidərdilər. Onun gəlmə vaxtı dürüst bilinməliydi. Ona görə də onu zamanında yoxlayırdılar. Havanın hərarəti də vacib şərtlərdəndir. O, kündələndikdən sonra yayılırdı. Üzünə yumurta sarısı ilə qara çörəkotu və ya xaş-xaş çəkirdilər. Duzun miqdarı elə müəyyənləşdirilməli idi ki, dadına əks təsir göstərməsin. Çörəyin yayılması xüsusi məharət

tələb edirdi. Əks halda çörək təndirə tökülə bilərdi. Bişmiş çörəyin vaxtında çıxarılması, teştdə yığılması, üstünə süfrə salınması və soyudulması ardıcıllıqla edilərdi. Çörəyin təndirdən çıxarılması üçün ev şəraitində tikilmiş xüsusi əlcəklər olurdu. Təmizliyə ciddi riayət olunardı. Bu zaman ayrıca geyimdən və döşlükdən istifadə olunardı. Ağzı bağlayardılar ki, nəsə ifraz olunub xəmirin və ya çörəyin üstünə düşməsin. Hazır çörəyi ancaq əl ilə doğrayardılar.

Təndirin qalanması, yandırılması və odunun keyfiyyəti əhəmiyyət daşıyırdı. Bu baxımdan yulğun ağacına və pambıq kollarına üstünlük verilirdi. Odun yanıb qurtardıqdan sonra kösövlə köz sahmanlanar, təndirin külfələri bağlanardı. Odunun yandırılmasında qoxu verən məhsullardan (neft, benzin və s.) istifadə edilməzdi.

Bəlkə də, bunları yazmazdım. Əgər peşmançılığını çəkdiyim bir əhvalat olmasaydı" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. s. 23-24).

İkram müəllimin nəzərdə tutduğu "əhvalat" üzərində dayanmaq fikrim yoxdur. Hesab edirəm ki, həmin "əhvalat" baş verməsəydi belə yazılanlar çox təbii və dəyərlidir. Nənələrimizin, analarımızın "çörək ətri", həyatlarının müəyyən parçasının əsrarəngiz təsviri, uşaqlığımız, xatirələrimiz var yazılanlarda.

Mən kitabın həmin hissəsini yayda bağda olanda oxuyurdum. Həmin vaxt qızım Günel uşaqları ilə

bağda bizimlə dincəlirdi. Bir növ "çox oxuyursan, kitabı kənara qoy, bir az söhbət edək" – əvəzinə mənə, "Ata, yenə nə oxuyursan" – deyə müraciət etdi. Mən ona yanımda əyləşməyi təklif edib, kitabdan "çörəkbişirmə prosesini" ona oxudum. Mətni bitirəndən sonra Günelin xəyala daldığını, kövrəldiyini gördüm: "Nənənin çörək bişirməyini mənə xatırlatdı" – dedi.

İkram müəllim hələ neçə-neçə oxucu kitabın həmin hissəsini oxuyub Günel kimi nənələrinin, analarının çörək bişirməyini xatılrlayacaq, nənələrin "çörək ətrini" hiss edəcəkdir. Bəlkə də, bir zamanlar bizim uşaqlığımızın təsadüf etdiyi dövrdə çörəyin necə bişirildiyi barədə məlumatı Sizin kitabınızdan alacaq, qızlarına, nəvələrinə həmin hissəni təkrar oxuyacaqlar.

Onu deyim ki, qızım Günelin kitabın həmin hissəsi ilə tanışlığı, yay tətilində kitabın üç cildini oxuması və özünün deməsinə görə "xüsusi zövq alması" ilə nəticələndi.

İkram müəllim çörəyin yayılmasının xüsusi məharət tələb etdiyini yazır. Mən isə xəmirin kündələnməsini seyr etməyi xoşlayırdım. Anamın xəmiri kündələməsindən xüsusi zövq alırdım. Bu prosesdə anamın əllərini necə oynatması, kündələrə xüsusi görkəm verməsi, hazır kündələri süfrənin üstünə səliqə ilə biri-birindən eyni aralıqda yığması heç vaxt yadımdan çıxmır.

Anam xəmir yoğurmağı və kündələməyi evin mətbəxində yerinə yetirirdi. Təndir evdən bir qədər aralıda – təndirxanada yerləşirdi. Yeniyetməlik çağlarında kündələr yığılmış məcməyini təndirin yanına aparmaq, çörəklər hazır olandan sonra onları məcməyidə mətbəxə gətirmək mənim işim idi. Bir də hazır çörəkləri təndirdən çıxarmaq üçün anamın istifadə etdiyi dəmir ərsini həmişə xatırlayıram.

Anamın həmin vaxtlarda mənə həvalə etdiyi işlərdən biri də nehrə çalxalamaq idi. Bilmirəm, həqiqət idimi, yoxsa, məni bu işi görməyə razı salmaq üçünmü, anam deyərdi ki, "sənin əlində yağ yaxşı olur" (yəni bol olur) və mən də yağ gilələri ayranın üzünə toplanana kimi nehrəni çalxalayırdım. O vaxtlar bu mənə çox yorucu bir proses kimi görünsə də, indi o yorğunluğun xoş hisslərini yaşayıram. Onu da deyim ki, təndirdən çıxmış isti çörəklə nehrə yağını və ya anamın çaldığı təzə qatığı xüsusi ləzzətlə yeyirdim.

**Məktəb müəllimləri**

"...Orta məktəb müəllimlərini böyük nostalji hisslərlə xatırlayır, ruhları qarşısında baş əyirəm. Şagirdlərin formalaşıb cəmiyyətə təhvil verilməsində, şəxsiyyət kimi yetişdirilməsində onların zəhməti danılmazdır. Müəllimləri pak, təmiz, ədalətli bir insan kimi xatırlayıram. Müəllimlərin hər bir kəlməsi şagird psixologiyasına təsir edir. Onların hər addımı

uşaqların yaddaşında həkk olur. Şagirdlərdə özünə, ailəyə, ətrafa, bütünlükdə cəmiyyətə fayda verəcək vərdişlər müəllimlərdən qaynaqlanır. Həyatda onlardan zaman etibarilə nə qədər uzaqlaşırıqsa, qəlbən onlar bizə daha da yaxınlaşırlar. Odur ki, çalışılmalıdır ki, yetişən nəsildə müəllimlərdən yalnız xoş təəssüratlar qalsın. Müəllimin kiçik bir xətası, mənfi hərəkəti, ədalətsiz qərarı, qeyri-etik davranışı uşaqlarda silinməz iz buraxır" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı 2018. s. 40-41).

İkram müəllimlə tam razılaşıram. Mənə həyatda bilik verən, düz yol göstərən Alı, Balağa, Nəcəf, Şahab, Aygül, Əfqan, Rəfael, Ayaz, Anna, Abdul, Sarıbala, ümumiyyətlə, mənə dərs demiş hər bir müəllimə minnətdarlığımı ifadə edirəm. Mənə hüquqşünas olmağı ilk dəfə riyaziyyat müəllimimiz Şahab müəllim tövsiyə etmişdi. Ədəbiyyat müəllimimiz Ayaz müəllim isə şeirə, ədəbiyyata həvəsimi görüb Xarici Dillər İnstitutunun ingilis dili fakültəsinin tərcüməçilik ixtisasını seçməyi məsləhət bilmişdi. Müəllimlərimizin hər birindən öyrəndiklərimiz, götürdüklərimiz olub, yəqin ki, onların zəhmətlərindən indi də bəhrələnirik. Sonralar məhkəmədə hakim işləməklə yanaşı, 10 ildən artıq Bakı Dövlət Universiteti, İdarəçilik Akademiyası, Azərbaycan Universiteti, Qafqaz Universitetində müəllim kimi "Beynəlxalq hüquq", "İnsan hüquqları hüququ", "Beynəlxalq humanitar hüquq", "Mülki

proses" fənlərindən mühazirə oxumuşam. Tələbələr üçün "Beynəlxalq humanitar hüquq" (Bakı, 2001), "Beynəlxalq mülki proses" (Bakı, 2007) dərsliklərini yazmışam. Müəllimlik şərəfli peşədir.

**Velosiped**

"Ən böyük arzumuz velosipedimizin olması, əks halda kirayə götürərək sürmək idi. Məsafədən asılı olaraq kirayə haqqı dəyişərdi" (İkram Kərimov. Zirvədən zirvəyə. Birinci kitab. Bakı 2018. s. 41).

Evdə məndən böyük üç qardaşım olduğuna görə velosipedə sahibolma arzum olmayıb, yəni velosipedim olub. Ancaq velosipedin kirayə verilməsi ilə bağlı bir hadisə yadımdan çıxmır. Bizim kənddə bir qayda olaraq asfalt yolda (Lənkəran-Boradigah yolu) velosipedi kirayə verərdilər. O vaxtlar kənd yolunda maşınlar az olardı. Kəndin mərkəzindən köhnə dəyirmana kimi gedib-qayıtmaq 20 qəpik olmaqla, təxminən 10 dəqiqəyə başa gəlirdi. Bir dəfə mən də pul qazanmaq həvəsinə düşüb velosipedi kirayə verib 20 qəpik aldım və kirayəçinin (sonralar o kənddə mollalıq edirdi) geri qayıtmasını gözlədim. On dəqiqəyə qayıtmalı olan kirayəçi bir saat müddətində qayıtmadığına görə böyük qardaşıma məlumat verdim və o, bir müddət sonra velosipedi qaytardı. Mən bir daha velosiped kirayə vermədim.

**Evlərin giləsərlə ağardılması**

"O vaxtlar evlərin, eyvanların divarları giləsərlə ağardılardı. Bu, hər il Novruz bayramı ərəfəsi təkrarlanardı. Giləsəri Şamaxı dağlarından gətirib kilo hesabı ilə satardılar. Giləsər mavi rəngi özündə əks etdirən daş (gil) parçalarından ibarət idi. Onu suda isladıb, göy sinka ilə qarışdırardılar. Sonra hazırlanmış məhlul – təbii rəng evin divarlarına çəkilir, görünüşü yenilənirdi" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı 2018. s. 46).

Evlərin Novruz bayramı ərəfəsində giləsərlə ağardılması prosesi də çörəkbişirmə prosesi kimi mənim üçün doğma, uşaqlıq vaxtlarında hər il yaşadığım hadisələrdəndir. Kitabın həmin hissəsini oxuyanda bir daha illərin cığırları ilə uşaqlığıma qayıtdım. Mən "Çində on beş gün (dünya məhkəmə mədəniyyətinə töhfə vermək arzusu)" kitabımda Novruz bayramı ərəfəsində evdə aparılan təmizlik işlərindən söhbət açaraq qeyd etmişəm ki, hər il Novruz bayramı ərəfəsində evimizin divarları İkram müəllimin təsvir etdiyi qaydada giləsərlə ağardılardı. Otaqlar daxildən təravətli mavi rəng alardı. Ev "mavi geyindiyindən, yer üzü, göy üzü maviləşər", "dünyanı mavi rəngdə görər", "səadətin rəngi mavi" olardı. Anamın təravəti, səliqəsi, təmizliyi var idi o "mavilik"də.

**Neft satışı**

"...Nöyüt satan Əliağa... rayonun tanınmış simalarından idi. Neft çəndən kranla iri ləyənə doldurulardı. Əliağanın özünün düşündüyü ölçü vahidinə uyğun müxtəlif krujkaları var idi" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı 2018. s. 54).

Eyni qaydada kəndimizdə nefti Abdulla kişi satardı. Təxminən beş və ya onlitrlik xüsusi qablarda nöyütü kəndin mərkəzində ("Dükan qabağı") Abdulla kişidən alardıq. Abdulla kişi iri neft çəninin kranını qara iri açarla açıb, altındakı ləyənə nefti yığdıqdan sonra krujka ilə bizim qabı aldığımız həcmdə neftlə doldurardı. Həmin vaxtlarda kənddə işıqlar tez-tez sönərdi. Ona görə də evdə bir neçə neft lampası hazır qoyulardı. Yəni hər istifadədən sonra neftlə doldurular, şüşələri təmizlənərdi. Uşaqlıq və yeniyetməlik vaxtlarımda kitabların çoxunu neft lampasının işığında oxumuşam. Anam gəlinlik lampasına xüsusi qayğı ilə yanaşar, ona "onluq lampa" deyərdi. "Hər gəlinə bu cür lampa qismət olmurdu" – deyərdi. Hər dəfə lampaya neft dolduranda məndən lampa ilə ehtiyatlı davranmağı xahiş edərdi. Onluq lampanı anam çox "əzizləyərdi". Lampa şüşədən



hazırlanıb, neft tökülən hissəsi yumru şüşə dilimlərdən ibarətdir. Neft doldurulandan sonra lampa qızılı rəng alır. Hazırda onu anamdan xatirə kimi bağ evimdə saxlayıram, "anamın iyini" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı 2019. s. 477) ondan və bu cür qoruduğum bir neçə əşyadan (anamın qızıllarını yığdığı mücrü, mis məcməyi, diş çıxarmaq üçün tibb kəlbətini və s.) alıram.

**Dərzi anam**

"...Valideynlərimiz uşaqlara geyim paltarı almaqda çətinlik çəkərdi. Hazır paltarlara çox nadir hallarda rast gəlinərdi. Parça mağazalarının sayı isə çox idi. Ona görə də parça alıb, Fatma xalaya paltar tikməyi sifariş verərdilər. Növbə çox olurdu" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. s. 54).

Bu cəhətdən bəxtim gətirmişdi. Ana babam Mirzəcan kişi bir vaxtlar həm bizim, həm də ətraf kəndlərin dərzisi olub. Onu Mirzəcan deyil, "Dərzi" çağırırdılar. "Zinger" markalı tikiş maşını işlədib. Anam gəlin köçəndə babam "Zinger" markalı ayaqla işləyən paltartikən maşınını anama hədiyyə vermişdi. Babam anama da paltar tikməyi öyrətmişdi. Bizim uşaqlıq paltarlarımızı anam tikərdi. Özünə, bəzi qonşu qadınlara, uşaqlara da paltar tikərdi. Tibb bacısı olduğuna görə dərziliklə bir peşə kimi məşğul olmurdu. Maşında sadə tikişlər etməyi mənə də öyrətmişdi.

**P.S.** ***"Zinger tarixi"***

1851-ci il 12 avqust tarixində amerikalı mühəndis və sahibkar İsaak Zinger tikiş maşınının istehsalı üçün patent hüququ əldə etdi. Etibarlı konstruksiya və təkmilləşdirilmiş mexanizminə görə bu tikiş maşınları tezliklə populyarlaşdı, lakin şirkətin uğurunun böyük bir hissəsi İsaak Zingerin istedadına əsaslanırdı. Belə ki, onun effektiv marketinq qərarları və addımları milyonlarla ailəni tikiş maşınının zəruriliyinə inandırmışdı.

Tikiş maşının satışa çıxarılan ilk nümunəsi 100 dollar qiymətində dəyərləndirilmişdi, lakin həmin dövr üçün çox az adam tikiş maşınının faydalılığını zəruri bilirdi. Belə ki, evdar qadınlar iynə və sapla keçinirdilər, dərzi evlərində isə ucuz əməkdən istifadə etmək daha əlverişli idi.




Əhalidə tələbi formalaşdırmaq üçün prinsipial yenilik lazım idi. Buna görə də İsaak Zinger öz dövrü üçün radikal sistem kəşf etdi. Belə ki, İsaak Zinger müşahidə etmişdi ki, həmin dövr üçün spesifik olan bütün texnoloji məhsullarda nasazlıq baş verəndə onları ev

şəraitində təmir etmək mümkün olmurdu. Buna görə də əhali ən yaxşı halda ustaya müraciət edirdi, pis halda isə məhsulu zibil yeşiyinə atmalı olurdu. Situasiyadan mahircəsinə yol tapan və bundan faydalanan İsaak Zinger tikiş maşınının ehtiyat hissələrini ayrılıqda istehsal edib satışa buraxdı. Artıq onun müştəriləri tikiş maşının hər hansı hissəsi xarab olduqda rahatlıqla yenisini sifariş edə bilirdilər. İsaak Zingerin istehsal və marketinq təşəbbüsü hesabına tikiş maşını ev şəraitində təmir oluna bilən ilk məişət avadanlığına çevrildi.

İsaak Zinger satışı stimullaşdırmaq üçün tikiş maşınlarını sənaye sahələri üçün deyil, məişət istifadəsi üçün istehsal edirdi. Marketinq yanaşması tezliklə öz bəhrəsini verdi. Tezliklə zinger tikiş maşınları ən prestijli məhsullara çevrildi. Hər bir ailə bu tikiş maşınlarına yiyələnməkdən qürur duyurdu.

**"Zinger ovçuları"**

"Zinger" şirkəti və onun məhsulları haqqında çoxlu əfsanələr mövcuddur. Misal üçün, bəzi mənbələrdə vurğulanır ki, qədim "Zinger" tikiş maşınları qiymətli metallardan hazırlanıb.

Ən məşhur əfsanə isə ilk tikiş maşınlarının tərkibində çox dəyərli metal olan palladiumun olması haqqındadır. Bu əfsanə bir neçə ölüm hadisəsinə səbəb olmuşdur. Belə ki, əfsanələrə inanan "zinger

ovçuları" cinayət törətməkdən çəkinmirdilər. Belə cinayətlərin qurbanlarından biri də yaşlı qadın idi. Naməlum şəxslərin üzünə qapını açan qadın evindəcə qətlə yetirilmişdir, daha sonra qatillər onun evindən "Zinger" tikiş maşını oğurlamışdılar. Evdə axtarış keçirən polislər aşkar etmişdilər ki, tikiş maşınından başqa evdən heç nə oğurlanmamışdır.

Digər əfsanəyə əsasən isə 1998-ci ildə "Zinger" kompaniyası əvvəlki əsrdə 1 rəqəmi ilə başlayan xüsusi seriyalı tikiş maşınlarının axtarışını elan etmişdir. Hesab olunur ki, həmin seriyalı tikiş maşınları Rusiya və keçmiş sovet respublikalarının ərazisində yerləşir.

Daha bir əfsanə isə vurğulayır ki, 300 ədəd "Zinger" tikiş maşını tamamilə qızıldan hazırlanıb. Belə ki, Rusiyadakı inqilabdan sonra əhalinin firavan təbəqəsi sürətli şəkildə Avropaya emiqrasiya edirdi, lakin sərhəddən yalnız məişət avadanlıqlarının keçirilməsinə icazə verilirdi. "Qaymaq təbəqə" isə öz qızıllarını xilas etmək üçün həmin qızılı "Zinger" tikiş maşının formasında əridib qara rəngə boyayırdı. Bu üsulla mülklərini özləri ilə ölkədən çıxarmağa nail olurdular.

2009-cu ildə Səudiyyə Ərəbistanında yeni bir əfsanə peyda oldu. Hansı ki bu əfsanə qədim "Zinger" tikiş maşınlarının iynələrində əfsanəvi maddə "qırmızı civə"nin mövcudluğundan bəhs edirdi. Bu maddənin kiçik bir hissəsi 2-3 mln dollar dəyərində qiymətləndirilir.

Təəssüf edirəm ki, anamın "Zinger" markalı tikiş maşını da "Zinger ovçuları"nın qurbanı oldu.

**P.S.** "Dərzi anam" yazısı ilə tanış olandan sonra İkram müəllim mənə danışdı ki, anası Səmayə xanımın da əl ilə işləyən "Zinger" tikiş maşını olub. Ailəyə aid bəzi tikiş işlərini həmin maşın vasitəsilə yerinə yetirib. Qapı-qapı gəzib həmin tikiş maşınlarını təmir edən, milliyətcə rus olan usta hər il onlara gələr, maşını yağlayar, yaranmış qüsurları aradan qaldırarmış. Həmin tikiş maşınını anasının yadigarı kimi evində saxlayır. Təəssüfünü bildirdi ki, ailədə maşını istifadə edən yoxdur.



Ali Məhkəmədə keçirilən tədbirlərdən biri...

# ÜÇÜNCÜ YAZI

## "Bənzərsiz istintaqçı"

Müstəntiq öz səlahiyyətləri daxilində Cinayət-Prosessual Məcəllədə nəzərdə tutulmuş qaydada cinayət işi üzrə ibtidai istintaqı aparan şəxsdir. İstintaq aparılmasında əsas məqsəd cinayət hadisəsinin baş verib-verməməsini müəyyən etmək, əgər cinayət baş veribsə, onu açmaq, yəni cinayətin nə vaxt, harada, hansı məqsəd və motivlə kimlər tərəfindən törədildiyini, zərər çəkmiş şəxsin şəxsiyyətini müəyyən etmək, cinayəti törədən şəxsləri aşkar edib təqsirləndirilən şəxs kimi cəlb etməklə məsuliyyətə alınmasını və s. təmin etməkdir. Qeyd olunanları yerinə yetirmək üçün isə müstəntiq prosessual qanunvericilikdə müəyyən edilmiş qaydada sübutları toplamalı və gəldiyi nəticələri sübutlarla əsaslandırmalıdır. Əksər hallarda cinayətlər gizli törədilir, onu törədənlər bir qayda olaraq, izləri itirmək üçün müvafiq tədbirlər görür, özləri isə mümkün qədər gizlənməyə üstünlük verirlər. Müstəntiqlik məharəti məhz gizli – bağlı olan cinayətlərin açılması prosesində üzə çıxır. Bunun üçün isə müstəntiq sübutları vaxtında toplamağı və onlardan bacarıqla istifadə etməyi bacarmalıdır. "Zirvədən zirvəyə..." kitabını oxuduqca cinayət işinin istintaqı

zamanı sübutların toplanmasına məsuliyyətli yanaşmanın, hadisə yerinin müayinəsi zamanı xüsusi bacarıq nümayiş etdirmənin zəruriliyi, hadisə yerində olan iz və əşyalardan cinayətin açılması üçün səmərəli istifadə olunmanın yolları ilə kifayət qədər tanış olmaq mümkündür.

İ.Kərimov istintaqını apardığı cinayət işləri barədə söhbət açarkən ilk növbədə Cinayət-Prosessual Məcəllədə əksini tapan qaydaların rəhbər tutulmasına istinad etməklə yanaşı, ***bəzən sübutların toplanması və istifadəsi ilə bağlı elə məqamlara toxunur ki, onlar barədə hüquq ədəbiyyatında məlumat tapmaq mümkün deyil.*** Həmin məqamlar yalnız onun təxəyyülünün məhsulu, prokurorluq orqanlarında çalışdığı vaxt sübutların toplanması üçün istifadə etdiyi, sınaqdan keçirdiyi müxtəlif metod və vasitələr nəticəsində əldə edilənlər, ***yəni şəxsi yaradıcılıq məhsullarıdır***.

Kitabda müxtəlif hüquqşünasların yazdığı xatirələrdə qeyd olunduğu kimi, "istintaqda İkram Kərimov məktəbinin" bəhrələridir. İkram Kərimovun istintaq təcrübəsinə müraciət etməkdə məqsədimiz də məhz "istintaqın İkram Kərimov məktəbinin" özəlliklərini bir daha nəzərə çatdırmaqdır.

**Hadisə yerinin müayinəsi – cinayətin açılmasına aparan yol**

Cinayət işi üzrə sübutların toplanmasına, istintaqın hansı istiqamətdə aparılması üçün fərziyyələrin

qurulmasına xidmət edən əsas istintaq hərəkətlərindən biri də hadisə yerinin müayinəsidir.

Həmin istintaq hərəkətinin özünəməxsusluğu geniş dairədə sübut xarakterli informasiyanın əldə edilməsinə imkan verməsində özünü təzahür etdirir. Bir qayda olaraq, hadisə yerinə cinayətin hazırlandığı, onun törədildiyi və cinayətin nəticələrinin aşkara çıxdığı yer kimi baxılır. Lakin bir cinayət işinin istintaqı zamanı bir və ya bir neçə hadisə yeri meydana çıxa və onların müayinəsinin keçirilməsi zərurəti yarana bilər.

Hadisə yerinin müayinəsi özünün səmərəliliyi və zəruriliyinə görə geniş yayılmış, eyni zamanda məsuliyyətli yanaşma tələb edən istintaq hərəkətlərindən biridir. Əvvəla, hadisə yerinin müayinəsi mürəkkəb və eyni zamanda nəticə verən istintaq hərəkətidir. İkincisi, onun vasitəsilə iz, predmet, ləkə, maddələr vasitəsilə geniş məlumat almaq mümkündür. Üçüncüsü, təkcə hadisə yerində şəraitin öyrənilməsi müstəntiqin hadisənin necə cərəyan etməsi və ya həmin hadisənin, ümumiyyətlə, baş verib, yaxud baş verməməsi barədə qənaətə gəlməsi üçün olduqca faydalı təsirə malikdir.

Dördüncüsü, hadisə yerində olan qiymətli faktiki məlumatları məhz hadisə yerinin müayinəsi zamanı aşkara çıxarmaq və sübut kimi rəsmiləşdirmək mümkündür.

Beşincisi, hadisə yerində olan izlərin və digər maddi sübutların itməməsi və ya təbii təsirlər nəticəsində yoxa çıxmaması üçün hadisə yerinin müayinəsi dərhal və operativ qaydada həyata keçirilməlidir. Beləliklə, hadisə yerinin müayinəsi bütövlükdə cinayətin açılması üçün əsas yaradır.

Psixoloji aspektdə hadisə yerinin müayinəsi müstəntiqin cinayətin baş verdiyi şəraiti bilavasitə mənimsəməsinə imkan yaradır.

Cinayət işinin istintaqı zamanı obyektiv həqiqətin aşkara çıxarılmasına maneə yaradan və düzgün qərar qəbul etməyə imkan verməyən çoxsaylı səbəblərlə rastlaşmaq olar. Belə ki, əksər hallarda cinayət törədiləndən sonra onun barəsində müstəntiqə dərhal məlumat daxil olmur. Bəzi hallarda müstəntiqin hadisə yerinə gəlməsinə kimi həmin yer cinayət törədilərkən mövcud simasını dəyişmiş, bəzi hallarda qəsdən dəyişikliyə uğradılmış olur. Şəraitin müxtəlif səbəblərdən dəyişməsi mümkünlüyünə baxmayaraq, hadisə yeri əksər hallarda törədilmiş cinayətin açılması üçün vacib sübutları, izləri, əlamətləri saxlamış olur. Bununla belə, imkan dərəcəsində hadisə yerinin dərhal müayinə edilməsi zəruri sübutların əldə edilməsi və istintaqın düzgün istiqamətdə aparılması üçün olduqca vacibdir.

Bu hadisə yerinin müayinəsinin əhəmiyyətini artıran ilk, lakin yeganə cəhət deyil. Vacib olan hadisə

yerinin müayinəsi zamanı cinayəti törətməkdə təqsirli olanların ifşa edilməsinə yardım edə biləcək digər sübutların əldə edilməsinə xidmət edə bilən ən xırda detalların, izlərin nəzərdən qaçırılmamasıdır. Bəzən hadisə yerində olan, ilk baxışda cinayətin törədilməsi ilə hər hansı bir əlaqəsinin olmasına dəlalət etməyən, lakin hadisə yerində mövcudluğu həmin yerin şəraitinə uyğun gəlməyən və məntiqi cəhətdən təsdiqini tapmayan hər hansı əşyanın, izin aşkarlanaraq hadisə yerinin protokolunda rəsmiləşdirilməsi, maddi sübut kimi götürülməsi, cinayətin açılmasında onu törədən şəxslərin dairəsinin müəyyən edilməsində həlledici rola malik olur. Odur ki, müstəntiq hadisə yerini müayinə edərkən bütün detallara diqqət yetirməli, hadisə yerində olan predmetlərin cinayətin törədilməsi, həm də hadisə yeri ilə əlaqəsini özünün təfəkkür süzgəcindən keçirməli, hər hansı uyğunsuzluğa aydınlıq gətirməli və lazım bildiyi məqamları hadisə yerinin müayinə protokoluna daxil etməlidir. Hadisə yerinin, orada aşkar olunan əşya, predmet və izlərin protokolda düzgün təsvir edilməsi hadisənin necə baş verməsi barədə ilkin təsəvvürlərin formalaşması, istintaq fərziyyələrinin hazırlanması üçün mühüm əhəmiyyət kəsb edir. Belə ki, "müayinə" termini özündə müstəntiqin hadisə yeri, oradakı predmetlər, cinayətin izləri ilə bağlı təsəvvürlərini formalaşdırmasını ehtiva edir. Hadisə

yerinin müayinəsi zamanı müstəntiqin aldığı, əldə etdiyi biliklər cinayətin sübutetməsinin sonrakı prosesində daim onun yardımına gəlir, əldə edilən hər növbəti sübutun hadisə yeri ilə uyğunluğunun, cinayətin törədilməsinin ümumi mənzərəsinin canlandırılmasında özünün faydalı təsirini göstərir. Hadisə yerinin müayinəsi zamanı cinayətin izlərinin aşkar edilməsi ilə bağlı müstəntiqin peşəkar qabiliyyəti həmin istintaq hərəkətinin cinayəti törədən şəxslərin aşkara çıxarılması üçün əlavə təminatlar yaradır.

Hadisə yerindən götürülmüş predmetlərin sonradan detallı müayinəsi, zəruri hallarda onların ekspertizadan keçirilməsi, mütəxəssislər tərəfindən tədqiqi digər sübutlarla əlaqələndirilməsi, müqayisəli tədqiqata məruz qalması, bəzi hallarda cinayəti törətməkdə şübhəli olan şəxslərə təqdim olunması və s. cinayət hadisəsinin vaxtında açılması, cinayəti törətmiş şəxslərin dairəsinin müəyyən edilməsində mühüm rol oynayır.

Hadisə yeri nə qədər detallı və ətraflı müayinə edilirsə, istintaqın gələcək uğuru üçün bir o qədər əsaslı zəmin yaradılır, iş üzrə digər əhəmiyyətli sübutların əldə edilməsinə səbəb olur.

Hadisə yerinin müayinəsinin səmərəliliyi həmin istintaq hərəkətinin mahiyyəti və imkanlarının düzgün dərk edilməsindən çox asılıdır. Hadisə yerinin müayinəsi zamanı yolverilən səhvlər, vaxtında ha-

disə yerində götürülməmiş maddi sübutlar, hadisə yerinin, oradakı iz və predmetlərin protokolda düzgün əks etdirilməməsi sübutetmə bazasının zəifləməsinə, bunun əksi isə istintaqın uğurla başa çatdırılmasına səbəb olur. Hadisə yerinin müayinəsi zamanı əldə edilə biləcək bir çox faktiki məlumatları, sonrakı istintaq hərəkətləri zamanı əldə edilməsi mümkün olmur. Bu isə sübutetmədə boşluqların yaranması ilə nəticələnir.

"Zirvədən zirvəyə" kitabında hüquqşünasların diqqətini cəlb edə biləcək məqamlardan biri İkram Kərimovun hadisə yerinin müayinəsinə verdiyi önəmdir. Şəxsən mən belə qənaətə gəldim ki, İkram müəllim hadisə yerinin müayinəsini cinayətin açılmasına aparan yol kimi dəyərləndirir.

15 avqust 1973-cü il tarixdə müstəntiqlərin iştirakı ilə keçirilən seminar məşğələsində həmkarları qarşısında "Hadisə yerinin müayinəsi qəsdən adam öldürmə cinayətlərində ən mühüm istintaq hərəkətidir" mövzusunda çıxış edərək İ.Kərimov deyirdi: "Qəsdən adam öldürmə cinayətini törədənlərlə effektli mübarizə aparılması – belə bir cinayəti edən hər bir şəxsin aşkar edilməsi və ona işlətdiyi cinayətin tam sübuta yetirilməsini tələb edir.

İstintaq işçilərinin belə bir nəticəyə nail olunmasında, əldə edilən sübutlar içərisində ən əhəmiyyətli yeri – hadisə yerinin müayinəsi zamanı toplanan maddi sübutlar tutur.

Cinayətin üstünün açılması, cinayəti törətmiş şəxslərin müəyyən edilib ifşa olunması, hadisə yerinin müayinəsinin nə dərəcədə vaxtında, keyfiyyətli və məharətlə aparılmasından çox asılıdır.

Hadisə yerinin müayinəsi, xüsusilə, qəsdən adam öldürmə cinayətlərinin istintaqında əsas, çətin və mürəkkəb mərhələdir – deyən kriminalistlər heç də səhv etmirlər. Bunun doğruluğunu gündəlik işimizdə, açılan və açılmayan cinayət işləri üzrə aparılan ümumiləşdirmələrin yekunlarında da bilavasitə görür, şahidi oluruq.

Hadisə yerinin müayinəsinin nəticəsi, istintaq versiyalarının qurulmasında, istintaq planının tərtib olunmasında əsas cəhətdir.

Hadisə yeri dedikdə, yalnız cinayət hadisəsinin baş verdiyi yeri deyil, habelə bu hadisənin nəticələrinin aşkar olunan yerləri də nəzərdə tutulur. Məsələn: şəxsin meyitinin öldürüldüyü yerdə deyil, başqa yerdə aşkar olunduğu hallar. Ona görə də hadisə yeri müayinə olunarkən ilk növbədə hadisə yerinin məhz hansı məkandan ibarət olması aydınlaşdırılmalıdır.

Belə müayinələr keçirilərkən məqsəd, kompleks kriminalistik tədbirlər nəticəsində maddi sübutların, cinayət izlərinin aşkar edilib götürülməsinə, cinayətin mexanizm və motivinin aydınlaşdırılmasına yönəldilir. Bunlar isə "isti izlə" axtarış tədbirlərinin həyata keçirilməsində istifadə olunur.

Hadisə yerinin müayinəsini keyfiyyətli keçirmək üçün müayinədə prokuror-kriminalistin, əməliyyatçıların, mütəxəssislərin iştirakı və aşağıda göstərilən təşkilati-hazırlıq tədbirlərinin həyata keçirilməsi zəruridir:

1. Hadisə yerindən kənar adamların uzaqlaşdırılması və hadisəni görən şəxslərin müəyyən edilməsi;

2. Zərərçəkmiş şəxsin ölüb-ölməməsinin yoxlanılması. Əgər sağdırsa, zərərçəkmiş şəxsə ilkin tibbi yardım göstərilməlidir. Burada yaxşı olardı ki, cinayəti törədən şəxsin kim olması və cinayətin hansı səbəbdən baş verməsi barədə zərərçəkmiş şəxs sorğu edilsin;

3. Hadisə yerinin mühafizə edilib saxlanılmasını yoxlamaq və sərhədlərini müəyyən etmək;

4. Cinayət-axtarış işinin tətbiq olunub-olunmaması məsələsinin həlli;

5. Hadisəni görənlər və meyiti ilk dəfə müşahidə edənlərlə söhbət aparmaq;

6. Hal şahidlərinin seçilib, müəyyənləşdirilməsi;

7. Hadisə yerinin müayinəsində müstəntiqin mülahizəsinə görə iştirak edə bilən şəxslərin müəyyən olunması.

Hadisə yerinə baxış əsasən üç mərhələdən ibarətdir:

I. Hadisə yerində tərpədilməyən predmetlərin müayinə edilməsi;

II. Hadisə yerindən götürülən predmetlərin müəyyən edilməsi;

III. Göstərilənlərin protokolda əks olunması.

Müayinədə aşağıda göstərilən izlərin aşkar edilməsinə əhəmiyyət verilməlidir.

1. Əl-barmaq izləri və qan ləkələri;
2. Ayaq /ayaqqabı və yalın ayaq/ izləri;
3. Sındırma alətlərinin izləri;
4. Nəqliyyat vasitələrinin izləri;
5. Diş və sperma izləri;
6. Dırnaq və tük izləri;
7. İnsan orqanizmindən digər ayırmaların izləri;
8. Cinayəti işlətmiş şəxs tərəfindən unudularaq (və ya atılaraq) hadisə yerində qalan əşyalar (siqaret kötüyü, gilz, qırma, güllə, tıxac, müxtəliftəyinatlı butulkalar, geyim ləvazimatları və s.);
9. Cinayət aləti izləri (odlu və soyuq silah, küt alət, məişətdə, istehsalatda, orduda və başqa qurumlarda işlədilən digər silah və alətlər) və s.

Təsvir olunan istintaq hərəkətlərini yerinə yetirdikdən sonra meyitin xarici müayinəsinə başlanılmalıdır.

Meyitin aşkar edildiyi yer, vəziyyəti, pozası qeyd olunmalı, meyitdə qalan cinayət alətinin izi olan predmetlər təsvir edilməli, paltarı və zədələri, habelə meyit əlamətləri (meyitin soyuması, meyit ləkələri, çürümə və s.) müayinə olunmalıdır.

Bu zaman müqayisəli tədqiqat üçün nümunələrin götürülməsinə xüsusi diqqət yetirilməlidir. Buraya daxili oqranlardan götürülən nümunə, dırnaq, dəri, saç və digər tük kəsimləri daxildir.

Meyitin şəxsiyyəti bəlli olmadığı hallarda ümumi fotoşəkillərlə işi bitmiş hesab etmək olmaz. Bu zaman meyitin fərdi əlamətlərinə: çapıq, xal, şiş, cərrahi və stomatoloji müdaxilələr, şikəstlik, döymə (tatuirovka) və s. əlamətlər nəzərdən qaçırılmamalıdır. Meyitin əl-barmaq izləri götürülərək yoxlanılmalıdır.

Meyitin tədqiqində müstəntiqin iştirakı mütləqdir və bu, qanunun tələbidir.

Qeyd olunanlara riayət edilməməsi meyitin eksqumasiyası ilə nəticələnir. Bunun icrası isə bəzən problemlər yaradır və yaxud mümkün olmur.

Hadisə yerinin müayinəsi vaxtı götürülmüş predmetlərin qablaşdırılması, saxlanılması, möhürlənməsi və bununla əlaqədar digər tələblərə riayət edilməlidir. Yaş və nəm əşyaların mühafizəsi və qurudulması təmin olunmalıdır.

Müayinə şərh olunanlarla məhdudlaşdırılmamalı, mövcud şəraitdən asılı olaraq əhəmiyyət kəsb edən heç nə diqqətdən kənarda qalmamalıdır".

Daha sonra İ.Kərimov həmkarlarına hadisə yerinin və meyitin müayinəsi ilə əlaqədar əldə olunmuş sübutlardan istifadə zamanı yarana biləcək problemlərdən söhbət açır: "Burada meyitin müayi-

nəsi və toplanmış sübutların qiymətləndirilməsi ilə əlaqədar bir məsələyə də toxunmaq istəyirəm. Əhvalat Tovuz rayonunda baş vermişdi. Meyitin bədənindən çıxarılmış qırmalar və cinayət işlətmiş şəxsin qaldığı yerdən götürülmüş qırmalar istər fiziki, istərsə də kimyəvi tərkiblərinə görə kəskin surətdə bir-birindən fərqlənirdi. İlk baxışdan bu iş üçün ziddiyyət təşkil edən amil təsiri bağışlayırdı. Bu, işin faktiki halları ilə də uzlaşmırdı" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. s. 417-419).

İ.Kərimovun çıxışının sonrakı hissəsi bilavasitə hadisə yerinin müayinəsi ilə deyil, müayinə vaxtı əldə edilmiş sübutlardan istifadə, sübutlar arasında meydana çıxan ziddiyyətlərin araşdırılması ilə bağlıdır. İşinə məsuliyyətlə yanaşan müstəntiq cinayət işində biri-birini istisna edən sübutlara laqeyid münasibət bəsləyə biməz. Bu cür ziddiyyətlər çözülməli, faktiki vəziyyətə aydınlıq gətirilməlidir. İ.Kərimov davam edərək deyir: "Odur ki, qırmaların əldəedilmə mənbələri araşdırılaraq, bu dairədə geniş istintaq hərəkətləri aparıldı. Müəyyən edildi ki, cinayəti işlətmiş şəxsin qaldığı yataq yaşayış məntəqələrindən aralı, yüksək dağ yamacında yerləşir. Yataqda saxladığı ov tüfənginin gilizlərini doldurmaq üçün qırmaları Tovuz, Ağstafa, Qazax və Şəmsəddin rayonunun ovçuluq mağazalarından əldə edirmiş. Bəzən ətrafda ov edən şəxslərdən də qırmalar alır-

mış. Yəni qırmaları müxtəlif vaxtlarda və müxtəlif mənbələrdən əldə edirmiş. Ona görə də həm meyitin bədənindən çıxarılmış qırmalar, həm də yataqdan götürülmüş qırmalar ayrı-ayrılıqda müxtəlif tərkibdə olmuşdur. Təbii ki, buna görə meyitdən çıxarılan qırmalarla yataqdan götürülmüş qırmalar da fərqli idi. Sübutlara qiymət verilərkən, meyitdən çıxan qırmaların özlərinin və yataqdan götürülən qırmaların özlərinin müxtəlif olmaları, onların əldə edilmə mənbələrinə uyğun gəlməsi səbəbindən bu fərqlilik işin faktiki halları ilə təsdiq olunduğundan, fakt ziddiyyətli hal kimi qəbul edilməmiş, sübut növü kimi qiymətləndirilmişdi" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 420).

İkram müəllim müstəntiq kimi işdə sübutlar arasında mövcud olan ziddiyyətləri vaxtında aşkar edib onlara aydınlıq gətirməsəydi, baş vermiş cinayəti törədən şəxsin ədalətli cəzasını alacağı şübhə altında qalmış olardı.

Hesab edirik ki, İkram müəllimin 50 il əvvəl müstəntiq həmkarları qarşısında etdiyi çıxış hazırda da özünün aktuallığını saxlayır və müstəntiqlər üçün faydalı məsləhətləri özündə əks etdirir. Biz İkram müəllimin hadisə yerinin müayinəsi zamanı nümayiş etdirdiyi peşəkarlıqlar haqqında yenə də söz açacağıq. Əslində, İkram müəllimin istintaqçı kimi peşəkarlığı barədə 50-60 il əvvəl nəinki respublika

səviyyəsində, hətta SSR İttifaqı səviyyəsində kifayət qədər yazılmış və onun istintaqçı kimi məharətləri dəfələrlə mükafatlandırılmışdır. Bizim yenidən bu barədə söz açmaqda məqsədimiz İkram Kərimov məktəbinin respublika istintaqçıları tərəfindən davam etdirilməsi, bu məktəbin yaşadılması və ondan daim faydalanmağın mümkün olması ilə bağlıdır.

Hadisə yerinin müayinəsi, işdəki sübutlar arasında ziddiyyətlərin aradan qaldırılması, müstəntiqin məqsədyönlü fəaliyyəti ilə bağlı başqa bir misalla "Xəstə qızın ata və anasını öldürməsi" adlı yazıda da rast gəlirik. İkram müəllim Qusar Rayon Prokurorluğunda müstəntiq işlədiyi vaxt ər-arvad İlyasovlar evlərində kiçikçaplı 5,6 mm kalibrli yivli odlu silahdan atılan atəşlə qətlə yetirilmişdilər. Hadisə yerində müayinə aparılarkən meyitlərin ayrı-ayrı otaqlarda olması, qadının vurulduğu otaqda bir gilizin aşkar olunması, güllənin keçici olmaqla qadının baş nahiyəsini keçib divarda qalması, kişinin isə digər otaqda yatağında vurulması, həmin otaqda hadisə yerində iki gilizin olması aşkar edilmişdi. Meyitin xarici müayinəsi zamanı meyitdə ikinci güllə izi aşkar edilməmişdi. Tüfəng evdə stolun üstündə olmaqla, evin şəraitində ciddi dəyişiklik baş verməmişdi.

Müayinə zamanı qətlə yetirilənlərin ali məktəbi yenicə bitirmiş qızları dindirilərkən o, qətlin özü tərəfindən icra olunmasını etiraf etmiş və söylədikləri

hadisə yerinin müayinəsi zamanı müəyyən edilən faktiki hallarla tam uyğunluq təşkil etmişdir.

Atanın meyiti müayinə edilərkən ekspet onun başında yalnız bir güllə yerinin olmasını aşkar etmişdir. Müstəntiq İ.Kərimov qətli etiraf edən qızın atasına iki güllə açdığını bildirməsi, otaqda iki gilizin tapılması ilə ekspert tərəfindən aşkar edilənlər ziddiyyət təşkil etdiyinə görə meyitin baş tükünün ülgüclə qırxılmasını və müayinənin davam etdirilməsini tələb etmiş, onun tələbi yerinə yetiriləndən sonra meyitin baş hissəsində ikinci güllənin izi də aşkar olunmuşdur. Hadisə ilə bağlı İ.Kərimov daha sonra yazır: "Bu fakt özü də bir daha göstərdi ki, meyitin müayinəsində müstəntiqin iştirakı işin xeyrinədir. Odur ki, sonrakı illərdə, on ilə yaxın prokuror vəzifəsində işləyərkən, müstəntiqləri məcbur edirdim ki, qanunun tələblərinə dönmədən riayət etsinlər. Əgər meyitin müayinəsində müstəntiq iştirak etmirdisə, onların cəzalandırılması məsələsi gündəmə gəlirdi. Tibb Ekspertizası Mərkəzinin rəhbərliyinə də bu barədə xəbərdarlıq məktubu göndərmişdim" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 222-223).

Hadisə yerinin müayinəsi zamanı əldə edilən maddi sübutlardan digər sübutların əldə edilməsi üçün istifadə, həmçinin təhqiqat orqanı ilə birgə fəaliyyət "Liftçi qadının qətli" (İkram Kərimov.

Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 276-278) yazısında İ.Kərimov Bakı şəhəri Nizami rayonunda "Neftçilər" metrosundan Əhmədli istiqamətinə gedərkən, yolun sol tərəfində inşa edilmiş doqquzmərtəbəli, birbloklu yaşayış binasında liftdə işləyən qadın yaşadığı evdə kəsici alətlə qətlə yetirilməsindən söhbət açır. Qətlin üstündən xeyli vaxt – təxminən 10 gün keçməsinə baxmayaraq, "cinayət işinin üstü açılmamışdı. Bir gün şəhər prokuroru Əliş Abbasoviç Əliyev mənə dedi ki, dur gedək Nizami rayon prokurorluğuna, görək bu işin istintaqının vəziyyəti nə yerdədir... Rayon prokurorluğuna gəldik. Milis şöbəsinin rəisi Ağarza Babayev də orada idi. Əliş müəllim, prokuror və milis şöbəsinin rəisi həmin işi müzakirə elədilər. Mən isə müstəntiq Elxan Pənahovla (Elxan Pənahov tələbə yoldaşımdır. Təvazökar, savadlı, ədalətli olmaqla yanaşı, tələbə yoldaşlarına qarşı xüsusi hörmət və diqqəti ilə seçilir – *V.İ*) cinayət işinin materialları ilə tanış olmağa başladım. Qətllə bağlı cinayət işlərində istiqamətin düzgün müəyyən edilməsi və işin açılmasında hadisə yerinin müayinəsinin nə dərəcədə keyfiyyətli aparılması xüsusi əhəmiyyət kəsb edir. Müstəntiq gənc olmasına baxmayaraq, bu işin öhdəsindən məharətlə gəlmişdi. Hadisə yerinin müayinəsi ilə bağlı sənədlərlə tanışlıq göstərdi ki, evin girişində – dəhlizdə bir antresol olmuşdur.

Müayinə zamanı aşkar edilmişdi ki, həmin antresol boşaldılmış və ora yığılan əşyaların müəyyən hissəsi yerə tökülmüşdür. Diqqəti cəlb edən "Zarya" markalı, qolbağı üstündə olan qadın qızıl qol saatının pasportu müstəntiq tərəfindən götürülmüşdü... Qadının həmin mənzildə tək yaşaması və şərh olunan mənzərə belə bir təəssürat yaradırdı ki, hadisə tamah məqsədilə törədilib. Ola bilsin ki, antresolda nəsə əhəmiyyətli şey olub, onu axtarıblar.

Məlum oldu ki, həmin vaxtadək saatın pasportu ətrafında istintaq hərəkətləri aparılmayıb. Ümumiyyətlə, hadisə yerində əhəmiyyət kəsb edən hər bir predmet götürülməli, cinayətin izinə düşmək üçün onun ətrafında əməliyyat və istintaq hərəkətləri aparılmalıdır. Təcrübəmə görə, saatın pasportu əsasında şəhərdə olan zərgərlik mağazalarına sorğu edilməli, pasportda nömrəsi göstərilən saatın satış üçün mağazalara verilib-verilməməsi aydınlaşdırılmalı idi. Bu istintaq hərəkətləri ilə bərabər, əməliyyatçılar zərgərlərlə əlaqə saxlamalı, belə saatın fərdi qaydada onlara təklif edilib-edilməməsini müəyyənləşdirməli idilər. Bir qayda olaraq, cinayət axtarışı üzrə əməliyyatçılarda zərgərlər, zərgərlik mağazaları, lombardlar, onların əməkdaşları barədə müfəssəl məlumatlar olurdu.

...Bundan təxminən 3-4 gün keçmiş milis şöbəsinə məlumat daxil oldu ki, bizi maraqlandıran saat

Natəvan heykəlinin yaxınlığında yerləşən "Firuzə" zərgərlik mağazasına təklif olunub. Mağaza ilə satıcı arasında müqavilə bağlanıb. Biz mağaza müdirinə saatın satılması barədə onu təhvil verən şəxsə məlumat verməyi tapşırdıq. Qurulmuş əməliyyat şəraitində saatın pulunu götürmək üçün mağazaya gələn şəxs yaxalandı... O, götürdüyü əşyaların əksər hissəsini istintaqa təqdim etdi. Bir hissəsini isə tanımadığı şəxslərə satdığını bildirdi.

...Hesab edirəm ki, həmin hadisədən nəticə çıxarmalı məqamlar əhəmiyyət kəsb edir" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 276-278).

SSRİ Prokurorluğunun rəhbər kadrların ixtisasartırma İnstitutunda "Qəsdən adam öldürmənin istintaqı üzərində prokuror nəzarəti" mövzusunda 1984-cü ilin dekabr ayında yazılmış referat işində İkram Kərimov bir sıra məsələlərə özünün elmi yanaşmasını nümayiş etdirməklə bərabər, təcrübədə qəsdən adam öldürmə cinayətlərinin istintaqı üzərində prokuror nəzarətinin həyata keçirilməsi mərhələləri, hər mərhələ üçün xarakterik cəhətləri açıqlamış və nəzarətin səmərəliliyinin təmini ilə bağlı təcrübəsini bölüşmüşdür. Həmin referat işindən bəzi məqamlara nəzər salaq.

İ.Kərimov referat işinin "Adam öldürmənin istintaqı zamanı təxirəsalınmaz istintaq hərəkətlərinin

icrası üzəriində prokuror nəzarəti" adlanan ikinci bölməsində yazır: "Adam öldürmənin, xüsusən aşkar olmayan şəraitdə törədilmiş adam öldürmənin açılması və istintaqının müvəffəqiyyəti əhəmiyyətli dərəcədə istintaqın başlanğıc mərhələsində təxirəsalınmaz istintaq hərəkətlərinin məqsədyönlü və vaxtında keçirilməsindən, həmçinin əldə edilmiş məlumatlardan gələcək istintaq prosesində maksimum istifadə olunmasından asılıdır. Əbəs yerə SSRİ Baş Prokurorunun 29.07.84-cü il tarixli 49/15 №-li göstərişində qeyd olunmamışdır ki, bəzi hallarda "adam öldürmə cinayətləri təxirəsalınmaz istintaq hərəkətlərinin peşəkarlıqla və vaxtında yerinə yetirilməməsi, gecikmələrə yol verilməsi, lazımi qaydada təşkil olunmaması ucbatından açılmamış qalır". Adam öldürmə işləri üzrə istintaqın ilkin mərhələsində həyata keçirilən istintaq hərəkətləri arasında hadisə yerinin müayinəsi daha mühüm əhəmiyyətə malikdir.

Adam öldürmə işləri üzrə hadisə yerinin müayinəsi başlanğıc istintaq hərəkəti, adam öldürmənin açılmasının mürəkkəb yolunda ilk addımdır.

Hadisə yerinin müayinəsi dərhal həyata keçirildikdə daha çox səmərəliliyə nail olmaq mümkündür. Bu şərtin yerinə yetirilməməsi son dərəcə mənfi nəticələrə səbəb ola bilər. Məsələn, müstəntiqin hadisə yerinə gəlişinə kimi izlər tapdanmış, yağışla yuyulmuş və ya qarlala örtülmüş ola bilər. Müayinənin

təxirəsalınmazlığı məlumatlandırmanın, toplanma və hadisə yerinə çıxışın dəqiq sistemi ilə təmin olunur. Zorakı öldürmə əlamətləri olan meyitin aşkar edilməsi barədə ilkin məlumat bir qayda olaraq, milisə daxil olur. Milis əməkdaşları bu cür hər bir məlumat haqqında dərhal prokuroru xəbərdar etməlidirlər.

Cinayətin törədilməsi barədə daxil olan məlumata vaxtında reaksiya vermək prokurordan bunun üçün lazımi şəraitin, imkanın yaradılmasını və hazırlığın görülməsini tələb edir. Müstəntiqlərin növbətçiliyinin təşkili, istintaq-əməliyyat qrupunun yaradılması məhz bu məqsədə xidmət edir. Bununla belə prokuror bütün ciddiliyi ilə müstəntiqləri belə bir qaydaya alışdırmalıdır ki, onlar özləri, həmçinin istintaq çamadanında zəruri texniki vasitələr, maqnitofon, fotokomplekt, blanklar, planşet və s. daim hadisə yerinə çıxış üçün hazır vəziyyətdə olsun. Bu cür qayda olduqca müsbət əhəmiyyət kəsb edir. O, səbatsızlığı, qeyri-təşkilatçılığı, zəruri, təxirəsalınmaz istintaq hərəkətləri tezliklə yerinə yetirilməsi, hər şeydən əvvəl, hadisə yerinin müayinəsi üçün hazırlıqsızlığı tamamilə istisna edir.

Bundan əlavə digər hüquq-mühafizə orqanları və ekspert müəssisələrinin işlərinin təşkili də olduqca mühüm əhəmiyyətə malikdir. Prokurorun həmin məsələlərə xüsusi diqqət yetirməsi zəruridir, çünki işin müvəffəqiyyəti bir çox hallarda həmin məsələlərin

düzgün təşkilindən asılı olur (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 356-358).

"SSRİ Baş Prokurorunun 22.07.83-cü il tarixli 47№-li əmrində tələb olunduğu kimi, adam öldürmə cinayətlərinin istintaqı zamanı təxirəsalınmaz istintaq hərəkətlərində prokurorun şəxsi iştirakı, şübhəsiz ki, özünü doğruldur. Bu işin bütün hallarının daha dərindən tədqiqinə, versiyaların düzgün irəli sürülməsi və yoxlanmasına yardım edir, həmçinin prokurora işlə tanış olan şəxs kimi adam öldürmənin istintaqı və açılmasına prokuror nəzarətinin daha predmetli və dəqiq həyata keçirilməsinə imkan verir.

Hadisə yerinə çıxan prokuror üçün hadisə yerinin müayinəsinə həqiqi nəzarəti, rəhbərliyi, müstəntiqə yardımı həyata keçirmək zəruridir. Müstəntiqin hadisə yerinin müayinəsindən yayınmaması üçün prokuror hadisə yerinin necə mühafizə olunmasını, DİŞ tərəfindən əməliyyatçıların ayrılıb-ayrılmamasını, onların hadisəni gözü ilə görən şahidlərin, təqsirli olan şəxslərin müəyyən edilməsi üçün müəyyən qruplar üzrə bölüşdürülüb-bölüşdürülməməsini və s. aydınlaşdıra bilər. Bununla belə təcrübədə çox vaxt hadisə yerində daxili işlər orqanlarının vəzifəli şəxslərindən ibarət böyük sayda əməkdaşının toplaşması və "müşahidəçi" qismində iştirakının şahidi olmaq mümkündür. Bu isə hadisə yerinin mühafizəsini çətinləşdirir və izlərin itməsinə səbəb olur. Ona görə prokuror

hadisə yerində yalnız müayinədə iştirak edən şəxslərin qalmasına nail olmalıdır.

Prokurorun müstətiqin hadisə yerinin müayinəsini planauyğun, öz diqqətini sonradan maddi sübut kimi hesab olunacaq izlərin, predmetlərin aşkar edilməsi, götürülməsi və rəsmiləşdirməsinə, mütəxəssislərin fəaliyyətini lazımi qaydada əlaqələndirməsinə cəmləşdirməsinə, mütəxəssislərin müstəntiqə daha tam və həqiqi yardım göstərmələrinin təmininə göz qoyması zəruridir.

Prokuror hadisə yerində olmaqla mütəxəssislərlə özü məsləhətləşir, müayinənin daha tam və peşəkarcasına keçirilməsi üçün müstəntiq və mütəxəssislərin qarşısında vəzifələr qoyur. Zəruri hallarda prokuror istintaq qrupu yaradılması haqqında məsələni həll edir və ya özünün tabeliyində olan digər müstəntiqi (əgər müstəntiqlər həmin vaxt başqa məsələlər və ya işlərlə məşğuldurlarsa, hətta prokuror köməkçisini) hadisə yerinin müayinəsini keçirən müstəntiqə yardımçı kimi təyin edir.

Əgər təxirəsalınmaz istintaq hərəkətləri keçirilən vaxt meyitin şəxsiyyəti müəyyən edilməmişdirsə, prokuror özü hadisə yerinin müayinəsi ilə məşğul olan müstəntiqi işdən ayırmadan bunun aydınlaşdırılması üçün tədbirlər görür. Bu məqsədlə prokuror yerli adamlar, polis əməkdaşları, meyiti ilkin görənlərlə söhbətlər aparır, milis əməkdaşları vasitəsi ilə və

ya şəxsən ailələrində əvvəllər itkin düşmüş şəxslər olanları dəvət edir, sənədləri və gündəlik daxil olan məlumatları (ərizə, şikayət) nəzərdən keçirir. Belə ki, adətən müstəntiqin həmin materiallar barədə məlumatı olmur, lakin həmni materialların həllinə münasibətdə müəyyən məlumata malik olan prokuror zərərçəkmiş şəxsin şəxsiyyətinin müəyyən edilməsi ilə bağlı müəyyən məqamları xatırlaya bilər. Prokuror həmin məqsədlə zəruri tanınmaların həyata keçirilməsi üçün müstəntiqə məlumatlar verir (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 359-360).

## Müstəntiq və təhqiqat orqanlarının qarşılıqlı fəaliyyəti

Adam öldürmənin sosial təhlükəliliyinin nəhəngliyi, həmçinin bu cür cinayətlərin istintaqı zamanı tez-tez üzləşilən böyük çətinliklər cinayətkarın axtarılması və ifşa edilməsi vəzifəsi üzərinə qoyulmuş müstəntiq və təhqiqat orqanları əməkdaşlarının səylərinin birləşdirilməsini tələb edir.

Bu sadəcə gücün üst-üstə qoyulması deyil, qeyd olunan vəzifəli şəxslərin qanunda nəzərdə tutulan hüquq və vəzifələrinin dəqiq fərqləndirilməsi ilə qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsidir. Müstəntiq və təhqiqat orqanlarının qarşılıqlı fəaliyyəti aşağıdakı formalarda təzahür edə bilər: a) eyni vaxtda və ya

birdəfəlik; b) mütəmadi; c) daim fəaliyyət göstərən. Adam öldürmənin istintaqı zamanı prokuror, müstəntiq və təhqiqat orqanının birgə fəaliyyətinin müvəffəqiyyəti əhəmiyyətli dərəcədə onun bacarıqla təşkil olunmasından asılıdır. Adam öldürmə cinayətlərin elə kateqoriyasına aiddir ki, orada qarşılıqlı fəaliyyət bir qayda olaraq, artıq cinayət işinin başlanılması mərhələsində təşkil olunmalıdır. Həmin işlər üzrə təhqiqat orqanı tərəfindən əməliyyat-axtarış və prosessual vasitələrlə yardım göstərməsinə zərurət, adətən, hadisə yerinə çıxış, onun müayinəsi və digər təxirəsalınmaz istintaq hərəkətlərinin icrasının təşkili zamanı başlayır... Müstəntiq və daxili işlər orqanı əməkdaşları ağır cinayətlərə baxılması üzrə ixtisaslaşdıqları halda bu cür qarşılıqlı fəaliyyətin təşkilinin səmərəsi daha yüksək olur.

Qarşılıqlı fəaliyyət zamanı uzlaşmaya müəyyən şərtlərə riayət edilməsi ilə nail olunur:

– Təhqiqat orqanı tərəfindən cinayətin törədilməsi haqqında prokuror və müstəntiqin vaxtında məlumatlandırılması və müstənqiq və təhqiqat orqanının hadisə yerinə birgə çıxışının təşkili;

– Cinayətin açılması və istintaqı gedişində müstəntiq və təhqiqat orqanı əməkdaşlarının qarşılıqlı məlumatlandırılması;

– İş üzrə toplanmış istintaq və əməliyyat-axtarış məlumatlarına dair fərziyyələrin irəli sürülməsi zamanı

birgə müzakirə, onlar əsasında istintaqın və əməliyyat-axtarış tədbirlərinin keçirilməsinin planlaşdırılması.

Təhqiqat orqanları ilə qarşılıqlı fəaliyyət zamanı prokuror təşkilati rolun müstəntiqə məxsus olmasına nail olmalıdır. Belə ki, məhz müstəntiq, ilk növbədə, istintaq zamanı ona təhqiqat orqanının yardımının xarakterini müəyyən edir (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 360-362).

## Cinayət işinin səmtini düzgün müəyyən etmək bacarığı

*"Prokurorluğun fəallar toplantısında edilmiş çıxış"*

24 avqust 1972-ci il İ.Kərimov prokurorluğun fəallar toplantısındakı çıxışında yeni insanın tərbiyəsi və cinayətkarlığın kökünün tədricən kəsilməsi ilə bağlı prokurorluq əməkdaşlarının qarşısında duran vəzifələrdən söhbət açaraq deyirdi:

"Baş vermiş cinayətlərin üstünün açılması, hər bir iş üzrə obyektiv həqiqətin müəyyən olunması, cinayətin edilməsinə köməklik edən səbəblərin və şəraitin aradan qaldırılması üzrə tədbirlərin görülməsi bu vəzifənin gündəlik işimizdə həyata keçirilməsi deməkdir.

...Cinayət işlərinin istintaqı zamanı cinayətin edilməsinə köməklik edən şərait və səbəblər araşdırılmaqla yanaşı, cinayət etmiş bütün şəxslərin tam ifşa

edilməsi, təqsiri olmayan şəxsin cinayət məsuliyyətinə cəlb olunmaması, vurulmuş zərərin ödənilməsi üçün tədbirlərin müəyyən edilməsi, nəhayət, istintaqın mümkün qədər tez və keyfiyyətli tamamlanması qarşıya qoyulmuş və prinsip etibarı ilə buna nail olunmuşdur.

...Təcrübə göstərir ki, hansı cinayət işinin istintaqı zamanı onun həcmi, mürəkkəbliyi, ilkin istintaq hərəkətlərinin xüsusi operativliklə edilməli olması əvvəlcədən düzgün qiymətləndirilirsə və istintaqın aparılması bu cəhətlər nəzərə alınmaqla təşkil olunursa, cinayətin üstünün daha tez açılması, istintaqın sürətlə və keyfiyyətlə aparılması ilə nəticələnir".

"Zirvədən zirvəyə" kitabını oxuyarkən istər İkram müəllim tərəfindən qələmə alınmış yazılarda, istərsə onun haqqında müxtəlif həmkarları tərəfindən yazılmış xatirələrdə əsl müstəntiq üçün zəruri olan "ilkin istintaq hərəkətlərinin xüsusi operativliklə edilməli olması və əvvəlcədən düzgün qiymətləndirmə" amili diqqəti cəlb edir. "Sənədsiz" şiferlərin alınması. İlk işim" yazısında da İkram müəllim özünə xas olan həmin xüsusiyyəti xatırlayaraq yazır: "Tez-tez işlətməyi xoşladığım bir ifadəni təkrarlıyıram. Müstəntiq istintaq etdiyi cinayət işinin səmtini düzgün müəyyənləşdirməlidir".

Bəli, müstəntiq ona verilmiş materiallarla ilkin tanışlıqdan, hadisə yerinin müayinəsindən sonra cinayət hadisəsinin baş verməsi ilə bağlı öz fərziyyələrini

hazırlamalı və ***ilk vaxtdan "istintaq etdiyi cinayət işinin səmtini düzgün müəyyənləşdirməyi bacarmalıdır". Bu həm də bir çox işdə, o cümlədən istintaq işində də şəxsi intuisiyadan çox asılıdır***.

İ.Kərimov cinayətin törədilməsinə şəraiti yaradan halların müəyyən edilməsi və bu cür hallara gələcəkdə yol verilməməsi məqsədilə tədbirlərin görülməsi zəruriliyini həmkarlarına tövsiyə etməklə yanaşı, hesab edirdi ki, "əsas və başlıca vəzifə bunun qarşısını cinayət hadisəsi baş verməzdən əvvəl almaq, cinayətin edilməsinə şərait yaradan halların vaxtında aradan qaldırılması üçün əməli tədbirlərin görülməsindən ibarətdir. Bu tədbirləri də, ilk növbədə, ayrı-ayrı idarə, müəssisə və təşkilatların rəhbərləri, nəhayət, yerli daxili işlər şöbələri və prokurorluqlar həyata keçirməlidirlər".

İ.Kərimov toplantıda həmkarlarına söylədiklərini yalnız sözdə deyil, təcrübədə rastlaşdığı misallarla əsaslandırır, bir neçə cinayət işi üzrə apardığı istintaq zamanı Azərbaycan SSR Nazirlər Sovetinin "Yük maşınları haqqında" 7 sentyabr 1966-cı il sərəncamının tələblərinin yerlərdə pozularaq dövlətə məxsus yük maşınlarının işdən sonra qarajlarda saxlanılmaması və onlardan müxtəlif cinayətlərin törədilməsində istifadə olunmasını yazısında nümunə kimi göstərirdi (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 378-381).

## Maddi sübut – cinayətin açılmasına dəlalət edən vacib amildir

"Dəvəçi işi" adlı yazıda İ.Kərimov Qusar rayon prokurorluğunda müstəntiq işlədiyi vaxt Ali Məhkəmənin Rəyasət Heyəti tərəfindən Dəvəçi Rayon Məhkəməsinin hökmünün nəzarət qaydasında ləğv edilərək, müqəssirlərə külli miqdarda kooperativ əmlakı mənimsəmələrinə görə ittiham verilməsi üçün istintaqa qaytarılmış işin istintaqının ona həvalə olunması və həmin işin istintaqı ilə bağlı xatirələrindən söhbət açır. Yazının müstəntiqlər üçün vacib cəhəti hər bir işdə mövcud olan maddi sübutun əldə edilməsinin istintaqın taleyi üçün əhəmiyyətinin önə çəkilməsindədir. Vacib cəhətlərdən biri də müstəntiq tərəfindən təqsirləndirilən şəxsin, onun müdafiəçisi tərəfindən irəli sürülən dəlillərin yoxlanılması, onların nə dərəcədə həqiqətə uyğun olmasının qiymətləndirilməsidir. Müstəntiq istintaqın gedişində meydana çıxan problemləri, sübutlar arasındakı ziddiyyətləri, təqsirləndirilən şəxsin özünün müdafiəsi üçün irəli sürdüyü dəlilləri görməzliyə vura bilməz. Əksinə müstəntiq çalışmalıdır ki, təqsirləndirilən şəxs ona qarşı irəli sürülən ittihamla razılaşmamasına dair dəlillərini tamamilə istintaqda bildirsin. Müstəntiq məhz istintaqın gedişində həmin dəlilləri yoxlamalı, toplanmış sübutlar əsasında hə-

min dəlilləri dəyərləndirməli və qərarında ona əsaslandırılmış qiymət verməlidir. Təqsirləndirilən şəxsin dəlillərinin istintaq zamanı yoxlanılmaması aparılmış istintaqın uğursuzluğu üçün zəmin təşkil edir.

İ.Kərimov yazır: "İş nəzarət qaydasında Ali Məhkəmənin Rəyasət Heyətində müzakirə edilmiş, müqəssirlərə külli miqdarda kooperativ əmlakı mənimsəmələrinə görə ittiham verilməsinə dair göstəriş verilmişdi. Başqa araşdırılmalı heç bir məsələ istintaqın qarşısında qoyulmamışdı. Belə olduğu halda müqəssirin əməlini CM-in 86-cı maddəsinin 2-ci hissəsindən, həmin maddənin 3-cü hissəsinə tövsif etməklə istintaqı tamamlamaq mümkün idi. Məhkəmə hökmünün ləğv edilməsinə məhz bu amil səbəb olmuşdu".

Lakin İ.Kərimovun icraatına daxil olmuş cinayət işinin istintaqına, cinayəti törədən şəxslərin aşkara çıxarılmasına öz yanaşması var idi. O, bir vaqon – 50.000 ədəd 12 vərəqli məktəbli dəftərinin Dəvəçi rayonunun sovxoz-fəhlə kooperativinə daxil olduqdan sonra yoxa çıxması, aparılan istintaq nəticəsində iş üzrə maddi sübutun əldə edilməməsi ilə razılaşa bilməzdi. Onu dəmiryol qaiməsinə imza edib 50.000 ədəd dəftəri təhvil alanın sadəcə dəftərləri "Dəvəçi rayon sovxoz-fəhlə kooperativinin kitab mağazasına təhvil verdim", mağaza müdirinin isə "mənə dəftər təhvil verilməyib" – deməsi qane edə bilməzdi. İkram

müəllimin istintaq etdiyi cinayət işlərində hadisənin cərəyan etməsinin hər bir məqamı aydın və məntiqi bağlılıqla öz əksini tapmalı, bu xüsusat müvafiq sənədlər və ya digər sübutlarla təsdiqlənməli, sonda isə əldə olunmuş maddi sübutlarla real sonluğuna çatmalı idi. Bu məqsədlə istintaqçı ilkin olaraq dəftərlərin sorağı ilə yola çıxdı. Bakı Şəhər Mədəni Mallar Ticarət İdarəsindən Dəvəçiyə göndərilən bir vaqon şagird dəftərinin Gürcüstanın Zuqdidi şəhərində yerləşən fabrikdə istehsal olunmasını, bölgüyə əsasən Azərbaycana oradan yalnız bir vaqon şagird dəftəri daxil olmasını, ölkəyə həmin il qalan dəftərlərin Rusiyadan göndərildiyini müvafiq sənədlər əsasılnda öyrənməklə müvafiq sübutları əldə etdi. İlkin istintaq zamanı aşkar edilməmiş dəftərlərin Gürcüstanın Zuqdidi şəhərində istehsal olunması, həm də həmin dəftərlərin yalnız Dəvəçi rayonuna göndərilməsi müstəntiq və işin ədalətli həlli üçün böyük imkanlar açırdı. Hadisədən iki il ötməsinə baxmayaraq, dəftərlərin say çoxluğu maddi sübutların əldə edilməsi üçün imkanların mövcudluğundan xəbər verirdi.

İkram müəllim yazır: "Bakıdan mütəxəssis-əmtəəşünas dəvət edib, kitab mağazasına yollandım. Mağazada artıq yeni adamlar işləyirdi. Mağaza təhvil götürülərkən dəftər qalığını və satışda nə qədərinin olmasını yoxladıq. Müəyyən edildi ki, yeni işçilər

mağazanı təhvil götürərkən orada 20.000 ədəd dəftər olmuş və hal-hazırda isə qalıq 16.000 ədəddir. Qalıq dəftərlərinin hamısı bir-bir yoxlanıldı. Onların arxasında rus dilində Gürcüstan SSR, Zuqdudi poliqrafiya kombinatında istehsal olunmasına dair tipoqrafik məlumat yazılması aydın oldu".

İ.Kərimov aparılan istintaqın nəticəsi ilə bağlı daha sonra yazır:

"Həsənzadə Əli barəsində cinayət işi bəraətverici əsaslarla xitam olundu. Və onun itirilmiş hüquqları bərpa olundu: əvvəlki işinə qayıtdı, ziyanın onun hesabına ödənilməsi ləğv edildi, partiya sıralarında qaldı.

...SSRİ Baş prokuroru R.Rudenkonun 10 aprel 1969-cu il tarixli 18 №-li əmrilə mənə təşəkkür elan edildi. Bu mənim ilk mükafatım oldu.

Azərbaycan SSR prokuronun müavini C.C.Vəliyevin imzası ilə cinayət işi üzrə təcrübə mübadiləsi kimi bütün şəhər və rayon prokurorlarına icmal məktub göndərildi" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 245-247).

İkram müəllimin yazdıqları gənc müstəntiqlər üçün təcrübə məktəbidir. Yazını oxuyan hər bir müstəntiq bir daha maddi sübutu əldə etmək üçün haradan yola çıxmalı, onu harada axtarmalı və necə əldə etməli olduğunu başa düşməklə yanaşı, işə məsuliyyətli yanaşmanın insan taleyinə təsiri ilə də tanış olur. Təqsiri olmayan şəxsin müstəntiqin məsu-

liyyətsizliyi nəticəsində cinayət məsuliyyətinə alınması bağışlanılmaz səhvlərdəndir.

Uzun müddət Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi vəzifəsində işləmiş Ramazan Rəcəblinin fikriləri də dediklərimizi təsdiq edir: "İkram müəllim... hər bir hüquqşünas üçün, xüsusilə hüquqşünasların gənc nəsli üçün gözəl nümunədir – bir məktəbdir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 304).

## İctimaiyyət, təhqiqat orqanı ilə sıx təmas və dindirmə taktikası

"Prokuror və onun ailəsinə edilən sui-qəsd" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 356-361) yazısında İkram Kərimov daha çox müstəntiqin ictimaiyyət, təhqiqat orqanı ilə sıx təmas və dindirmə taktikasını qurmaq qabiliyyətindən söhbət açır:

"1 may bayramı ərəfəsində Zaqatala şəhərində dəhşətli cinayət hadisəsi baş vermişdi. Rayon prokuroru Xankişi Şəmiyev və onun ailəsini öldürmək məqsədilə yaşadıqları ev yandırılmışdı.

...Baş vermiş hadisə ilə əlaqədar cinayət işinin istintaqının aparılması mənə tapşırıldı.

...Hadisəni kim və nə məqsədlə törətmişdi? Onu bu ağır cinayəti işlətməyə nə vadar etmişdi? Bu sualların cavabını tapmaq üçün istintaq-əməliyyat qrupu bir

neçə versiya üzərində işləməli oldu. Vaxt az idi. Bütün hallarda cinayətin üstünün açılmasının ləngidilməsi işin zərərinə, cinayəti işlətmiş şəxsin xeyrinə olur. Ona görə də qüvvəni versiyalar üzrə səpələməyərək ağıla batan variant üzərində cəmləşdirmək lazım gəlirdi. Hadisənin prokurorun iş fəaliyyəti ilə bağlı törədilməsi ehtimalı üzərində dayandıq. Onun şəxsiyyəti, həyat tərzi cinayətin şəxsi zəmində törədilməsini istisna edirdi".

Mühüm işlər müstəntiqi ictimaiyyət və təhqiqat orqanı əməkdaşları ilə apardığı söhbətlər nəticəsində müəyyən etmişdi ki, prokurorla rayonun keçmiş hərbi komissarı Niyazi Əfəndiyevin münasibətləri çox pis olub... Sonradan hərbi komissar ordudan təxris olunmuş və mebel fabrikinə direktor təyin edilmiş, bir müddət əvvəl prokurorluq fabrikdə yoxlama aparmış və direktorun (keçmiş hərbi komissarın) əməlində cinayət hərəkətləri müəyyən edərək onu həbs etmişdi. Niyazi Əfəndiyev istintaq dövründə xəstəxanada dünyasını dəyişmişdir.

Sabiq hərbi komissarın Bakıda, ali məktəbin əyani şöbəsində təhsil alan Ramiz adlı oğlunun hadisə baş verən günü Zaqatalada olması, sonrakı günlər rayonda gözə görünməməsi, təhsil aldığı məktəbdə dərsdə olmaması və Mingəçevir şəhərində yaxın tanışının evində olmasını müəyyənləşdirdikdən sonra istintaq-əməliyyat qrupu Mingəçevirə yola düşmüş və Ramizi orada aşkar etmişdir.

İ.Kərimov davam edərək yazır: "Onu prokuror-kriminalistin iştirakı ilə şəhər milis şöbəsində bizim üçün ayrılmış kabinetdə dindirdim. İstəyirdim Ramizdə təəssürat yaransın ki, artıq bizə hər şey bəllidir. Rəftarımızı elə qururduq ki, onda bu yəqinlik yaransın (əgər cinayəti o işlədibsə). Cinayəti kim edib, xəbərin varmı, düzünü de və s. əməliyyatçı sualları ilə onda heç bir şübhə oyatmaq istəmirdik.

Əməliyyatçılar kabineti tərk etdikdən sonra Ramizə əyləşməyi təklif etdim. Çox soyuqqanlılıqla, həyəcanımı büruzə vermədən dindirmə protokolunun blankını götürüb onun anket məlumatlarını doldurdum. Yalan ifadə verməyin məsuliyyətini rəsmən izah etdim. O, iltizama imza etdi. Çalışırdım üzünə baxmayım, baxışlarımız toqquşmasın. Özümü və prokuror-kriminalisti ona təqdim etdim. Respublika prokurorluğunun işçisi olmağımızı, vəzifələrimizi: "mühüm işlər müstəntiqi", "kriminalist" ifadələrini xüsusi vurğulayaraq, qəflətən soruşdum: "Nə üçün dərsə getmirsən, Bakıda deyilsən?". İstəyirdim ki, onun dərsə getməməsindən məlumatlı olduğumuzu bilsin və onda fikir yaradım ki, bizə hər şey bəllidir. Cavab almamış dedim ki, hadisə (nə hadisə demirəm) ilə bağlı ifadəsini arzu edərsə, dindirmədən sonra sərbəst yaza bilər. İstintaq işçisi bəzən səhv edərək başlanğıcdan istəyir ki, xüsusən etiraf ifadələri olduqda, şəxs ifadəni özü

yazsın. Qanun bunun əleyhinədir. Şəxs dindirmə qurtardıqdan sonra xətti ilə əlavələrini protokola yaza bilər. "Filankəs öz xətti ilə ifadəsini yazmışdır" sözünü vurğulamaqla müstəntiq özünü şübhə altına almamalıdır. Elə bu zaman o, hönkürtü ilə ağladı. Ramiz hündürboylu, idmançı cüssəli idi. Tez ona təsəlli verdim ki, ayıbdır, niyə ağlayırsan, adamın başına hadisə gələr. Bəzən düşünməyib hərəkət edirsən, sonra düz danışıb, peşmançılığını bildirirsən. Qanunda buna görə güzəşt nəzərdə tutulur. Birdən cavab verdi ki, "Hesab edirəm atam günahsız həbs edilib, şəxsi münasibətin qurbanıdır. Atamın acınacaqlı taleyi məni bu işə vadar etdi". Onun etirafedici ifadəsi rəsmiləşdirildi" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 359).

Həmin hadisə ilə bağlı Azərbaycan SSR Prokurorluğunun 285 №-li 5 sentyabr 1972-ci il tarixli əmrində aşağıdakılar qeyd olunur: "Yanğın nəticəsində izlərin məhv edilməsinə baxmayaraq, istintaq qrupu tərəfindən hadisə yeri diqqətlə müayinə olunmuş və bir sıra qiymətli əşyayi-dəlil aşkar edilərək götürülmüşdür. Bundan sonra onlar ətraflı istintaq planı tərtib etməklə, ələ keçirdikləri əşyayi-dəlilləri düzgün qiymətləndirmiş, cinayətin izini tapmaqda yüksək məharət və təşəbbüs göstərib, elmi-texniki vasitələrdən düzgün və səmərəli istifadə etməklə, yüksək keyfiyyətli ekspertizalar aparıb nəticədə qısa

bir müddətdə cinayətkarı müəyyən etmişlər" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 356-361).

Ali Məhkəmənin hakimi Gülzar Rzayeva "Bənzərsiz istintaqçı" adlı xatirəsində yazır: "Onun iş üsulunun incəlikləri çoxdur. Lakin hafizəmdə qalan ən mühümlərindən biri odur ki, ağıla gəlməyən, əhəmiyyət verilməyən, bizim üçün 70-80 faiz istintaqın mahiyyətinə aid olmayan adi nüansı önə çəkir və bunun hesabına qatı bir cinayətin açılmasının əsası qoyulurdu.

Mən bu fikrin praktikada dəfələrlə şahidi olmuşam. Adi bir misal. Ağır cinayət hadisəsi baş vermişdi. "Buzovnaneft" idarəsində işləyən Qəmbərov Fərman gözətçi köşkü ilə birlikdə yanaraq ölmüşdü. Bunu bədbəxt hadisə kimi qeydə alaraq həmin cinayət işinə xitam vermişdilər. Cinayət işi ilə tanış olarkən İkram müəllimin diqqətini bir məqam cəlb edir – yanğın baş verən torpaqda neft məhsulunun əlamətləri görsənirdi. Bu fakt onu şübhələndirdi və cinayət işinin icraatını təzələdi. Həmin cinayət işinin istintaqı çox vaxt apardı və əziyyətli keçdi. Ancaq cinayətkarın öz əməlinin etiraf etməsinin başlıca amillərindən biri belə bir fakt oldu. Onun ailə üzvləri dindirilərkən İkram müəllim gözləmədiyimiz halda ailənin 9-10 yaşlı qız uşağına üzünü tutub, ondan həmin vaxt atasının evə nə vaxt gəldiyini soruşduqda, uşaq cavab verdi ki, atası evə gələrkən sumkasından çıxartdığı qanlı paltarı anasına

verərək, ona "Fərmanı öldürmüşəm" deyib. Bax bu cavabdan sonra ailə üzvləri daha ətraflı sorğu-suala tutuldu və nəticədə cinayət işinin başvermə motivi tam açıldı" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 207-209).

**Müstəntiqin istintaqını apardığı işin aid olduğu sahə üzrə biliklərə malik olması və mütəxəssislərlə sıx əlaqə yaratması haqqında**

"Səhiyyə Nazirliyinin baş uroloqu haqqında olan cinayət işi" yazısında İ.Kərimov müstəntiqin istintaqını apardığı işin aid olduğu elm sahəsində müvafiq biliklərə malik olması və ehtiyac olduğu hallarda mütəxəssislərin köməyindən istifadə etməsinin zəruriliyi ilə bağlı yazır:

"Ümumiyyətlə, müstəntiq hansı sahə üzrə cinayət işinin istintaqını aparırsa, həmin sahəni yaxşı öyrənməlidir. Mütəxəssislərlə sıx təmasda olmalıdır. Əks tərzdə, işi tam əhatəli, keyfiyyətli istintaq etmək çətin olar. Çalışmalısan ki, nabələd olduğun sahə üzrə ixtisaslaşmış təqsirli şəxs səni üstələməsin" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 355).

**"Müxtəlif vaxtlarda müstəntiqlər qarşısında edilən çıxış" yazısından:**

"Müstəntiq ilk növbədə təxirəsalınmaz istintaq hərəkətlərini yerinə yetirməklə onun istiqamətini düzgün müəyyənləşdirməlidir. Səmtin səhv salınması

müvəffəqiyyətsizliklə nəticələnə bilər. Aidiyyətlə bağlı mübahisələr yolverilməzdir. Vaxt itkisi cinayəti törədənlərin xeyrinədir.

Cinayətin günün hansı vaxtında edilməsi, hava şəraitinin necə olması işdən görünməlidir. İş günü, iş vaxtı, istirahət, hüzn, bayram günlərinə təsadüf etməsi, günün hansı vaxtı, görüntü, qarın, yağışın yağması, şaxta, duman, hərarət, buludlu, günəşli, ay işığı, günün çıxma və batması konkret cinayət hadisəsindən asılı olaraq aydınlaşdırılmalıdır. İttiham edilən şəxslərin, habelə ölənlərin şəxsiyyətləri dürüst müəyyən edilməlidir. Bəzən "Abbas", yaxud "Abas" yazılışı hüquqi nəticələrə təsir edir.

Hər bir cinayət fərdidir. Bütün məqamları görmək çətindir. Bəzən ağlasığmaz vəziyyətlə üzləşməli olursan. Belə halda düz yolu tapmaq müstəntiqin səriştəsi, peşəkarlığı və dünyagörüşündən çox asılıdır.

...İstintaq planının, sirrinin qorunması, qanunsuz müdaxilələrə yol verməməmk əsas şərtlərdəndir. İdarəetmə əldən verilməməlidir. Sənədlər savadlı tərtib olunmalı, maddi və prosessual hüquq normalarının tətbiqində səhv buraxılmamalıdır. İstintaqın tam, obyektiv və hərtərəfli aparılması təmin edilməklə, iştirakçıların hər birinin rolu dürüst müəyyənləşdirilməlidir.

...İstintaqın təmasda olduğu bütün şəxslərlə münasibətlər düzgün qurulmalıdır. Mövqeyi tələsik açıqlamaq düzgün deyil. Əməliyyatçılarla işləmək baca-

rığına yiyələnmək lazımdır. Qarşı tərəfin düşüncə və mühakimələrinə hörmətlə yanaşılmalı, daxil olan məlumatların işin faktiki hallarına uyğunluğu təhlil edilib qiymətləndirilməlidir.

...Cinayət işinin istintaqı zamanı işin faktiki hallarının düzgün müəyyən edilməsi mühüm və əsas faktordur. Sübutlar növündən asılı olmayaraq işin faktiki hallarına uyğun gəlməli və ona söykənməlidir. İttiham aktında toplanmış sübutların mötəbərliyinə dəlalət kimi onun işin faktiki hallarına uyğun gəlməsi vurğulanmalıdır. Əks halda belə dəlillər sübut kimi qəbul edilə bilməz. Necə ki, mənbəyi olmayan məlumatlar sübut kimi qəbul olunmur.

...Dindirmə protokolu müstəntiq tərəfindən tərtib olunmalıdır. Bu vəzifənin dindirilən şəxsin öhdəsinə buraxılması qətiyyən düzgün deyil. Protokolla tanış olan şəxs öz xətti ilə ona əlavə və düzəlişlər etmək hüququna malikdir. Bunun üçün ona şərait yaradılmalıdır. İttiham aktında şəxsin ifadəsini özünün yazmasının xüsusi olaraq vurğulamasına çox pis baxıram. Belə mövqe müstəntiqin tərtib etdiyi protokolun mötəbərliyini, düzgün yazılışını şübhə altına almağa işarə kimi qəbul edilə bilər.

Bəzən müstəntiqlər dindirilən şəxslərin ifadələrini yazarkən, onların işlətdikləri sözlərdə "düzəlişlər" edirlər. Şəxsin danışıq tərzini, ləhcəsini daha aydın başa düşülən şəkildə, yaxud da ədəbi dildə yazırlar.

Bəzən də müasirləşdirirlər. Bu düzgün deyil. İfadə verənin danışıq tərzi, dil üslubu, işlətdiyi terminlər və s. olduğu kimi saxlanılmalıdır. Başa düşülməyən ifadələr işlədildikdə, fikir izah edilə bilər. Lakin dəyişdirilməməlidir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 487-488).

**Üzləşdirmə taktikası**

Universiteti bitirdikdən sonra 16 il müstəntiq işləsəm də, İ.Kərimovun yazdıqlarından üzləşmənin keçirilməsi taktikası barədə oxuduqlarım məni valeh etdi. Həqiqətən də, üzləşmənin keçirilməsi zamanı taktikanın düzgün qurulması iş üzrə həqiqətin müəyyən edilməsində, sübutlar arasındakı ziddiyyətlərin aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edə bilər. Hesab edirəm ki, gənc müstəntiqlərin üzləşmənin keçirilməsinin həmin taktikasını mənimsəməsi olduqca vacibdir. İ.Kərimov istintaq zamanı üzləşmənin keçirilməsi taktikası ilə bağlı yazır:

"Üzləşmə keçirilərkən istintaq sirrinin yayılması yolverilməzdir. Bəzi hallarda yanlış ifadə verən şəxs üzləşmə gedişatında qarşı tərəfi qidalandıraraq "onu başa salır ki", həqiqəti açmaq olmaz və ya məsələni necə şərh etmək onlar üçün məqbuldu. Belə üzləşmənin özülü olmadığından sonralar ifadəsini inkar edərək müstəntiqi üstələyir. Üzləşmə qısa olmalıdır. Məsələn: "Əlini qar-

şımda oturan şəxslə birlikdə qətlə yetirmişəm". Qarşı tərəf təsdiq, yaxud da inkar edəcək. Lakin o, üzünə duran şəxsin hadisənin təfsilatını necə izah etməsini bilməməlidir. Sonralar cinayətdə iştirakını inkar edən şəxs etirafedici ifadə verərək hadisənin təfsilatını danışdıqda, onun ifadəsi ilə onu ifşa edən şəxsin ifadələri arasında ziddiyyətli məqamların olub-olmaması təhlil edilməlidir. Ziddiyyət olduğu təqdirdə yalnız bu çərçivədə əlavə üzləşmə keçirilməlidir. Bu tələblərə riayət etdikdə ifadəni inkaretmə öz əhəmiyyətini itirir. İşin faktiki hallarına uyğun ifadə sübut kimi qiymətləndirilərək qəbul edilir.

Bir cinayət işinin timsalında bunu izah etmək yerinə düşərdi. Üç nəfər tələbənin qətlə yetirilməsi ilə bağlı cinayət işinin istintaqı zamanı cinayət məsuliyyətinə cəlb olunaraq həbs edilənlərin üç nəfəri doğma qardaş idi. İstintaqın ilk mərhələsində onlar işlətdikləri cinayəti etiraf etmirdilər. Əsas icraçı Sabir adlı böyük qardaş olub. Öldürülən şəxslərin ikisi odlu silahla, üçüncüsü isə həm odlu silah, həm də balta ilə qətlə yetirilmişdi. Həmin şəxsin meyiti əkin sahəsinin yaxınlığından keçən su kanalında tapılmışdı. Qatillər iki nəfəri əkin sahəsində öldürən zaman üçüncü şəxs qaçmışdı. Təxminən 200 metrə yaxın məsafədə, su kanalına çatmamış o, yaxalanmışdı. Hadisə törədilən ov tüfənginin qundağı sınmışdı. Sabir törətdiyi cinayəti etiraf edərkən, ifadəsində göstərmişdir ki, o, atla

hadisə yerindən uzaqlaşdıqda, at büdrəmiş və yıxılmışdır. Bu zaman tüfəngin qundağı sınmışdır.

Bir müddət sonra cinayətini etiraf etməyən kiçik qardaşla Sabiri üzləşdirməli oldum. Bu zaman Sabirə imkan vermədim ki, hadisənin təfsilatını qardaşının üzünə desin. Yalnız cinayəti kiçik qardaşı ilə birlikdə etməsini deməsi ilə kifayətləndim. Bu üzləşmədən sonra kiçik qardaş cinayətdə iştirakı etiraf etdi. Hadisənin təfsilatı barədə ifadə verərkən dedi: "Üçüncü şəxsi qardaşım tüfənglə vurduqda o, yıxılaraq kanala düşdü. Amma ölməmişdi. Patron isə qurtarmışdı. Ona görə də Sabir tüfəngin qundağı ilə onu bir neçə dəfə baş nahiyyəsindən vurdu. Nəticədə qundaq qırıldı. Odur ki, həmin şəxsin nəfəsini kəsmək üçün əlavə olaraq balta ilə də vurdu".

Bu xüsusat üzrə keçirilmiş ekspertizaların rəyləri ilə kiçik qardaşın ifadəsinin doğruluğu təsdiq edilirdi. İfadə və ekspertiza rəyi işin faktiki hallarına uyğun gəlirdi.

Növbəti dəfə sırf qundağın sınması ilə bağlı ifadələr arasında mövcud olan ziddiyyətin aradan qaldırılması məqsədilə təkrar üzləşmə keçirməli oldum. Bu dəfə ifşaedici rolunda kiçik qardaş idi. Sabir qardaşının ifadəsinin düzgün olduğunu təsdiq etdi. Əgər ilk üzləşmədə Sabirə imkan verilsəydi ki, hadisənin təfsilatını danışsın, kiçik qardaş yəqin ki, qundağın sınması səbəbini onun dediyi kimi izah edəcəkdi.

Sual oluna bilər, qundağın hansı şəraitdə sınmasının müəyyən edilməsi istintaq üçün nə kimi əhəmiyyət kəsb edirdi. Əvvəla, cinayət işinin tamlığı nöqteyi-nəzərindən bu lazım idi. İkincisi, hadisənin icra ardıcıllığı, iştirakçıların rolunun müəyyənləşdirilməsi və hansı səbəbdən digərlərindən fərqli olaraq üçüncü meyitdə odlu silahdan əlavə küt və kəsici alətlərin də izləri mövcuddur. Nəhayət, məhz üçüncü şəxs xüsusi amansızlıqla qətlə yetirilmişdi. Bu, mühüm amil olmaqla cinayəti işlətmiş şəxsin əməlinin tövsifi (tibb aləmində diaqnozun düzgün müəyyən edilməsi) üçün əsas ünsür idi.

Müttəhimə cəza müəyyən edilərkən cinayətin xüsusi amansızlıqla işlədilməsi ağırlaşdırıcı hal kimi qiymətləndirilir. Xüsusən də, müstəsna cəza tədbiri kimi ölüm cəzası tətbiq olunduğu hallarda.

Nəticədə vurğulamaq istəyirəm ki, üzləşmənin keçirilməsinə adi istintaq hərəkəti kimi baxılmamalıdır. Bu, mühüm tədbiri düzgün seçilmiş istintaq taktikasının tələblərinə uyğun həyata keçirmək lazımdır" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 488-490).

**Ekspertlə işləmək bacarığı**

İ.Kərimov ekspertlərlə birgə işləməyin əhəmiyyəti ilə bağlı yazır: "Müstəntiq ekspertlə işləmək vərdişinə yiyələnməli, lazım gəldikdə məsləhətləşməli, eksper-

tizanın keçirilməsində iştirak etməlidir. Maddi sübutlar düzgün qablaşdırılmalı, onların korlanmasına, itirilməsinə yol verilməməlidir. Meyitin tədqiqində müstəntiqin iştirakı vacibdir.

Ekspertizanın keçirilməsini ekspertin ümidinə buraxmaq düzgün deyil. Onunla əlaqəli işləmək lazımdır. Düz nəticəyə gəlinməsi üçün ekspert cinayət işinin materialları ilə tanış olmalıdır. Rəy işin faktiki halları ilə ziddiyyət təşkil edə bilməz. SSRİ Ali Məhkəməsinin Plenumunda sadə bir ölüm hadisəsi üzrə məhkəmənin çıxardığı hökm ləğv edilmiş, cinayət işi təkmili istintaqa qaytarılmışdı. Səbəb məhkəmə-tibb və trasoloji ekspertizaların arasında olan ziddiyyət idi. Məhkəmə-tibbi eksperti zərbənin bıçaqla öndən, qarın nahiyəsindən vurularaq daxili boşluqda qara ciyərin zədələnməsinə dair rəy vermişdi. Zərərçəkənin əynində olan pencəyi tədqiq edən trasologiya üzrə ekspert isə zərbənin arxadan vurulması qənaətinə gəlmişdi. Ekspertlərlə işləməyən müstəntiq bu ziddiyyətli rəylərin arasında çaşıb qalmışdı. Əslində hər iki ekspert düzgün nəticəyə gəlmişdi. İşin faktiki hallarına görə hadisə süpürləşmə prosesində yaxası açıq pencəyin arxa hissəsi önə keçən anda zərbə endirildiyindən, pencəyin arxa hissəsini zədələmişdi. Belə misalların sayı hədsiz dərəcədə çoxdur. Ümumiyyətlə, insan bədəni ilə təmasda olan əşyaların trasoloji (fiziki-texniki)

ekspertizası məhkəmə-tibb ekspertizasını keçirən mərkəzdə aparılması məqbuldur. Bu halda qeyd olunan ziddiyyətli halların meydana çıxması istisna olunur. Çünki fiziki-texniki ekspertiza keçirilən zaman tədqiq edilən zədələr insan bədənində yaranmış zədələrlə mütləq müqayisə olunur” (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 490).

**Tanınma istintaq hərəkəti**

Tanınma istintaq hərəkəti ilə bağlı İ.Kərimovun fikirləri ilə tanış olmağı da faydalı hesab edirəm:“İstər şəxsin, istərsə də əşyanın tanınması mühüm institutdur. Bu istintaq hərəkətini yerinə yetirən müstəntiqin təcrübəsizliyi, naşılığı, səhvi toplana biləcək sübutun əldən qaçırılması ilə nəticələnə bilər. Tanınma keçirilməzdən öncə prosessual qaydalarla bir daha tanış olmaq lazımdır. “Bilirəm” deməklə kifayətlənmək olmaz. Orada göstərilən bütün şərtlərə dürüst riayət olunmalı və bu, protokolda əksini düzgün tapmalıdır. Müsbət nəticəyə nail olmaq üçün ön istintaq hərəkətləri yerinə yetirildikdən sonra texniki cəhətdən tanınmaya ciddi hazırlaşmaq lazımdır. Şəxsin, əşyanın maksimum bənzərliyi gözlənilməlidir. Sırada hansı yerdə dayanma məsələsini tanınan şəxs özü müəyyən etməlidir. Bu prosesin icrasından sonra otağı heç kim tərk etməməlidir. Tanımağa dəvət olunan şəxsi kimsə bayıra çıxıb ça-

ğırmamalıdır. Təmasa yol vermək olmaz. O, telefon rabitəsi vasitəsi ilə dəvət almalıdır. Bu şərtlər əşyanın tanınmaya təqdim edilməsi zamanı da gözlənilməlidir. Canlı şəxsin tanınmaya təqdim edilməsi öncəsi, onun fotoşəklinin tanınmaya təqdimi yolverilməzdir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 491).

**Müstəntiqin daxili inamı**

"Müstəntiqin daxili inamı önəmli məsələdir. Bu inamın müstəntiqin təfəkküründə düzgün formalaşması üçün toplanmış sübutların mötəbərliyi əsas rol oynayır. Yenə qayıdıram işin faktiki hallarının düzgün müəyyən edilməsinə. Toplanmış sübutların işin faktiki hallarına söykənməsinə əks hal qeyri-məqbuldur. Şübhəli amillər işin xeyrinə işləyə bilməz. Ekspertlərin səriştəliliyi, prosessual normalara qeyd-şərtsiz riayət olunması, saxtakarlığa yol verilməməsi və belə cəhdlərin qarşısının alınması, əməliyyat məlumatlarının dəfələrlə süzgəcdən keçirilməsi, istintaq taktikasının düzgün qurulması, yerinə yetiriləcək istintaq hərəkətlərinin ardıcıllığının düzgün sıralanması, dindirmələrin və sualların verilməsi zamanının seçilmiş dindirmə taktikasına uyğun müəyyən edilməsi, tələskənliyə və gecikməyə yol verilmədən aydınlaşdırılmalı halların vaxtında araşdırılması vacib məsələlərdəndir.

...İstintaqla əlaqəli şəxslərin əhvali-ruhiyyəsinin, psixoloji durumunun öyrənilməsi, onun təhsilinə, mədəniyyətinə, səhhətinə, dünyagörüşünə, maraq dairəsinə, etik və davranış tərzinə, ailə vəziyyətinə, əhatəsində olan adamlara, keçmişinə, rəftarına uyğun münasibətin qurulması mühüm əhəmiyyət kəsb edir. Burada hər amili görüb sadalamaq qeyri-mümkündür. Hər fərdə uyğun düzgün seçim edilməlidir. Şərh olunanlardan daxili inamın formalaşması qaynaqlanır. Bu inam kənar şəxsin müdaxiləsi, tövsiyəsi olmadan müstəntiqin daxilində yetişməlidir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 491-492).

**Şahid ifadələri**

"Burada şahid ifadələrini fərqləndirmək çox vacibdir. İfadə müxtəlif səbəblərdən düzgün olmaya bilər. Yanlışlıq, səhv qavrama, təsir, şübhəli amillər və s. Çıxış yolu yalnız dindirmə taktikasının düzgün qurulması və alınan məlumatların işin faktiki hallarına nə dərəcədə uyğun gəlməsinin müəyyən edilməsindədir. Belə məqamda istintaqın yaranması tarixinə nəzər salmaq maraq doğurur. Ən qədim məlumatı biz ancaq "Bibliya"da tapırıq. Ondan əvvəlki dövrə aid mənbə hələ müəyyən edilməyib. Bibliyada şərh olunur ki, Susanna çılpaq halda şəhərin kənarında olan göldə çimərkən onu iki nəfər nüfuzlu, hakim seçilmiş ağsaqqal görür və kol-

luqdan seyr edilər. Bu zaman Susanna onları görür. Həmin şəxslər Susannanın onları görməsini başa düşüb, bu hərəkətlərindən şikayət edəcəyindən ehtiyatlanırlar. Belə vəziyyətdə ifşa olunaraq daşqalaq edilmələrindən özlərini xilas etmək məqsədilə qabaqlayıcı tədbir görürlər. Şəhərə gəlib Susannanın ağacın altında bir kişi ilə sevgi məcarası yaşadıqlarını gördükləri barədə danışırlar. Susanna şəhərə qayıtdıqda zina hərəkətləri etdiyi üçün onu daşqalaq etmək istəyirlər. Bu ərəfədə oradan keçən peyğəmbər Danil Susannanın mühakiməsini dayandırır və baş verənləri özü araşdıracağını deyir. O, Susanna barədə şayiə yayanlarla ayrı-ayrılıqda söhbət edir. Onlardan kişinin geyimi, hansı ağacın altında onu görmələrini soruşmaqla söhbət əsasında müxtəlif aydınlaşdırıcı suallar verir. Və onların danışıqlarındakı müxtəlifliyi, ziddiyyətləri aşkar edərək şəhər camaatına məlumat verir. Əhali ağsaqqalların Susannaya şər atdıqlarına əmin olduğundan onları daşqalaq edərək cəzalandırırlar. Nəticədə Susanna sağ qalır" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 492-493).

Qeyd edək ki, islamda yalanın hər növü günah olmaqla bərabər, ən ağırı yalançı şahidlikdir. Xətirhörmət üçün, yaxud bir mənfəət üçün edilmiş şahidlik və ya onu gizlətmək böyük bir günahdır: "Şahidliyi (şahidi olduğunuz şeyi) gizlətməyin! Onu

gizlədən şəxsin qəlbi günahkardır" ("Quran": əl-Bəqərə, 283).

Yalandan şahidlik edən günahın üç növünü etmiş olur: yalan danışmaq, haqsıza kömək etmək və haqlıya əziyyət vermək. Yalandan şahidlik həm də haqqın, ədalətin öz yerini tutmamasına və günahsız insanların iztirab çəkməsinə səbəb olur.

"Qurani-Kərim"də belə buyurur: "Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! (Əleyhinə şahidlik edəcəyiniz şəxs) istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə (sizdən) daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib büzsəniz və ya (doğru şəhadət verməkdən, yaxud ümumən şahidlikdən) boyun qaçırsanız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır!" ("Quran": ən-Nisa, 135).

İ.Kərimov daha sonra yazır: "Dəfələrlə əmin olmuşam ki, öyrədilmiş, hazırlanmış şahidlərin ifadələrini düzgün qurulmuş dindirmə taktikası əsasında, xırda incəliklərə varmaqla ifşa etmək mümkündür.

...Dindirilən şəxs yalan ifadə verdikdə, onu şifahi söhbətlərlə düzgün məcraya yönəltmək səhv taktikadır. İmkan verilməlidir ki, o, yalan ifadəsini rəsmən tamamlasın, ürəyini boşaltsın. Növbəti istintaqda onun yalan ifadəsi xırdalıqlarla araşdırılaraq düzgün

olmaması müəyyən edilməlidir. Bundan sonra toplanmış sübutlar əsasında onun əlavə olaraq yenidən dindirilməsi və ifşa edilərək tərk-silah olunması mərhələsi gəlir. Son olaraq təkzibolunmaz dəlillər altında düzgün ifadə verməyə məcbur olacaq".

"...Sübutları qiymətləndirərkən müstəntiq hansı ifadənin qəbul edilməsini əsaslandırmalı və bunu məhkəmənin qarşısına çıxarmalıdır. Yalan ifadədən qorxmaq lazım deyil. Müstəntiqin əlində belələrini ifşa etmək üçün imkanları kifayət qədərdir. Əsası odur ki, müstəntiq səriştəli olsun.

İfadəsi alınan şəxsə sualın verilməsinin vaxtı düzgün müəyyən edilməlidir. Zamanında verilməyən sual sübutun əldən qaçırılması ilə nəticələnə bilər.

...Cinayət işinin (xüsusən çoxcildli) sənədləri elə qruplaşmalı və tikilməlidir ki, oxunaqlığını itirməsin. İttiham aktına əlavə edilən siyahı və arayış planlı tərtib edilməlidir. Hər bir sənəd və məlumat işi vərəqləməklə axtarılmamalıdır. Məsələn, bəzən müstəntiq ekspertiza ilə bağlı sənədləri qruplaşdırmadan "tarixi ardıcıllıqla tikmişəm" adı ilə səpələyir. Qaydalara görə qərar, qərarla aidiyyəti şəxslərin tanışlıq protokolu, əlavəsinin olub-olmamasına dair məlumat, ekspertiza müəssisəsi ilə yazışmalar, rəylə aidiyyəti şəxsin tanış olması və rəyə münasibətini bildirən protokol ardıcıl olaraq qruplaşdırılıb tikilməlidir. Sorğu bir cildə, cavabı başqa cildə tikilməməlidir. İşi oxuyanda görürsən ki, sorğu

var, cavab yoxdur. Bilmirsən cavab alınıb, ya yox. Vərəqləyirsən, vaxt itir, əsəbilik gətirir. Ümumiyyətlə, səliqə-sahman hər bir işdə vacibdir.

...Fotoşəkillər xüsusi qaydada sərgilənməli və möhürlənməklə işə tikilməlidir. Vərəqləndikcə yararsız hala düşməməlidir. Bəzi şəkillərin üstü örtülməli, aidiyyəti olmayan şəxslərin maraq dairəsinə çevrilməməlidir.

Təcrübəli işçilərdən məsləhət almaq utancaqlıq gətirməməlidir. İnsan çox şeyi bilə bilər, ancaq hər şeyi bilə bilməz. Öyrənmək heç vaxt gec deyil" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 494).

**Cinayət işi üzrə icraata xitam verilməsi**

"Cinayət işi üzrə icraata xitam verilməsi" yazısında İ.Kərimovun cinayət işinə xitam verilməsinə münasibəti inzibati orqanların fəaliyyətində inzibatçılığın deyil, həqiqətin, ədalətin müəyyən edilməsinin əsas məqsəd olmasının vacibliyinə dəlalət edir. İ.Kərimov yazır: "Cinayət işinin başlanması həqiqətin aşkar edilməsi məqsədi daşımalıdır. Burada əsassız cinayət işi qaldırıb, ona görə də iş üzrə icraata xitam verilib, statistik "göstərici" pisləşib anlamına gəlmək, düşüncəmcə, düzgün mövqe deyil. Bu baxımdan icraatına xitam verilmiş cinayət işi üzrə kimsə tənbeh olunursa, bu, düzgün yanaşma deyil.

Bəzi hadisələrin aydınlaşdırılmasının yolu cinayət işinin qaldırılmasından keçir. Söhbət yalnız gəlinmiş nəticənin qanuni və əsaslı olub-olmamasından gedə bilər. Statistik rəqəmlər təhlil olunarkən formalizmdən uzaq durmaq gərəkdir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 647).

**İnzibati orqanların əməkdaşları tərəfindən cinayətə təhrik**

"Rüşvətxorluq cinayətləri barədə bəzi qeydlər" yazısından: "...əməliyyatı həyata keçirən orqanın rüşvət vermək üçün ona müraciət edən şəxsə pul verməsi qəbul edilməzdir. Yaxud əməliyyatı həyata keçirən orqanın əməkdaşlarının vətəndaşı rüşvət verməyə sövq etməsi cinayətdir.

Bütün bunlara istintaq orqanının diqqət yetirməsi ilə yanaşı, sözü gedən cinayətin başvermə səbəbi araşdırılmalı, onu doğuran şərait təhlil edilməli və yaranmış mühitə qiymət verilməlidir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 652-653).

İkram müəllimin "Rüşvətxorluq cinayətləri barədə bəzi qeydlər" yazısında toxunduğu məsələ cinayətə təhriketmə ilə sıx bağlı olan məsələlərdəndir. Qeyd olunan məsələ İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin (İHAM) də diqqətini cəlb etmiş və Məhkəmə bir sıra qərarlarında həmin məsələ ilə bağlı

mövqeyini açıqlamışdır. Nəzərdən keçirilən mövzu kontekstində İHAM-in bəzi qərarlarna nəzər salmağı məqsədəmüvafiq hesab edirik.

İHAM "Ramanauskas Litvaya qarşı" işində qeyd edir ki, hakimiyyət orqanlarının, xüsusən mütəşəkkil cinayət və korrupsiya işlərində xüsusi istintaq metodlarına müraciət etmək zərurətini qəbul edir. Bununla əlaqədar olaraq, o müəyyən etmişdir ki, xüsusi istintaq metodlarından istifadə – ələlxüsus, gizli metodlar – öz-özlüyündə ədalətli məhkəmə araşdırması hüququnu pozmur. Lakin belə metodların istifadəsi zamanı polisin təhriki riskini nəzərə alsaq, onların istifadəsi aydın çərçivə daxilində həyata keçirilməlidir.

Məhkəmə həmin işdə həmçinin bildirdi ki, mütəşəkkil cinayətkarlığın artması dövlətlərdən müvafiq tədbirlərin görülməsini tələb etsə də, ədalət mühakiməsinin düzgün həyata keçirilməsi tələbini nəzərdə tutan ədalətli məhkəmə araşdırması hüququ ən adidən ən mürəkkəbə qədər bütün cinayət hüququ pozuntularına tətbiq olunur. Ədalət mühakiməsinin düzgün həyata keçirilməsi hüququ demokratik cəmiyyətdə elə əhəmiyyətli yer tutur ki, əlverişlilik naminə qurban verilə bilməz.

"Xudobin Rusiyaya qarşı" iş üzrə qərarında İHAM polisin gizli fəaliyyət göstərə biləcəyini təsdiqləsə də, polisin cinayətə təhrik etməməli olduğunu vurğulamışdır.

Bundan əlavə, Konvensiya ilkin istintaq mərhələsində və hüquq pozuntusunun xarakterinin icazə verdiyi hallarda, anonim informator kimi mənbələrdən istifadəni istisna etmir, belə mənbələrin sonradan məhkəmə tərəfindən ittiham hökmü üçün istifadə olunması isə başqa məsələdir ("Teyşeyra de Kastro Portuqaliyaya qarşı"). Belə istifadə yalnız sui-istifadəyə qarşı adekvat və yetərli təminatlar, xüsusən sözügedən istintaq tədbirlərinə icazənin verilməsi, onların həyata keçirilməsi və nəzarəti üçün aydın və proqnozlaşdırıla bilən prosedur mövcud olduqda məqbul sayıla bilər ("Ramanauskas Litvaya qarşı").

"Bannikova Rusiyaya qarşı" işində İHAM qeyd etdirdi ki, gizli əməliyyatlar üzərində nəzarəti yerinə yetirən orqana gəldikdə isə, məhkəmə nəzarəti ən uyğun vasitədir, lakin prokuror tərəfindən nəzarət kimi adekvat prosedur və təminatların mövcud olması şərtilə başqa vasitələrdən istifadə oluna bilər.

Gizli agentlərin istifadəsinə aydın məhdudiyyətlər və təminatlarla tənzimlənmək şərtilə yol verilə bilsə də, ictimai maraq polis təhrikçiliyi nəticəsində əldə edilmiş sübutdan istifadə olunmasına bəraət qazandıra bilməz, belə ki, bu, təqsirləndirilən şəxsi ən əvvəldən ədalətli məhkəmə araşdırması hüququndan məhrum edə bilər.

Müvafiq olaraq, gizli agentlərin istifadə olunduğu hallarda ədalətli məhkəmə araşdırması hüququna

riayət olunduğunu yəqin etmək üçün Məhkəmə, əvvəla, cinayətə təhrikin olub-olmadığını ("təhrikin maddi testi") və əgər təhrikə yol verilibsə, ərizəçinin milli məhkəmələr qarşısında təhrik olunması arqumentindən istifadə edə bilib-bilməməsi nəzərə alır. Dövlət, yaxud hakimiyyət orqanlarına yardım edən fərdi şəxs tərəfindən işə cəlb olunmasından asılı olmayaraq, agentin fəaliyyətinin cinayətə təhrikdən ibarət olduğu və nəticədə əldə olunmuş sübutun cinayət mühakimə icraatında təqsirləndirilən şəxsə qarşı istifadə olunduğu halda Məhkəmə Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozulduğunu qət etmişdir ("Ramanauskas Litvaya qarşı").

Əməliyyatın "əsasən passiv" olub-olmadığının qərarlaşdırılması zamanı Məhkəmə gizli əməliyyatın kökündə dayanan səbəbləri və onu yerinə yetirən hakimiyyət orqanlarının davranışını nəzərdən keçirir. Məhkəmə, xüsusən təqsirləndirilən şəxsin cinayət fəaliyyətində iştirak etməsi və ya cinayət əməli törətməyə meyilli olması ilə bağlı əsaslı şübhənin olub-olmadığını müəyyən edir ("Bannikova Rusiyaya qarşı").

Məhkəmə bu qiymətləndirmədə bir sıra amilləri nəzərə alır. Məsələn, daha əvvəl baxılmış əhəmiyyətli "Teyşeyra de Kastro Portuqaliyaya qarşı" işdə Məhkəmə o cümlədən ərizəçinin daha əvvəl məhkumluğunun olmamasını, onun barəsində heç bir istintaqın açılmadığını, onun polis əməkdaşlarına mə-

lum olmamasını, evində narkotik maddə tapılmamasını və həbs zamanı onun üstündə tapılan narkotik maddənin miqdarının gizli agentlərin almaq istədiyindən çox olmamasını nəzərə almışdı. Məhkəmə qət etmişdir ki, agentlərin fəaliyyəti gizli agentlərin fəaliyyət sərhədlərini aşıb, çünki onlar şəxsi hüquq pozuntusuna təhrik etmişdilər və onların müdaxiləsi olmasa idi, sözügedən hüquq pozuntusunun törədiləcəyini göstərən heç bir əlamət yox idi.

"Konstantin və Stoyan Rumıniyaya qarşı" iş üzrə qərarında İHAM bildirdi ki, daha əvvəl məhkumluğun olması öz-özlüyündə cinayət əməlinə meyilliliyin mövcud olduğunu göstərmir. Lakin ərizəçinin narkotik maddənin cari qiyməti ilə tanış olması və qısa müddətə narkotik maddə əldə edə bilməsi, eyni zamanda əlində imkan olsa da, sövdələşmədən imtina etməməsi Məhkəmə tərəfindən cinayət fəaliyyətinin və ya belə bir niyyətin daha əvvəl də mövcud olduğunun göstəricisi hesab olunmuşdur ("Şennon Birləşmiş Krallığa qarşı").

"Burak Hun Türkiyəyə qarşı" iş üzrə qərarında İHAM qeyd etdi ki, ərizəçinin sözügedən əməli törətmək üçün təzyiqə məruz qoyulub-qoyulmadığı da nəzərə alınmalı olan daha bir amildir. Ərizəçinin cinayət əməlində iştirakı və ya cinayət törətməyə meyilli olduğu barədə hər hansı obyektiv şübhə mövcud olmadıqda ərizəçi ilə əlaqənin qurulmasına təşəbbüsün

göstərilməsi, ərizəçinin ilkin etirazına baxmayaraq təkrar təklifin verilməsi, inadkarlıqla cinayətə təhrik ("Ramanauskas Litvaya qarşı"), orta qiymətdən yüksək təklifin verilməsi ("Malininas Litvaya qarşı"), narkotik abstensiya əlamətlərinə istinad etməklə ərizəçidə mərhəmət hissi yaratmaq ("Vanyan Rusiyaya qarşı") Məhkəmə tərəfindən hüquq-mühafizə orqanlarının işçisi və ya onların təlimatı əsasında fəaliyyət göstərən fərdi şəxs olmasından asılı olmayaraq sözügedən agentin ərizəçini cinayət törətmək üçün təzyiqə məruz qoyduğu müəyyən edilmişdir.

Gizli polis əməliyyatının başladılma və yerinə yetirilmə qaydası ərizəçinin təhrikə məruz qalıb-qalmadığının qiymətləndirilməsində vacib əhəmiyyət daşıyır. Sözügedən istintaq tədbirinə icazənin verilməsi, eləcə də onun yerinə yetirilməsi və nəzarəti üçün aydın və proqnozlaşdırıla bilən prosedurların olmaması həmin fəaliyyətin təhrik olduğu qənaətinin yaranmasına rəvac verir ("Teyşeyra de Kastro Portuqaliyaya qarşı"), burada Məhkəmə gizli agentlərin müdaxiləsinin hakim tərəfindən nəzarət olunan narkotik ticarəti əleyhinə rəsmi əməliyyatın bir hissəsi olmaması faktını qeyd etmişdir.

Təhriklə bağlı işlərdə Konvensiyanın 6-cı maddəsi yalnız o halda pozulmur ki, ərizəçi məhkəmə araşdırması zamanı faktiki olaraq etirazla və ya başqa üsulla təhriklə bağlı məsələ qaldırmaq imkanında olsun.

Tərəflərin bərabərliyi və ya müdafiə hüququ kimi ümumi təminatlara riayət olunması faktı öz-özlüyündə kifayət deyil ("Ramanauskas Litvaya qarşı").

Məhkəmə bildirmişdir ki, təhrikə yol verilmədiyini sübuta yetirmək ittiham tərəfinin öhdəsinə düşür, bir şərtlə ki, təqsirləndirilən şəxsin bəyanatları tamamilə ağlasığmaz olmasın. Təhrik barədə vəsatət qaldırılıbsa və onunla bağlı əksi sübuta yetirilmədikcə doğru sayılan müəyyən sübut mövcuddursa, məhkəmə orqanları hər hansı təhrikə yol verilib-verilmədiyini müəyyən etmək məqsədilə işin faktlarını nəzərdən keçirməli və həqiqəti üzə çıxarmaq üçün zəruri addımlar atmalıdırlar. Təhrikə yol verildiyini müəyyən etdikləri təqdirdə isə onlar Konvensiyaya müvafiq qənaətlər formalaşdırmalıdırlar. Ərizəçinin cinayət ittihamı ilə əlaqədar olaraq təqsirini etiraf etdiyi barədə bəyanat verməsi faktı öz-özlüyündə birinci instansiya məhkəməsini təhriklə bağlı bəyanatları yoxlamaq vəzifəsindən azad etmir.

***Qeyd olunanlar bir daha ona dəlalət edir ki, İ.Kərimovun illərlə əvvəl həmkarları qarşısında qeyd etdikləri bu gün də öz faydalılığını saxlayır və İHAM-in qərarlarında öz təsdiqini tapır.***

**Müqəssirlərlə rəftar**

"Həbs etdiyim məhbusla yoldaşlığım" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018.

s. 229-233) yazısında İkram müəllim istintaqın uğurlu yekunu üçün vacib olan daha bir məsələyə müstəntiq və müqəssir münasibətlərinə dair mövqeyini açıqlayır:

"Taktikama görə mən təqsirli şəxslə işləməyə meyilli müstəntiqlərdən idim. Sübutların onların vasitəsilə toplanmasına üstünlük verirdim. Təcrübəmdə elə təqsirli şəxslər olub ki, onlarla mən hər iş günü işləmişəm. Əksərən bu öz bəhrəsini verirdi. Müqəssirlə müntəzəm təmasda olmayan müstəntiqlərin istintaqı heç də bütün hallarda uğurlu nəticələnmir. Əldə ediləsi sübutların müqəssirin vasitəsilə toplanması cinayət işinin möhkəmliyinin əsasıdır desəm, səhv etmərəm".

Daha sonra İkram müəllim yazıda barəsində həbs qətimkan tədbiri seşilmiş şəxsin qış vaxtı uzaq dağ kəndinə aparılaraq evindən istintaq üçün əhəmiyyəti olan sənədin götürülməsi ilə bağlı xatirələrini, dağ kəndi adamlarının qonaqpərvərliyi və insani keyfiyyətlərini qələmə alır. İkram müəllimin qələmə aldıqları Zaqatala Rayon Polis Şöbəsinin müstəntiqi işlədiyim vaxt Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 88-1 maddəsi ilə barəsində həbs qətimkan tədbiri seçilmiş təqsirləndirilən şəxsin Zaqataladan Sabirabada aparılıb yaşadığı evin həyətindəki talvarda, şiferin altında gizlətdiyi qızıl-ziynət əşyalarını maddi sübut kimi götürməyimi mənə xatırlatdı. İkram müəllimlə şərikəm ki, təqsirləndirilən şəxslə düzgün ünsiyyət quran müstəntiq bir qayda olaraq, ayrı-ayrı

vəziyyətlərdə təqsirləndirilən şəxsin necə davranacağını hiss edə bilir. Həm də cinayət işinin taleyi ilə bağlı əhəmiyyətli sübutların əldə edilməsi müstəntiqi bir çox hallarda risklərə getməyə sövq edir. Bunu yəqin ki, müstəntiq işləyənlər yaxşı bilir.

Gülzar Rzayevanın xatirələrindən: "İkram müəllimin cinayətkarlara qarşı münasibəti də fərqli idi. Ümumiyyətlə, o bizə daim tövsiyə edirdi ki, müqəssir və müttəhimlərə insani münasibət göstərmək lazımdır. Onlar da insandır. Ancaq təsadüf və yaxud məcburiyyət üzündən cinayət törətmiş şəxslərə daha həssaslıqla yanaşırdı. Birgə işlədiyimiz illərdə mən neçə dəfə müşahidə etmişəm ki, vaxtilə onun istintaq etdiyi işlərlə bağlı cinayət məsuliyyətinə cəlb olunan şəxslər cəzalarını çəkib azadlığa çıxdıqdan sonra prokurorluğa gəlib onunla görüşmüş, ədalətli rəftarına görə minnətdarlıqlarını bildirmişlər" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 210).

**"Danışan" maddi sübutlar**

Universiteti 1982-ci ildə bitirdikdən sonra Bərdə rayon Daxili İşlər Şöbəsinə müstəntiq vəzifəsinə təyin olunmuş və bundan sonra Bərdə, Zaqatala və Masallı rayonlarında 16 il müstəntiq və baş müstəntiq vəzifələrində işləmişəm. 21 il hakim kimi çalışmışam. Bunları ona görə yazıram ki, hüquq-mühafizə, yəni polis və prokurorluğun, məhkəmənin işi ilə kifayət

qədər tanışlığım vardır. Müstəntiq işi gərgin əmək, səbir, məqsədyönümlülük, israrlılıq, diribaşlıq, əzmkarlıq tələb edən çətin peşədir.

Müstəntiq işləyən şəxs savad, məntiqi düşüncə, müxtəlif xarakterli insanlarla ünsiyyət qurmaq, təşkilatçılıq, işi planlaşdırmaq, yüksək müşahidə qabiliyyəti, sübutları qanunda nəzərdə tutulan qaydada toplamaq, onları bir-biri ilə əlaqələndirməklə möhkəmləndirmək, sübutları etibarsız hesab edilə biləcək maneələri qabaqcadan görüb, onların zərərsizləşdirmək üçün tədbir görmək, sübutları müqayisə etməklə dəyərləndirmək, fikir və düşüncələrini yazıda anlaşılan şəkildə ifadə etmək və s. bir çox bacarıqlara malik olmalıdır.

İkram müəllim növbəti yazısını "Danışan" maddi sübutlar adlandırıb "danışan" sözünü dırnaq arasında vermişdir. Maddi sübutlar cansız əşyalardır. Allahtəala onlara can verməyib, danışa bilmirlər. Onları yalnız yuxarıda qeyd etdiyim bilik və bacarığa malik müstəntiqlər "danışdıra" bilir. Bunun üçün müstəntiq hər bir maddi sübutu əvvəlcə əldə etməli, onun araşdırdığı hadisə ilə bağlılığı barədə fərziyyələrini qurmalı və sonra isə həmin maddi sübutları qanunda nəzərdə tutulan prosessual qaydalara müvafiq olaraq "danışdırmağa" çalışmalıdır.

Maddi sübutlar, bir qayda olaraq, hadisə yerinin müayinəsi, axtarış-götürmə, cinayəti törətməkdə şüb-

həli və ya təqsirləndirilən şəxsin, yaxud digər şəxslərin onları könüllü təqdim etməsi və bəzi başqa yollarla da müstəntiq tərəfindən əldə edilə bilər. Yuxarıda qeyd etdiyimiz kimi, hadisə yerinin müayinəsi zamanı müstəntiqin müşahidə qabiliyyəti, hadisə yerini öyrənmək, orada aşkar olunan əşyaların həmin yerin ümumi kontekstinə uyğunluğunu dəyərləndirmək, onları hadisə yerinin müayinəsi protokolunda rəsmiləşdirmək bacarığı cinayətin açılması, onu törədən şəxslərin müəyyən edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Maddi sübutları əldə etmək onların iş üzrə mötəbər sübuta çevrilməsi üçün ilkin addın hesab olunmalıdır. İkram müəllimin təbirincə desək, onları “danışdırmaq” işin daha çətin və əzmkarlıq tələb edən hissəsidir. Əsl müstəntiq əldə etdiyi bir maddi sübutdan çoxsaylı sübutların əldə ediməsinə nail ola bilmək bacarığına malik olmalıdır. Məsələn, qətl hadisəsi ilə bağlı hadisə yerini müayinə edən müstəntiq aşkar etdiyi, üzərində qana bənzər ləkələr olan bıçağı maddi sübut kimi götürə bilər. Lakin sonradan hadisənin məhz həmin bıçaqla törədilməsini, onun kimə məxsus olmasını, hadisə yerinə necə düşməsini, meyitin üzərində olan xəsarətlərin həmin bıçaqla yetirilməsini və sairi sübut etmək üçün çoxsaylı istintaq hərəkətləri yerinə yetirilməlidir.

İkram müəllimin gənc yaşlarında istintaq etdiyi və ona böyük uğur gətirmiş, ilk dəfə azərbaycanlı

müstəntiqin təcrübəsinin İttifaq miqyasında rəsmi olaraq SSRİ Prokurorluğu tərəfindən yayılmasına səbəb olan işlə bağlı müstəntiqin hadisə barədə ümumi məlumatı ilə tanış olaq: “1970-ci ilin 24 avqust gecəsi Quba rayonunun Zizik kəndində Həbibovlar ailəsi – ana, iki gəlin xüsusi amansızlıqla qətlə yetiriliblər. Həmin evin digər sakinləri, yəni iki gəlinin ərləri evdə olmayıblar. Ailə başçısı ananın həyat yoldaşı müharibədən qayıtmayıb. Bu səbəbdən ailə ananın ümidinə qalmış, o, uşaqlarını təkbaşına böyütmüşdür. Ana ilə gəlinin biri yaşadıqları ikimərtəbəli evin birinci mərtəbəsində yatdıqları zaman kəsici alətlərlə – balta və bıçaqla çoxlu sayda zərbələr endirilməklə öldürülüblər.

...Digər gəlin tək yatdığı otaqda çoxsaylı balta zərbələri ilə qətlə yetirilib... Müqavimət göstərən gəlinin barmağında olan nişan üzüyü baltanın zərbəsindən zədələnmiş, bir hissəsi kəsilmişdi.

...Bir müddət keçmiş milis şöbəsinə məlumat daxil oldu ki, Qudyalçayın Quba şəhərinin mərkəzindən keçən sahəsinə yaxın ərazidə şəxsiyyəti bəlli olmayan bir kişi meyiti aşkar edilib. Çayın həmin hissəsində hündürlüyü təxminən 200 metr olan “Qızıl qaya” yerləşirdi. Əhalidə qayadan intihar məqsədilə özünü atanlar barədə məlumatlar çox idi.

Biz isə ailədə ikinci övlad olan... Vaqifi tapmaq barədə düşünürdük, ona görə meyitin kimə məxsus

olmasını müəyyənləşdirmək vacib məsələ idi. Odur ki, Vaqifi tanıyanları hadisə yerinə dəvət etməklə meyitin şəxsiyyətini müəyyən etməyə çalışdıq. Çox asanlıqla meyitin şəxsiyyəti müəyyən olundu. Vaqifin meyiti idi" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 316-317).

Beləliklə, bir ailənin dörd üzvünün amansızlıqla qətlə yetirilməsi müstəntiqin məsuliyyətini artırmaqla yanaşı, onun bu cür qeyri-insani hərəkəti törədənləri vaxtında müəyyən etmək istəyini də alovlandırırdı. Lakin heç vəchlə tələskənliyə yol verilə bilməzdi. Hadisə ilə bağlı ilkin fərziyyələrini hadisə yerinin müayinəsi zamanı əldə etdiyi maddi sübutlar və gəldiyi qənaətlər əsasında qurmağa üstünlük verən gənc müstəntiq adəti üzrə hadisə yerinin müayinəsinə özünəməxsus ciddiliklə yanaşdı. Meyitin yaxınlığıdakı ağac budağı heç kəsin diqqətini cəlb etməsə də, müstəntiqin diqqətindən yayınmadı. Kiçikhəcmli quru ağac budağı onun gözünə sataşan kimi başını qaldırıb ətrafa bir də nəzər yetirdi. Ətrafda heç bir ağacın olmaması onun marağını daha da artırdı. Kiçikhəcmli quru ağac budağını yaxından nəzərdən keçirdikdə cavabı olmayan sualların sayı artmağa başladı. Budağın üzərində qana bənzər ləkənin olması, onun ağacdan qopan yerinin az bir hissəsinin yaş olması müstəntiqin diqqətindən yayınmadı. Ləkənin insan qanı olması, budağın isə az müddət əvvəl

ağacdan qopması ehtimalı təbii olaraq həmin budağın hadisə yerinə nə vaxt və necə düşməsi ilə bağlı suallar doğururdu. Hələlik isə gənc müstəntiq çöldə hadisə yerində aşkar etdiyi yarıquru kiçikhəcmli ağac budağının aşkarlanması və onun malik olduğu əlamətlərini hadisə yerinin müayinəsi protokolunda əks etdirməklə sübutları danışdırmaq, cavablandırmaq üçün suallar axtarışında idi. Hadisə yerində aşkar edilmiş budağın danışması üçün onun hansı növ ağaca məxsus olması, budağın konkret olaraq hansı ağacdan qopması, nə vaxt qopması, nəyə görə qopması, hadisə yerinə nə vaxt və necə düşməsi, üzərindəki ləkənin baş verən hadisə ilə əlaqəsinin olub-olmaması, insan qanı və ya başqa hər hansı bir maddənin olması müstəntiq üçün cavablandırılmalı olan suallar idi.

Müstəntiqin qeydlərindən: "Müayinə zamanı meyitdə ölümə səbəb olan heç bir alətin, o cümlədən kəsici alətin izləri müəyyən edilmədi. Vaqifin sağ ikən qayadan özünü atması və ya onun kimlərsə tərəfindən atılması sual doğururdu. Tezliklə kənddə və rayonda söz-söhbət dolqaşmağa başladı ki, Vaqif ailəsini balta ilə özü qətlə yetirib və sonra da həyatına qəsd edib".

Təbii ki, müstəntiqi söz-söhbətlər də maraqlandırırdı və əsasən də ona görə ki, qarşısında yeni suallar qoyub, onların cavabını axtarsın.

Müstəntiqin qeydlərindən: "Zizik kəndi ilə Qızıl qaya arasındakı məsafə təxminən 9 km-ə yaxın idi.

Vaqif necə dağlıq ərazidəki qaya olan yerə gəlib çıxıb? Özü gəlib, yoxsa gətiriblər? Təbii ki, əməliyyat məlumatlarını realizə edib, dürüstlüyünü araşdırmaq və istintaqın istiqamətini düz tapmaq asan deyildi. Bu cinayət işinin istintaqı göstərdi ki, əsas yük və həlledici qərarın qəbul edilməsi yalnız müstəntiqin üzərinə düşür.

Hadisənin balta və bıçaqla törədilməsi mübahisə doğurmurdu. Məhkəmə tibb-eksperti ölümlərin kəsici və batıcı alətlərlə yetirilməsini, bunun balta və bıçaq olmasını istisna etmirdi...".

Müstəntiq qətlə yetirilmiş Həbibovların ailə üzvləri ilə kimlərinsə düşmənçilik, şəxsiqərəzlik münasibətlərinin olub-olmamasını aydınlaşdıraraq, hadisə ərəfəsində meyiti aşkar edilən Vaqiflə məişət zəminində mübahisəsi olan şəxsləri aşkar etdikdən sonra şübhəli şəxslərin tutulmasını təmin etmiş, dindirmə və üzləşmə taktikasının imkanlarından istifadə etməklə onların etiraflarına nail olmuş, şübhəli şəxslərdən biri – Şıxbaba qətli icra edərkən istifadə etdikləri yuyulmuş baltanı da istintaqa təqdim etmişdi.

Bundan əlavə xoş bir təsadüf gəlinin öldürülməsi zamanı barmağındakı, üzərində zədələr olan üzüyün onun anasından götürülüb müvafiq protokolla rəsmiləşdirilməsi və cinayət işinə əlavə edilməsinə səbəb olmuşdu.

Bəlkə də, hansısa başqa bir müstəntiq belə vəziy-

yətdə artıq hər şeyin aydın olması, cinayətin açılması və cinayətkarların ifşa etməsi barədə qərar verib arxayınlaşacaqdı. Lakin İkram Kərimov ilk günlərdə qarşısına qoyduğu sulları cavablandırana, yəni hadisə yerinin müayinəsi zamanı aşkar etdiyi qurumuş ağac budağının, öldürülən vaxt gəlinin barmağında olan üzüyün üzərindəki zədələrin iş üzrə təqsirləndirilən şəxslərlə bağlılığına, evdə öldürülən şəxslərin ölümündə istintaqa təqdim olunan və ya hər hansı başqa baltadan istifadə olunmasını sübuta yetirməli, ümumiyyətlə, hadisənin nə üçün baş verməsindən, onun motivindən tutmuş inkişafının necə getməsi, cinayətin kimlər tərəfindən törədilməsini, cinayəti törədənlərin hər birinin hüquqazidd əməlin törədilməsində iştirakının nədə ifadə olunmasını, həmin halları təsdiq edən sübutları tapmalı, onları əlaqələndirməli, sübutlar arasında bütün uyğunsuzluqları aradan qaldırmalı, nəyin necə, hansı şəraitdə baş verməsinə aydınlıq gətirməli idi. Əks halda gənc müstəntiq rahatlıq tapa bilməzdi. Bu, işinə görə məsuliyyət hiss edən insana xas xüsusiyyət idi. İkram Kərimovun "hadisədən iki gün sonra mən qeyri-rəsmi Ziziyə gedib kəndlə tanış oldum. Məqsədim ifadələrdə cərəyan edən məkanların kənddə necə yerləşməsini görüb özümdə təəssürat yaratmaq idi. Həmçinin Həbibovların həyətlərini gəzib-dolaşmaq istəyirdim" etirafı da onun işinə görə məsuliyyətindən irəli gəlirdi. O, ifadələrdə yazılanların həqiqətə uyğun-

luğunu gözləri ilə görmək, ifadələrin həqiqiliyinə yerində əmin olmaq istəyirdi. Çünki istintaq zamanı hər bir yanlışlıq sonradan mövcud ziddiyyətlərin aradan qaldırılması üçün böyük səy və zəhmət tələb edir: eyni ilə hadisə yerinin müayinəsi, maddi sübutların toplanmasından sonra onların baş vermiş cinayətdə yeri və rolunun, həqiqəti müəyyən etmək üçün sübuta çevrilməsi və yeni-yeni sübutların əldə edilməsi üçün zəmin yaratması kimi.

Müstəntiqin qeydlərindən: "Əlimdə üç güclü maddi sübut vardı. Onlardan biri balta, digəri gəlinin barmağından çıxan nişan üzüyü və Vaqifin meyitinin yanından götürülmüş (tərəddüdlə) quru ağac budağı idi. Bunların hər birinin ətrafında planlı istintaq hərəkətləri aparıldı. İşin taleyində məhz bu "danışan" maddi sübutlar mühüm rol oynadı".

Sözsüz ki, müstəntiqin həmin sübutları necə "danışdırması"nı onun özündən başqa heç kəs tam təfərrüatı ilə təsvir edə bilməz. İkram müəllim bu barədə "Danışan" maddi sübutlar" (Birinci kitab səh. 316-330) yazısında ətraflı söhbət açır. Onları təfərrüatı ilə oxucuya çatdırmaq üçün yazının beş-altı səhifəsini olduğu kimi köçürmək lazımdır. Onda hər şey ardıcıl və ətraflı şəkildə aydınlaşır. Yazının həmin hissəsindən nəyi isə yazmamaq sözsüz ki, verilən informasiyanın natamamlığına, hansısa məqamın oxucuya tam çatdırılmamasına səbəb olur. Belə qərar verdim ki, oxucu

həmin yazını İkram müəllimin özünün təsvir etdiyi kimi kitabın özündən oxusa, daha yaxşı olar. Tövsiyəm isə odur ki, mənim yazımı oxuyan hər bir müstəntiq, əməliyyat işçisi, ümumiyyətlə, hüquq-mühafizə orqanlarında işləyən hər bir şəxs İkram müəllimin özünün yazdıqlarını mütləq oxusun. Əslində həmin 5-6 səhifəlik yazı istintaqçı üçün zəruri olan möhtəşəm təcrübə ilə tanışlıq və müstəntiq kimi səmərəli fəaliyyət üçün böyük əhəmiyyət kəsb edəcəkdir.

Həmin yazıda qeydə alınanlardan, həmçinin müstəntiqin hər bir sualı cavablandırmaq üçün necə çətinliklərlə rastlaşdığını, onları aşmaq üçün hansı inadkarlığı göstərməli, hansı bacarığı nümayiş etdirməli olduğunu, törədilən cinayətlə bağlılığı olan hər bir əşyanı iş üzrə mötəbər bir sübuta çevirmək üçün hansı maneələri keçməli olduğunu nümayiş etdirir. İkram müəllimin təcrübəsi göstərir ki, istəyə nail olmaq, maddi sübutu "danışdırmaq" üçün axıra kimi mübarizə aparmaq lazımdır. Hər hansı bir uğursuzluqdan ruhdan düşüb çəkinmək olmaz.

Bu təcrübə göstərir ki, müstəntiq məqsədyönlü, planlı hərəkət etməli, elmin, müvafiq ekspertizaların, ayrı-ayrı sahələr üzrə mütəxəssislərin imkanlarından yararlanmalı, istəyinə nail olmaq üçün insanlarla ünsiyyət qurmağı bacarmalıdır. Törədilən hər bir cinayət maddi əşyalar üzərində öz izini qoyur. Müstəntiq ilkin olaraq müşahidə və müşahidə etdiklə-

rindən düzgün nəticə çıxarmaq qabiliyyətinə malik olmalıdır. Həmin iş üzrə aşkar edilmiş meyitlə əlaqədar hadisə yeri müayinə edilərkən yarıqurumuş ağac budağını çöllük bir ərazidə yad bir cisim kimi, onun hadisə yerində mövcudluğunun ətraf şəraitlə uyğunluq təşkil etməməsini görmək elə gənc müstəntiqin müşahidə qabiliyyətinin güclülüyünə dəlalət edirdi. Həmin qurumuş budağın, onun üzərində qana oxşar ləkənin olmasını hadisə yerinin müayinə protokoluna qeyd edərək rəsmiləşdirmək isə müstəntiq səriştəliliyinə dəlalət edirdi. Müstəntiq intuisiyası ona diktə edirdi ki, yarıqurumuş, kiçik bir ağac budağı böyük bir cinayətin açılmasında ona kömək edə bilər. Əks halda, yəni ağac budağının qətllə bağlılığı sübut edilmədiyi təqdirdə də həmin ağac budağının hadisə yerinə necə düşməsinə aydınlıq gətirməli və bunun üçün müəyyən istintaq hərəkətləri yerinə yetirməli idi. Müstəntiq ehtimallarını gerçəkliyə çevirməyi bacardı. O, aqronom mütəxəssisin köməyi ilə ağac budağının tut ağacına məxsus olmasını, əvvəlcədən əsas hissəsinin qırılıb budaqdan asılı qalmasını, təxminən qətl hadisəsi ərəfəsində tam olaraq ağacdan qopmasını, həmin ağacın təqsirləndirilən şəxslərdən birinin idarə etdiyi yük avtomaşınını, adətən, gecələr saxladığı çəpərinin kənarında yerləşməsini, sonra isə tibbi ekspertizanın rəyi ilə üzərində olan ləkənin məhz qətlə yetirilmiş Vaqifin qanı olmasını sübuta yetirdi. Müs-

təntiq qurumuş budağı “danışdırdı” və qurumuş budaq bildirdi ki, Vaqif yarımcanlı vəziyyətdə təqsirləndirilən şəxsin idarə etdiyi maşının banında onunla birlikdə Zizik kəndindən Qızıl qayaya gedib və Vaqiflə birlikdə Qızıl qayadan aşağı atılmışdır.

Müsəntiqin qeydlərindən: “...Qeyd etdiyim kimi, fərdi əlamət olmasa, xəsarətin konkret hansı balta ilə yetirilməsini müəyyən etmək mümkün olmur. Çünki zavod belə baltaları saysız-hesabsız istehsal edir. Ona görə də ekspert rəyi standart olur. “Zədələr təqdim olunan balta və ya buna bənzər balta digər balta ilə yetirilə bilər. Bu məni qane etmirdi”.

Müstəntiq uzun əziyyətdən sonra qətlə yetirilmiş gəlinin barmağından çıxan üzüyün fiziki-texniki ekspertizasını təyin və təşkil edərək, məhkəmə tibbi ekspertin rəyləri ilə birlikdə “danışdırdı”. Üzük üzərindəki zədələrin Şıxbabanın istintaqa təqdim etdiyi balta nəticəsində əmələ gəldiyini dilə gətirdi.

Müstəntiqin qeydlərindən: “Hər üç qadının Şıxbabanın təqdim etdiyi yuyulmuş balta ilə qətlə yetirilib-yetirilməməsi müəyyən edilməliydi”.

Müstəntiq düşündü və baltanı “danışdırmağın” yolunu tapdı. O, kənddə mağaza satıcısını dindirməklə yaxın vaxtlarda Şıxbabaya balta satılmasını müəyyən etdi, onu saplayan ustanı tapıb Şıxbaba üçün balta sapladığını müəyyən etdi, baltanın üzərində qətlə yetirilənlərin qanının izlərinin qalmasını

ekspert rəyləri ilə sübuta yetirdi. Lakin bununla da qane olmayıb, Şıxbaba üçün baltanı saplamış ustaya eyni ağacın materialından yeni balta sapı düzəltdirib, yeni baltaya onu sapladandan sonra ekspertdən hər iki balta sapının eyni materialdan olması, eyni qaydada hazırlanması və eyni tərzdə saplanması barədə rəy aldı. Baltanı ustaya tanınmaya təqdim edib, onun özünün Şıxbaba üçün sapladığı baltanı tanımasını rəsmiləşdirdi. Beləcə, balta dil açıb üç qadının qətlində iştirakını təsdiqlədi.

Məhkəmənin hökmü ilə İsmixanov Şıxbaba və Dünyamalıyev Əmri ölüm, İbrahimov Nüsrəddin isə 15 il müddətinə azadlıqdan məhrumetmə cəzalarına məhkum edildilər. Hökm icra edildi. Ölüm cəzasına məhkum olunanlar güllələndilər.

İstintaqın yekununa görə SSRİ Baş prokuroru R.Rudenkonun 1971-ci il avqust ayının 5-də imzaladığı 505-1 saylı əmrinə əsasən İkram Kərimova növbədənkənar ədliyyə müşaviri rütbəsi verildi.

İkram müəllimin istintaq etdiyi həmin cinayət hadisəsindən çox danışılıb, həmin iş keçən əsrin 70-ci illərində SSR İttifaqında "Tut ağacı" işi adı altında bütün İttifaq miqyasında qabaqcıl istintaq təcrübəsi kimi yayılıb. Həm də bu, Azərbaycandan İttifaq üzrə yayılan ilk təcrübə olmuşdu.

Hesab edirəm ki, həmin təcrübə hazırda da öz aktuallığını itirməyib. Hüquq fakültəsinin tələbələri,

gənc müstəntiqlər üçün öyrənilməsi vacib olan bir təcrübədir.

**"Danışan" sənədlər**

İkram müəllimin istintaqçı kimi yerinə yetirdiklərinin, həmkarlarına tövsiyələrinin təsdiqi üçün bəzi sənədlərə müraciət etməyi məqbul hesab edirik:

Azərbaycan SSR Prokurorluğu üzrə 232 №-li 22 iyul 1974-cü il tarixli əmrdən:

"12 oktyabr 1973-cü ilə keçən gecə Jdanov rayonundakı Əhmədli kəndinin yaxınlığında Y.Ç.Hüseynov, N.Ş.Əlixanov və T.T.Quliyev odlu silah və kəsici alətlə xüsusi amansızlıqla qətlə yetirilmişlər...

İlk istintaq düzgün istiqamətlər seçilməsi, maddi sübutların vaxtında aşkar edilib götürülməsi, yüksəkkeyfiyyətli ekspertizalar aparılmasının təşkili, ictimaiyyət və daxili işlər orqanlarının işçiləri ilə yaxından əlaqə yaradılaraq onların köməyindən səmərəli istifadə edilməsi sayəsində mütəzərrirlərin şəxsiyyətləri müəyyən edilməklə yanaşı, bu ağır cinayətin törədilməsində iştirakı olan bütün cinayətkarların da aşkar edilib ifşa olunmaları mümkün olmuşdur.

...Həmin cinayət işinin istintaqı zamanı müqəssirlər və zərərçəkmiş şəxslər tərəfindən edilən 7 oğurluq cinayətinin də üstü açılmışdır.

...Mühüm istintaq hərəkətlərinin aparılmasında kriminalistik texnikadan, elmin nailiyyətlərindən,

fotoçəkilişdən və ifadələrin maqnitofon lentinə yazılmasından istifadə edilmişdir.

...Təsvir olunan nəticə, hadisə yerində istintaq qrupunun işini bilavasitə səmərəli təşkil etmiş, istintaqın istiqamətini düzgün müəyyənləşdirmiş və işin istintaqının aparılmasında məharət göstərmiş mühüm işlər müstəntiqi İ.H.Kərimovun gərgin və təşəbbüskar əməyi sayəsində əldə edilmişdir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 436-438).

Həmin cinayət işinin istintaqı ilə əlaqədar Azərbaycan SSR Prokurorunun müavini III dərəcə dövlət ədliyyə müşaviri V.Gülməmmədovun SSRİ Prokurorluğunun İstintaq İdarəsinin rəis müavini, III dərəcəli dövlət ədliyyə müşaviri s. V.Tyurinə ünvanladığı sənəddə İ.Kərimovun rəhbərlik etdiyi istintaq qrupunun işindən bəhs edilərək yazılmışdı: "Əsas diqqət ilkin istintaq hərəkətlərinin aparılmasının keyfiyyətinə verilmişdi: maddi sübutların axtarılması və götürülməsi, milis işçiləri və ictimaiyyətlə sıx qarşılıqlı fəaliyyətin təmini.

İstintaqın istiqamətinin müəyyən edilməsi üçün öldürülənlərin şəxsiyyətinin tezliklə müəyyən edilməsi zəruri idi, lakin onların şəxsiyyətinin müəyyən edilməsi ilə əlaqədar bir sıra çətinliklər meydana çıxmışdır… Zərərçəkmişlərin şəxsiyyəti müəyyən ediləndən və öyrənildikdən sonra onların meyitlərinin aşkar edildiyi yerin yaxınlığındakı kənd ilə əlaqələri müəyyən edilmişdir".

Təqdimatda daha sonra qeyd olunur ki, zərərçəkmiş şəxslərin öldürülməsi ilə əlaqədar ilkin olaraq dörd versiya irəli sürülmüş, onların yoxlanılması gedişində daha yeni bir fərziyyə irəli çəkilmiş və araşdırılmışdır. Cinayəti törətməkdə şübhəli şəxslər müəyyən edilərək evlərində axtarışlar aparılmış, maddi sübut kimi silah və sursatlar aşkar edilərək götürülmüş, iş üzrə keçirilmiş trasoloji, əmtəəşünaslıq, məhkəmə-ballistik, qazxromoqrafik ekspertizalar, kriminalistik texnikanın tətbiqi nəticəsində təqsirli şəxslər aşkar edilərək, əməlləri təkzibolunmaz dəlillərlə sübuta yetirilmişdir (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018 s. 439-446).

Cinayət işi üzrə istintaq təcrübəsi SSRİ Baş Prokurorluğu tərəfindən yayılmışdır.

Eyni dəlillər Azərbaycan SSR Prokurorluğu yanında mühüm işlər müstəntiqi, ədliyyə müşaviri İkram Heydər oğlu Kərimovun mükafatlandırılması haqqında SSR İttifaqı Baş Prokuroru həqiqi dövlət ədliyyə müşaviri R.A.Rudenkoya ünvanlanmış təqdimatda da öz əksini tapmışdır (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 510-512).

İkram müəllimin müstəntiq – istintaqçı kimi fəaliyyəti, uğurları, məharətindən yəqin ki, çox danışmaq olar. Əslində söhbət açdığımız kitabda bu barədə kifayət qədər məlumat vardır. Həmin yazını iki hakimin fikirlərini yazmaqla tamamlamaq istərdik:

“İkram müəllim Sovetlər İttifaqı məkanında bacarıqlı müstəntiq kimi tanınırdı. Şəxsi tanışlığımız isə rayon prokuroru işlədiyi dövrə təsadüf edir. Ümumiyyətlə, uzun illər çiyin-çiyinə bir yerdə işlədiyimiz, müəyyən qədər həyat təcrübəsi olan bir insan kimi onun məhkəmə hakimiyyəti orqanlarının müxtəlif sahələrindəki fəaliyyətinə belə qiymət verərdim: “İkram müəllim əla istintaqçıdır. Prokurorluq və məhkəmə işinin əla təşkilatçısıdır”.

*İlham Həsənov Azərbaycan Respublikası Apellyasiya Məhkəməsinin cinayət işləri kollegiyasının sədri 2006-cı il* (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 68).

“Mənalı ömür yaşamaq hər kəsə nəsib olmur. Bunun üçün insanda müdriklik xüsusiyyətləri olmalıdır. İkram müəllim belə insanlardan biridir. Xatirəmi bu sözlərlə bitirmək istəyirəm. O, bənzərsiz bir istintaqçı idi”.

*Ali Məhkəmənin hakimi Gülzar Rzayevanın “Bənzərsiz istintaqçı” adlı xatirəsindən* (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019.s.211).

# DÖRDÜNCÜ YAZI

## Prokurorun fəaliyyəti ilə bağlı mülahizələr

İkram müəllimin prokurorluq orqanlarında fəaliyyətinin bir hissəsini müstəntiqlik, bir hissəsini də Bakı şəhəri, Əzizbəyov rayon prokuroru və Bakı şəhər prokurorunun birinci müavini vəzifələrində çalışması təşkil edir. Təbii ki, həmin vəzifələrin hər birinin özünəməxsus cəhətləri olmaqla yanaşı, istintaqla bağlılığı danılmazdır. Biz istintaqla bağlı fikirləri ilə əlaqədar İkram müəllimin SSRİ Prokurorluğunun Rəhbər Kadrların İxtisasartırma İnstitutunda "Qəsdən adam öldürmənin istintaqı üzərində prokuror nəzarəti" mövzusunda 1984-cü ilin dekabr ayında yazılmış referat işinə istinad etmişdik. Həmin yazı istintaq üzərində prokuror nəzarətinə həsr olunduğuna görə bəzi hissələrini məhz prokurorun fəaliyyəti kontekstində nəzərdən keçirməyi zəruri hesab edirik.

**Adam öldürmənin istintaqı zamanı elmi-texniki vasitələrdən və xüsusi biliklərdən istifadə**

İkram Kərimov adam öldürmənin istintaqı zamanı elmi-texniki vasitələrdən və xüsusi biliklərdən istifadə ilə bağlı yazır:

"Müasir şəraitdə hər bir müstəntiqin iş təcrübəsinə elmi tövsiyələr və elmi-texniki vasitələr fəal, plana-

uyğun və keyfiyyətli şəkildə daxil olmadan istintaq aparatının fəaliyyətini təsəvvür etmək mümkün deyildir.

Qəsdən adam öldürmə işləri üzrə elmi-texniki vasitələrin və xüsusi biliklərin tətbiqi zəruriliyi istintaqın ilk başlanğıcından, xüsusən hadisə yerinin və meyitin müayinəsi zamanı meydana çıxır.

Qanun müstəntiqin üzərinə meyitin aşkar edildiyi yerdə xarici müayinəsinin məhkəmə təbabəti sahəsində mütəxəssis-həkimin iştirakı ilə keçirilməsi kimi birbaşa öhdəlik qoyur. Müstəntiq artıq hadisə yerinin müayinəsi zamanı ölümün səbəbləri, onun başvermə müddəti, bədən xəsarətlərinin yetirilmə mexanizmi və s. haqqında mümkün olan daha ətraflı məlumatları almalıdır ki, həmin məlumatları nəzərə almaqla istintaq fərziyyələrini irəli sürsün. Müasir məhkəmə-tibb ekspertizasının imkanlarını bilmək, həmçinin, məhkəmə-tibb ekspertinin vəzifələri qeyd olunan sənədlərlə tanış olmaq və onların yerinə yetirilməsini ekspertdən tələb etmək müstəntiq üçün olduqca faydalıdır.

SSRİ Prokurorluğu dəfələrlə meyitin müayinəsi zamanı müstəntiqin iştirakı zəruriliyinə diqqəti cəlb etmişdir. Prokuror-istintaq və ekspert təcrübəsi göstərir ki, müstəntiqin meyitin müayinəsində iştirakı müstəntiqin ölümün səbəbi, xəsarətlərin xarakteri və digər mühüm hallar haqqında tam məlumat almasını təmin edir.

Prokuror adam öldürmənin istintaqının ilkin mərhələsində iştirak etməklə həmişə həmin halları mütəxəssis-həkim ekspertlə aydınlaşdırır, müstəntiqin həmin xüsusi məsələlərlə bağlı daha tam informasiya almasına, mütəxəssisin xüsusi zəruri materialları analiz və tədqiqat üçün götürməsinə və onların vaxtında tədqiq olunmasına nəzarət edir. Prokuror həmçinin müstəntiqin mütəxəssis qarşısında qoyduğu sualların doğruluğunu, ekspertizanın vaxtında keçirilməsini, onun imkanlarından daha tam istifadəni, həmçinin meyitin məhkəmə-tibbi müayinəsi zamanı müstəntiqin şəxsən iştirak etməsinin təmin olunmasını nəzarətdə saxlamalıdır.

Adam öldürmə ilə bağlı hər bir işdə hadisə yerinin müayinəsində mütəxəssis-kriminalistin, həmçinin törədilmiş cinayətin özünəməxsusluğundan asılı olaraq digər mütəxəssislərin iştirakı məqsədəmüvafiqdir. Hadisə yerinin müayinəsi zamanı kriminalistik texnikadan bacarıqla və təyinatı üzrə istifadə olunması nəticəsində səmərəlilik əhəmiyyətli dərəcədə artır. Təcrübədə bilavasitə müstəntiq tərəfindən elmi-texniki vasitələrdən istifadə olunması cinayətin açılması prosesində uğurlu nəticələrə gətirib çıxara bilir. Eyni zamanda nəzərə almaq lazımdır ki, hadisə yerinin müayinəsi zamanı yalnız müstəntiq tərəfindən elmi-texniki vasitələrdən istifadəyə istiqamətlənməyə çətin ki, bəraət qazandır-

maq olar. Yalnız müstəntiq tərəfindən elmi-texniki vasitələrdən istifadə olunması istintaq hərəkətinin yerinə yetirilməsi zamanı müstəntiqi əsas məqsəddən yayındırır və bu bəzi hallarda istintaq hərəkətinin yerinə yetirilməsi zamanı iş üçün əhəmiyyətli olan halların əks etdirilməsində natamamlığa səbəb olan səhvlərlə nəticələnir.

Prokuror eimi-texniki vasitələrin tətbiqinin qanuniliyi üzərində nəzarəti elə təşkil etməlidir ki, cinayət mühakimə icraatında elmi-texniki vasitələrin tətbiqini tənzimləyən prosessual normalara dəqiqliklə riayət olunması təmin olunsun, proses iştirakçıları və digər vətəndaşların hüquqlarının pozulmasına yol verilməsin.

Adam öldürmə işlərində cinayətlərin açılması və onların törədilməsində təqsirli olan şəxslərin ifşa olunması üçün bütün ekspertiza imkanlarından (məhkəmə-bioloji və sitoloji ekspertiza, meyitin qalıqlarının skletləşdirilməsi və s) istifadə olunması zəruridir.

Bu mənada SSRİ Prokurorluğu tərəfindən yerlərə göndərilmiş məhkəmə ekspertizasının müasir imkanları haqqında informasiya məktubunun (məsələn, “Maddi sübutların məhkəmə-tibbi tədqiqinin yeni imkanları haqqında” 17.10.77-ci il tarixli 3 D-75-77 №-li informasiya məktubu və s.). böyük əhəmiyyəti vardır.

Prokuror müstəntiq tərəfindən vaxtında ekspertizaların keçirilməsinə nəzarət etməli, müstəntiq tərəfindən iş üçün zəruri olan bütün etspertizaların

keçirilməsini, onların keçirilməsi üçün təxminən nə qədər vaxt lazım olmasını aydınlaşdırmalıdır.

Zəruri olduğu hallarda prokuror həmin məsələlərdə müstəntiqə öz yardımını göstərməlidir (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 363-365).

**Təxirəsalınmaz istintaq hərəkətlərinin icrasının təşkilinin bəzi məsələləri və prokurorun rolu**

Prokurorun vəzifələrinin bir hissəsini də onun cinayət işi üzrə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirməsi ilə bağlı hər bir iş üzrə istintaqın səmərəli keçirilməsinin təşkilidir. İ.Kərimiov hesab edir ki, "təxirəsalınmaz istintaq hərəkətlərinin icrası və onların başa çatması gedişində prokuror bəzi təşkilati məsələləri də həll etməlidir:

– müstəntiqə konkret kömək göstərməli;

– onun fəaliyyətinin əhatə dairəsini və buna müvafiq olaraq istintaq hərəkətlərinin aparılması üçün ona əlavə iştirakçıların ayrılması zəruriliyini məyyənləşdirməli (rayon prokurorluğu əməkdaşlarından olmasa da, PDİŞ-nin müstəntiqləri və əməliyyat işçilərindən);

– müstəntiqin harada iş aparmasının zəruri olduğunu dəqiqləşdirməli (prokurorluğun və ya RDİŞ-nin binasında);

– hər hansı bir halın yoxlanılması, maddi sübutun axtarılması və s. üçün təhqiqat orqanının əməliyyat

işçilərinin başqa yerlərə, o cümlədən uzaq şəhər və rayonlara ezamiyyətə göndərilməsi lazımlılığını təsdiqləməli;

– müstəntiq avtomobil nəqliyyatı ilə təmin olunmalı;

– qonşu prokurorluqlara sorğu göndərməklə (və ya sorğu göndərilməsini nəzarətdə saxlamaqla) onları zəruri halları aydınlaşdırmağa istiqamətləndirməli;

– törədilmiş cinayətlər və onların açılması üçün görülmüş tədbirlər barəsində xüsusi məlumat hazırlamalı;

– əgər konkret adam öldürmə işinin istintaqı üçün istintaq qrupu yaradılıbsa, onda prokuror qrupa daxil olanlar arasında vəzifə bölgüsü aparmalı, iş üzrə adam öldürmə ilə bağlı bu və ya digər halların aydınlaşdırılması üçün təxmini müddətlər müəyyən edilməli;

– nəzərdə tutulmuş planların icrasını dinləmək üçün mütəmadi olaraq idarələrarası müşavirələr keçirməli;

– hadisə yerinin müayinəsində, digər təxirəsalınmaz istintaq hərəkətlərinin aparılmasında şəxsən iştirak etməli;

– müstəntiq hadisə yerinin protokolunu, digər təxirəsalınmaz istintaq hərəkətlərinin protokolunu tərtib etməsini nəzarətdə saxlamalı, şəxsən onları öyrənməli, zəruri fotocədvəllərin, neqativlərin və s. hazırlanmasını və həmin protokollara əlavə olunmasını yoxlamalı;

– qəliblərin, maddi sübutların, düzgün qablaşdırılmasını, onların mövcudluğunu, müvafiq qaydada qurudulmasını, zərfləşdirilməsini və s. yoxlamalı;

– müstəntiqlə birlikdə iş üzrə irəli sürülmüş fərziyyələrin yoxlanılması üçün plan tərtib etməli" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. 365-366).

**Qəsdən adam öldürmə işləri üzrə istintaqın sonrakı gedişinə prokuror nəzarəti**

Adam öldürmənin istintaqı zamanı fərziyyələrin irəli sürülməsi, yoxlanılması, planlaşdırma qəsdən adam öldürmə işləri üzrə istintaqın sonrakı gedişinə prokuror nəzarətinin bir hissəsini təşkil edir. İ.Kərimov həmin fəaliyyətlə bağlı fikirlərini aşağıdakı kimi ifadə edir:

"Adam öldürmə cinayətləri üzrə istintaqın planlaşdırılması və fərziyyələrin hazırlanmasına müstəntiq təxirəsalınmaz istintaq hərəkətlərindən sonra başlayır. Yalnız müəyyən material, əşya ilə bağlı məlumatları topladıqdan sonra müstəntiqin istintaq fərziyyələrini araşdırmaq və adam öldürmə ilə bağlı iş üzrə hərtərəfli istintaq planı tərtib etmək imkanı olur.

Hadisə yerinə gəldikdən sonra ilk baxışdan "hər şeyin aydın olması"nı müəyyən edən müstəntiqlər istintaqın ilkin mərhələsində böyük səhvə yol verirlər.



Qəsdən adam öldürmə cinayətlərinin açılma təcrübəsi göstərir ki, mümkün cinayətkar haqqında hipoteza qurmamışdan əvvəl cinayətin törədilməsi halları haqqında başlanğıc məlumatları toplamaq və iş üzrə daha çox ehtimal olunan və zəruri fərziyyələri irəli sürmək lazımdır. Fərziyyələri irəli sürmək üçün məcburi tələb, onların əsaslandırılmış olması, yəni qurulması üçün obyektiv əsasların mövcudluğudur. İstintaqın gedişində irəli sürülmüş fərziyyələr ətraflı yoxlanılmalıdır. Nəticədə, yoxlama onlardan birinin düzgünlüyünü təsdiq edənə və cinayət açılana kimi bəzi fərziyyələr aradan çıxır, digərləri qurulur və ya irəli sürülür.

Adətən, istintaqın ilkin mərhələsində hadisənin xarakteri, ölümün səbəbləri, adam öldürmənin yeri, adam öldürmənin motivi, öldürülənin şəxsiyyəti, öldürülməmişdən əvvəl onun davranışı, adam öldürənin hadisə yerinə gəldiyi və oradan getdiyi yol, adam öldürənlərin sayı, onların şəxsiyyəti haqqında fərziyyələr irəli sürülür. Bütün bu fərziyyələr bir-biri ilə qarşılıqlı əlaqədə olur. Fərziyyələrin yoxlanılması planlı qaydada həyata keçirilir, işin istintaq planının əsasanı irəli sürülmüş fərziyyələrin yoxlanılması planı təşkil edir.

Planauyğun fəaliyyət adam öldürmə cinayətinin açılması zamanı müvəffəqiyyətin şərtlərindən biridir.

Adam öldürmənin açılması və istintaqda müstəntiq və təhqiqat orqanının sıx əlaqəsi yer aldığına görə planlaşdırma da razılaşdırılmış olmalıdır. Müstəntiqlər və təhqiqat orqanlarının ayrı-ayrı, lakin öz aralarında hərtərəfli razılaşdırılmış istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin keçirilməsi planlarını tərtib etmələri daha düz və səmərəli hesab olunur. "Bu cür hallarda konkret istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin dəqiq fərqləndirilməsinə nail olunur, həmçinin öz işlərində xüsusi metod və vasitələrdən istifadə edən milis əməkdaşlarının əməliyyat fəaliyyətinə müstəntiqin müdaxilə etməməsi təmin olunur" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 366-367).

**Qəsdən adam öldürmə haqqında işlərin sonrakı istintaqının təşkilində prokurorun rolu**

İ.Kərimovun şəxsi təcrübəsinə əsasən qəsdən adam öldürmə cinayətlərinin açılmasından sonra prokuror üçün aşağıdakıları zəruri hesab edilir:

– bir sıra mühüm istintaq hərəkətlərinin aparılmasında iştirak etmək: zərərçəkmişin yaxınlarının (adam öldürməyə sui-qəsd hallarında zərərçəkmiş şəxsin özünün), əsas şahidlərin, şübhəli şəxsin (müstəntiq ilə razılıq əsasında) dindirilməsində iştirak etmək;

– şübhəli şəxsə onun işinin istintaqını aparacaq, onun taleyini həll edəcək müstəntiqi təqdim etmək. Bu, müstəntiqin xəbəri olmadan şübhəli şəxslə milis işçilərinin (cinayət axtarış müvəkkilinin) söhbətlərinin qarşısının alınması məqsədi üçün zəruridir);

– əməliyyat məlumatları ilə şəxsən tanış olmaq, plan və onun reallaşdırılmasını öyrənmək;

– bununla eyni vaxtda müstəntiqin tapşırıqlarının təhqiqat orqanı tərəfindən necə yerinə yetirildiyini öyrənmək;

– müqəssirin və əsas şahidlərin dindirilməsində səsyazmanın keçirilməsi ilə şəxsən iştirak etmək; bu zaman nəzarət etməklə prosessual pozuntuları, taktiki çatışmazlıqları aradan qaldırmaq;

– müstəntiqin axtarış, şəxsi və maddi sübutları tanınmaya təqdim etməni vaxtında və keyfiyyətlə keçirməsini aydınlaşdırmaq;

– zərurət olduqda üzləşmələrin keçirilməsində iştirak etmək;

– müstəntiqin taktiki səhvlərə və prosessual pozuntulara yol verməsinin qarşısını almaq məqsədi ilə istintaq hərəkətlərinin keçirilməsi məsələləri ilə bağlı onu təlimatlandırmaq (xüsusən gənc müstəntiqləri);

– müqəssirin ifadəsinin yerində yoxlanılmasında şəxsən iştirak etmək və ya bu mürəkkəb istintaq hərəkətinin keçirilməsi məqsədilə müstəntiqi təlimatlandırmaq;

– müqəssiri dindirəndən sonra müstəntiqin onun ifadəsinin yerində yoxlanılması üçün necə plan tərtib etməsinə, bu zaman ifadələrdəki ziddiyyətlərin aradan qaldırılmasına diqqət yetirmək, planda zərurət olmayan istintaq hərəkətlərinin nəzərdə tutulmasını və əksinə müstəntiq tərəfindən hansı istintaq hərəkətlərinin yaddan çıxarılmasını aydınlaşdırmaq;

– iş üzrə bütün maddi sübutların götürülməsini, onların düzgün qablaşdırılıb-qablaşdırılmadığını, necə saxlandığını (rayon prokurorluğunda bunun üçün xüsusi otaq mövcuddur), onların hər birinin ekspertizadan keçirilməsi üçün göndərilib-göndərilmədiyini aydınlaşdırmaq;

– istintaq müddətinə riayət edilməsi məqsədi ilə mühüm əhəmiyyət kəsb etdiyi üçün ekspert rəylərinin vaxtında alınmasını nəzarətdə saxlamaq; ehtiyac olduqda, ekspertizanın vaxtında keçirilməsinin

təmini üçün həmin məsələyə şəxsən müdaxilə etmək;

– istintaqın gedişində ərizə və şikayətlərin və ya yuxarı prokurorun göstərişlərinin daxil olub-olmamasını, əgər daxil olubsa, onların necə həll olunmasını, onlarla əlaqədar nə kimi tədbirlərin görülməsini, onların istintaq və ya əməliyyat tədbirləri yolu ilə araşdırıldığını mütəmadi yoxlamaq.

Prokurorun ağır cinayətlərin törədilməsi haqqında şübhələr əks olunan və əhalidən daxil olan siqnallara dərhal reaksiya verməsi mühüm əhəmiyyət kəsb edir" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 368-369).

İ.Kərimov SSRİ Prokurorluğunun Rəhbər Kadrların İxtisasartırma İnstitutunun dinləyicisi kimi "Qəsdən adam öldürmənin istintaqı üzərində prokuror nəzarəti" mövzusunda yazdığı referatında daha sonra 1977-ci ildə Əzizbəyov rayonunda baş vermiş cinayət hadisəsinin 1980-ci ildə açılmasında prokurorun rolu ilə bağlı məqamları qeyd edərək referatda əsaslandığı nəzəri bilikləri təcrübədə necə həyata keçirdiyindən söhbət açır. Referatın həmin hissəsini oxuduqca elmi biliklərin təcrübə ilə əlaqələndirilməsi, bu zaman hadisə yerinin müayinəsi, müxtəlif ekspertizaların təyin olunması və keçirilməsi ilə bağlı müstəntiq və prokurorun rastlaşdığı praktiki çətinliklər, ekspert rəyləri ilə şübhəli şəxs və ya müqəssirin ifadələri arasında ziddiyyətlərin aradan

qaldırılması, müqəssirin cinayəti törədilməsində iştirak edən digər şəxslərlə bağlı ifadələrinin həqiqiliyinin yoxlanılması, iş üzrə maddi sübutların əldə edilməsi üçün həyata keçirilən istintaq və əməliyyat-axtarış təbdirlərinin əlaqələndirilməsi, iş üzrə toplanmış sübutların hər birinin ayrılıqda və məcmu şəkilində qiymətləndirilməsinin işin açılması və cinayətkarların ifşa edilməsində əhəmiyyətini, ən əsası isə adam öldürmə cinayətlərinin istintaqında prokuror nəzarətinin incəliklərini göstərməklə bu sahədəki fəaliyyəti zamanı qazandığı uğurlar əsasında nümayiş etdirmişdir. Hesab edirik ki, müstəntiqlik məktəbini keçmiş şəxslərin prokuror kimi fəaliyyətlərini davam etdirmələrinin ağır cinayətlərin istintaqı zamanı prokuror nəzarətini həyata keçirməklə müstəntiqə dəstək olması əhəmiyyətli məqam kimi dəyərləndirilə bilər. Təbii ki, burada prokuror kimi fəaliyyət göstərən şəxslərin şəxsi və insani keyfiyyətlərini nə nəzərə almaq lazımdır.

İ.Kərimov referatda daha sonra yazır: "Cinayət məsuliyyətinə cəlb etmənin qanuniliyi və əsaslılığının qanunun adam öldürmə işləri üzrə istintaqın hərtərəfliliyi, tamlığı və obyektivliyi haqqında tələbinin icrası ilə sıx bağlılığı vardır.

Adam öldürmənin istintaqı zamanı prokuror müstəntiqdən işin hallarının daha tam və obyektiv tədqiq olunmasını, müqəssiri həm ifşa edən, həm də ona bəraət qazandıran, həmçinin onun məsuliyyətini həm

ağırlaşdıran, həm də yüngülləşdirən halların aşkara çıxarılmasını tətləb edir.

Prokuror müstəntiqin adam öldürmənin törədilməsinin motivi ilə bağlı sübutları necə yoxlaması və rəsmiləşdirilməsinə nəzarət etməlidir. Prokuror, həmçinin zərərçəkmiş şəxsi və müqəssiri xarakterizə edən sənədlərin müstəntiq tərəfindən nə dərəcədə tam toplamasını, müstəntiqin təqsiri ağırlaşdıran halların tövsifinə yönəlmiş sübutları, müqəssirin hərəkətlərini necə yoxlamasını, möhkəmləndirilməsini, planlaşdırmasını nəzarətində saxlamalıdır. Məsələn, əgər adam öldürmə yetkinlik yaşına çatmayanların gözü önündə törədilmişdirsə, onun doğum haqqında şəhadətnaməsi alınmalı, yaxud əvvəllər adam öldürməyə görə məhkum olunmaları barədə hökmün olub-olmaması müəyyən edilməlidir və s.

Prokuror ittihamın tərtib olunmasına, cinayət məsuliyyətinə cəlbedilmə haqqında qərara xüsusi diqqət yetirməlidir. Müstəntiq layihəni hazırlayır. Ona həmin məsələlər üzrə CM-nin kommentariyasına yenidən baxmaq, SSRİ Ali Məhkəməsinin Plenumunun rəhbər qərarını yenidən oxumaq barədə göstəriş verilir. Layihə düzəldilmiş şəkildə yenidən oxunur. Fikir ayrılığı mövcud olduqda hər biri ayrılıqda öz variantını tərtib edir. Əməlin tövsifinə şübhə olduqda məsləhət üçün yuxarı prokurora müraciət olunur və son qərar qəbul edilir.

Hər bir konkret halda vəkilin, ittihamın elan edildiyi andan onun iştirakının zəruriliyi, bu barədə vəsatətin daxil olub-olmaması aydınlaşdırılır.

Əgər prokuror həbsolunma haqqında sanksiyanın verilməsinə məsuliyyətlə yanaşarsa, cinayət axtarışının versiyasının təsiri altına düşməzsə və özünün qəti fikrinə malik olarsa, o, əsaslandırılmamış sanksiya verilməmək və qanunu kobudcasına pozmamaqla bağlı təminat alacaqdır" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 373).

**Qəsdən adam öldürmə haqqında işlərin istintaqının başa çatdırılması üzərində prokuror nəzarəti**

İbtidai istintaqın qurtarması və ittiham aktının təsdiqi zamanı prokuror həmişə işin materiallarını dərindən öyrənməli, iş üzrə hər işin yerinə yetirilməsini, ittihamın düzgün tövsif edilməsini, cinayətin nə dərəcədə tam açılmasını, cinayət məsuliyyətinə cəlb olunmamış şəxslərin qalmadığını, prosessual pozuntulara yol verilib-verilmədiyini, müstəntiq tərəfindən müqəssirin və zərərçəkmiş şəxslərin bütün dəlillərinin yoxlanılıb-yoxlanılmadığını, müqəssirin və zərərçəkmiş şəxslərin bütün hərəkətlərinə qiymət verilib-verilmədiyini və s. müəyyən etməlidir.

Bununla yanaşı, prokuror iş üzrə təqdimatın hazırlandığını, müstəntiqin təqdimatı ünvanlamalı olduğu yeri düzgün müəyyən edib-etməməsini, onun

təqdimatın müzakirəsi zamanı özünün iştirakını tələb etməsini, gələcəkdə cinayətlərin baş verməsinin qarşısının alınması üçün hansı konkret tədbirləri irəli sürməsini yoxlayır.

...Beləliklə, planauyğunluq, təhqiqat orqanı ilə dəqiq qarşılıqlı fəaliyyət, peşəkarlıq, mütəxəssislərin bilikləri və ekspertizaların imkanlarından geniş istifadə, sosialist qanunçuluğuna riayət, cinayətin açılması prosesi və istintaqa kəskin və səmərəli prokuror nəzarəti şəxsiyyətə qarşı ağır cinayətlərlə müvəffəqiyyətli mübarizənin əsasıdır" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 374-375).

İ.Kərimovun "Prokuror fəaliyyəti ilə bağlı mülahizələrim" yazısında müzakirəyə çıxardığı məsələlər prokurorlara qarşı tələblər baxımından bu gün də aktuallığını saxlayır: "Rayon və şəhər prokurorları kamil hüquqşünaslar sırasından seçilməlidir. Onların əvvəllər müstəntiq və dövlət ittihamçısı vəzifələrində təcrübə toplaması mühüm əhəmiyyət kəsb edir. O, qanunları mükəmməl bilməklə yanaşı, onlara şərh verməyi də bacarmalıdır.

Prokuror geniş dünyagörüşünə malik olmalı, işlədiyi rayonun ərazisini yaxşı tanımalı, onun tarixini öyrənməlidir. Rayonda yaşayan əhalinin, müxtəlif etnik xalqların mədəniyyəti, məişəti və adət-ənənələri barədə məlumatlı olmalı, onlara hörmətlə yanaşmalıdır. Əhalinin məşğuliyyəti, rayonun iqtisadiyyatı,

tarixi abidələri, təbiəti və mədəniyyət ocaqları ilə maraqlanmalıdır.

Rayonda cinayət hadisəsinin törədilməsi ocaqlarını, qayda-qanun pozuntusuna meyilli dairələri tanımalıdır. Baş vermiş cinayət hadisəsinin üstünün isti iz ilə açılması üçün ibtidai istintaqın yüksək və peşəkar səviyyədə təşkili, mühüm və təxirəsalınmaz istintaq hərəkətlərinin həyata keçirilməsində bilavasitə iştirak etməsi prokurorun ümdə vəzifəsidir.

Yazıda İkram müəllimin prokurorlara ünvanladığı tövsiyələri prokurorluq sahəsində fəaliyyətində "Zirvədən zirvəyə" qalxmaq arzusunda olanlar üçün əxlaq kodeksi kimi səslənir:

"Rayonun rəhbər işçiləri ilə əmək kollektivlərinə başçılıq edən şəxslərlə amiranə davranmaqdan çəkinməli, insanlara yaxın olmalı, onlarda prokurora asanlıqla yanaşa bilmək, dərd-sərini söyləmək əhvali-ruhiyyəsi yaratmalıdırlar.

Vəzifəcə özündən böyük şəxsə əyilmək, itaət etmək və bunu özündən aşağı olan şəxslərdən gözləmək olduqca qüsurlu xüsusiyyətdir.

Tabeçiliyində olan işçini alçaltmaq, onu təhqir etmək, şərəf və ləyaqətinə toxunan ifadələr işlətmək onun rəhbər vəzifə tutmağa layiq olmamasına dəlalət edən əlamətdir. Onlardan şikayətlənmək zəif rəhbərliyin təzahürüdür.

İnsanlarla kobud rəftara yol vermək, daşıdığı vəzifənin imtiyazlarını vurğulamaq başucalığa gətirməz.

Danışığına fikir verməli, xüsusən də tanımadığın şəxslərin əhatəsində diqqətli olmalı, özünü fərqləndirməyə çalışmamalıdır.

Lovğalıq, təkəbbürlülük, özündənrazılıq, başqasını lağa qoymaq, hikkəlilik, lüzumsuz inadkarlıq, yerişini "itirmək" nüfuzun aşağı düşməsinə gətirib çıxaran amillərdir.

Prokuror həyat tərzi, şəxsi keyfiyyətləri və davranışı ilə nümunə olmaqla, fəaliyyətində ictimai qınağa səbəb ola biləcək hərəkətlərə yol verməməlidir. Gözükölgəli olmamalıdır.

Kiməsə "söykənmək"dən həzz alıb, özünü ətrafdakılardan təcrid etmək düzgün deyil. İnsana yanaşma tərzi onun daşıdığı titula görə deyil, şəxsiyyətinə görə olmalıdır.

Əsəbi halda qərar verilməməlidir. Çox düzgün deyimdir – bu zaman soyuq su içmək məsləhətdir.

Yoldaşının, tanışının, hər bir cəmiyyət üzvünün nailiyyətlərinə, xoş əməllərinə sevinməli, kədərinə şərik olmalıdır.

Bildiklərini öyrətməli, bilmədiklərini öyrənməlidir" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 590).

Cinayətin baş verməsinin qarşısının alınmasına yönəlmiş profilaktiki tədbirlər.

**"Toy axşamı" məclisləri**

Prokurorluğun, milisin vəzifələrindən biri də cinayətləri araşdırarkən onların başvermə səbəblərini aşkarlamaq, gələcəkdə bu kimi cinayətlərin təkrarlanmaması üçün zəruri profilaktik tədbirlərin görülməsindən ibarətdir. Bu cəhətdən kitabda yer alan "Toy axşamı" məclisləri yazısı porokuror kimi İkram müəllimin bəzi hallarda dava-dalaş, bıçaqlanma, ölüm hadisələri ilə nəticələnən toy məclisindən öncə "toy axşamı" gecələrinin keçirilməsinin qarşısının alınması ilə bağlı fəaliyyəti təqdirəlayiq hesab olunmalıdır. Qeyd edim ki, bu cür məclislər təkcə Bakı kəndlərində deyil, bəzi rayonlarda da keçirilir. Məsələn, 80-ci illərin əvvəllərində Bərdədə müstəntiq işlədiyim vaxt "toy axşamı" məclisində təxminən 40 nəfərin qumar oynaması ilə bağlı işin istintaqını aparmağımı xatırlayıram. Bu kimi cinayətlərin qarşısının alınması üçün keçirilən profilaktiki tədbirləri həqiqətən də alqışlanmalıdır. (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 30)

**"Hərbi xidmətdən yayınma ilə bağlı"**

"Hərbi xidmətdən yayınma ilə bağlı" yazıda İ.Kərimov hərbi xidmətdən yayınmanın qarşısının profilaktiki tədbirlərlə alınmasının üstünlüyünü qeyd edərək yazır: "Hərbi komissarlıqdan prokurorluğa hərbi xidmətdən yayınma halları ilə bağlı çox say-

da material daxil olurdu... Düzdür, hərbi qulluqdan yayınma faktı qanunla cinayət hesab olunur. Ancaq hesab edirdim ki, 18 yaşlı gənci həbs etmək, onu cinayətkarlar düşərgəsinə qatmaq daha çox mənfi nəticələrə yol açır. Odur ki, bu sahədə profilaktik tədbirlərin görülməsini daha məqbul sayırdım... ictimai fəalları cəlb etməklə belə gəncləri və onların valideynlərini, bəzən də tanınmış yaxınlarını prokurorluğa dəvət edib əthaflı söhbətlər aparırdıq. 2 il həqiqi hərbi qulluq keçməklə, 3 il müddətinədək azadlıqdan məhrumedilmə yerlərində cəza çəkməyin fərqini onlara izah edirdik... Görülən tədbirlər öz bəhrəsini verirdi" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 31).

İ.Kərimovun fəaliyyəti əslində Ulu Öndər Heydər Əliyevin ideyaları ilə həmahənglik təşkil edirdi. 12 aprel 1994-cü il tarixdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün güclənməsi ilə əlaqədar respublikanın Milli Televiziyası və Radiosu ilə xalqa müraciətində Heydər Əliyev deyirdi: "Fərarilik etmək, səfərbərlikdən yayınmaq xalqa, Vətənə xəyanət etmək deməkdir. Ona görə də fərarilik yoluna düşənlərə, səfərbərlikdən yayınanlara xəbərdarlıq edirəm, onları bir daha düz yola dəvət edirəm. Fərarilik edən, səfərbərlikdən yayınan gənclərin valideynlərinə, qohum-əqrəbasına müraciət edirəm. Bildirmək istəyirəm ki, onlar da öz övladlarının, qohum-əqrəbalarının fəra-

riliyinə görə, səfərbərlikdən boyun qaçırdıqlarına görə məsuliyyət daşıyırlar.

...Ordu bizim üçün ən müqəddəs, ən gərəkli dövlət strukturudur. Ordu hər bir vətəndaşın əmin-amanlığı üçün yaranır. Ordu Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qorumaq üçün yaranıb. Ona görə də hər bir vətəndaş ordu sıralarında xidmət etməyi özünə şərəf bilməlidir. Hər bir valideyn öz oğlunu, öz yetirməsini ordu sıralarına göndərməyi özünün vətənpərvərlik, vətəndaşlıq borcu hesab etməlidir, bu şərəfli borcunu yerinə yetirməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. İkinci kitab. s. 376-377).

Əhməd Əhmədov "Unudulmaz dostumun yadigarı" adlı xatirəsində yazır: "Dostlarımdan birinin övladı hüquq fakültəsini bitirərək, ixtisası üzrə işləyirdi. Eyni zamanda onun leytenant hərbi rütbəsi var idi. Bir gün dostum məndən xahiş etdi ki, oğlumu zorla hərbi xidmətə aparırlar. İkram müəllim səninlə dostdur, gedək onunla məsləhətləşək. O zaman İkram müəllim Respublika Hərbi Məhkəməsinin sədri işləyirdi. Mən ona bildirdim ki, bu kişinin övladını əsgər aparmaq istəyirlər. İkram müəllim qəti şəkildə dedi: "Hər bir kəs əsgərliyə getməlidir. Bəs torpaqlarımızı kimlər qoruyacaq? Zabit isə əsgər kimi xidmətə aparılmır. Onlar hərbi təlimlərə cəlb edilə bilər. Ya da zabit kimi hərbi qulluğa çağırıla bilər" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 246).

"Orduda xidmət hər bir gəncin qəlbində böyük arzu kimi yaşamalıdır. Valideynlər öz övladlarını tərbiyə edərkən onlara verdikləri nəsihətlər içərisində ən birinci nəsihət, ən birinci valideyn tapşırığı oğlunun orduda xidmət etməsi olmalıdır. Hər bir Azərbaycan oğlu uşaqlıqdan orduda xidmət etməyi arzulamalıdır. O, bunun üçün çalışmalı, tələsməli, orduda xidmət yaşının çatmasını həsrətlə gözləməlidir və orduda xidmət edərək vətən, millət qarşısında öz şərəfli borcunu verməlidir" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Onuncu kitab. s. 200).

Müstəqilliyin, milli azadlığın, dövlətçiliyin də əsasını vətənə sevgi, vətənpərvərlik təşkil edir. İnsan ilkin olaraq vətənini, torpağını sevməlidir ki, vətənpərvər olsun, Vətəninin təəssübkeşliyini çəksin, Vətənini, torpağını qorumağı, ona xidmət etməyi özünə borc bilsin. Vətən sevgisi, torpaq sevgisi, vətənpərvərlik ana südü, ata qanı, doğulub boya başa çatdığın torpağın ətri, onun havası, nemətlərindən insanın canına, qanına, iliyinə hopan zərrələrdən, ana laylasından, ata öyüdündən, insanın böyüdüyü mühitin mənəvi ab-havasından, aldığı tərbiyədən yaranır. Vətən övladı məhz bu amillərin təsirindən Vətən sevgisinə qovuşur və bu sevgi onu vətənpərvər, torpağını sevən, onun üçün mübarizəyə hazır olan insana çevrir, vətənpərvərlik amalına qovuşdurur.

Vətənpərvərlik insanın doğulduğu, boya-başa çatdığı torpağa, elinə-obasına, onun adət-ənənələrinə, yaşadığı cəmiyyətdəki insanlar arasındakı qarşılıqlı münasibət, davranış qaydalarına, milli-mənəvi dəyərlərə, öz dilinə, xalqın mədəni sərvətinə, vətən torpağına, bu torpaqda yaşayan insanlara sevgidə, vətənin çiçəklənməsi, inkişafı üçün fəaliyyətdə təzahür edir.

Heydər Əliyev deyirdi: "Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur. Bu, sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq – budur vətənpərvərlik" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Beşinci kitab. s. 319).

Heydər Əliyev ideyalarından biri də gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunması idi. Əslində bu ideya özündə çox şeyi ehtiva edirdi. Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kontekstində götürsək, vətənpərvər insan heç vaxt Vətəninin, torpağının işğal altında qalması ilə barışmamalıdır. O canı ilə, qanı ilə mübarizəyə hazır olmalı, Vətəni azad etmək onun amalına çevrilməlidir. Heydər Əliyev gənclərin vətənpərlik ruhunda tərbiyə olunmasını dedikdə, məhz bu amilin nəzərdə tuturdu.

Vətənpərvərliyin digər cəhəti onda ifadə olunur ki, vətənpərvər insan öz amalını həyata keçirmək –

Vətəni azad etmək üçün özü ilə eyni əqidədə, eyni fikirdə olan insanları tapır, onlar eyni amal uğrunda birgə mübarizəyə aparır və beləliklə də, vətənpərvər insanlar artıq eyni ideya ətrafında birləşir və milli birlik yaranır. Hər bir müharibədə isə milli birlik, əqidə birliyi qələbənin, zəfərin əsasını təşkil edir. Ona görə də Heydər Əliyev gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasını tövsiyə etdikdə, həm də gələcəkdə vətənpərvər insanların birliyi üçün zəmin yaranmasını arzulayırdı.

Heydər Əliyev vətəndaşın dövlətçiliyi inkişaf etdirən vətəndaşa çevrilməsi üçün onun vətənpərvər olmasını ilkin şərt hesab edirdi: "Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından – hər şeydən üstün tutsun. Milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən böyük amillərdən biridir. Şübhəsiz ki, dövlət dövlətçiliyi möhkəmləndirir. Amma dövlət cəmiyyətə arxalanır. Cəmiyyət insanlardan ibarətdir. İnsanların isə hər biri gərək əsl vətəndaş olsun, vətənpərvər vətəndaş olsun, milli qürur hissi ilə yaşayan vətəndaş olsun. Onda bu vətəndaş dövlətçiliyi inkişaf etdirən vətəndaş olacaqdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On səkkizinci kitab. s. 245).

Dövlətçiliyi inkişaf etdirmək isə başqa cəhətləri ilə yanaşı, dövlətin suverenliyinin, ərazi bütövlüyünün təmin olunmasında və əlbəttə ki, işğal olunmuş ərazilərinin azad olunmasında öz ifadəsini tapır.

Heydər Əliyev Ermənistanla torpaqların müdafiəsi üçün aparılan döyüşlərdə məğlubiyyətin səbəblərindən birini son illər ölkə ərazisində gedən ictimai-siyasi proseslər nəticəsində gənclərin bir qismində vətənpərvərlik hissinin müəyyən qədər itməsi, ümumi milli mənafeyə biganəliyin yaranması ilə əlaqələndirir, ona görə xalqın gücünü bir yerə toplamaq üçün daxili mənəviyyat hissinin oyadılmasını vacib hesab edirdi: "Xalqımızın gücünü bir yerə toplasaq, onun daxili mənəviyyat hissini oyatsaq, tarixi ənənələrini və tarix boyu göstərdiyi qəhrəmanlıq nümunələrini bu gün xalqımıza, xüsusən gənclərimizə bir daha çatdıra bilsək, şübhəsiz ki, xalqımız birləşəcək, səfərbər olacaq, ayağa qalxacaq, birinci növbədə öz namusunu, şərəfini qoruyacaq, öz atasının, babasının yurdunu qoruyacaq, torpağını qoruyacaq, özünün bugünkü həyatını, gələcəyini, övladlarının, nəvələrinin, nəticələrinin həyatını qoruyacaqdır. Mən buna inanıram. Mənim bu fikirlərim bizim gənclərin gücünə, zəkasına, fitri istedadına və vətənpərvərlik hisslərinə əsaslanır. Bizim məğlubiyyətlərimizin və düşdüyümüz ağır vəziyyətin əsas səbəblərindən biri Azərbaycanda son illər

gedən ictimai-siyasi proseslər nəticəsində gənclərimizdə (şübhəsiz ki, bir qismində) vətənpərvərlik hissinin müəyyən qədər itməsi, ümumi milli məfhumlara biganəlik və başqa mənfi keyfiyyətlərin meydana çıxması, bəzən geniş sirayət etməsi ilə əlaqədardır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 167).

**"İttiham və müdafiə nitqləri haqqında"**

"İttiham və müdafiə nitqləri haqqında" yazıda İkram müəllim həmin nitqlərin mahiyyəti, təyinatı, məqsədi ilə bağlı bir sıra sualları qeyd edərək onlara cavab verməyə çalışır və belə nəticəyə gəlir ki, "ittiham nitqi proses iştirakçılarını və zalda əyləşənləri düşündürməli, öyrətməli və qanunazidd hərəkətlərdən çəkindirməlidir. Məhkəmə prosesinin açıq keçirilməsi də məhz bu prinsipə xidmət edir" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 88).

İkram müəllimin fikirləri ilə razılaşaraq qeyd etmək istəyirik ki, ittiham nitqi əsasən qiymətləndirmə xarakteri daşıyır və mənəvi-hüquqi yönümü ilə səciyyələnir. Məhkəmə nitqləri, xüsusən baxılan işlər sosial əhəmiyyətə malik olduqda və məhkəmə prosesləri açıq keçirildiyi hallarda ictimaiyyət nümayəndələrinə tərbiyəvi təsirə malik olur. İttiham nitqi ilə məhkəmə zalında iştirak edənlərə təqsirləndirilən

şəxs tərəfindən törədilmiş cinayətin ictimai təhlükəliliyi nümayiş etdirilməli, onlarda qanuna və hüquq qaydasına hörmət hissi tərbiyə olunmalıdır. İttiham nitqi baxılan əməlin yalnız faktlar əsasında təhlilindən, həmin əməlin tövsifindən araşdırılan sübutların öyrənilməsi və onlardan nəticə çıxarılmasından ibarət olmamalı, həmçinin yaradıcı prosesi təşkil etməlidir. Həmin proses nitqi söyləyəndən təkcə hüquqi biliklərə sahib olmanı deyil, həm də natiqlik qabiliyyəti tələb edir. İttiham nitqinin əsas vəzifəsi cinayət faktının və təqsirləndirilən şəxsin həmin cinayəti törətməkdə təqsirinin ona verilmiş ittihamın düzlüyünü sübut etməkdir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin dili ilə deyilsə, məhkəmə prosesi nəticəsində "Ədalət mühakiməsinin həyata keçirilməsi ilə bərabər, ədalətin bərqərar edildiyi də aydın görünməlidir" ("De Cubber Belçikaya qarşı").

İkram müəllim daha sonra yazır: "Məhkəmə prosesində dövlət ittihamçısı ilə müdafiə tərəfi bərabər hüquqludurlar. Onlardan hər hansı birinə üstünlüyün verilməsi tarazlığı poza bilər" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 89).

Qeyd edək ki, İkram müəllim yazısının başlanğıcında "bu yazı konfransın təəssüratı altında qələmə alınmışdır" qeydini aparmışdır. Həmin "Dövlət ittihamının müdafiəsinin səmərəliliyinin yüksəldilməsi məsələləri üzrə Ümumittifaq elmi-praktiki

konfransı 1983-cü ilin aprelində keçirilmişdir (İkinci kitab s. 83). İkram müəllimin həmin yazını yazmasından 28 il sonra İnsan Hüquqları üzrə Avropa Məhkəməsi "Hüseyn və başqaları Azərbaycana qarşı" işi üzrə 26 iyul 2011-ci il tarixli qərarında aşağıdakıları bizim milli məhkəmənin Konvensiyanın 6-cı maddəsinin pozuntusu kimi göstərirdi:

"187. Məhkəmə qeyd edir ki, yuxarıda göstərildiyi kimi, birinci, ikinci və üçüncü ərizəçinin vəkilləri müştərilərinin adından şifahi arqumentlərin təqdim edilməsində iştirakdan imtina etdilər və ərizəçilər şifahi nitqlə şəxsən çıxış etmələrinə icazə verilməsi üçün məhkəməyə vəsatətlə müraciət verdilər. Onların vəsatəti təmin edilmədi və belə əsas gətirildi ki, müttəhimlər prosesdə rəsmən vəkillə təmsil olunublarsa, daxili qanunvericilik müttəhimlərin yekun müdafiə nitqi ilə çıxış etmələrinə icazə vermir. Nəticədə ərizəçilər üçün elə bir vəziyyət yarandı ki, nə vəkilləri onların adından yekun nitqi ilə çıxış etdilər, nə də onların bunu şəxsən etmələrinə icazə verildi. Daxili qanunvericiliyin bu məsələni hansı formada tənzimləməsi və ya həmin qanunvericiliyin ərizəçilərin işinə düzgün tətbiq edilib-edilməməsi Məhkəmə üçün maraq kəsb etmir. Məhkəmənin vəzifəsi onu yoxlamaqdan ibarətdir ki, nəzərdən keçirilən faktiki vəziyyət, yəni ərizəçilərin daxili məhkəmədə yekun nitqlə çıxış edə bilməmələri on-

ların Konvensiyada nəzərdə tutulmuş hüquqlarını pozmuşdumu?

188. Məhkəmə bir daha xatırladır ki, ədalətli məhkəmə araşdırması konsepsiyasının fundamental elementlərindən biri olan tərəflərin bərabərliyi prinsipi tərəflərin hər birinə əks tərəfin qarşısında əhəmiyyətli dərəcədə əlverişsiz vəziyyətə salınmamaq şərti ilə öz arqumentlərini təqdim etmələri üçün ağlabatan imkan yaradılmasını tələb edir (bax: Nideröst Huber İsveçrəyə qarşı, 18 fevral 1997-ci il, 23-cü bənd, Qərarlar toplusu, 1997-I). Bu hüquq digər məsələlərlə yanaşı, məhkəmə prosesindəki tərəflərin məhkəmənin qərarına təsir göstərmək məqsədi ilə işə verdikləri hüquqi qiyməti təqdim etmələri və digər tərəfin qeydlərinə dair şərhlərini bildirmələri üçün imkan deməkdir (bax (müvafiq dəyişikliklərlə): Lobo Maçado Portuqaliyaya qarşı, 20 fevral 1996-cı il, 31-ci bənd, Qərarlar toplusu, 1996-I, sonrakı istinadlarla). Tərəflər arasında "ədalətli balans" mənasında tərəflərin bərabərliyi tələbi prinsipcə həm cinayət işlərinə, həm də mülki işlərə şamil olunur; cinayət işlərində bu tələbdən hər hansı kənarlaşmanın yol verilən dərəcəsi daha azdır (bax: Dombo Beheer B.V. Niderlanda qarşı, 27 oktyabr 1993-cü il, 32-33-cü bəndlər, A seriyaları, № 274).

189. Məhkəmə daha sonra xatırladır ki, cinayət işləri üzrə məhkəmə iclaslarının ən mühüm aspekt-

lərindən biri müdafiə tərəfi üçün, eləcə ittiham tərəfi üçün də yekun arqumentlərini təqdim etmək imkanının yaradılmasıdır, bu, onların bütövlükdə işə və məhkəmə araşdırmasında təqdim edilmiş dəlillərə dair rəylərini və məhkəmə araşdırmasının nəticələrinə verdikləri qiymətlə əlaqədar hüquqi arqumentlərini şifahi şəkildə təqdim edə biləcəkləri yeganə imkandır (bax: (müvafiq dəyişikliklərlə): Hanjevatski Xorvatiyaya qarşı, ərizə № 17182/07, 25-ci bənd, 16 aprel 2009-cu il).

190. Məhkəmə qeyd edir ki, hazırkı işdə ittiham tərəfinin yekun çıxışına imkan yaradılması üçün məhkəmə iclasları iki dəfə təxirə salınıb, sonradan ittiham tərəfi məhkəmənin və ya müdafiə tərəfinin müdaxiləsi və ya etirazı olmadan iki məhkəmə iclası ərzində tam yekun nitqi ilə çıxış edib. Digər tərəfdən, birinci, ikinci və üçüncü ərizəçi yekun nitqi ilə çıxış etmək hüququnu həyata keçirə bilməyiblər, çünki vəkilləri onların adından bunu etməkdən imtina ediblər. Yuxarıda qeyd edildiyi kimi, vəkillərin imtinası onların səmərəli hüquqi yardım göstərmək imkanına malik olmadıqlarını göstərirdi, daxili məhkəmə isə bu məsələyə yetərincə diqqət yetirmədi. Özlüyündə vəkillərin faktiki imtinası ərizəçilərin yekun nitqi ilə çıxış etmək hüququndan imtina etmələrinə bərabər sayıla bilməz. Əksinə, ərizəçilər bu hüququ şəxsən həyata keçirmələri üçün israr

etdilər, amma vəsatətləri rədd edildi. Müvafiq olaraq, yekun nitqi ilə çıxış etmək hüququndan açıq və ya dolayı şəkildə imtina etmədikləri halda məhkəmə icraatındakı bu qüsura görə ərizəçilər məsuliyyət daşıya bilməzlər.

191. Hökumət iddia etdi ki, replika hüququnu həyata keçirərkən və son sözlərini söyləyərkən ərizəçilərin bütün arqumentlərini şəxsən təqdim etmələrinə praktiki olaraq imkan yaradılmışdı. Lakin Məhkəmə aşağıdakı səbəblərə görə bu arqumenti qəbul edə bilməz.

192. O, qeyd edir ki, birincisi, prosesdəki tərəfin yekun nitqi ilə çıxış etmək hüququ istər maddi hüquqi, istərsə də prosessual baxımdan cavab (replika) hüququndan açıq-aydın fərqli idi. Çıxışların bu fərqli formaları daxili qanunvericilikdə açıq-aydın şəkildə tərəflərin şifahi arqumentlərini təqdim etmələrinin ayrı-ayrı mərhələləri kimi tənzimlənirdi. Yalnız yekun nitqində prosesdəki tərəf bütövlükdə işin hüquqi və faktlara aid aspektinə verdiyi qiyməti bütünlüklə təqdim etmək imkanına malik idi, replika hüququ isə sadəcə digər tərəfin yekun arqumentlərinə dair qısa qeydlər bildirmək üçün əlavə imkan idi və beləliklə, mahiyyəti etibarı ilə tam çıxışdan daha çox, təkzib imkanı idi. İkincisi, baxmayaraq ki, həqiqətən hazırkı işdə ərizəçilər faktiki olaraq replika hüququ həyata keçirilərkən edilən çıxışa nisbətən xeyli müddət ərzində danışa və daha geniş əhatəli məsələlərə toxu-

na bilmişdilər (yuxarıda 82-84-cü bəndlərə bax), istənilən halda, Məhkəmə qeyd edir ki, sədrlik edən hakim onların sözünü dəfələrlə kəsmiş, replikanın qısa söylənilməli olduğunu onlara xatırlatmış və sözlərini bir neçə dəfə bu cür kəsdikdən sonra sonda onların çıxışlarını birdəfəlik dayandırmışdı. Hökumətin rəyinin əksinə olaraq, bu həm də onu göstərir ki, Ağır cinayətlərə dair məhkəmənin özü ərizəçilərin cavab çıxışını (replikanı) müdafiə tərəfinin yekun çıxışının ekvivalenti və ya onu əvəz edən çıxış hesab etməmişdi.

193. Bundan başqa, Məhkəmə hesab edir ki, istənilən halda, məhkəmə araşdırmasının sonunda şəxsin malik olduğu son söz hüququ da öncə müttəhim və ya vəkil tərəfindən söylənilən yekun nitqindən fərqli olan müstəqil çıxışı bildirir və müdafiə tərəfinin yekun nitqinin ekvivalenti sayıla bilməz və ya onlar qarşılıqlı surətdə bir-birini əvəz edə bilməz, son söz cinayət işi üzrə məhkəmə araşdırmasında tərəflərin şifahi çıxışları mərhələsindən tamamilə fərqli olan ayrıca mərhələ təşkil edir.

194. Nəhayət, Məhkəmə qeyd edir ki, vəkillərin imtinasından sonra ərizəçilər təkcə yekun nitqi ilə şəxsən çıxış etmək üçün vəsatət verməmişdilər, həm də vəkillərinin qəfil imtinası ilə əlaqədar olaraq yekun nitqi hazırlamaq üçün vaxta ehtiyacları olduğunu qeyd etmişdilər. Hətta onların replika hüququndan və son söz hüququndan faktiki olaraq tam yekun

nitqi ilə çıxış etmək üçün istifadə etmələrinə icazə verildiyini fərz etsək, belə görünür ki, bu cür hallarda məhkəmə iclaslarının təxirə salınmasını tələb edən Cinayət Prosessual Məcəlləsinin 339.2-ci maddəsinə zidd olaraq, onlara müdafiə nitqini hazırlamaları üçün kifayət qədər vaxt verilməmişdi.

195. Yuxarıdakıları nəzərə alaraq, Məhkəmə hesab edir ki, yekun müdafiə nitqi ilə çıxış etmək hüququnu həyata keçirə bilməyən ərizəçilər bu hüquqdan mümkün olan maksimum dərəcədə istifadə etmiş ittiham tərəfinin qarşısında əhəmiyyətli dərəcədə əlverişsiz vəziyyətə salınmışdılar. Müvafiq olaraq, ittiham tərəfi ilə eyni şərtlər altında arqumentlərini təqdim etmələrinə imkan yaradılmadığına görə ərizəçilərin müdafiə hüquqları məhdudlaşdırılmışdı".

Elə hesab edirik ki, əlavə şərhə ehtiyac qalmır.

Qanunvericilikdə prokurorun ittiham nitqinin ciddi forması nəzərdə tutulmamışdır. Əslində, konkret işlərin müxtəlif halları ilə əlaqədar ittiham nitqi üçün ciddi sərhədlərin müəyyən edilməsi mümkün deyil. Bununla belə ittiham nitqi özünəməxsus xüsusiyyətlərə malik olmaqla prokuroru prosesin digər iştirakçılarından fərqləndirir.

Prokurorun əsas vəzifəsi nitqi ilə qısa, yığcam, lakin əhatəli şəkildə hüquqi əhəmiyyətli faktlara istinad etməklə işin mahiyyətini təqdim etməkdir. Bu şəraitdə cinayətkarlıqla mübarizənin mənəvi cəhət-

dən yol verilən vasitələrinin, cinayətkar əməlləri törətmiş şəxslərin ifşa edilməsi üzrə fəaliyyətin etik başlanğıclarının müəyyən edilməsi vəzifəsi mühüm əhəmiyyət kəsb edir.

Məhkəmədə prokurorun ittiham nitqinin səciyyəvi cəhətlərindən biri onun hüquqi prinsiplərə müvafiqliyidir. İttiham nitqinin özünəməxsusluğu tədqiq edilərkən hüquqi prinsiplər nəzərə alınmaqla onun məzmunu diqqət mərkəzində olmalıdır. Prokurorun ittiham nitqi qanuna əsaslanmalıdır. Prokurorun nitqinin qiymətləndirici xarakter daşımasına baxmayaraq, məhkəmə baxışı gedişində özünün təsdiqini tapmamış gümanedici faktlara əsaslanmaqla cinayət törətməkdə şəxsi ittiham etmək yolverilməzdir.

Prokurorun ittiham nitqi sübutedici olmalıdır. Prosesdə prokurorun fəal mövqeyi və onun nitqinin ittiham xarakteri aqressiv və müstəsna olaraq təqsirləndirilən şəxsə maksimum cəza tətbiq olunmasına yönəlmiş olmamalıdır. Prokurorun vəzifəsi təqsirləndirilən şəxsə aid edilən cinayət əməlinə görə tətbiq olunan cəzanın mütənasibliyinin təmin olunmasındadır.

"Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanunun 19-cu maddəsinə əsasən, ədalət məhkəməsinin həyata keçirilməsində ittihamı sübutetmə vəzifəsi prokurorun üzərinə düşür. Toplanmış sübutlarla ittiham təsdiq edilmirsə və imtinaya əsaslar varsa, prokuror ittihamı müdafiə etməkdən tam və

ya qismən imtina edir. Ədalət mühakiməsinin həyata keçirilməsində prokurorun səlahiyyətləri Azərbaycan Respublikasının prosessual qanunvericiliyi ilə müəyyən edilir.

İkram müəllim daha sonra yazır: "Dövlət ittihamçısı məhkəmə prosesində dövlətin iradəsinin ifadəçisidir. Və bəraət üçün əsaslar olduğu halda ittiham nitqində məhkuma bəraət verilməsini xahiş etməlidir. Bu halda o, qanunun aliliyi prinsipini həyata keçirmiş olur. Bunun üçün ittihamçıda natiqlik qabiliyyəti, savad, istedad, cəsarət və s. bu kimi xüsusiyyətlər olmalıdır. Şərh olunanlar bu və ya digər formada müdafiə nitqinə də aiddir" (İkinci kitab. s. 90).

"İttiham və müdafiə nitqləri haqqında" yazının son iki abzası bu gün bizim yazdığımızın əhəmiyyətini bir daha təsdiqləyinə görə onları qeyd etməyi məqsədəmüvafiq hesab edirəm:

"Keçmişi bilmədən bu günün əsl mahiyyətini dərk etmək və gələcək məqsədimizi müəyyənləşdirmək mümkün deyil". Bu sözlər Maksim Qorkiyə aid olsa da, birmənalı şəkildə qəbul edilir və mübahisələndirilmir.

Yaşadığımız dövr gündən-günə bizdən uzaqlaşıb, tarixə dönərək xatirələrə çevrilsə də, yeni nəslin bunları bilməsi, təhlil etməsi, nəticə çıxarması zəruridir. A.N.Gertsen demişkən: Geriyə baxıb irəliləmək lazımdır" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 92).

**Azadlıq hüququ və həbs qətimkan tədbirinin seçilməsi**

İ.Kərimov müqəssir barəsində həbs qətimkan tədbiri seçilməsi ilə əlaqədar yazır: "Qəsdən adam öldürmə – şəxsiyyətə qarşı ağır cinayətdir. Ona görə bir qayda olaraq, adam öldürmə cinayəti törətmiş şəxslərə münasibətdə qətimkan tədbiri kimi həbs seçilir. Bu cür şəxslərin həbsi barədə məsələnin düzgün həll edilməsi üçün prokuror ilk növbədə ona qarşı irəli sürülmüş ittihamın qanuniliyi və əsaslılığını yoxlamalıdır. Bu planda prokuror müqəssirin təqsirinin sübut edilməsinin yoxlanılmasına xüsusi diqqət yetirməlidir. Ona görə də SSRİ-nin Baş prokuroru 04.08.55-ci il tarixli 76 №-li əmrində həbs qətimkan tədbirinin seçilməsini sanksiyalaşdıran bütün prokurorların üzərinə barəsində həbs qətimkan tədbiri seçilməsi xahiş edilən müqəssirlərə münasibətdə onların təqsirliliyini əsaslandıran iş üzrə toplanmış bütün sübutların dərindən araşdırılması vəzifəsini qoymuşdur. Bir çox hallarda adam öldürmə işləri üzrə şəxsin həbsə alınması ilə bağlı sanksiya şübhəli şəxslərə münasibətdə verilir. Bu zaman prokuror iş materialları ilə məhz həmin şəxsin cinayət törətməsinə şübhənin təsdiq olunmasını yoxlamağa borcludur" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 372).

İkram müəllimlə söhbətlərim zamanı dəfələrlə qeyd edib ki, hər kəs oxuduğu kitabdan faydalanmalı, nəyi isə öyrənməlidir. Əgər bir kitabdan nə isə öyrənə bilmirsənsə, onun nə yazılmasının, nə oxunmasının əhəmiyyəti yoxdur. Qeyd etdiklərimiz şübhəsiz ki, İkram müəllim tərəfindən yazılmış "Zirvədən zirvəyə" kitabından öyrənilməli çox məqamların olmasına dəlalət edir. Bununla belə kitabda daxil edilmiş yazıların 40-50 il əvvəkl yazılmasını nəzərə alaraq bəzi məsələlərlə bağlı hüquq nəzəriyyəsi və hüquqtətbiqetmə təcrübəsində müvafiq dəyişikliklərin baş verməsini istisna etmir. Məsələn, İnsan Hüquqları üzrə Avropa Məhkəməsi (İHAM) "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını (Konvensiya) canlı mexanizm kimi dəyərləndirərək hesab edir ki, Konvensiyanın müddəaları tarixi inkişafa müvafiq olaraq şərh və tətbiq olunmalıdır.

Bu mənada qeyd etmək istərdik ki, təqsirləndirilən şəxs barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı həm qanunvericilik, həm də təcrübədə müəyyən dəyişikliklər baş vermişdir. Ona görə bəzi məqamlarla bağlı fikirlərimi oxucularla bölüşməyi faydalı sayıram. İlk öncə onu qeyd edim ki, İkram müəllimin söhbət açdığı dövrdə həbs qətimkan tədbiri prokurorun sanksiyası ilə seçilirdi. Hazırda isə müstəntiq bu barədə vəsatətlə prokurora, prokuror

isə həmin vəsatətlə razılaşdıqda şəxsin barəsində həbs qətimkan tədbiri seçilməsi üçün məhkəməyə təqdimatla müraciət edir.

Məhkəmə tərəfindən müvafiq prosessual qaydalara uyğun olaraq təqsirləndirilən şəxsin, onun müdafiəçisinin, müstəntiqin, zəruri hallarda prokurorun iştirakı ilə məhkəmə iclası keçiriləndən sonra məhkəmə həbs qətimkan tədbirinin seçilməsi barədə prokurorun təqdimatının ya təmin, ya da rədd edilməsi barədə qərar qəbul edir.

Müasir dünyanın mənəvi dəyərləri arasında insan hüquq və azadlıqları önəmli yer tutmaqla cəmiyyət və dövlətin inkişaf səviyyəsinin dəyərləndirilməsinin əsas meyarı kimi çıxış edir.

Dövlətin möhtəşəmliyi onun vətəndaşlarının rifahı və təhlükəsizliyindədir. Adamların fəal mövqeyi, sabahkı günə inamı, hər cür qəsdlərdən müdafiəsi olmadan dövlətin tam tərəqqisinə nail olmaq mümkün deyildir.

İnsan hüquqları hüquqi dövlətin humanistlik, insanpərvərlik ölçüsüdür. İnsan hüquqlarının real təmini qanunverici və icraedici hakimiyyətinin fəaliyyətinin dəyərləndirmə meyarı, cəmiyyətin mənəvi və dövlətin sosial yönümlüyünün göstəricisi kimi nəzərdən keçirilir.

Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarında insan hüquq və azadlıqları, o cümlədən azadlıq hüququ təsbitini tapmışdır. Konstitusiyanın

12-ci maddəsinə müvafiq olaraq "insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir.

Bu Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir".

Azadlıq – insanın özünün iradəsinə uyğun davranmaq və başqalarının hüquq və azadlıqlarına zərər vurmadan qanunla qadağan olunmayan hər şeyi etmək imkanıdır. Azadlıq insanın ümumi azad fəaliyyətdən deyil, fiziki təcridə məruz qalmaqdan azad olmasını ehtiva edir.

Azadlıqdan məhrum etmə şəxsi adi hərəkət azadlığının məhdudlaşdırılmasından daha ciddi, daha intensiv və dar məkanda məhdudlaşdırılmasını və buna şəxsin azad razılığının olmamasını nəzərdə tutur. Məsələn, araşdırma (istintaq) məqsədilə könüllü olaraq polisə gələn və oradan öz iradəsinə uyğun istədiyi vaxt qayıdacağını bilən şəxs azadlıqdan məhrum olunmuş hesab olunmur. Bunun əksinə, şəxs polisə könüllü gəlib, oranı öz istəyi ilə və istədiyi zaman tərk edə bilmirsə, onun hərəkətinə nəzarət edilirsə, hərəkət etməkdə kimdənsə asılı vəziyyətdə qalırsa, hərəkəti barədə özü qərar verə bilmirsə, onda azadlıqdan məhrum edilmə özünü təzahür etdirir.

Şəxsin fiziki azadlığı onun azad hərəkət etmək imkanına malik olmasında, fiziki cəhətdən hərəkət azadlığına heç bir maneənin olmamasında bu hərəkətin qadağan və təcrid ilə məhdudlaşmamasında ifadə olunmalıdır.

"İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 5-ci maddəsi ilkin olaraq hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququna malik olmasını bəyan etməklə hər kəs üçün onun təmin olunmasının vacibliyini rəsmiləşdirir. Eyni zamanda qeyd olunur ki, heç kəs azadlıq hüququndan həmin maddədə nəzərdə tutulan hallardan və qanunla müəyyən edilən qaydadan kənarda məhrum edilə bilməz. Konvensiyanın 5-ci maddəsi azadlıqdan məhrum edilməsinə yol verilə bilən 6 halını müəyyən etməklə onun dəqiq siyahısını bəyan etmişdir. Bu siyahıda nəzərdə tutulmayan heç bir hal şəxsin azadlıqdan məhrum edilməsi üçün əsas ola bilməz.

**Müstəntiqin cinayət işinin hərəkətsiz saxlaması bağışlanılmazdır**

İ.Kərimovun "Prokuror fəaliyyəti ilə bağlı mülahizələrim" yazısında cinayət işlərinin vaxtında istintaq edilməsinin vacibliyinə toxunaraq yazır: "Prokuror cinayət işlərinin süründürməçiliyə yol verilmədən istintaq edilməsinə nəzarəti ciddi həyata keçirməlidir. Müstəntiqin cinayət işinin hərəkətsiz saxlaması ba-

ğışlanılmazdır. Xüsusən cinayət işi üzrə təqsirli şəxsin barəsində həbs qətimkan tədbiri seçildiyi hallarda.

Müddətin artırılması barədə məsələ qaldırılarkən ilk növbədə təqsirli şəxsin ona istinad edilmiş cinayəti işlətməsinə dair sübutların yetərli olub-olmamasına diqqət yetirilməlidir. Müddətin uzadılmasının hansı zərurətdən yarandığı araşdırılmalı və bunun həyata keçirilməsi üçün vaxtında tədbirlərin görülüb-görülməməsi ilə maraqlanılmalıdır.

Qaldırılmış vəsatətdə hansı istintaq hərəkətlərinin yerinə yetiriləcəyi sadalanmalı və bunun üçün nə qədər vaxt tələb olunması əsaslandırılmalıdır. Müddətin uzadılmasına dair vəsatətlər bir neçə dəfə qaldırıldığı halda hansı səbəbdən əvvəlki vəsatətdə göstərilən istintaq hərəkətlərinin icra edilməməsinə aydınlıq gətirilməlidir. Belə vəsatətlər müzakirə olunarkən istintaq aparılmasının təşkilində nöqsanlara yol verilib-verilməməsi diqqətdən yayınmamalıdır.

Cinayət işinin hərəkətsiz saxlanılması ciddi araşdırılmalı və buna yol verilməsinin qarşısının alınması üçün aidiyyəti prokurorun nə kimi tədbirlər görməsinə qiymət verilməlidir.

Müstəntiqin müntəzəm olaraq məhbusla işləməsi təmin olunmalı, onun uzun müddət istintaq hərəkətlərindən kənarda qalmasına imkan verilməməlidir" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 589-590).

Qeyd olunan fikirlər İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında da öz ifadəsini tapmışdır. Məhkəmə "Novruz İsmayılov Azərbaycana qarşı", "Zahidov Azərbaycana qarşı", "Allahverdiyev Azərbaycana qarşı", "İsayeva Azərbaycana qarşı" qərarlarında qeyd etmişdir ki, "tutulan şəxsin cinayət əməlini törətməsinə əsaslı şübhənin olması həbsin davam etdirilməsinin qanuniliyi üçün *sine qua non*-dur (zəruri şərtdir), lakin müəyyən müddət keçdikdən sonra bu, artıq kifayət etmir və bu halda məhkəmə müəyyən etməlidir ki, məhkəmə orqanları tərəfindən təqdim olunan digər hallar azadlıqdan məhrum etməyə əsas verməkdə davam edirmi. Belə əsasların "müvafiq" və "yetərli" olduğu halda, həmçinin məhkəmə qane olmalıdır ki, yerli orqanlar icraatın gedişində "xüsusi səy" göstərmişlər".

Məhkəmələr tərəfindən həbsdə saxlanılma müddətinin uzadılması barədə məsələlər müzakirə edilərkən aşağıdakılara diqqət yetirilməlidir:

1. Məhkəmələr şəxsin həbsdə saxlanılması müddətinin uzadılması barədə təqdimata baxılan vaxta kimi hansı müddətdə həbsdə olduğunu, həbs müddətinin nə vaxta kimi uzadılmasının xahiş olunduğunu, həbsin müddətinin həmin vaxta qədər uzadılmasının qanuni və ağlabatan olub-olmadığını araşdırmalı və bu barədə əsaslandırılmış qərar qəbul etməlidirlər.

2. Konkret işdə davamlı həbsə yalnız o halda haqq qazandırmaq olar ki, təqsirsizlik prezumpsiyasına baxmayaraq, Konvensiyanın 5-ci maddəsində nəzərdə tutulmuş fərdin azadlığına hörmət hüququnu üstələyən həqiqi ictimai maraq tələbinin konkret əlamətləri mövcud olsun. Yəni konstitusiyada təsbit olunmuş və cinayət mühakimə icraatında hüququn əsas prinsiplərindən olan təqsirsizlik prezumpsiyası hüququ məhkəmə qərarı ilə şəxsin təqsirliliyi müəyyən edilənə kimi onun azadlıqda qalmasını tələb edir. Bu hüquqdan istisna üçün həqiqi ictimai maraqlar mövcud olmalıdır. Məhz həmin ictimai maraqlar təqsirsizlik prezumpsiyasına, yəni məhkəmə qərarı ilə şəxsin təqsirli bilinmədiyinə baxmayaraq, onun azadlıq hüququnu məhdudlaşdırmaq zərurəti olmasına dəlalət etməlidir.

3. Təqsirləndirilən şəxsin məhkəməyə qədər həbsdə saxlanmasının ağlabatan müddət həddini aşmamasını təmin etmək vəzifəsi ilk növbədə dövlət orqanlarının (istintaq, prokurorluq, məhkəmə) üzərinə düşür. Bu məqsədlə onlar, təqsirsizlik prezumpsiyası prinsipinə lazımi diqqət yetirməklə, 5-ci maddənin müddəalarından kənara çıxmağa haqq qazandıran ictimai maraq tələblərinin mövcudluğunun lehinə və əleyhinə dəlalət edən bütün faktlar araşdırılmalı və qərarlarında onları göstərməlidirlər. Məhkəmə həbsin müddətinin uzadılmasının təmin olunması və

ya onun rədd olunması barədə qərarında prokurorun təqdimatında həbs müddətinin uzadılması barədə gətirilən əsaslara və müdafiə tərəfinin gətirdiyi arqumentlərə qiymət verməli, həbs müddətini uzadırsa və ya bundan imtina edirsə, özünün konkret dəlilləri ilə bunu əsaslandırmalı, faktlar əsasında Konvensiyanın 5-ci maddənin 3-cü bəndinin pozulub-pozulmadığı barədə qərar çıxarmalıdır.

4. Tutulmuş şəxsi cinayət törətməkdə şübhəli hesab etmək üçün əsaslı səbəblərin olması həbsdə saxlanmanın qanuniliyinin məcburi şərtidir, lakin müəyyən vaxt keçdikdən sonra bu kifayət etmir. Ona görə də həbsin müddətinin uzadılması barədə təqdimata baxarkən məhkəmə prokurorun təqdimatında qeyd olunan əsasların azadlıqdan məhrum edilmənin davam etməsinə haqq qazandırılıb-qazandırılmamasını, həmin əsaslara əvvəllər istinad olunub-olunmamasını müəyyən etməlidir. Belə əsaslar "münasib" və "yetərli" olduqda, məhkəmə, həmçinin dövlət orqanlarının icraatı həyata keçirərkən "xüsusi səylə" çalışıb-çalışmamalarını müəyyən etməlidir. "Xüsusi səylə" çalışmaq məsələsi ilk öncə şəxsin həbsdə olduğu müddətdə istintaq orqanının zəruri istintaq hərəkətlərini yerinə yetirmək üçün necə fəaliyyət göstərməsini nəzərdə tutur. Əgər istintaq orqanı şəxsin həbsdə olduğu dövrdə yerinə yetirilməsi mümkün olan istintaq hərəkətlərini yerinə

yetirməmişsə, istintaqın başa çatdırılması üçün xüsusi səy göstərməmişsə, bu cür faktlar təqdimatın təmin olunmaması üçün əsas ola bilər.

5. Təqsirləndirilən şəxsin həbsdə saxlama müddətinin uzadılması barədə qərarda ilkin həbs və ondan sonra həbsin müddətinin uzadılması barədə qərarda istinad olunan eyni standart ifadələrdən istifadə etmək həbs müddətinin uzadılması barədə qərarın ətraflı araşdırma əsasında qəbul edilməsini istisna edir. Çünki zaman keçdikcə, faktlar və real vəziyyət dəyişmiş olur. Yeni əsaslara istinad olunmadan eyni əsaslarla həbs müddətinin uzadılması daha çox məhkəmə araşdırmasının formal aparılmasına dəlalət edir.

Məhkəmənin gətirdiyi əsaslar zaman keçdikcə dəyişə bilən vəziyyətin gedişini əks etdirməli və prosesin sonrakı mərhələlərində həmin əsasların öz qüvvəsini saxlayıb-saxlamadığı yoxlanılmalıdır.

6. Hər bir halda təqsirləndirilən şəxsin azadlıqdan məhrum edilməsini zəruri edən konkret, münasib faktlar varsa, onlar məhkəmənin qərarında öz əksini tapmalıdır.

7. Həbs müddətinin uzadılması barədə qərarda sadəcə olaraq həbsdə saxlanmanın əsaslarını sadalayan stereotip ifadələrdən istifadə etmək əvəzinə, təqsirləndirilən şəxslərin işinin konkret faktları qeyd olunmalıdır.

8. Məhkəmələr tərəfindən həbsdə saxlanılması müddətinin uzadılması barədə qəbul edilmiş qərarlarda dəfələrlə eyniməzmunlu ifadələrdən istifadə edilməsi, hadisələrin inkişafına və həmin dəlillərin cinayət prosesinin sonrakı mərhələlərində əsaslı olduğuna qiymət verilməməsi qərarın əsassızlığını, azadlıq hüququnun pozulmasını şərtləndirir.

9. Məhkəmələr nəzərə almalıdırlar ki, cinayət əməlində təqsirli bilinən şəxs, ibtidai araşdırma orqanının onun davamlı həbsini əsaslandıran "müvafiq və yetərli" səbəblər olduğu hallar istisna olmaqla, məhkəməyə qədər azad edilməlidir.

***Qeyd olunanlar ona dəlalət edir ki, İ.Kərimov tərəfindən prokurorluq əməkdaşlarına ünvanlanan tövsiyələr müasir dövrün tələbləri ilə həmahənglik təşkil edir.***

# BEŞİNCİ YAZI

## Hakim – savad, ədalət və yüksək əxlaqi keyfiyyətlər daşıyıcısı olmalıdır

İkram müəllimin 1987–2012-ci illərdə ədalət mühakiməsini həyata keçirməsinə həsr etdiyi üçüncü kitabının ilk vərəqində hakimlə bağlı fikirlərini bu cür ifadə edir: "Hakim savadlı və ədalətli olmaqla yanaşı, yüksək əxlaqi keyfiyyətləri də özündə ehtiva etməli, cəmiyyətdə nüfuz sahibi olmalıdır. Belə hakimləri cəmiyyətin özü yetişdirir".

Təxminən eyni fikirlər İkram müəllimin Hüseyn Talıbovun 45 illik hakimlik fəaliyyəti ilə bağlı "Azərbaycan" qəzetində 12 noyabr 2009-cu il tarixdə çap etdirdiyi "45 il ədalətin keşiyində" məqaləsində də ifadəsini tapır: "Ədalətli cəmiyyətdə yaşamaq uğrunda mücadilə insanlığın mövcudluq tarixində şanlı epoxa təşkil edir. Daxili azadlığını təmin edəcək dövlətdə yaşamaq istəyən bəşər övladı daim haqq-ədalət, həqiqət axtarışında olmuş, məhz belə bir mühitdə saf və ali ideallarına qovuşa biləcəyini düşünmüşdür. Ədalət meyarının hər bir cəmiyyətdə bərqərar olması isə tarixən qanunun aliliyini rəhbər tutan səlahiyyət sahiblərinin, ilk növbədə, insan taleyi ilə bağlı qərar qəbul edən hakimlərin fəaliyyətindən asılı olmuşdur. Vaxtilə böyük yunan mütəfəkkiri Sokrat hakimləri

ədalət mücəssəməsi kimi səciyyələndirərək yazırdı ki, bunun üçün onların 4 şərtə əməl etməsi vacibdir: nəzakətlə dinləmək, təmkinlə düşünmək, düşünərək danışmaq, tərəfsiz qalaraq qərar qəbul etmək. Həyatda bu qiymətləndirmə öz təsdiqini tam tapıb. Ədalət meyarı yalnız düzgünlüyə, haqqa, insanpərvərliyə, humanizmə söykənən hakimlərin fəaliyyətindən çox asılıdır. 2009-cu il sentyabr ayının 8-də Hüseyn Talıbovun hakimlik fəaliyyətinin 45, əmək fəaliyyətinin isə 55 ili tamam oldu. Hazırda Bakı Apellyasiya Məhkəməsinin hakimi vəzifəsində üzərinə düşən vəzifənin öhdəsindən layiqincə gələn Hüseyn Talıbovun həyat yolu həmkarları və hakim olmaq istəyən hər bir gənc üçün örnəkdir (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 737-741).

İkram müəllim hakim üçün zəruri olan keyfiyyətləri sədri olduğu Bakı Şəhər Məhkəməsinin hakimi İlqar Abbasov haqqında söhbət açarkən də dilə gətirmişdir: "Abbasov İlqar Eyvaz oğlu əvvəllər hüquq-mühafizə orqanlarında müxtəlif vəzifələrdə çalışmış, 1987-ci ildə Bakı Şəhər Məhkəməsinin üzvü seçilmişdir. İlqar Abbasov çətin və şərəfli peşənin daşıyıcısı olan hakimlərə xas bütün cəhətləri özündə cəmləşdirən hüquqşünasdır. Belələri bizdə hələlik azdır. Öz üzərində çalışan, ixtisasını sevən, sevdirən yüksəkmədəniyyətli mütəxəssisdir. Ona daima dövlət əhəmiyyətli, mürəkkəb və çətin işlərə baxmaq

həvalə olunmuş və bu işlərin öhdəsindən layiqincə gələ bilmişdir. Onun məhkəmə proseslərini aparmaq bacarığı, düzgün nəticəyə gəlmək məharəti, qanunun aliliyini gözləməsi yüksək insani keyfiyyətlərilə bahəm, nüfuzunu artırmış və sözün əsl mənasında, püxtələşmiş hakim kimi tanıtmışdır. Belələrilə işləmək xoşdur. Belələri barədə fikir söyləmək fərəh doğurur. Bu mənim qəlbimdən gələn sözlər olsa da, İlqarın özünün qazandıqlarının nəticəsidir" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 43).

İnsanlar məhkəməyə hüquq və azadlıqlarının müdafiəsi, ədalətə nail olmaq üçün müraciət edir. Məhkəmə qərarı ədalətlidirsə, vətəndaşların məhkəməyə müraciət etmək və məhkəmənin hüquqlarını qorumaqla bağlı ümidləri gerçəkləşir, qərar ədalətli olmadıqda isə hakimə, məhkəməyə, məhkəmə hakimiyyətinə inam sarsılır.

Hakimlərin vəzifəsi ədalət mühakiməsini həyata keçirməkdir. Məhkəmədən gözlənilən qərarın ədalətliliyi barədə tələb onun fəaliyyətinin ədalət mühakiməsi adlandırılmasında öz ifadəsini tapır. Ədalət mühakiməsi həyata keçirilməklə insanların pozulmuş hüquq və azadlıqları bərpa olunur və ya onların pozulmasının qarşısı alınır.

Azərbaycan xalqının tarixi, adət-ənənələri, şifahi xalq ədəbiyyatı ilə tanış olan hər kəs bu xalqın ən

qədim köklərində insana, digər canlılara, təbiətə, torpağa qayğı və hörmətin yer aldığını görə bilər. Xalqımızın ən qədim yazılı abidəsi olan "Kitabi-Dədə Qorqud" dastanında humanizm, insana hörmət, haqq, ədalət və azadlıq ideyaları öz əksini tapmışdır.

Azərbaycanın XII əsr klassik şairi Nizami Gəncəvinin yaradıcılığında ədalət, yaxşılıq, insanpərvərlik, sülh, humanizm tərənnüm edilmişdir. Nizami yaradıcılığında ədalət yer üzünün fatehi, səadətə nəsibliyin meyarı, hünər və igidliyin rəmzi kimi dəyərləndirilir:

> Yer üzünün fatehi ədalətdir, ədalət...
> Ədalətlə nəsibin səadətdir hər zaman.
> Ağıl, kamal bəsləməz igidliyə ədavət,
> Hünər də, igidlik də ədalətdir, ədalət.

İnsan Hüquqlarının Ümumi Bəyannaməsinin 10-cu, "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasının 6-cı maddəsi ədalət mühakiməsinin ədalətlilik prinsipi əsasında həyata keçirilməli olmasını müəyyən edir.

Avropa Konvensiyasının 6-cı maddəsinin 1-ci hissəsinə əsasən, hər kəs onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsilə, ağlabatan

müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir.

Konvensiya kontekstində nəzərdən keçirildikdə "ədalətlilik" hüququn aliliyinə riayət olunması, Konvensiyada təminat verilən insan hüquqlarına hörməti ifadə edir.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ədalət mühakiməsinin ədalətlilik prinsipi ilə bağlı bəzi meyarları müəyyənləşdirmişdir. Bunlar arasında ən əsası hər iki tərəf üçün ilkin imkanların bərabərliyi, heç bir tərəfin hər hansı üstünlükdən istifadə etməməsidir. Sübutların toplanması, onların mümkünlüyü, mötəbərliliyi, qiymətləndirilməsi ədalətli məhkəmə baxışının tərkib hissəsidir. Məhkəmə dəfələrlə qeyd etmişdir ki, çəkişmə prinsipi ədalət mühakiməsinin ədalətlilik konsepsiyasının yalnız bir xüsusiyyətidir. İctimai maraqla fərdi maraqlar arasında tarazlığın gözlənilməsi də az əhəmiyyət kəsb etmir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli "Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı "İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında" qərarının 10-cu bəndində qeyd olunur ki, "Konvensiyanın 6-cı maddəsi ilə təminat verilən ədalətli məhkəmə baxışı prinsipi hüququn aliliyinə və

insan hüquqlarına hörmətin həyata keçirilməsinə xidmət edir. Əks maraqların toqquşduğu məhkəmə prosesində tərəflərin prosesdə bərabərliyinin təmin edilməsi məhkəmələr tərəfindən həyata keçirilməlidir".

İnsan Hüquqları üzrə Avropa Məhkəməsi "Krçmar Çex Respublikasına qarşı" işi üzrə 03 mart 2000-ci il tarixli qərarında qeyd etmişdir ki, ədalətli araşdırma anlayışını daha da genişləndirən elementlərdən biri olan tərəflərin bərabərliyi prinsipi hər tərəfə onu qarşı tərəfə nisbətən əhəmiyyətli dərəcədə əlverişsiz şəraitdə qoymayan şəkildə öz işini təqdim etmək imkanının verilməsini tələb edir. Ədalətli araşdırma anlayışı həmçinin çəkişmə əsasında həyata keçirilən məhkəmə araşdırması hüququnu nəzərdə tutur ki, bu hüquqa müvafiq olaraq tərəflər, yalnız sübutları təqdim etmək imkanına deyil, həm də bütün təqdim edilmiş sübutlardan və verilmiş mülahizələrdən xəbərdar olmaqla onlara dair məhkəmə qərarına təsiredici tərzdə öz dəlillərini gətirmək imkanına da malik olmalıdırlar.

Mahiyyət etibarı ilə ədalət mühakiməsinin ədalətliliyi hamının qanun və məhkəmə qarşısında bərabərliyi və çəkişmə prinsipinə əsaslanır. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi Konvensiyanın 6-cı maddəsi əsasında verilmiş şikayətlərə baxarkən ədalətli məhkəmə baxışının demokratik cəmiyyətdə

rolunu nəzərə alıb həmin maddənin daha geniş şərh olunmasını vacib hesab etmişdir. "Delikur Belçikaya qarşı" işində Məhkəmə qeyd etmişdir ki, "demokratik cəmiyyətdə Konvensiyanın dərk olunması prizmasında ədalətli ədalət mühakiməsinə olan hüquq o qədər mühüm əhəmiyyət kəsb edir ki, 6-cı maddənin 1-ci bəndinin məhdud şərh edilməsi həmin müddəanın məqsəd və təyinatına xidmət etməzdi".

Avropa Məhkəməsi bir sıra qərarlarında birbaşa maddənin mətnində nəzərdə tutulmayan bəzi məsələləri də ədalətli məhkəmə baxışının tərkib hissəsi kimi müəyyənləşdirmişdir. "Qolder Birləşmiş Krallığa qarşı", "Z və başqaları Birləşmiş Krallığa qarşı" işlərdə Məhkəmə qeyd etmişdir ki, öncə fərdə məhkəmə proseslərinə başlamaq imkanı verilmirsə, ümumiyyətlə, belə proseslərin ədalətli, açıq və səmərəli xarakteri, həqiqətən, heç bir dəyərə malik olmur.

Məhkəmənin təcrübəsi də nəzərə alınmaqla hazırda ədalətli məhkəmə baxışının aşağıdakı standartları müəyyənləşdirilmişdir:

– məhkəmənin müstəqilliyi və qərəzsizliyi (obyektiv və subyektiv cəhətləri);

– məhkəmə baxışının aşkarlığı (məhkəmə prosesinin tərəflər və ictimaiyyət üçün açıqlığı);

– məhkəmə qərarlarının əsaslandırılması;

– hüquq və azadlıqları pozulmuş və ya məhdudlaşdırılmış şəxslər üçün hüquqi qeyri-müəyyənlik

müddətinin maksimum qısalmasını təmin edən işə baxılma müddətinin ağlabatanlığı (qəbul olunmuş məhkəmə aktının icrası da daxil olmaqla);

– işə qanun əsasında yaradılmış məhkəmələr tərəfindən baxılması;

– müəyyən sahələrdə və ya müəyyən kateqoriya işlər üzrə məhkəmə nəzarətinin ləğv və ya məhdudlaşdırılmasının yolverilməzliyi;

– məhkəməyə real çatımlılığın təmini və işə baxılmasında iştirak;

– "ədalətli tarazlıq", çəkişmə prosesi iştirakçılarının prosessual imkanlarının bərabərliyi;

– iş üzrə qəbul edilən məhkəmə aktlarının əsasını təşkil edən sübutların mümkünlüyü şərtinə riayət olunması;

– işin mahiyyəti üzrə qəbul olunmuş məhkəmə aktlarının real icrasının təmini.

Ədalət anlayışı haqqı, həqiqəti, düzlüyü özündə birləşdirməklə, həm də subyektiv amilə malikdir. Ayrı-ayrı şəxslərin hər hansı məsələyə münasibətində ədalət subyektiv baxışlardan asılı olaraq fərqlənə bilər. Yəni eyni bir mübahisədə iki nəfərdən biri bir tərəfi, digəri isə digər tərəfi haqlı hesab edə bilər. Bu zaman fikir söyləyənlərdən hər biri özünün ədalətli qərar verdiyini düşünə bilər. Burada qiymət verən subyektin hadisəyə münasibəti, onun hadisəni təfəkkür süzgəcindən keçirərkən məsələyə necə, hansı

prizmadan yanaşması, daxili inamının nəyin əsasında formalaşması, qiymətləndirməni hansı meyarlar əsasında aparması mühüm əhəmiyyət kəsb edir. Məhkəmədə sübutları qiymətləndirərkən, işin faktiki halı müəyyən edilərkən, qərarlar qəbul edilərkən də bu proses – hadisəni daxili inama əsasən qiymətləndirmə prosesi gedir.

Hakimin qərarına subyektiv amillərin təsirinin aradan qaldırılması, qərarın yalnız subyektiv amillərin təsiri altında qəbul edilməsinə yol verilməməsi üçün prosessual qanunvericilik müəyyən qaydalar müəyyən edir. Hakimin ədalətli qərara nail olması üçün ilk növbədə prosessual qanunvericilikdə müəyyən edilmiş qaydalara riayət etməsi ilkin şərtdir. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi də öz qərarlarında bunun vacibliyini qeyd etmişdir. Məsələn, "Oleksandr Volkov Ukraynaya qarşı" işində Məhkəmə qeyd etmişdir ki, "prosessual qaydalar ədalət mühakiməsinin düzgün aparılması, hüquqi müəyyənlik prinsipinə əməl olunmasının təmini üçün hazırlanır və məhkəməyə müraciət edənlər həmin qaydaların tətbiq olunmasını gözləmək hüququna malik olmalıdırlar".

**Məhkəmə və mətbuat**

Dövlət, onun orqanları, məhkəmələr inkişafın müəyyən mərhələsində cəmiyyət tərəfindən tələbatların təmin olunmasına xidmət üçün yaradılmışdır.

Məhkəmə cəmiyyətdə mövcud olan hüquq münasibətlərinin tənzimləyicisi rolunu oynayır, cəmiyyət üzvlərinin maraqlarının tarazlaşdırılmasına xidmət edir, vətəndaşların, həmçinin dövlətin mənafeyinin təminatçısı kimi çıxış edir. Məhkəmə sivil cəmiyyətin mövcudluğunun əsaslarından biridir. Əlbəttə ki, bunun üçün cəmiyyət və dövlət məhkəməyə o cür yanaşmalı və məhkəmənin həyatda məhz belə bir mövqedə dayanmasını arzulamalıdır.

Hakim məhkəmə mübahisəsində şüurlu olaraq hakimiyyətdən, vətəndaş və ayrı-ayrı təşkilatlardan müəyyən məsafədə dayanmalı, cəmiyyəti iş üzrə qəbul etdiyi qərarın düzgünlüyünə inandırmalıdır. Hakimlərin bir məqsədi var: həqiqəti üzə çıxarmaq və onu cəmiyyətə çatdırmaq. Müəyyən konfidensiallığın qorunması zəruriliyi istisna olunan hallardan başqa məhkəmələr cəmiyyət qarşısında hesabat verməli və şəffaflığa malik olmalıdır.

İctimaiyyətin qanuna, demokratik dəyərlərə, müstəqil məhkəmələrə inamı – dövlətin mövcudluğunun zəruri şərtidir.

Məhkəmə həqiqətən də dövlət orqanıdır, məhkəmə hakimiyyəti də, həqiqətən, dövlət hakimiyyətidir. Lakin bu orqan və hakimiyytin həmişə dövlət mənafeyini müdafiə edən dövlət hakimiyyətindən müəyyən fərqləri olmalıdır.

Məhkəmə baxışının aşkarlığı demokratik ədalət mühakiməsinin əsas prinsiplərindən biridir. Bir tərəfdən onun həyata keçirilməsi zamanı məhkəmənin fəaliyytətinə cəmiyyət tərəfindən nəzarət edilir ki, bu da hakimlərin intizamını, işlərin həlli zamanı onların məsuliyyətini artırır. Digər tərəfdən isə əks əlaqə təmin olunur: məhkəmə iclasında iştirak edən şəxslər məhkəmənin fəaliyyəti ilə tanış olurlar. Məhkəmə iclasının açıqlığı məhkəmə və cəmiyyət arasında əlaqəni təmin edir. Bu məhkəmənin tərbiyələndirici funksiyasının həyata keçirilməsinə şərait yaradır.

Məhkəmələrin ictimaiyyətlə işinin ən yaxşı forması məhkəmə proseslərinin qanuna müvafiq, yüksək peşəkarlıq səviyyəsində aparılmasıdır. Məhkəmə baxışı zamanı mövcud qanunlar əsasında, tərəflər tam dinlənilməklə, nə üçün məhz belə qərar qəbul edilməsinin tərəflərə və məhkəmə prosesini izləyənlərə çatdırmağa nail olunursa, ictimaiyyətdə məhkəmə hakimiyyətinə inam artacaqdır.

Müstəqil, qərəzsiz məhkəmə hakimiyyəti və kütləvi informasiya vasitələrinin azad surətdə məlumat verməsi demokratik hüquqi dövlətin zəruri tərkib elementləridir. Kütləvi informasiya vasitələri ictimai fikri formalaşdırır, vətəndaşların hakimiyyət strukturları üzərində nəzarət funksiyalarını həyata keçirir, demokratik dəyərlərin yayılması üçün maarifləndirici rol oynayır. Baş verən hadisələrlə bağlı

ictimaiyyəti obyektiv və qərəzsiz məlumatlarla təmin etmək KİV-in başlıca vəzifəsidir. O, ictimai marağa səbəb olan hər bir hadisə ilə bağlı informasiya əldə edir və onu operativ olaraq ictimaiyyətə çatdırır.

Azad mətbuat demokratik dövlətin mühüm ünsürü hesab olunur. Demokratiyanın qurulması zamanı mətbuata konstitusion əhəmiyyət verilir, mətbuat dövlətin dördüncü hakimiyyəti adlandırılır. Mətbuat məlumat və fikirlərin geniş surətdə ötürülməsi baxımından azad fərdi və ictimai fikrin formalaşdırılmasını təmin edir. Mətbuat informasiyaların yayılmasından qabaq zəruri dəqiqliklə onların məzmununun həqiqiliyini və mənbəyini yoxlamalıdır. Buraya, həmçinin əks fikrin dinlənilməsi və heç bir fikir söylənilməyən hallarda bu barədə məlumat verilməsi aiddir. Jurnalistlər üçün bu heç də o demək deyildir ki, onlar xırda detala qədər informasiyanın doğruluğunu yoxlamalıdırlar. Belə olan halda informasiya jurnalistin fəaliyyətinə son qoyardı. Kim həqiqətə təkcə yaxınlaşmağın nə qədər çətin olduğunu biz hakimlərdən yaxşı bilə bilər? Lakin hər halda mətbuat yalnız bir tərəfi dinləməmək deyil, eləcə də yoxlanılmamış informasiyanı qəbul etməmək öhdəliyi daşıyır.

KİV eyni zamanda hadisələrə mütəxəssis yanaşmasını təqdim edərək şərh verir. Cəmiyyətdə baş verən bütün hadisələri diqqətdə saxlamağa cəhd

edən KİV bunun üçün müxtəlif dövlət qurumları ilə əməkdaşlıq qurmağa çalışmalıdır.

Hüquqi dövlət quruculuğunun mühüm məsələləri arasında kütləvi informasiya vasitələrinin cəmiyyətdə vəziyyəti və onların məhkəmə hakimiyyəti ilə münasibətləri xüsusi yer tutur. Dövlətdəki hər bir yenilik, o cümlədən məhkəmə-hüquq islahatları kimi genişmiqyaslı yeniliklərin informasiya təminatına və KİV tərəfindən dəstəyə ehtiyacı vardır. KİV ictimai fikri, əhalinin hüquq mədəniyyətini formalaşdırır, vətəndaşların hüquq və qanuni mənafeyinin müdafiəsi sahəsində məhkəmələrin qiymətləndirilməsi ilə bağlı hüquqi mövqeyə təsir edir. Həyata keçirilən yeniliklərin son nəticəsi əhalinin islahatların əsasını təşkil edən ideyaları necə qəbul etməsi və onları hansı dərəcədə dəstəkləməsindən asılıdır. Məhkəmə ilə KİV arasında qarşılıqlı əlaqələrin zəruriliyini bu amil də şərtləndirir.

Əlbəttə, mətbuat və məhkəmə hakimiyyətinin malik olduqları vəzifələr müxtəlifxarakterlidir. Bununla belə onların fəaliyyətlərinin çoxsaylı toqquşma nöqtələri vardır və hətta onlar müəyyən dərəcədə biri-birindən asılıdırlar. Belə ki, informasiya vermək vəzifəsini yerinə yetirmək üçün mətbuatın məhkəmələrin fəaliyyəti ilə bağlı ictimaiyyətə məlumat verməyə ehtiyacı vardır. Öz növbəsində məhkəmə hakimiyyətinin də əhalinin hüquqi şüurunun

inkişaf etdirilməsi və ədalət mühakiməsinə olan ehtimadın artırılması məqsədi ilə kütləvi informasiya vasitələrində ciddi xarakterə malik məlumat verilməsinə ehtiyacı var. Ən ideal halda isə mətbuat və məhkəmə hakimiyyəti biri-birinə qaşılıqlı surətdə nəzarət edirlər. Ona görə də bu münasibətlər çərçivəsində münaqişələrin olması və hakimlərin və jurnalistlərin biri-birinə tez-tez inamsızlıq göstərmələri təəccüb doğurmur.

Mətbuat ilə məhkəmənin dialoqu son dərəcə zəruridir. KİV əhalidə hadisələrə müəyyən baxış yaradır, məhkəmənin isə vətəndaşların hüquq və qanuni mənafelərini müdafiə etməklə obyektiv informasiyanın təqdim olunmasına ehtiyacı vardır.

KİV-in məhkəmə orqanları ilə əməkdaşığı daha da yaxşılaşdırmaq istəyinin arxasında həm də cəmiyyətdə insan hüquqlarının müdafiəsi sahəsində baş verən hadisələri nəzarətdə saxlamaq məqsədi dayanır. Məhkəmə hakimiyyəti ədalət mühakiməsini həyata keçirən və hər kəsin qanunla müəyyən edilmiş hüquq və azadlıqlarının qorunması vəzifəsini yerinə yetirdiyinə görə KİV məhkəmə orqanları ilə daim əməkdaşlıq etməkdə maraqlıdır. Cəmiyyət məhkəmə orqanlarının fəaliyyəti, ayrı-ayrı məsələlərlə bağlı məhkəmələrin qəbul etdiyi qərarlar barədə məlumat almaqda maraqlı olur. Bu cür məlumatlar isə KİV vasitəsi ilə ictimaiyyətə çatdırılır.

Jurnaslist məhkəmə qərarının qəbul olunmasına qədər məhkəmə icraatında olan işlərlə bağlı hakimdən ümumi bəyanatların və şərhlərin verilməsini tələb etməyə haqlı deyil. Jurnalist hakimlərin məlumat təqdim etməmək və verilən suallara cavab verməmək hüququna hörmət etməlidir. Jurnalist məhkəmənin nüfuzunu aşağı sala biləcək hər şeydən kənar qaçmalıdır. Bununla yanaşı, jurnalist dəlillərə əsaslanmaqla məhkəmə sistemində mövcud olan çatışmazlıqları, hakimlərin səhv və nöqsanlarını tənqid etməkdə haqlıdır. Öz yazılarında jurnalist hakimin qəbul etdiyi qərarları əsassız tənqid etməklə onun peşəkar fəaliyyətinə təsir göstərməkdən, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı hakimin obyektivliyi və müstəqilliyini şübhə altına almaqdan və yaxud məhkəməyə "təzyiq göstərməkdən" kənar qalmalıdır.

Hakim jurnalistin məhkəmənin fəaliyyətini işıqlandırmaq səyinə hörmətlə yanaşmalı, onu başa düşməli və əgər məhkəmə icraatının keçirilməsinə mane olmazsa və ya məhkəməyə təsir göstərmək üçün istifadə olunmazsa, ona zəruri olan köməyi göstərməlidir.

KİV ilə qarşılıqlı əlaqələrin qurulması üçün məhkəmənin rəhbəri KİV-in maraqlarını, jurnalistlərin məqsəd və vəzifələrini nəzərə almalıdır. KİV ilə münasibətlər sistemli xarakter almalıdır və onların əsa-

sında şəffaflıq, obyektivlik, qarşılıqlı razılıq prinsipləri durmalıdır.

Şəffaflıq prinsipinə müvafiq olaraq məhkəmə qərarları, məhkəmənin fəaliyyətinə aid olan digər məlumatlar ictimaiyyət üçün əlçatan olmalıdır. Obyektivlik prinsipi tələb edir ki, KİV məhkəmənin fəaliyyətini maksimum düzgün işıqlandırsın və özünün şərh və analizlərində etik sərhədləri keçməsin. Qarşılıqlı razılıq prinsipi isə tələb edir ki, məhkəmə qərarları KİV-ə operativ və dəqiq verilməli, məhkəmə orqanlarının qərarları mətbuata verilən informasiyalarda öz əksini tapmalıdır. Bu cür qarşılıqlı əlaqə düzgün olmayan informasiyanın cəmiyyətə ötürülməsinin qarşısını alır, maraqlar arasında tarazlığı təmin etmiş olur.

Mətbuat tərəfindən məhkəmənin ünvanına tənqidi çıxışların verilməsi məhkəmə hakimiyyətin nüfuzunun formalaşmasında mühüm amildir. Ağlabatan və haqlı tənqid işdəki nöqsanların düzəldilməsi üçün zəmin yaradırsa, qeyri-dəqiq, səriştəsiz tənqid vətəndaşların qanuni mənafeyinə zidd olmaqla əhalinin ədalət mühakiməsinə inamını sarsıdır. Ona görə də məhkəmənin fəaliyyətinin KİV-də obyektiv işıqlandırılması vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafının zəruri şərtidir.

KİV əməkdaşlarının digər dövlət orqanlarında, təşkilatlarda, ictimai birliklərdəki kimi məhkəmədə

olmaq, eləcə də onlarıdan məlumat almaq hüquqları var. Məhz KİV-in səmərəli fəaliyyəti hər kəsin məlumat əldə etmək azadlığının həyata keçirilməsinə etibarlı təminat verir. Jurnalistlər bir növ ictimai vəzifəni yerinə yetirən şəxs qismində çıxış edirlər.

Məhkəmə hakimiyyətindən fərqli olaraq mətbuat ciddi intizam və qəti struktur əsasında təşkil edilməyib. Mətbuat sahəsində güclü rəqabətin mövcudluğu son nəticədə birtərəfli məlumat verilməsinə aparıb çıxara bilir. Demokratik bir sistemdə məhkəmələr insanların lazımi surətdə qanunlar, ədalət mühakiməsi və ayrı-ayrı məhkəmə prosesləri haqqında məlumat almasına böyük diqqət verirlər. Yalnız bu yolla məhkəmələrin cəmiyyət tərəfindən qəbul olunmasına və onlara yaxınlaşmasına nail olmaq olar. Ona görə də məhkəmə hakimiyyəti KİV-ə yaxınlaşmağa çalışmalıdır. Həmin yaxınlıq isə məhkəmələrdə mətbuat işinin təşkil edilməsidir.

Jurnalistlər təbii olaraq məhkəmə hakimiyyətinin gördüyü işlər barədə mümkün qədər ətraflı və qeyri-məhdud məlumat verməkdə maraqlıdırlar. Bununla belə jurnalistlərin bu barədə olan tələbi, aidiyyəti olan şəxslərin şəxsiyyət hüquqlarının qorunması və məhkəmə hakimiyyətinin prosesin lazımi qaydada həyata keçirilməsində olan maraqlarına uyğun olmalıdır.

Məhkəmə hakimiyyəti öz növbəsində KİV-in fəaliyyətindəki həqiqətləri də nəzərə almalıdır. Re-

portyorlar tez-tez digər qəzet və teleyayım şirkətləri ilə rəqabət aparırlar. Onlar həm də çox böyük vaxt təzyiqi altında aktual məlumatlar vermək işində çalışırlar. Bunun nəticəsi olaraq məhkəmə hakimiyyətinin ədalət mühakiməsini həyata keçirməsi üçün lazım olan zəruri soyuqqanlılığı və sakitliyi tez-tez jurnalistlərin kəskin, operativliyi sevən gündəlik işi ilə toqquşur.

Məhkəmə hakimiyyəti jurnalistlərlə əməkdaşlıq zamanı həm də müəyyən mənada "izahedici və öyrədici" funksiyanı yerinə yetirmək vəzifəsi daşıyır.

Mətbuat azadlığı hüquqi dövlətin inkaredilməz və qiymətli sərvətidir. Təbii ki, jurnalistlər məlumat verdikləri zaman səhvlərə də yol verirlər. Belə hallar yolverilməzdir və buna görə lazım gəldikdə kompensasiya ödəmək öhdəliyi nəzərdə tutulmalıdır. Lakin kompensasiyanın məbləği məhkəmələr tərəfindən elə müəyyən edilməlidir ki, redaksiya, jurnalist bunu ödəməyə qadir olsun. Belə olmadıqda jurnalistin məlumat verməsi təhlükəli və faktiki cəhətdən qeyri-mümkün olur.

Müstəqil məhkəmə hakimiyyəti və azad mətbuat demokratiyanın mühüm ünsürləri hesab olunurlar. Onlar bir-birilərinə qarşılıqlı surətdə nəzarət edirlər və ona görə də onların arasında heç vaxt sıx dostluq yaranmayacaq, başqa sözlə desək, heç buna ehtiyac da yoxdur. Buna baxmayaraq, rolların düzgün bölüş-

dürülməsi şərti ilə onların birgəyaşayışı və cəmiyyət üçün faydalılığı mümkündür.

"Zirvədən zirvəyə..." kitablarını oxuduqca İkram müəllimin mətbuatla bağlılığı açıq görünür. O hələ gənc müstəntiq kimi Qusar rayon prokurorluğunda fəaliyyət göstərdiyi vaxt müxtəlif maarifləndirici məqalələrlə ("Məktəb, ailə, ictimaiyyət" – "Qızıl Qusar", 11 yanvar 1968-ci il; "Vəzifəli şəxs" – "Qızıl Qusar", 4 mart 1969-cu il; "Dələduzun aqibəti" – "Qızıl Qusar", 9 iyul 1969-cu il və s.) mətbuatda çıxış etmiş, özünün hüquqi baxış və tövsiyələrini mətbuatda işıqlandırmaqla hüquqi biliklərin yayılmasına, vətəndaşların özlərinin hüquqları, rayonda baş verən hadisələr barədə məlumat alması istiqamətində fəallıq göstərmişdir.

Digər tərəfdən İkram müəllimin müstəntiq kimi qazandığı uğurlar vaxtaşırı mətbuatda işıqlandırılmış, hüququn müxtəlif problemləri ilə bağlı ondan müsahibələr alınmış, bir sözlə, İkram müəllim mətbuat işçiləri üçün hüquqşünas kimi həmişə əlçatan olmuşdur.

İkram müəllimin Bakı şəhəri, Əzizbəyov rayon prokuroru kimi qəzet və jurnallarda çap olunan məqalələrlə bağlı qeydləri ("Əzizbəyov rayon prokuroru İ.Kərimovun felyetona bir balaca əlavəsi" – "Azərbaycan gəncləri" qəzeti, 8 aprel 1978-ci il; "Bəs müəllim ləyaqəti?" – "Bakı" axşam qəzeti, 18 oktyabr

1978-ci il; "Kirpi" kömək elədi" və s.), 16 noyabr 1979-cu il tarixində "Bakı" axşam qəzetində çap olunmuş "Qanun heç bir halda pozulmamalıdır", 7 yanvar 1983-cü il tarixində çap olunmuş "Oğulların taleyi valideynləri düşündürməlidir", 28 dekabr 1983-cü ildə çap olunmuş "Möhtəkirliyin axırı yoxdur", 23 aprel 1986-cı ildə çap olunmuş "Zay buraxmaq israfçılıqdır", 2009-cu ildə "Ünsiyyət" qəzetində dərc edilmiş "Dəniz də dağlar kimidir", "Kommunist" qəzetində 18 aprel 1986-cı ildə çap olunmuş "Laqeydliyin ağır nəticələri", "Ədəbiyyat və incəsənət" qəzetində 9 yanvar 1987-ci ildə "Səhvlərimizi düşünərkən...", 6 mart 1987-ci ildə "Qanunun tələbi ilə" başlıqları altında işıq üzü görmüş neçə-neçə məqalə, müsahibə və yazıları, 1983-cü ildə "Ədəbiyyat və incəsənət" qəzetində ondan bəhs edən "Tut ağacının budağı" məqaləsi dediklərimizi təsdiq edir.

Bundan əlavə İkram müəllim özü də mətbuatda dərc olunmuş yazılara xüsusi diqqətlə yanaşmış, onlarda verilən məlumatları vaxtında araşdıraraq müvafiq tədbirlərin görülməsini təmin etmişdir.

"Prokuror fəaliyyəti ilə bağlı mülahizələrim" yazısında İ.Kərimov prokurorluq orqanlarının mətbuatla əlaqələri ilə bağlı yazır: "Mətbuat yazılarına, şikayətlərə, prokurorluğun və onun hər hansı bir üzvünün ünvanına deyilən tənqidlərə qısqanclıqla deyil, xüsusi

həssaslıqla yanaşılmalıdır" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 590).

İkram müəllim məhkəmə sədri kimi fəaliyyət göstərdiyi vaxtlarda mətbuatla əlaqələrini daha da genişləndirmiş, mətbuatın cəmiyyətdə rolunu həmişə diqqətdə saxlamışdır. "Azadlıq" qəzetinin müxbiri Nailə Bağırovaya verdiyi müsahibə məhkəmə və mətbuat arasında əlaqələr baxımından önəm kəsb etdiyinə görə həmin müsahibəni diqqətə çatdırmağı zəruri hesab edirik:

"Hüquqi dövlətdə kütləvi informasiya vasitələrinin rolu barədə məlumat almaq üçün Bakı Şəhər Məhkəməsinin sədri İkram Kərimova müraciət etdik.

*– İndi məhkəmədə hansı xarakterli cinayət işlərinə daha çox baxılır? Şəxsiyyətin təhqiri ilə bağlı kütləvi informasiya vasitələrində gedən bəzi məqalələrlə əlaqədar məhkəməyə müraciət edən olurmu?*

– "Kütləvi informasiya vasitələri haqqında" Qanun qəbul edilməzdən əvvəl belə işlər çox idi. İndi azalıb. Həmin qanunun vətəndaşa təkzibetmə hüququ verən 31-34-cü maddələrinə görə, qəzet etiraz edən şəxsin təkzibini dərc etməyə borcludur. Təkzib yalan məlumatın verildiyi səhifədə həmin şriftlə çap olunmalıdır. Əgər redaksiya bundan imtina etsə, həmin şəxs məhkəməyə müraciət etməlidir. Redaksiyaya müraciət etmədən birbaşa məhkəməyə müraciət etmək düzgün deyil. Onu da deyim ki,

məhkəmə sistemində olan süründürməçiliyə görə vətəndaşlar elə bu tədbirlə kifayətlənir, məhkəməyə müraciət etmirlər... Son vaxtlar mətbuatda ayrı-ayrı şəxslərdən çox, dövlətin ləyaqəti təhqir olunur. Prezidentin şərəfini qorumaq ədliyyə nazirinə tapşırıldığı kimi, dövlətin də ləyaqətinin müdafiəsini təmin etmək lazımdır.

*– Birdən qəzet etirazçının təkzibini çap etməsə, onda necə?*

– Onda qəzetə etirazçının təkzibini çap etmək tapşırılır. Məhkəmənin qərarı icra olunmadıqda isə Milli Məclisin Cinayət Məcəlləsinin 188-ci maddəsinə etdiyi dəyişikliyə əsasən, məhkəmə qərarını yerinə yetirməyən şəxsi əməkhaqqının üç mislindən on mislinə kimi cərimə gözləyir. Qəzetin bağlanmasına gəldikdə isə məhkəmə qəzetin fəaliyyətini yalnız təsisçinin qərarı, yaxud da qeydiyyatçı orqanın iddiası ilə dayandıra və ya ona xitam verə bilər. Ümumən, "Məhkəmə qərarlarının icrası sisteminin yenidən təşkili haqqında" Prezident Fərmanına görə, məhkəmə qərarlarının icrasında dönüş yaradılmalıdır… Bəzən məhkəmənin qərarı qüvvəyə minməmiş həmin işlə bağlı mətbuatda birtərəfli məqalələr gedir. Bu da məhkəmənin işində çətinlik yaradır. Məsələn, fevralın 3-də "Günün xəbərləri" proqramında Xidmət Konserninin sədri maraqlı olduğu və məhkəmədə baxılan iş üzrə müsahibə verib. Onun haqlı və ya haqsız olduğu barədə heç nə deyə bilmərəm.

Amma məhkəmənin yekun qərarı olmadan buna yol verilməməlidir. Və yaxud Salyan pambıqtəmizləmə zavodunun direktorunun işi ilə bağlı məhkəmənin qətnaməsi qanuni qüvvəyə minməmiş "Azərbaycan" qəzetində müsahibə dərc olunub, ayrı-ayrı şəxslərin münasibətləri göstərilib.

*– Sizin sözünüzdən belə nəticə çıxarmaq olar ki, mətbuat cəmiyyətdə olan neqativ hallara münasibətini bildirməməlidir?*

– Vətəndaşın şikayəti varsa, bu məsələ araşdırılmalıdır. Amma məhkəmədə baxılacaq işə münasibət məhkəmənin qəbul etdiyi qərar qanuni qüvvəyə minəndən sonra bildirilməlidir. Ümumiyyətlə, bütün hüquqi dövlətlərdə olduğu kimi, Azərbaycanda da məhkəmənin qərarı əsas sayılmalıdır. Təəssüf ki, bizdə hələ də məhkəmə sədrinə müxtəlif təzyiqlər göstərilir..." (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 223-224).

Məlumat və ideyaları yaymaq azadlığı ölkənin siyasi həyatında və demokratik quruluşunda olduqca mühüm əhəmiyyət daşıyır. İnsan Hüquqları üzrə Avropa Məhkəməsi "Həndisayd Birləşmiş Krallığa qarşı" iş üzrə qərarında qeyd edir ki, "Məhkəmənin nəzarət funksiyaları onun üzərinə demokratik cəmiyyəti səciyyələndirən prinsiplərə böyük diqqət yetirmək vəzifəsini qoyur. İfadə azadlığı belə cəmiyyətin mühüm dayaqlarından, onun tərəqqisi və hər bir

fərdin inkişafı üçün əsas şərtlərdən birini təşkil edir".

Konvensiyanın 10-cu maddəsində mətbuat azadlığından birbaşa söhbət getməsə də, Məhkəmənin təcrübəsində həmin maddədə yer alan azadlıqlardan istifadə ilə əlaqədar olaraq mətbuat üçün xüsusi statusu təmin edən prinsip və qaydalar öz əksini tapmışdır.

"Lingens Avstriyaya qarşı" iş üzrə qərarında Məhkəmə qeyd etmişdir ki, "Mətbuat digər şəxslərin nüfuzunun müdafiəsi üçün" və digər məsələlər üçün müəyyən edilmiş hədləri aşmalı deyil, amma bununla belə, onun üzərinə siyasi məsələlər, eləcə də ictimai maraq kəsb edən digər məsələlər barədə məlumat və ideyaları yaymaq vəzifəsi düşür. Mətbuat nəinki belə məlumat və ideyaları yaymaq vəzifəsini daşıyır, həm də ictimaiyyət həmin məlumat və ideyaları almaq hüququna malikdir. Eyni qərarında Məhkəmə bildirmişdir ki, mətbuat azadlığı ictimaiyyəti siyasi liderlərin ideya və yanaşmaları barədə rəylərin aşkara çıxarılması və formalaşması üçün ən yaxşı vasitələrdən biri ilə təmin edir və müvafiq olaraq siyasi debatların azadlığı demokratik cəmiyyət konsepsiyasının özəyini təşkil edir. Məhz buna görə Məhkəmə mətbuat vasitəsilə aparılan siyasi debatları 10-cu maddənin çox güclü müdafiəsi ilə təmin edir.

Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun "Xüsusi ittiham qaydasında şikayətlərə dair işlərə baxılması üzrə məhkəmə təcrübəsi haqqında"

21 fevral 2014-cü il tarixli qərarında da demokratik cəmiyyətdə mətbuatın rolu qiymətləndirilərək qeyd olunur ki: “Məhkəmələr nəzərə almalıdırlar ki, Avropa Məhkəməsinin presedent hüququnda demokratik sistemin davamlılığı baxımından söz azadlığının əhəmiyyətinə xüsusi diqqət yetirilir. Bununla belə, o da nəzərə alınmalıdır ki, fıkri ifadə etmək azadlığı Konvensiyanın 10-cu maddəsinin 2-ci bəndinə əsasən, digər şəxslərin nüfuzu və hüquqlarının müdafıəsi üçün məhdudiyyətlərə məruz qala bilər.

Avropa Məhkəməsinin qərarlarında qeyd edilmişdir ki, ifadə azadlığına hər hansı məhdudiyyətin “zəruriliyi” əsaslı qaydada müəyyən edilməlidir. İlk növbədə məhkəmələr məhdudiyyətin tətbiqi üçün “ciddi ictimai tələbatın” mövcud olub-olmadığını müəyyən etməlidirlər; bu halda onların müəyyən mülahizə hüdudları vardır. Mətbuat ilə bağlı işlərdə məhkəmələrin malik olduğu mülahizə hüdudları demokratik cəmiyyətin azad mətbuatı təmin etmək və qorumaq marağı ilə müəyyən edilir. Eynilə Konvensiyanın 10-cu maddəsinin 2-ci bəndinə əsasən, məhdudiyyətin qanuni məqsədə mütənasib olub-olmamasının müəyyən edilməsində bu maraq daha ağır çəkiyə malikdir (bax: Fressoz və Ruar Fransaya qarşı (BP), §45).

Avropa Məhkəməsi həmçinin bildirmişdir ki, mətbuatın demokratik cəmiyyətdə oynadığı “gözətçi”

rolu xüsusi əhəmiyyət kəsb edən amildir (bax: "Qudvin Birləşmiş Krallığa qarşı" 27 mart 1996-cı il, §39). Onun vəzifəsi öz məsuliyyət və öhdəliklərinə uyğun qaydada siyasi məsələlər və ümumi maraq kəsb edən digər məsələlər barədə məlumat və fikirləri yaymaqdan ibarətdir (bax: başqa bir çox mənbələrlə yanaşı, "De Haes və Gijsels Belçikaya qarşı", §37 və "Kolombani və digərləri Fransaya qarşı", §55). Lakin mətbuat müəyyən hədləri, xüsusilə başqalarının nüfuz və hüquqlarına aid olan hədləri aşmamalıdır. Həmçinin nəzərə alınmalıdır ki, məqbul olan tənqidin hüdudları fərdi şəxslə müqayisədə ictimai xadim, o cümlədən siyasətçi ilə bağlı daha genişdir. Birincidən fərqli olaraq ictimai və ya siyasi xadim sözlərinin və hərəkətlərinin jurnalistlər və ümumiyyətlə, ictimaiyyət tərəfindən yoxlanılmasına qaçılmaz olaraq və bilə-bilə açıq edir və buna görə o, daha böyük dərəcədə dözümlülük nümayiş etdirməlidir (bax: "Lingens Avstriyaya qarşı", §42).

**Ölüm cəzası**

Hakimin fəaliyyətinin bir hissəsini də cinayət törətmiş şəxslərə qanunvericilikdə nəzərdə tutulan qaydada cəza təyin edilməsidir. Odur ki, cəza və onun təyin edilməsi məsələləri hakim kimi İkram müəllimi daim düşündürmüş və o, həmin məsələlərin müzakirəsində fəal iştirak etmişdir. 13 mart 1997-

ci il tarixdə "Ədalət" qəzetində "Azərbaycan ölüm cəzasının ləğvinə hazırdırmı?". Yazısında İkram müəllim ölüm cəzası ilə bağlı fikirlərini açıqlayaraq aşağıdakıları göstərmişdir:

"Bu gün sözügedən məsələnin müzakirəyə çıxarılmasının hüquqi əsası var. Çünki insan hüquqlarının və onun azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasının 6 nömrəli protokoluna əsasən Birliyə daxil olmaq arzusunda olan dövlətlərdən ölkəsinin cinayət məcəlləsindən ölüm cəzasının çıxarılması tələb olunur. Onu da qeyd etmək yerinə düşərdi ki, istər İttifaq dövründə, istərsə də indi qüvvədə olan cinayət məcəlləsində müstəsna cəza tədbiri kimi, ölüm cəzası saxlanılıb. Düzdür, bunun tətbiq dairəsi də geniş olub. Fikrimizcə, hər hansı bir cinayət törətmiş şəxsə ölüm cəzasının verilməsi mənəviyyat baxımından düzgün hərəkət kimi qiymətləndirilə bilməz. Şəxs ağırlaşdırıcı hallarda qəsdən adam öldürübsə və ya başqa ağır cinayət törədibsə, bəzən ona ölüm cəzası kəsmək məcburiyyətindəyik. Mən, ümumiyyətlə, cəza tədbiri kimi, ölüm cəzasının əleyhinə olan şəxslərdənəm. Və onun Cinayət Məcəlləsindən ömürlük cəza və ya uzunmüddətli həbs cəzası ilə əvəz edilməsinin tərəfdarıyam.

Gəlin bir cəhəti də unutmayaq ki, ölüm cəzasının tətbiq edilməsi heç də cinayətkarlığın azalmasına şərait yaratmır. Ölüm cəzasının ömürlük cəza ilə əvəz

edilməsi isə hüquq-mühafizə orqanlarının və digər təşkilatların məsuliyyətini artırır və əlavə maliyyə vəsaiti tələb edir. Deməli, söhbət cəzanın dəyişdirilməsindən gedirsə, onda məhbusların islah-əmək düşərgələrindəki vəziyyətinin yaxşılaşdırılması və həmin məhbusların saxlanılmasına dövlət tərəfindən ayrılan xərclərin nizama salınması diqqətdən kənarda qalmamalıdır. Elə edilməlidir ki, məhbusların ictimai faydalı əməklə məşğul olması üçün, sözün əsl mənasında, tam şərait yaradılsın və məhbusların tərbiyə edilməsində faydalı əmək, həqiqətən, öz səmərəsini versin.

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, cəzanın sərtləşdirilməsi heç də cinayətkarlığın qarşısını almır. Misal üçün, bir faktı xatırladım. Çin Xalq Respublikasında əvvəlki illərlə müqayisədə təkcə 1995-ci ildə 2500-dən artıq cinayətkara ölüm cəzası kəsilib. Burada, əsasən, rüşvətxorları, narkotik maddə alverçilərini və digər qatı cinayət törədənləri ölümə məhkum edirlər. Bəzi dövlətlərdə iqtisadi cinayətlərə görə, habelə qaçaqmalçılara, narkotik maddə alverçilərinə ölüm cəzası tətbiq edilir. Lakin həmin ölkələrdə bu səpkili cinayətlərin səviyyəsi azalmır. Qeyd edək ki, bu hal bir çox Şərq ölkələrinə də xasdir. Deməli, ölüm cəzasının tədbiqinin artırılması heç də cinayətlərin sayının azalmasına təsir göstərmir.

Son illər bir sıra mətbuat orqanlarında çap edil-

miş məhkəmə oçerklərində bəzən belə bir fikir vurğulanır ki, cinayətkara törətdiyi əmələ görə az iş kəsilir. Və yazı müəllifləri bunu az qala cəzasızlıq kimi qiymətləndirməyə çalışırlar. Ancaq yada salmaq istərdim ki, cəzasızlıq dedikdə nə başa düşülməlidir? Birincisi, cinayət edilib, ancaq açılmayıb, yəni cinayətkar azadlıqda qalaraq, təkrar cinayətlər törədib. İkincisi, cinayət edilib, cinayətkar məlumdur, axtarışdadır, amma tapılmayıb. Üçüncüsü, cinayət edilib, ancaq nədənsə qeydiyyatdan keçməyib. Bax budur cəzasızlıq! Belə hallara qarşı mübarizə aparmalıyıq və hüquq-mühafizə orqanları hazırda işlərini bu istiqamətdə görürlər.

Ölüm cəzasını ləğv etmiş ölkələrin tarixi inkişafına fikir versək, görərik ki, bu tədbirin həyata keçirilməsi uzun illər davam etmiş prosesin nəticəsidir" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 338-339).

18 sentyabr 1997-ci il tarixdə "7 gün qəzeti"nə verdiyi müsahibəsində İkram Kərimov ölüm cəzasına münasibəti ilə bağlı fikirlərini davam etdirərək qeyd etmişdr ki, "Konstitusiyamızın 27-ci maddəsi belə adlanır: "Yaşamaq hüququ". Həmin maddənin 3-cü hissəsində qeyd olunur: "Müstəsna cəza tədbiri kimi ölüm icəzası tam ləğv edilənədək, yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər". Bura-

da dörd prinsip diqqəti cəlb edir: cəzanın müstəsnalığı; müvəqqəti xarakter daşıması; məhdud dairədə tətbiqi; tətbiqinin qeyri-mütləqliyi. Fikrimcə, hazırlanmaqda olan yeni Cinayət Məcəlləsində ölüm cəzasına alternativ olaraq ömürlük həbs cəzasının nəzərdə tutulması, ölüm cəzasının isə gələcəkdə ləğv edilməsi daha məqsədəuyğun olardı. Cinayət və cəza məsələsinə gəldikdə isə hüquqşünas və hakim kimi qəti fikirdəyəm: cəzanın sərtliyi heç vaxt cinayətin qarşısını alan amil ola bilməz" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 261).

**Məhkəmə islahatı və cəza problemi**

İkram Kərimov hakim kimi praktiki fəaliyyətini həyata keçirməklə yanaşı, daim hüquq elminin, ədalət mühakiməsinin inkişafı sahəsində yeni fikir və ideyaların irəli sürülməsində də öz sözünü demişdir. Bu cəhətdən 1997-ci ildə keçirilən "Azərbaycan XXI əsrin astanasında" Respublika Elmi-Praktik Konfransında məhkəmə islahatları, cəza sistemi, cinayətlərin ağırlıq dərəcəsinə görə kateqoriyalara ayrılmasının zəruriliyi barədə fikirlərini dəyərli hesab etməklə, onların yeni cinayət qanunvericiliyində nəzərə alınmasını hakim təfəkkürünün bəhrəsi kimi yüksək qiymətləndirirəm:

1. Respublikada məhkəmə islahatına dair hazırlanan qanunlar yeni Konstitusiyanın müddəalarına,

dünya dövlətlərinin qabaqcıl təcrübəsinə əsaslanır. Məhkəmə islahatının söykəndiyi qanun respublikada məhkəmə hakimiyyətini formalaşdıracaq, bu hakimiyyəti insan şəxsiyyətinin, onun hüquq və azadlıqlarının qorunmasının real təminatına çevirəcəkdir. İslahat məhkəmə orqanlarının səmərəli, funksional fəaliyyətini təmin edəcək, qanunçuluğun gözlənilməsini, hüquq pozuntuları və cinayətkarlıqla mübarizənin təsirli vasitəsinə çevriləcəkdir.

2. Məhkəmələrin fəaliyyətinə ictimai rəylə qiymət verilir, belə fəaliyyətə qarşı əhalinin hüquqi şüurunda pozitiv, yaxud da neqativ münasibət yaranır, yaxud da tənqid edilir. Lakin unudulur ki, məhkəmələrin fəaliyyətinin əsas istiqamətləri qanunla bağlıdır və belə fəaliyyət qanun zəminində formalaşır, buna görə də gələcəkdə həyata keçirilən və həyata keçirilməkdə olan hüquqi islahatlardan, eləcə də cinayət qanunvericiliyindən, onda müəyyən edilən cəza növlərindən və bütövlükdə cəza sistemindən asılı olacaqdır.

Hazırda qüvvədə olan cinayət qanunvericiliyində nəzərdə tutulan cəzanın sistemi cəzaların tətbiqi sahəsində məhkəmələrin fəaliyyətinə hüquqi şüurda heç də həmişə haqq qazandırmır.

Cəzanın sistemində azadlıqdan məhrumetmə növündə cəzadan sonra bu cəzadan nisbətən yüngül və islah işləri növündə cəzadan ağır olan cəza növü

nəzərdə tutulmadığından, maddələrin əksər sanksiyalarına azadlıqdan məhrumetmə növündə cəzalar daxil edilmişdir. Bu da məhkəmə təcrübəsində cinayətlərə görə bir qayda olaraq azadlıqdan məhrumetmə növündə cəzaların tətbiqini zəruri edir. Belə vəziyyət bir tərəfdən cəza siyasətini süni surətdə sərtləşdirməyə doğru istiqamətləndirir, digər tərəfdən vətəndaşların şüurunda məhkəmələrin fəaliyyətinə dair ədalətsizlik fikrini yaradır ki, bu da əhalinin mənəviyyatını aşılayır.

Cəzanın sistemində azadlıqdan məhrumetmədən sonra ağırlıq dərəcəsinə görə seçilən nisbətən münasib cəza növünün olmaması, sürgün və köçürmə növündə cəza növlərinin çıxarılması cəza sistemində disproporsiya doğurmuş, sistemin funksional fəaliyyətində müəyyən tərəddüdlər yaratmışdır.

Hazırlanmaqda olan yeni Cinayət Məcəlləsində cəza sistemində qeyd edilən qüsurların aradan qaldırılması üçün sistemə "azadlığı məhdudlaşdırma", "həbs", "ömürlük azadlıqdan məhrumetmə" və digər yeni cəza növlərinin daxil edilməsi təklif edilir. Güman edirik ki, bu sahədə gözlənilən hüquqi islahat cəza sistemində yaranmış uyğunsuzluqları aradan qaldıracaq və bu, məhkəmələrin cəzanın tətbiqi sahəsində fəaliyyətini xeyli təsirli edəcək.

3. Qüvvədə olan cinayət qanunundan fəqli olaraq hazırlanmaqda olan Cinayət Məcəlləsində ölüm

cəzası cəza sisteminə daxil edilmişdir. Hesab edirik ki, cəza sisteminə daxil edilsə də, yaxın gələcəkdə respublikanın cinayət qanunundan ölüm cəzası çıxarılacaq və o, “ömürlük azadlıqdan məhrumetmə” ilə əvəz ediləcəkdir.

Hazırda ölüm cəzasından imtina etmək, onu qanundan çıxarmaq, zənnimcə, düşünülməmiş addım olardı. Əvvəla, respublika ərazisinin müəyyən hissəsinin işğal altında olduğu, erməni millətçiləri tərəfindən Azərbaycana qarşı müxtəlif istiqamətlərdə təxribat və terror aktlarının aparıldığı şəraitdə ölüm cəzasından imtina edilməməlidir; ikincisi, ölüm cəzasından imtina edilməsinə hazırda əhalinin mütləq əksəriyyəti haqq qazandırmır.

4. Məhkəmənin ədalətli qərarlar qəbul etməsi öncə özünü təcrübədə doğrultmuş və elmi cəhətdən əsaslandırılmış qanunlardan asılıdır.

Qüvvədə olan Cinayət Məcəlləsində sanksiyaların quruluşu bu gün məhkəmələrin səmərəli fəaliyyətinə az kömək edir. Bu sanksiyaların əksəriyyəti elmdən uzaq “sınaqdan çıxarma”, “yanılma” kimi metodlar əsasında qurulmuş, dəfələrlə dəyişikliyə məruz qalmışdır.

Hazırlanmaqda olan yeni Cinayət Məcəlləsində maddələrin sanksiyaları uzun illərin təcrübəsi nəzərə alınmaqla elmi zəmanətlər əsasında qurulmalıdır. Sanksiyalar ifrat dərəcədə nə sərt, nə də ifrat dərə-

cədə yüngül olmalıdır. Sanksiyalar alternativ formada qurulmalı, xüsusən onlara daxil edilən azadlıqdan məhrumetmə növündə cəzaların aşağı və yuxarı hədləri arasında xeyli interval olmalıdır. Diskretsiya gözlənilməlidir. Belə quruluşda sanksiya cəzanın ədalətli fərdiləşdirməsində məhkəmələrin müstəqilliyini xeyli təmin etmiş olardı.

Fikrimizcə, hazırlanmaqda olan Cinayət Məcəlləsində sanksiyalar cinayətlərin ağırlıq dərəcəsinə görə fərqləndirilən kateqoriyalar üzrə – böyük ictimai təhlükəli olmayan cinayətlər; az ağır cinayətlər; ağır cinayətlər; xüsusilə ağır cinayətlərə görə təsnifatlanmalıdır" (İkram Kərimov. Zirvədən zirvəyə… Üçüncü kitab. Bakı. 2020. s. 341-343).

1998-ci ildə keçirilən "Azərbaycan XXI əsrin astanasında" Respublika Elmi-Praktik Konfransında İkram müəllimin "Hüquqi islahat və prokuror nəzarətinə dair qanunvericiliyin təkmilləşdirilməsinin bəzi məsələləri" mövzusundakı çıxışında irəli sürdüyü təkliflər də maraq doğurur:

"1. Respublikada totalitar dövlət rejimindən miras qalan hüquqi şəraitin dəyişdirilməsinə çox sayda qanunların düzgün əlaqələndirilməsilə, onlar üçün daimi işləməyə imkan verən, düşünülmüş mexanizm yaratmaqla nail oluna bilər. İdarəçilik səlahiyyətlərinin ümdə hədləri hakimiyyət bölgüsü ilə müəyyən edilsə də, onun dairəsi konkretləşdirilərkən respublikada

qanunçuluğun möhkəmləndirilməsinə, vətəndaşların hüquq və azadlıqlarının daha əhatəli qorunmasına təminat vermək imkanları nəzərə alınmalıdır.

2. Prokurorluq orqanlarının fəaliyyəti respublikada qanunun hakimiyyətini yaratmalı, insanın və vətəndaşın hüquqlarının qorunmasının qarantı olmalıdır. Uzun illər boyu prokuror dövlət ittihamını həyata keçirən subyekt kimi özünü ifadə etmişdir. Bu səbəbdən də məhkəmə prosesində prokuror prosesin tərəfi olmaqdan daha çox, dövlət nümayəndəsi kimi çıxış etmişdir.

Belə vəziyyət istər-istəməz prosesin "tarazlığını" pozmuş, prokuror prosesdə diktə edən subyekt rolunu oynamışdır. Hüquqi dövlət qurmaq istiqamətində hüquq yaradıcılığına fəaliyyətimiz kökləndiyi şəraitdə, zənn edirik ki, dövlət ittihamçısı – prokuror hakimlə, müdafiəçi ilə bərabər prosesin tamhüquqlu tərəfi kimi çıxmış etməlidir. Dövlət ittihamçısı məhkəmə prosesində təmsilçi yox, müstəqil tərəf olmalıdır. Respublikamızda hazırlanmaqda olan yeni cinayət-prosessual qanunvericilik prokurorun prosesdə tərəf kimi statusunu bu baxımdan müəyyən etməlidir. Belə status prokurorun prosesdə müstəqilliyini, kənar təsirlərdən azad və obyektiv mövqeyini təmin etmiş olardı.

3. Son dövrdə prokurorluğun ümumi nəzarət funksiyasından imtina vaxtının çatmasına dair ça-

ğırışlara rast gəlinir. Fikrimizcə, dövlət və cəmiyyət belə tezliklə prokurorluğun qanunlarının icrası üzərində nəzarət fəaliyyətindən imtina edə bilməz. Keçid dövründə – ərazimizin müəyyən hissəsinin işğal altında olması, qaçqın və məcburi köçkün problemləri, bu baxımdan əməliyyat şəraitinin mürəkkəbləşməsi, işsizliyin kütləvi hal alması, korrupsiya ilə bağlı cinayətlərin mövcudluğu, mənəvi düşkünlüyün təzahürlərinin baş verdiyi, latent cinayətkarlığın artdığı bir şəraitdə prokurorluğun nəzarət funksiyası daha da gücləndirilməlidir. Belə vəziyyətdə həm də insan hüquqlarının daha səmərəli qorunması mülahizəsi ilə prokurorun həbs etməyə dair sanksiya vermək səlahiyyətindən məhrum edilməsi təklif olunur.

Zənnimizcə, keçid dövründə cinayətkarlıqla uğurlu mübarizə və qanunçuluğun möhkəmləndirilməsi, bazar iqtisadiyyatının inkişafı şəraitində prokurorun həbs etməyə dair sanksiya vermək hüququndan məhrum edilməsi lüzumsuz və zərərli addım olardı.

Bununla yanaşı, qanunvericilikdə prokurorun həbs etməyə dair sanksiyasından məhkəməyə şikayət vermək hüququnu nəzərdə tutan institut yaradılmalıdır.

4. Hazırda prokurorluq orqanlarının müəyyən yoxlamalar aparması və ya təşkil etməsi, sənədlər (xüsusən banklardan) götürməsində müəyyən məhdudiyyətlər yaranmışdır. Bu məhdudiyyət heç də bütün hallarda özünü doğrultmur. Təklif olunur ki,

yaranmış vəziyyətdən düzgün çıxış yolu prokurorun müraciəti əsasında mübahisənin məhkəmədə həll edilməsidir" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 344-345).

**Hakimlərin müstəqilliyi və qərəzsizliyi, məhkəmə qərarlarının icrası**

"Qanunçuluq" jurnalının əməkdaşının "Hakimlərin müstəqilliyini xarakterizə edən əsas amillər hansılardır?" sualını cavablandıraraq İkram müəllim qeyd edirdi ki, "ədalət mühakiməsini yerinə yetirən hakimlərin statusunun eyni olması hakimlərin müstəqilliyini xarakterizə edən əsas amillərdən biri kimi qiymətləndirilməlidir. Məhkəmələrin müstəqilliyi ilə bağlı bir cəhətə də diqqət yetirmək istərdim ki, bu da hazırda fəaliyyət göstərdiyim hərbi məhkəmələrlə bağlıdır. Əvvəllər hakimlər eyni zamanda hərbi qulluqçular idi və təbii ki, onlara hərbi rütbə müdafiə naziri tərəfindən verilirdi. Bu prinsip hakimləri icra strukturundan asılı vəziyyətə salırdı. İslahat məhkəmələrin maddi-texniki təchizatında bu qurumdan olan asılılığını aradan qaldırdı" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 523).

İkram müəllimin hakimlərin müstəqilliyi ilə bağlı fikirləri İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında da öz ifadəsini tapmışdır. Belə ki, "Şahiner Türkiyəyə qarşı" iş üzrə qərarında

İHAM göstərdi ki, məhkəmə üzvlərinin tərkibinə vəzifə və xidmətlərinin təşkili baxımından işin tərəflərindən birinin tabeçiliyində olan şəxslər daxil olarsa, təqsirləndirilən şəxsin həmin şəxslərin müstəqilliyindən şübhəsi legitim olar".

Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi tətbiq dairəsinə daxil olan məhkəmənin qərəzsiz olmasını tələb edir. Qərəzsizlik, bir qayda olaraq, tərəfgir fikir və ya qeyri-obyektivliyin olmamasıdır və onun mövcudluğu və ya yoxluğu müxtəlif üsullarla yoxlana bilər ("Kiprianu Kiprə qarşı"; "Mikallef Maltaya qarşı").

Hər hansı məhkəmə işində konkret bir orqanın qərəzsiz olmadığına dair şübhənin legitim əsasının olub-olmadığının müəyyənləşdirilməsində onun qərəzsiz olmadığını iddia edənlərin mövqeyi əhəmiyyətli olsa da, həlledici deyildir. Həlledici olan həmin narahatlığın obyektiv olaraq əsaslandırıla bilinib-bilinməməsidir ("Ferrantelli və Santancelo İtaliyaya qarşı"; "Padovani İtaliyaya qarşı").

Hərbi xidmət personalına qarşı cinayət ittihamının hərbi tribunal tərəfindən müəyyənləşdirilməsi prinsip etibarilə 6-cı maddənin müddəalarına zidd deyil ("Kuper Birləşmiş Krallığa qarşı"). Lakin hərbi gəminin bütün üzvləri sədrlik edən zabitdən aşağı rütbəyə malik və onun tabeliyində olduqda, ərizəçinin tribunalın müstəqilliyi və qərəzsizliyi ilə

bağlı şübhələri obyektiv olaraq əsaslandırılmış ola bilər ("Findli Birləşmiş Krallığa qarşı"; "Miller və başqaları Birləşmiş Krallığa qarşı").

"İbrahim Gürkan Türkiyəyə qarşı" məhkəmə işində hərbi cinayət məhkəməsi ərizəçini bilərəkdən rəisin əmrinə tabe olmamağa görə iki il yarım müddətinə azadlıqdan məhrum etmişdi. Məhkəmənin tərkibi hüquqi təhsili olmayan bir hərbçidən və iki hərbi hakimdən ibarət idi. AİHM bildirdi ki, qeyri-hüquqşünas hakimlərin prosesdə iştirakı heç də 6-cı maddəyə zidd deyil və hərbçinin hüquqşünas ixtisasının olmaması onun müstəqilliyinə və ya qərəzsizliyinə mane olmur. Lakin hərbçi orduda qalaraq qulluq edirdi və hərbi nizam-intizama tabe idi. O, bu prosesə rəisləri tərəfindən təyin olunmuşdu və onun müstəqilliyinin iki hərbi hakimlə eyni konstitusion təminatları yox idi. Buna görə də hərbi cinayət məhkəməsi müstəqil və qərəzsiz sayıla bilməzdi.

İHAM-in istinad olunan işlər üzrə qərarları İkram müəllimin Müdafiə Nazirliyi ilə bağlılığı olan hakimlərin hərbi kollegiyada təmsil olunmasının yolverilməzliyi ilə bağlı mülahizələrinin doğruluğunu bir daha təsdiq edir.

İkram müəllimin hakimlərin müstəqilliyi və qərəzsizliyinə xüsusi diqqətlə yanaşması sədrlik etdiyi məhkəmədə işləmiş hakimlərin xatirələrində də öz əksini tapmışdır. Gəncə Apellyasiya Məhkəməsinin

sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Rafiq Məmmədov "Xoşbəxt insan" adlı xatirəsində yazır: "İkram müəllim Azərbaycan Respublikasının sayılıb-seçilən hüquqşünaslarındandır. Onun hüquq elminə, məhkəmə sisteminə verdiyi töhfələr hüquqşünaslara yaxşı bəllidir.

...Ali Məhkəmədə işlədiyim dövrdə vəzifəmlə əlaqədar mühüm cinayət işlərinin məhkəmə istintaqının ümumiləşdirilməsi ilə məşğul olmuşam. Şübhəsiz, həmin siyahıda İkram müəllimin müstəntiq işlədiyi dövrdə apardığı cinayət işləri də olurdu. Biz heyrətə gəlirdik – insan necə zərgər dəqiqliyi ilə işləyə bilərmiş! İstintaqın başlanğıcından qurtardığı dövrə qədər düzgün planlaşdırılma, toplanan sübutların tamlığı, dürüstlüyü, işin tərtibatı, tikilişi tək bizi yox, Moskvadan gələnləri də heyrətləndirirdi. Hesab edirəm ki, onun imzasını atdığı hər cinayət işi bir elmi əsərdir. Çünki o işlərdə yaradıcı münasibət, elmi və praktik axtarış, dəyərli təkliflər, öyrəniləsi yeniliklər var. Cinayət işində sübutları sistemləşdirir və sənədəri elə ardıcıllıqla tikirdi ki, işə baxan hakim əziyyət çəkmirdi, çoxsaylı cildlər arasında ilişib qalmırdı. Cinayət işinin mündəricatını tərtib edirdi. Bu heç də asan ərsəyə gəlmirdi.

...İkram müəllim məhkəmə prosesinə ən cüzi müdaxiləyə belə, imkan verməzdi" (İkram Kərimov. Zirvədən zirvəyə… Üçüncü kitab. Bakı. 2020. s. 87-90).

Ali Məhkəmənin sabiq hakimi Rəsul Səfərov isə "Məhkəmənin və hakimin nüfuzu" adlı xatirəsində yazır: "İkram müəllimin devizi, yuxarıda dediyim kimi, hakimin müstəqil qanuni qərar qəbul etməsinə imkan yaratmaq olmuşdu. Tövsiyə edirdi ki, ancaq qanuna söykənən və ədalətli qərarlar məhkəmənin nüfuzunu yüksəldər. Bu baxımdan o, məhkəmə qərarlarının icrasına xüsusi diqqət yetirirdi" (İkram Kərimov. Zirvədən zirvəyə… Üçüncü kitab. Bakı. 2020. s. 83).

Məhkəmə qərarlarının icrası məsələsi də İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarında önəmli yer tutur.

Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi yekun və məcburi qüvvəyə malik məhkəmə qərarlarının dərhal icra edilməsinə təminat verir ("Ouzounis və digərləri Yunanıstana qarşı"). Hər hansı məhkəmə tərəfindən verilən bu cür qərarların icrası hüququ "məhkəməyə hüququn" ayrılmaz hissəsidir ("Hornsby Yunanıstana qarşı").

Əks halda, 6 §1 maddənin müddəaları bütün faydalı təsirindən məhrum edilər ("Burdov Rusiyaya qarşı").

Məhkəmə qərarının icrasında müəyyən gecikmələr xüsusi şərtlər altında əsaslandırıla bilsə də, bu gecikmə iddiaçının qərarın icra edilməsi hüququna xələl gətirəcək dərəcədə olmamalıdır ("Burdov Rusiyaya qarşı").

Aydın olduğu kimi, icra tam və hərtərəfli olmalı, və natamam olmamalıdır ("Matheus Fransaya qarşı"), ona müdaxilə edilə bilməz, etibarsız hesab edilə bilməz və zəruri olduğundan artıq gecikdirilə bilməz ("İmmobiliare Saffi İtaliyaya qarşı").

İcra prosesində iştirak edən dövlət orqanlarının zəruri səy göstərməməsi və hətta icraya mane olması halında dövlətin məsuliyyəti yarana bilər ("Fuklev Ukraynaya qarşı").

Qərarın icrasını təmin etmək üçün milli hakimiyyət orqanlarının gördüyü tədbirlər, onların icra prosesindəki öhdəlikləri nəzərə alınmaqla, bu məqsədə nail olmaq üçün adekvat və yetərli olmalıdır ("Ruianu Rumıniyaya qarşı").

Bundan əlavə ədalətli məhkəmə araşdırması hüququ qanunun aliliyi işığında şərh olunmalıdır. Qanunun aliliyi prinsipinin fundamental aspektlərindən biri hüququn müəyyənliyi prinsipidir ki, ("Okyay və digərləri Türkiyəyə qarşı") bu da digərləri arasında məhkəmələr işlə bağlı yekun qərar çıxardığı zaman onların qərarının şübhə doğurmamasını tələb edir (Brumarescu Rumıniyaya qarşı; Agrokompleks Ukraynaya qarşı).

Yekun məhkəmə qərarları qeyri-müəyyən müddət ərzində nəzərdən keçirilən və dəfələrlə ləğv edilmək riski daşıyan məhkəmə sistemləri 6-cı maddənin 1-ci bəndinə ziddir (Sovtransavto Holding Ukraynaya qarşı).

İkram Kərimovun məhkəmə qərarlarının icrasına münasibətini onun "Televiziya və Radio Verilişləri Dövlət Komitəsi işçilərinin hüquqlarının bərpa olunması" yazısında da müşahidə etmək olar:

"...Komitənin (Televiziya və Radio Verilişləri Dövlət Komitəsi – ***V.İ.***) sədri Məmməd Murad isə məhkəmə qərarlarını icra etməkdən imtina edərək, respublika rəhbərliyinə şikayətə üstünlük verdi... o, məhkəmə qərarlarına məhəl qoymur, onu icra etmirdi. Ona görə də Məmməd Murad barəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 136-cı maddəsi ilə qaldırılmış cinayət işini istintaq aparılması üçün Respublika Prokurorluğuna göndərdim. Çinayət işi qısa müddətdə istintaq edildi və Məmməd Murad Bakı Şəhər Məhkəməsində mühakimə olundu (hakim: Səfər Mədətov). Məhkəmə qərarı 10 mart 1992-ci ildə Komitənin yeni sədri Məmməd İsmayıl tərəfindən icra olundu...

**P.S.** Komitə sədrinin taleyini sonralar kənd təsərrüfatı və səhiyyə nazirləri də yaşamalı oldular. Qanunsuz olaraq işdən çıxarılmış Təhsil Nazirliyinin 8 nəfər əməkdaşının, rektorların, polis və prokurorluq işçilərinin, digər sahələrdə çalışan şəxslərin əvvəlki vəzifələrinə bərpa olunmaları ölkədə rezonans doğururdu. Mərkəzi İcra Hakimiyyəti orqanlarının diqqəti qanunun tələblərinə dönmədən riayət etməyə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarlarını lən-

gitmədən icra etməyə cəlb olunurdu. Ümumiyyətlə, məhkəmə qərarlarının icrası dövlətin öncül vəzifəsidir" (İkram Kərimov. Zirvədən zirvəyə… Üçüncü kitab. Bakı. 2020. s. 186-189).

Hakimlik və ədalət mühakiməsinin həyata keçirilməsi zamanı nümunə ola biləcək iki rəvayəti də əlavə etməyi lazımlı hesab edirəm:

B.e.ə. 399-cu ilin martında Melet adlı şair Sokratdan Afina məhkəməsinə şikayət etdi. Onu natiq Likon və əyan Anit də müdafiə edərək Sokratı "şəhər tərəfindən tanınan tanrıları danmaqda və gəncləri yoldan çıxarmaqda" təqsirləndirdilər. Sokrat bütün ittihamları rədd etdi. O həmçinin həmin vaxt Afinada qüvvədə olan məhkəmədən əfv diləmək qaydasından imtina etdi, bunu özü üçün layiq və yaşadığı şəhərin şərəfi üçün münasib bilmədi. O, məhkəmə tərəfindən təyin oluna biləcək cəzanın ağırlığına baxmayaraq, öz inamından dönmədi. Mənəvi təmizliyini qoruyaraq böyük müdrik kasadakı zəhəri son damlasına kimi içib özünü qurban verdi.

Sokrat deyirdi: Məhkəmədə, müharibədə nə mən, nə başqası araşdırma olmadan hər cür vasitə ilə ölümdən qaçmalı deyil. Ona görə ki, döyüşdə də tez-tez silahı atmaq, yaxud təqib edənə yalvarmaqla ölümdən qaçmaq olur; kim hər şeyi etmək və demək cəsarətinə malikdirsə, hər hansı təhlükə zamanı ölümdən qaçmağın başqa üsullarını tapa bilir. Ölüm-

dən qaçmaq çətin deyil, ay kişilər, bax daha çox çətin olan – mənəvi xarab olmadan qaçmaqdır, çünki o, ölümdən daha tez gəlir. Bax budur, mən qoca və məsum insanam, sakit hərəkət etməyə məcburam, mənim ittihamçılarım isə güclü və cəsarətli adamlardır – bununla da mənəvi xarab olmaya doğru cəsarətlə gedirlər. Bax budur, mən – sizin tərəfinizdən mühakimə olunmuş şəxs ölümə gedirəm, onlar isə – həqiqətlə mühakimə olunanlar pisliyə və qeyri-həqiqətə gedirlər; mən öz cəzamda, onlar öz bildiklərində qalırlar. Bu belə də baş verməli idi və mən elə düşünürəm ki, bu düzdür...

Bax budur, artıq buradan getmək vaxtıdır, mən ölüm üçün, siz yaşamaq üçün, bizdən hansımız yaxşıya doğru gedir, bu, Tanrıdan başqa heç kim üçün aydın deyildir" (Сократ. «Тем, которые осудили меня на смерть». Афины, 390-е до н.э. // Речи, изменившие мир. Автор-составитель В.Апанасик. Москва. 2018. с.27-30).

Fəzl Allah Kompani yazır: "Əli adamlar arasında bağlanan müqavilə şərtlərinə riayət olunmasının tərəfdarı idi və mühakiməni həyata keçirərkən də bunu rəhbər tuturdu. Bir dəfə iki kişi yüz dinarı pul kisəsinə qoyub bir qadına saxlanca verir və belə şərtləşirlər ki, "bu kisəni yalnız biz ikimiz onu almağa gələndə bizə qaytararsan. Əgər birimiz gəlsək, kisəni verməzsən". Qadın əmanəti qəbul edir.

Müəyyən müddət keçəndən sonra kişilərdən biri qadının yanına gəlir və bildirir ki, yoldaşı öldüyünə görə pulu ona versin. Qadın imtina edir. Bundan sonra kişi qadının qohumlarını tapır, onlardan pulun qaytarılmasında köməklik göstərmələrni xahiş edir. Qadın qohumlarının təsiri ilə pul kisəsini kişiyə qaytarır. Bir il keçəndən sonra ikinci kişi qadının yanına gəlib pul kisəsini tələb edir. Qadın əhvalatı ona danışır. Lakin kişi razı qalmayıb hakim kimi Ömərə müraciət edir. Ömər qadına bildirir ki, o, pulu saxlanca qəbul etdiyinə görə qaytarmalıdır. Bundan sonra qadın Ömərdən xahiş edir ki, hökmü özü çıxarmayıb onları Əlinin yanına göndərsin. Ömər razılaşır.

Əli hər iki tərəfi dinlədikdən sonra kişilərin qadını aldatmaq istədiklərini başa düşür və kişiyə deyir: "Sizin pul kisəniz bizdədir. Müqavilənin şərtlərinə görə siz pul kisəsini almaq üçün ikiniz bir yerdə gəlməli idiniz. Get yoldaşını tap və bir yerdə gəlib pul kisəsini aparın. Pul üçün gələn kişi hərəkətlərindən utanıb geri qayıdır (Фазл Аллах Компани. Али ибн Абу Талиб. Москва. 2011. с.93-94).

# ALTINCI YAZI

## Keçid dövrü və “dəyişməyən sükançı”

Əksəriyyətimiz kimi İkram müəllim də keçid dövrünü, onun keşməkeşli, mürəkkəb günlərini yaşamış, xalqının, ölkəsinin, Vətənin bu ağrılı günlərdən müstəqilliyə çıxması üçün əlindən gələni etmişdir. İkram müəllimin keçid dövrünün çətinliklərinə baxmayaraq, bu dövrü həm insan, həm hüquqşünas, həm də taleyüklü məsələləri həll edən vəzifə sahibi kimi şərəflə keçmiş, ona həvalə olunan hər bir işi milli-mənəvi dəyərləri, xalqın rifahını və müstəqilliyini əsas tutaraq yerinə yetirməklə zirvələrdə dayanmağı bacarmışdır.

Nizami Təhməzov ikinci kitabda “O, heyrətedici insandır” adlı xatirəsində yazır: “İkram müəllim həm sovet dövründə, həm də müstəqillik illərində bir-birindən fərqlənən məsul vəzifələrdə işləmişdir. Bu müddətdə ictimai, iqtisadi-siyasi quruluş, qanunlar və insanların qanuna münasibəti dəyişmişdir. Dərəbəylik və qeyri-sabitlik illərində baş verən hərc-mərcliklər, təzyiqlər və sair hallar onun mövqeyinin zərrə qədər dəyişməsinə təsir göstərə bilməmişdir. O bu ziddiyyətli, bəzən məkrli və ədalətsiz mövqelərdə yalnız təmizliyi, obyektivliyi, səbri və təmkini, bəzi naşı adamları inandıra bilmək qabiliyyəti, qısası,

müdrikliyi və ustalığı ilə vəziyyətdən çıxaraq qanunun aliliyini qoruyub saxlaya bilmişdir. Bu, hər kəsə və hər hüquqşünasa xas olan keyfiyyət deyil" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 220-221).

İkram müəllimin özünün keçid dövrünü yaşamağı ilə bağlı yazdıqları həmin dövrün keşməkeşliyinə baxmayaraq, əqidəsinə sadiq insan kimi insani və mənəvi keyfiyyətlərinə sadiq qalmasını təsdiq edir: "Hüquqşünas kimi çox qəribə olub mənim taleyim. Sovet İttifaqı gözümün qarşısında süqut etdi. Keçid və müstəqillik dövrünü yaşadım...

Zaman-dövran dəyişir. Qanunlar yenilənir, təkmilləşir, bəşəri qaydalara inteqrasiya edilir. Sükançı isə dəyişmir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2019. s. 10).

XX əsrin səksəninci illəri keçmiş SSRİ-yə daxil olan müttəfiq respublikalar, o cümlədən Azərbaycan üçün də keçid dövrünün başlanması ilə səciyyələnir. Dövlət, cəmiyyət və xalqın taleyində keçid dörü özünəməxsus rol oynayır. Filosof Səlahəddin Xəlilov haqlı olaraq qeyd edir ki, "keçid prosesi tarixən həmişə ağrılı, təbəddülatlı və çox mürəkkəb olur. Lakin nə keçmişi, nə də gələcəyi aydın dərk etmədikdə, hansı ictimai-iqtisadi qurumdan hansına keçdiyimiz tam məlum olmadıqda bu təbəddülatlar və ağrılar daha çox olur. Dalğaların qoynuna atılmış adam

nə qədər yaxşı üzgüçü olursa olsun hara üzəcəyini bilmirsə, özünü dalğaların ixtiyarına verməli olur, küləyin səmtinin necə dəyişəcəyindən asılı olur" (Səlahəddin Xəlilov. Lider, dövlət, cəmiyyət. Bakı. 2001. s. 140).

Amma İkram müəllim dövrün reallıqları üzündən dalğaların qoynuna atılmış olsa da, hara üzəcəyini bilirdi, onu öz kursundan döndərmək asan deyildi. O, küləyin səmtinin necə dəyişməsindən asılı olmayaraq, özünü dalğaların ixtiyarına vermirdi. Çünki o, ağlı, savadı və peşəkarlığı sayəsində çətinliklərlə mübarizə aparmaq, rəhbərlik etdiyi kollektivi səfərbər etmək, "işçilərdə fərdi məsuliyyət hissinin yerinə kollektiv məsuliyyət hissini formalaşdırmaq" bacarığına malik olduğundan eyni – lazım olan istiqamətdə, hərəkət etməyə davam edirdi.

Bir vaxtlar Bakı şəhəri, Əzizbəyov Rayon Prokurorluğunda rayon prokurorunun köməkçisi kimi İkram müəllimlə birlikdə işləyən Tahirə Quliyeva "Ağıl, savad və peşəkarlıq" adlı xatirəsində yazır: **"Onunla işləmək bizə zövq verirdi. İşçilərdə fərdi məsuliyyət hissinin yerinə kollektiv məsuliyyət hissini formalaşdıra bilmişdi. Rayon prokurorluğunun adına, şərəfinə görə hər birimiz özümüzü cavabdeh hesab edirdik...".**

Bir şəxsdə ağıl, savad və peşəkarlıq vəhdət halında biləşib, obyektivlik və qərəzsizliklə cilalanırsa, cə-

miyyət ondan ancaq xeyir görə bilər. Əlbəttə ki, bu adamın həyat yolu zirvədən zirvəyə olmalıdır. Bəlkə də, çoxları bilmir ki, İkram müəllim gəncliyində alpinizmlə məşğul olub və hətta idman dərəcəsi də almışdır. Onun həyat yolu sanki sıldırım qayalara qalxaraq fəth etdiyi zirvələrdən başlayıb" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 223).



# YEDDİNCİ YAZI

## Asudə vaxt – məsuliyyətdən azad vaxt deyildir

"Zirvədən zirvəyə..." üçcildliyinin birinci kitabı Heydər Əliyevin "Asudə vaxt – məsuliyyətdən azad vaxt deyildir" kəlamı ilə başlayır. Belə başa düşülür ki, bu kəlam həm də İkram müəllim üçün fəaliyyət devizi olmuşdur. Kitab üçün xatirə qələmə almış hər bir şəxsin yazısında İkram müəllimin zirvələri fəth etməsində onun məsuliyyət hissinin rolunu duymaq olur. Kitabları oxuyan hər bir şəxs İkram müəllimin təkcə işinə deyil, ümumiyyətlə, hər bir hərəkətinə, insanlara, təbiətə, Vətənə, münasibətdə məsuliyyətliliyini, onun öz vəzifələrini düzgün dərk edib, onları vicdanla yerinə yetirməsini hiss etməyə bilməz.

Məsuliyyət hissi bəşər övladı ilə həmyaşıddır. İnsan bu hissi özü və başqaları qarşısında vəzifələr daşıdığı və bu vəzifələr üzərində düşündüyü dövrdən dərk etməyə başlayıb. Bu hiss insanlar arasındakı münasibətlərin qurulması və ya pozulmasında mühüm rol oynayır. Fəlsəfi ədəbiyyatda məsuliyyət bu və ya digər fəaliyyət obyektinə yönəlmiş subyektiv fəallığın ölçüsü kimi izah edilir. Məsuliyyət hissi əxlaqi dəyər olmaqla hər bir insanın şəxsiyyət kimi formalaşdıran, onu tərbiyə edən, ona inam, etibar, güc verən qüdrətli qüvvədir.

İnsan şəxsiyyətinin inkişafı üçün məsuliyyət hissi vacib şərtlərdəndir. Şəxsiyyətin formalaşması və inkişafı məhz onun özünə güvənməyindən, özunə olan inamından keçir və uğur yalnız bu halda qazanıla bilir. Özünəgüvən və uğur heç vaxt kəsişmir və qarşılıqlı əlaqədədir. İnsan özünə güvəndikcə, uğura daha yaxın olur. Eləcə də qazanılan hər uğur insanın özünə olan inamını artırmış olur. Beləliklə, uğurun yolu məsuliyyətlə atılan addımlardan keçir.

İctimai münasibətlər sosial normalar vasitəsi ilə nizama salınır. Sosial normalar sistemində isə əxlaqi və hüquqi normalar əsas yer tutur. Həmin normaların səciyyəvi cəhəti bir tərəfdən onları yaradan subyektlərin iradəsini ifadə etmələrində, digər tərəfdən isə göstərişlərinin ünvanlandığı subyektlərin iradəsinə təsir vasitəsi olmasındadır. Ona görə də məsuliyyət anlayışının mahiyyətinin və ilkin şərtlərinin müəyyən edilməsi üçün subyektin iradəlilik göstəricisi və əməlləri obyektiv və subyektiv amillərlə əlaqədə nəzərdən keçirilməlidir. İctimai münasibətlərin subyektlərinin məsuliyyətinin ilkin şərti onların müəyyən şəraitdə qərar qəbul etmək üçün subyektiv qabiliyyətindən ibarətdir. Yəni subyekt bir neçə davranışdan öz iradəsi ilə birini seçməklə həmin seçdiyi davranışa və onun nəticələrinə görə məsuliyyət daşıyır.

"Fərd öz həyatı, öz hərəkətləri ilə ancaq özünü təmsil etdiyini və əgər görən, bilən varsa, qanun

qarşısında, əgər görən, bilən yoxdursa, ancaq öz vicdanı qarşısında cavabdeh olduğunu zənn edirsə, o, ən azı eqoistdir; bu onun fərdi miqyasdan milli və ümumbəşəri miqyasa çıxa bilməməsinin nəticəsidir.

İnsan hər bir məqamda özündən başqa ailəsini, elini-obasını, millətini, dövlətini təmsil edir, insanlığı, bəşəriyyəti təmsil edir. İnsan tək özü qarşısında deyil, tək dövlət, qanun qarşısında deyil, həm də milləti təmsil etməklə millət qarşısında, insanlığı təmsil etməklə bütün bəşəriyyət qarşısında məsuliyyət daşıyır.

Daha böyük miqyasda və daha böyük ümumilik dərəcəsində isə insan öz hərəkətləri ilə Allah qarşısında məsuliyyət daşıyır. Dini hiss – insanın Allah qarşısında məsuliyyət hissi mərhələ-mərhələ ailə qarşısında, millət qarşısında, bəşəriyyət qarşısında məsuliyyət hisslərinin davamı kimi ortaya çıxdıqda bu daha sadəcə hiss yox, dərk olunmuş, zəka ilə qovuşmuş bir hissdir" (Səlahəddin Xəlilov. Şərq zehniyyəti (mənəviyyatın prioritetliyi) Bakı. 2016. s. 335).

Məsuliyyət hüquqi kateqoriya kimi qanunvericilikdə də təsbitini tapmışdır. Hüquqi məsuliyyət hüquq pozuntusu törətmiş şəxs üçün arzuolunmaz nəticələrlə ifadə olunur. İctimai münasibətlərin subyektləri öz davranışlarına görə məsuliyyət daşımasaydı, onda həmin münasibətlərin mövcudluğu mümkün olmazdı. Məhz məsuliyyət subyektlərin birgə fəaliyyət prosesində münasibətlərin normal nizama-

salınmasını təmin edir. "Hüquqi məsuliyyət" termini bir çox hallarda şəxsin üzərinə qoyulmuş vəzifələrin hazırda və gələcəkdə həyata keçirməyə görə məsuliyyəti mənasında işlədilir. Bu, pozitiv məsuliyyətdir. Pozitiv məsuliyyət ümumi mənafe naminə dövlət və cəmiyyət qarşısında vətəndaşlıq borcu ilə əlaqədar olan faydalı hərəkətlərin həyata keçirilməsindən ibarətdir. Qeyri-qanuni əmələ görə məsuliyyət, yəni hüquq pozuntusuna görə məsuliyyət retrospektiv məsuliyyət adlanır. Bu məsuliyyətə neqativ məsuliyyət də deyilir. Neqativ məsuliyyət hüquq pozuntusu ilə əlaqədardır. Hüquq pozuntusu şəxsin məsuliyyətinin ölçüsünün müəyyən edilməsi üçün əsasdır. Neqativ məsuliyyət şəxsin törətdiyi hüquq pozuntusuna görə cavab vermək vəzifəsidir, yəni məsuliyyət hüquq pozuntusu törədən şəxs üçün cavabdehlik vəzifəsidir.

Hüquqi məsuliyyətin əmələ gəlməsinə əsas hüquq pozuntusunun törədilməsi faktıdır. Hüquqi məsuliyyət dövlətlə, hüquqla sıx əlaqədardır. Dövlət hüquq normalarını müəyyən edərək, həm də hüquqazidd davranışa görə hüquqi məsuliyyəti də nəzərdə tutur. Bu məsuliyyət bir çox hallarda dövlət məcburedicilik funksiyasının həyata keçirilməsi ilə əlaqədar olur. Mülki xarakterli hüquq pozuntuları zamanı, məsələn, əmlaka ziyan vurulduqda, müqavilə pozulduqda vurulmuş ziyanın ödənilməsi hökmən

dövlət məcburedicilik tədbirinin tətbiqini tələb etmir. Şəxs vəzifəsini yerinə yetirməkdən imtina etdikdə dövlət məcburedici tədbirlərinin tətbiqinə zərurət yaranır. Cinayət və inzibati məsuliyyətdə isə şəxs hüquq pozuntusuna görə təqsirləndirildiyi vaxtdan dövlət məcburedici qüvvəsi tətbiq olunur.

Fikir və düşüncələrə görə deyil, ancaq hüquqazidd əmələ görə məsuliyyət o deməkdir ki, şəxs ancaq fikir və düşüncələri xarici ifadəsini tapdıqda məsuliyyətə cəlb oluna bilər. Hüquqi məsuliyyətə cəlb etmək üçün əsas kimi ancaq hüquq subyektinin əməli çıxış edə bilər.

Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsinə əsasən, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Məsuliyyətin qanunilik prinsipinə müvafiq olaraq hüquqi məsuliyyət yalnız hüquqi əsas mövcud olduqda, yəni hər hansı əməl dövlət tərəfindən hüquq pozuntusu kimi – cinayət, inzibati və s. nəzərdə tutulduqda yarana bilər. Məsuliyyətin ölçüsü törədilmiş əmələ müvafiq olmalıdır. Məsuliyyətin ədalətlilik prinsipinə müvafiq olaraq bir hüquq pozuntusuna görə bir dəfə cəza tətbiq oluna bilər. Həmçinin bu cəza insan ləyaqətini alçaltmamalıdır.

Kant məsuliyyət anlayışının mahiyyətini etik konsepsiyalarla izah edirdi. O, əxlaqi qaydaları bir

dərs kimi görürdü. İnsan bu dərsi, tapşırığı etməlidir və bu onun həyatda nə qədər yaxşı bir "yaşam tələbəsi" olmasının qarantı sayılır. Kanta görə, əxlaqi məsuliyyət bir asılılıq yox, qaydadır. Yaxşı bir vətəndaş öz konstitusiyasının qanunlarına riayət etməyə borclu olduğu kimi, yaxşı bir insan da əxlaqi qaydaları mənimsəməyi bacarmalıdır. Bunun əksini iddia edən "bəzədilmiş" azadlıq anlayışı burada iyrənc görünməyə başlayır. Kant bütün bu anlayışları "Ənənələrin metafizikasına dair" əsərində izah etməyə çalışır. Kanta görə, "dünyada və dünyanın kənarında yaxşı istəkdən başqa yaxşı sayıla biləcək heç nə yoxdur". Ona görə insan əgər yaxşı olmağı qarşısına məqsəd qoymuşsa, bunun təməli yaxşı istəkdən və yaxşı düşüncədən keçir. Bu yanaşma tərzində Volterin fəlsəfi mühakimələri ilə bir bənzərlik var idi. İnsanın əxlaqı onun davamlılığı ilə həmahəngdir. Kant bunu daha aydın belə izah edirdi ki, insan əxlaqı onun vəzifə duyğusu ilə formalaşır.

Məsuliyyətə insanın üzərinə götürdüyü vəzifələrə qarşı həssaslığı kimi də baxılır. Məsuliyyət yalnız etmək istədiklərinin deyil, etmək istəmədiklərinin də dəyərini anlamaqdır. Buna görə Şopenhauer insanın qəbahətini də məsuliyyətsizlikdən törəyən hadisə sayır və hesab edirdi ki, səhv edən insan öz məsuliyyətini anlamaq yerinə, başqalarında günah axtarmaqla özünü təkmilləşdirmədən, özü-özünü

tərəqqidən saxlayır. Dostoyevski yazılarının birində məsuliyyətdən qaçan və özünü inkişaf meyarlarından saxlayan insanları "mənəvi dünyalarının sui-qəsdçisi" adlandırırdı.

Məsuliyyətsizlik nəticəsində kifayət qədər ciddi problemlər yaranır. Cəmiyyət məsuliyyətsizliyə qarşı vaxtında münasibət göstərməyəndə sonralar onun üzvləri bunun acısını öz üzərlərində hiss edirlər.

Əxlaqa, mənəviyyata malik olan, düzgün düşünməyi bacaran hər bir vəzifə sahibi fərdlər qarşısındakı məsuliyyətini anlayır. Bu keyfiyyətlərə malik olmayanlar isə nə hüquq, nə vicdan, nə də insanlar qarşısında məsuliyyətini hiss edir, hiss etsə də, ona biganə münasibət bəsləyir. Belə hallar sağlam cəmiyyətin formalaşmasına maneçilik törədir. İnsan harada olmasından, hansı vəzifəni daşımasından asılı olmayaraq, hərəkətlərinə görə özü və başqaları, cəmiyyət, xalq, Vətən qarşısında məsuliyyət daşımasını dərk etməli, buna bir mənəvi öhdəlik kimi yanaşmalıdır.

Azadlıq şəxsiyyətin sosial statusunu xarakterizə edən tərəflərdən yalnız biridir. O, mütləq ola bilməz. Azadlığın nisbi xarakteri şəxsiyyətin digər şəxslər və bütövlükdə cəmiyyət qarşısında məsuliyyətində öz əksini tapır. Şəxsiyyətin azadlığı ilə məsuliyyəti arasındakı asılılıq proporsional nisbətdir. Cəmiyyət insana nə qədər azadlıq verirsə, insan həmin azadlıqdan istifadə etməkdə bir o qədər məsuldur.

İkram müəllim 2 noyabr 1996-cı il tarixdə "Aydınlıq" qəzetinin müxbirlərinə verdiyi müsahibəsində müxbirin "İkram müəllim, gərgin iş gününüzün birinin şahidi olduq. Demək olar ki, hər gün paralel olaraq şəhər məhkəməsində ən azı 5 məhkəmə prosesi gedir, neçə-neçə insanın taleyi həll olunur. Yorulmursunuz? Asudə vaxtınız olurmu? Olursa, bunu nəyə həsr edirsiniz?" sualına cavabında demişdi:

"Yorğunluq təbii haldır. Şəhər məhkəməsində baxılan işlərin sayı əvvəlki illərə nisbətən 2-3 dəfə artıb. Təkcə birinci instansiyada 500-ə yaxın şəxs barəsində cinayət işinə baxılmışdır. Kassasiya və nəzarət instansiyalarında baxılan işlərin sayı yuxarıdakı rəqəmdən bir neçə dəfə çoxdur. Qəbula gələn şikayətçilərin sayı yüzlərlədir. İstər işçilərimiz, istərsə də müraciət edənlər üçün iş prinsipim "açıq qapı" siyasətidir. Asudə vaxtımı çalışıram ki, ailəmin əhatəsində olum, təqaüddə olan iş yoldaşlarımı yad edim. Ancaq bu heç də o demək deyil ki, asudə vaxtımda da işdən kənaram. Hörmətli Prezidentimiz Heydər Əliyevin belə bir kəlamını xatırlamaq yerinə düşərdi: "Asudə vaxt – məsuliyyətdən azad vaxt deyil". Nəzərə alsaq ki, hakimin məsuliyyəti əbədidir, asudə vaxtımızı necə keçirməyimiz də oxucularınızda müəyyən təsəvvür yaradar, yəqin ki..." (İkram. Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 243-244).

Vətəndaş, şəxsiyyət isə hər şeydən əvvəl, yaşadığı cəmiyyəti, onda baş verən hadisə və prosesləri dərk etməli, dövlətin və hüququn ona verdiyi hüquq və imtiyazlardan istifadə etməli, eyni zamanda cəmiyyət qarşısında öz məsuliyyətini dərk etməli, ondan tələb olunan vəzifələri məcburi surətdə yerinə yetirməlidir.

İslam dininə görə hər kəs öz qədərini yaşayar və o qədərlə Allahın hüzuruna çıxar, yaxşı-pis gördüyü işlərə görə hesaba çəkilər. “Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç kimsə başqasının günahını daşımaz, hərə öz günahına cavabdehdir” (“əl-İsra” surəsi, ayə 15).

Hər kəsin əməlinə görə cavabdehlik daşıdığı və bu cavabdehliyin əməli törədən şəxsin vəzifəsindən, siyasi baxışlarından, cəmiyyətdəki mövqeyindən asılı olmaması qanun qarşısında bərabərlik prinsipinin mahiyyətini təşkil edir.

“Quran”ın bir çox ayəsində məsuliyyətin fərdi olduğu bildirilir. “Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir” (“Bəqərə” surəsi, ayə 286) ayəsi də məsuliyyətin fərdi olduğunu bildirir.

“Quran”da insanın təkcə öz əməllərinə görə məsulliyyət daşıması əks olunmaqla Uca Allah qarşısında heç kəsin başqasınaın əməllərinə görə günahı öz üzərinə götürməsi mümkün deyildir. İnsanın həmçinin ona verilən, ona bəxş olunan nemətlərlə bağlı hesabatlılığı, yəni sorğu-suala çəkiləcəyi “Qu-

ran"ın müxtəlif ayələrində əksini tapmışdır. Bu cəhətdən Allah-təalanın dərgahında məsuliyyətli insanla məsuliyyətsiz insan bir-birindən fərqlənir, onlara verilən dəyərlər üst-üstə düşmür. Allah Öz bəndələrinə mehriban, onları bağışlayan, günahlarından keçən olduğuna görə qabaqcadan "Quran"ın ayələri vasitəsi ilə insanları düz yolla getmək barədə xəbərdar edir: "Ey insanlar! Rəbbinizdən qorxun atanın oğula, oğulun da ataya heç bir şeylə kara gələ bilməyəcəyi gündən həzər edin. Allahın vədi şübhəsiz ki, haqdır. (Qiyamət günü mütləq gələcəkdir). Ehtiyatlı olun ki, dünya həyatı sizi aldatmasın. Şeytan sizi arxayın edib tovlamasın!" ("Loğman" surəsi, ayə 33).

İkram müəllim fəaliyyətində cavabdehlik daşıdığı işə görə məsuliyyəti öz üzərinə götürməklə yanaşı, başqalarından da məsuliyyətli olmağı tələb etmiş, hər kəsin əməlinə görə məsuliyyətini hiss etməsinə üstünlük vermişdir. Azərbaycan Respublikası Apellyasiya Məhkəməsininm cinayət işləri kollegiyasının sədri İlham Həsənovun 2006-cı ildə qələmə aldığı "Mən onun xarakterinin hər cəhətinə vurğunam" adlı yazısında bu cəhəti aşağıdakı kimi təsvir edir: "Məhkəmə işi çox çətin sahədir. Son qərar məhkəmənindir. Ona görə də həmişə məhkəmələrə təzyiqlər olub. Ancaq o özünün ağlı, savadı, cəsarəti sayəsində vəziyyətdən çıxış yolu tapır, hakimlərin toxunul-

mazlığını – təzyiqlərdən qorunmasını təmin edə bilirdi. Bütün məsuliyyəti, bütün yükü öz üzərinə götürürdü. Heç vaxt öz iradəsini bizə diktə etməyib. Hakimin müstəqil qərar qəbul etməsinə ciddi önəm verib. Onun iş üslubundakı üstünlüklərin bir səbəbini də kollegiallığında, demokratik fikirdə olmasında görürəm. İkram müəllim məhkəmə qərarlarından verdiyi etirazlar özünün sədrlik etdiyi rəyasət heyətində müdafiə edilmədikdə – rədd olunduqda narazı qalmazdı. Onun qəlbində əbədi həkk olunmuş və ləzzət aldığım bir xüsusiyyətini də deyim. Nə qədər mülayim, gülərüzlü olsa da, iş prosesində kiminsə zərrə qədər məsuliyyətsizliyini hiss etdikdə amansız görkəm alardı, zəhmli səsi binanı silkələyərdi. O zaman heç kim onun gözünə görünməyə cəsarət edə bilməzdi. Lakin həmin şəxsə qarşı kin-küdurət saxlamazdı. Bu səbəbdən tutulan iraddan nəticə çıxaran hər kəs qüsursuz işləmək üçün qüvvəsini səfərbər edərdi" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 70-71).

İslamda məsuliyyət və qədim müdriklərin nəsihətləri baxımından "ən-Nəcm" surəsinin 37-50-ci ayələrinə müraciət edilməsi məqsədəmüvafiqdir:

"37. Və (əhdə) çox vəfalı olan (Allah qarşısındakı borcunu layiqincə ödəyən) İbrahimin (sühüfündəkilər bildirilmədi?!).

38. "Tövrat"da və İbrahimin səhifələrində deyilən-

lər bunlardır: "Heç bir günahkar başqasının günahına yüklənməz!

39. İnsan ancaq öz əməli (öz zəhməti) ilə qalar!

40. Şübhəsiz ki, (qiyamət günü) onun əməli (zəhməti) görünəcəkdir!

41. Sonra da ona (əməlinin, zəhmətinin) tam əvəzi veriləcəkdir!"

42. Həqiqətən axır dönüş Rəbbinədir!

"Fatir" surəsinin 18-ci ayəsində buyurulur: "Heç bir günahkar başqasının günahını daşımaz. Günah yükü ağır olan kimsə yükünü daşımaq üçün (başqa birisini köməyə) çağırsa və (çağırılan adam onun) yaxın qohumu olsa belə, o yükdən bir şey daşınmaz. (Ya Peyğəmbər!) Sən ancaq Rəbbindən (Onun əzabını) görmədikləri halda qorxanları və (vaxtlı-vaxtında) namaz qılanları qorxudub xəbərdar edirsən. Hər kəs (günahlardan, küfrdən) təmizlənsə, özü üçün təmizlənmiş olar (savabı özünə yetişər). Axır dönüş ancaq Allahadır!".

Bu şəxsi məsuliyyət haqqında həqiqətdir. Allah adamları qrup halında qiymətləndirmir. O hər kəsi ayrılıqda və özünün sərhədləri daxilində gördüyü işlərlə nəyi əldə etməsi əsasında qiymətləndirir (Kutb) (Значение и смысл Корана. 4-й том. Сура 25-41. Сура Аль-Фуркан до сура Фуссилат. Copyright by SKD Bavaria Verlag&Handel GmbH. Auflage. 1999. c. 2083).

"Əl-İsra" surəsinin 15-ci ayəsində buyurulur: "Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz. (Hərə öz günahına cavabdehdir). Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab verməri k!".

Heydər Əliyev hər kəsin göstərdiyi fəaliyyətlə əlaqədar məsuliyyətini hiss etməsini, ümumxalq mənafeyinə təsir göstərən məsələlərin həllində mənəvi cəhətdən məsuliyyət daşımasını xatırladır, ölkənin çətin dövründə hamını Vətən, ölkə qarşısında borcunu yerinə yetirməyə çağırırdı: "Birinci növbədə xalqın qarşısında, öz ailəniz, qohum-əqrəbanız, övladlarınız, ata-babalarınızın ruhu qarşısında məsuliyyət daşıyırsınız. Müstəqil Azərbaycan dövləti qarşısında məsuliyyət daşıyırsınız. Ona görə də bu gün hər biriniz öz iş yerinizdə bu məsuliyyət hissi ilə işləməlisiniz, çalışmalısınız.

İndi bizim qarşımızda iki vəzifə durur. Birincisi, erməni təcavüzünün qarşısını almaq, işğal olunmuş torpaqlarımızı geri qaytarmaq, xalqı bu qırğından qurtarmaq. İkincisi isə, Azərbaycanın daxilində sabitliyi təmin etmək, bu çəkişmədən qurtarmaq, xalqı bu çəkişmədən yaranan əziyyətdən xilas etmək lazımdır" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 112-113).

İkram Kərimov "Tüfeyliliyə səbəb nədir" yazısında hər kəsin dövlət və cəmiyyət qarşısında məsuliyyətini xatırlayaraq bildirir: "Hazırda siyası sistemimizin dərin islahatı ön plana çəkilir, bunun üçün isə hər bir vətəndaşdan öz əmək kollektivi, ümumiyyətlə, dövlət və cəmiyyət qarşısında məsuliyyəti yüksəltmək tələb olunur". (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 109)

Hər kəsin məsuliyyət dərəcəsi onun fəaliyyətinin nəyə yönəlməsindən, nə kimi məsələləri həll etməsindən, bu məsələnin tək özünün, bir qrup insanın və ya xalqın mənafeyinə təsir göstərməsindən asılıdır. Fəaliyyətin təsir dairəsi genişləndikcə məsuliyyətin dərəcəsi də artır. Ona görə daha çox insanın, xüsusən xalqın taleyüklü məsələləri ilə əlaqədar tələskənliyə, düşünülməmiş hərəkətlərə yol vermək olmaz. Xalqın mənafeyinə toxunan məsələlərlə bağlı nəticələri ölçülüb-biçilməmiş, düşünülməmiş hərəkətlər ağır nəticələrə səbəb ola bilmək imkanına malik olduğundan bur cür hərəkətlərə görə məsuliyyətin dərəcəsi də yüksəkdir.

"Qurani-Kərim"in "əl-Furkan" surəsinin 44-cü ayəsində buyurulur: "Yoxsa elə güman edirsən ki, onların əksəriyyəti (sən deyən sözü) eşidəcək və ya (ağıllı-başlı) fikirləşəcək? Onlar heyvan kimidirlər, bəlkə, ondan daha çox zəlalət yolundadırlar. (Heyvan heyvanlığı ilə öz mənfəətini bilib ona zərər gətirən bir

işi görməz. Bunlar isə nə xeyirlərini, nə də zərərlərini anlayarlar)".

Bu ayədə hara – müvəffəqiyyət və ya məhv olmaya getməsini düşünməyən, kor-koranə öz rəhbərinin ardınca gedən insanlardan söhbət açılır. Heyvanlarla bu cür insanlar arasında fərq ondan ibarətdir ki, heyvanlara Allah tərəfindən ağıl verilməmiş və hərəkətlərinə görə məsuliyyət daşımırlar. İnsan isə ağıla malik məxluq olmasına baxmayaraq, düşünmədən hərəkət etdikdə məsuliyyətdən azad olmur (Yusif Əli) (Значение и смысл Корана. 4-й том. Сура 25-41. Сура Аль-Фуркан до сура Фуссилат. Copyright by SKD Bavaria Verlag&Handel GmbH. Auflage. 1999. с.1703).

Məsuliyyt hissi qarşıya qoyulan məqsədə çatmaq üçün vəzifələrin dəqiq, tam və vaxtında yerinə yetirilməsini təmin edən əlamətdir. Bu hissə malik olan və vəzifəsini məsuliyyətlə vaxtında yerinə yetirən hər bir şəxs ümumi işə fayda verməklə yanaşı, özü də gördüyü işdən faydalanır. Bu bir tərəfdən onda ifadə olunur ki, hər bir ümumi iş üçün faydalı olan cəmiyyətin üzvü kimi onu yerinə yetirən şəxsə də fayda payından təqdim edir, digər tərəfdən vəzifə borcunun yerinə yetirilməsi insana mənəvi rahatlıq, mənəvi təskinlik, qida verir. İnsan uğurlu işindən zövq alır.

"Qurani-Kərim"də: "Ey iman gətirənlər! Əgər Allahdan qorxsanız (məsuliyyətli olsanız), O sizə

haqla-nahaqqı ayırd edən (bir nur) verər (dünyada və axirətdə çıxış yolu göstərər), günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük lütf (mərhəmət) sahibidir!”– buyurulur. (“əl-Ənfal” surəsi, ayə 29).

Göründüyü kimi, məsuliyyətli, öz vəzifələrini düzgün dərk edib onları vicdanla yerinə yetirənləri Allah-təala pis iş törədənlərdən fərqli olaraq mükafatlandırmağı vəd edir. Qabaqcadan məsuliyyətli davranış gələcəkdə əmələ görə cavab vermək öhdəliyi deyil, Allahdan mərhəmət və mükafat vəd edir.

“Qurani-Kərim”ə müvafiq olaraq hər bir möminin insan başda valideynləri olmaqla, uşaqlarına, qohumları, qonşuları və yaxınlarına qarşı da öhdəlikləri var “Nisa” surəsinin 36-cı ayəsində buyurulur: “Allaha ibadət edin və Ona heç bir şeyi şərik qoşmayın! Ata-anaya, qohum-əqrəbaya, yetimlərə, yoxsullara, yaxın və uzaq qonum-qonşuya, yaxın (yoldaş və) dosta, (pulu qurtarıb yolda qalan) müsafirə (yolçulara), əlinizin altında olana (sahib olduğunuz qul və kənizlərə) yaxşılıq edin!”.

Bakı şəhəri, Səbail rayon məhkəməsinin sədri Ağamalı Qafarov “Ondan çox şey öyrəndim” adlı xatirəsində yazır: “Bəzən məhkəmə prosesində qərarların qəbul edilməsində təcrübə əsas rol oynayır. Bu qərarlar insanların taleyini həll edir. İnsanlar ömürləri boyu bir sıra taleyüklü qərarlar vermək məcburiyyətində qalırlar. Hakim isə hər gün qərarlar

qəbul edir. Düşünürəm ki, hakimləri digərlərindən fərqləndirən cəhət məhz budur. Bu qərarların düzgün verilməsi insanlara, ailələrə, ümumilikdə cəmiyyətə və ədalət mühakiməsinə təsir edir. Onun (İkram Kərimovun – ***V.İ.***) keçdiyi həyat yolu əvəzsiz məktəbdir. Çünki o, məsuliyyətli, çalışdığı peşənin incəliklərinə yiyələnən və bu sahədəki biliklərini fəaliyyətində tətbiq edən rəhbər olub. Təcrübəmdə indi də elə konkret hallarla rastlaşıram ki, birgə işlədiyimiz dövrü yadıma salmalı oluram" (İkram. Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 582-583).

Vətən üçün, torpaq üçün hər bir təhlükə həmin torpaqda yaşayanların onu qoruması ilə bağlı məsuliyyətini meydana çıxarır. Bu cür təhlükənin dəf olunması hər bir vətəndaşın vəzifəsi kimi müəyyən edildiyinə görə hamı bu vəzifəni və ondan doğan məsuliyyət hissini dərk etməli və ona müvafiq davranmalıdır.

Dövlətin ərazisi dövlətin mövcudluğunun şərtidir. Dövlətin mövcud olması üçün ərazisi olmalıdır. Ərazi dövlətin əlamətlərindən biridir. Digər tərəfdən xalq, hər bir insanın ailəsi qohum-əqrəbası, övladları bu ərazidə yaşamalıdır və nəhayət insanın ata-babasının dəfn olunduğu, rahatlıq tapdığı məkandır. Ona görə də o torpaqları qorumaq hər kəsin borcudur. Dövlətin rəhbəri kimi Vətənin müdafiəsinin hər bir

vətəndaşın borcu olmasını elan edən Heydər Əliyev "hansı kənddən, hansı şəhərdən, hansı rayondan olmasına baxmayaraq, Azərbaycanın hər bir vətəndaşının torpaqlarımızı qorumaq üçün eyni məsuliyyət daşıdığını, hamıdan vətəndaşlıq borcunu eyni səviyyədə yerinə yetirməyi, heç kəsə fərq qoyulmamasını" tələb edirdi (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Birinci kitab. s. 530).

Məsuliyyət həmçinin insanın özünün gələcəyi haqqında, yəni sabahkı gün üçün cavahdeh olmağı ehtiva edir. Bu gün sabahı, gələcəyi düşünməsən, ona hazır olmasan, sabah çox çətinliklərlə üzləşə bilərsən. Şüurlu və məsuliyyətli insan yaşamının davamı üçün bu gün sabahı üçün düşünməli sabaha bir körpü salmalıdır.

"Allah adamları başa salır ki, bu gün hər şeyi sərf edib, sabah qidasız, paltarsız qalmaq, eyni qaydada hər şeyi bu həyata sərf edib, gələcək haqqında düşünməmək ağıllı iş deyildir. İnsan özü gələcəyini dağıtmamasının qayğısına qalmalıdır" (Maududi) (Значение и смысл Корана. 5-я том. Сура 42-114. Сура Аш-шура до сура Ан-нас.Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. c.2637).

Bakı Apellyasiya Məhkəməsinin hakimi Həmid Həmidov "Onun həyatı da, özü də böyük bir məktəbdir" adlı xatirəsində İkram müəllimi xarakterizə

edən cəhətlərdən söhbət açarkən yazır: "İkram müəllimlə işləmək olduqca xoş idi. Ona hər hansı bir mürəkkəb məsələni məruzə edirdinsə, yerində düzgün nəticə çıxarır, lazımi tövsiyələrini verirdi. Məhkəmə işini və insan psixologiyasını gözəl bilir deyə, hər kəslə öz dilində danışır, qanun çərçivəsində kömək etməyə çalışırdı. Xidməti borcunu yerinə yetirməyə böyük məsuliyyətlə yanaşır, məsləhətə ehtiyacı olanları gülərüzlə qarşılayıb, hörmətlə yola salırdı. Uzunmüddətli xidmət illərində münaqişə yaratmaqdan, kimdənsə heyif almaqdan tamamilə uzaq bir insan kimi, əksinə, dost-tanışlara, qohumlara, iş yoldaşlarına həmişə yaxşılıq etməyə çalışırdı. Səbəbsiz yerə, yaxud öz şəxsi iddiaları səbəbindən münaqişə törətmək təşəbbüsündə olanların əməllərini cavabsız buraxır, zamanın hər şeyi öz yoluna qoyacağına əminliyini bildirirdi" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 672).

Xalqın birliyi, onun hər bir nümayəndəsinin digərinə görə cavabdehliyi ilə bağlı Xalq şairi Fikrət Qoca yazırdı:

"Biz insanıq
Yaraşmır heç bir insana,
Öz yaxasın çəksin yana...
Biz insanıq bu dünyada
Hər insana cavabdehik...

Azərbaycan balasıyam.
Vətənimdə
Hər canlıya, hər cansıza,
Vicdanlıya, vicdansıza cavabdehəm.
Qocalmışam, diş tökülür,
Bel bükülür.
Bəlkə, məni görən gülür.
Mən dilimdən çıxan
Sözə cavabdehəm.
Mən sizin də yerinizə "Mən" deyirəm.
Vətənimdə vətənsizə cavabdehəm.
Mən vətənin
Balasıyam, qalasıyam!
Həm özümə, həm də sizə cavabdehəm,
Cavabdeh də qalasıyam"

*Fikrət Qoca.*
*"Azərbaycan" qəzeti.*
*13 dekabr 2021-ci il.*

İkram müəllim də başqalarının əməllərinə görə məsuliyyəti öz üzərinə götürən şəxslərdəndir. Bakı şəhər prokurorunun birinci müavini vəzifəsindəki işindən söhbət açarkən deyirdi: "Hazırkı vəzifəmdə əksər hallarda başqasının hərəkətlərinə görə məsuliyyət daşıyıram" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 7).

İkram müəllimin həmişə zirvələrdə olmasının bir səbəbi də onun hərtərəfli məsuliyyətli insan olma-

sıdır. Ona görə də Ağır Cinayətlərə dair İşlər üzrə Azərbaycan Respublikası Hərbi Məhkəməsinin sədri kimi məhkəmədə BDU-nun Hüquq fakültəsinin tələbə və müəllimləri ilə təşkil etdiyi görüşdə tələbələrə müraciətlə deyirdi: "Arzu edirəm ki, məhkəmədəki vakant yerlər seçki zamanı sizə də nəsib olsun. Bundan ötrü dərin hüquqi bilikli, intizamlı və məsuliyyətli olmağınız gərəkdir" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 513).

Həmin görüşdə məhkəmənin sədri İkram Kərimovla eyni qrupda təhsil almış BDU-nun professoru Firudin Səməndərov İkram müəllimin hələ sovet dönəmində xüsusilə ağır cinayət işlərinin açılması ilə bağlı SSRİ Baş prokurorundan dəfələrlə təltif və mükafat aldığını diqqətə çəkərək demişdi: "O zaman hüquq fakültəsinin dekanı mərhum Məmməd Xələfovun ən sevimli tələbəsi olan İkram Kərimov necə səliqəli və məsuliyyətli idisə, indi də öz dəst-xətti və sahmanı olan nümunəvi bir məhkəmə qurumu yaradıb" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 513-514).

# SƏKKİZİNCİ YAZI

## Etinasızlıq, laqeydlik, biganəlik haqqında

Kitabları oxuduqca İkram müəllimin bir xüsusiyyəti – etinasızlıq, laqeydlik və biganəliklə barışmazlığının şahidi oluruq. İnsan tək özünə deyil, ətraf, cəmiyyət, Vətən üçün faydalı olmalıdır. Başqasının dərdinə, cəmiyyətin uçuruma yuvarlanmasına, Vətən torpaqlarının işğalına biganəlik fərdin insani hisslərdən məhrum olmasına dəlalət edir. Bu cür xüsusiyyətlər azərbaycanlıların milli mənəvi dəyərlərinə yad olmaqla bəşəri, insani hisslərdən də kənardır. Müxtəlif mənbələrdə biganəliklə bağlı rastlaşdığım bəzi fikirləri oxucularla bölüşməyi məqsədəmüvafiq hesab edirəm.

Plutarx yazır: "Salonun qanunlarından biri də ara müharibələri zamanı hər hansı partiyaya qoşulmayan vətəndaşların vətəndaşlıq hüquqlarından məhrum edilməsi barədə idi. Bu qanunun mahiyyətindən məlum olur ki, Salon vətəndaşın öz əmlakını təhlükədən mühafizə edib ümumi işə biganə qalmasını, ümumi işdə iştirak etməməsini, vətənin dərd və bədbəxtliklərində iştirak etməməsi ilə öyünməsini istəmirdi; o, əksinə, hər bir vətəndaşın heç bir riskə məruz qalmadan kimin qalib gəlməsini gözləməsini deyil, dərhal xeyirxah, düz işi müdafiə edən parti-

yanın tərəfində durmasını, onunla təhlükəni bölüşməsini, ona kömək etməsini istəyirdi" (Плутарх. Избранные жизнеописания. В двух томах. Том первый. Москва. 1990. с.175).

Periklin Peloponnes müharibəsi qurbanlarının dəfni mərasimindəki nitqini qələmə alan Fukidid Periklin adından yazırdı: "Bizim dövlət adamlarımız ictimai maraqların müdafiəsində mahir olduqları kimi öz şəxsi maraqlarını da gözləməkdə mahirdirlər; daha çox öz şəxsi işləri ilə məşğul olanlar da dövlətin işləri haqqında ətraflı məlumata sahibdirlər. Çünki yalnız biz siyasət və dövlət işlərində iştirak etməyənləri qayğısız vətəndaş yox, yararsız vətəndaş hesab edirik" (Фукидид. История. Санкт-Петербург. 2018. с.122).

Biganəlik – yadlıq, yabançılıq deməkdir. Ona görə də heç kəs xalqın, Vətənin, torpağın taleyinə biganə qalmamalıdır. Heydər Əliyev deyirdi: "Xalqımızın tarixinə, həyatında baş verən hadisələrə biganə qalmaq olmaz" (Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Səkkizinci kitab. s. 378).

Müdriklərimiz də biganəliyi rədd etmiş, tərəqqini, səadəti fəaliyyətdə, mübarizədə görmüşlər. Böyük Füzuli:

"Şahım, nəzər et məni-gədayə;
Biganəlik etmə aşinayə!"– deyirdi.

Bəxtiyar Vahabzadə haqq uğrunda mübarizəni təbliğ edərək "Öz haqqına biganə olan bəxtiyar olmaz" şüarını irəli sürürdü (Bəxtiyar Vahabzadə. Payız düşüncələri. Şeirlər. Bakı. 1981. s. 93).

Plutarx yazır: "Sparta qanunlarına görə döyüşdən qaçanlar hər hansı bir vəzifə tutmaqdan məhrum olur, onlarla nikaha girmək rüsvayçılıq hesab olunur, onlar yamaqlı alabəzək paltarda gəzməli, rastlaşdıqları adamlar onlara zərbə vurmağa haqlı hesab olunurdular" (Плутарх. Избранные жизнеописания. В двух томах. Том второй. Москва. 1990. с.267).

V.Q.Yan "Çingiz xan" tarixi romanında yazır: "Baş verən hər şeyin öz səbəbi var, kələfin ucu onun axırına aparıb çıxarır. Doğru yol səyyahı dünyanın düzəngahından istədiyi mənzilə aparır, səhv və başsoyuqluq isə onu ölüm bataqlığına gətirib çıxarır" (Yan V.Q. Çingiz xan. Bakı. 1983. s. 3).

"Qurani-Kərim"in "ən-Nisa" surəsinin 140-cı ayəsində buyurulur: "Allah Kitabda (Quranda) sizə nazil etmişdir (bildirmişdir) ki, Allahın ayələrini inkar edildiyini və onlara istehza olunduğunu eşitdiyiniz zaman müşriklər başqa bir söhbətə girişməyənə qədər onlarla bir yerdə əyləşməyin! Çünki o vaxt siz də onların tayı olarsınız. Həqiqətən, Allah münafiqlərin və kafirlərin hamısını cəhənnəmdə bir yerdə toplayacaqdır!".

Əgər biz həqiqətə etinasız yanaşıldığını görürüksə, onda buna mane olmalı və bu cür cəmiyyəti təkəbbürlülükdən və ya özümüzü başqalarından üstün saydığımızdan deyil, həqiqi sadəlikdən, şəxsi xarakterimizin dəyişməsinə yol verməmək üçün tərk etməliyik. Ola bilsin ki, bizim etiraz və ya bizim səmimi iradlarımız dəyişikliyə səbəb olacaqdır, bu halda biz həqiqətə biganəlik göstərən insanlara yaxşılıq edib onları pis vəziyyətə düşməkdən qorumuş olarıq. Yusif Əli (Значение и смысл Корана. 1-й том. Сура 1-5. Сура Аль-фатиха до сура Аль-Маида. Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. c.349).

Mirzə Ələkbər Sabir də xalqının, millətinin birliyini, onun hər bir üzvünün biri-birinin dərdinə qəmxar çıxmasını arzulayır, "millətin tarac olmasına", "dünyavü cahanın ac olmasına" "nə işim var" deyənləri satira atəşinə tuturdu:

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karim,
Dünyavü cahan ac olur olsun, nə işim var?!

*Mirzə Ələkbər Sabir.*
*Hophopnamə. Bakı. 1980. s. 20.*

Filosov S.Xəlilov başqalarının xalqın milli adət və ənənələri ilə uzlaşmayan əməllərinə biganəlik

göstərilməsinin son nəticədə cəmiyyətin bəlasına cevriləcəyi barədə xəbərdarlıq edərək yazır: "Başqalarının haqq yolundan, əxlaq yolundan uzaqlaşmasına biganəlik göstərilir və bəzən hətta dəstək verilir. Bu "özgəyə" biganəlik hissi antimilli mahiyyət kəsb edən fərdiyyətçilik və eqoizm özünü ancaq saf məhəbbət, izzəti-nəfs və namus məsələlərində deyil, başqa geniş dairədə də göstərir. Məmməd Araz da "Məndən ötdü, qardaşıma dəydi..." şeirində diqqəti məhz bu cəhətə yönəldir:

Səndən, məndən ötən zərbə
Vətən, Vətən, sənə dəydi...

Vətən təkcə torpaq deyil, ruzi deyil, həm də milli mənəviyyat, milli namus və qeyrətdir. Ətrafda milli-mənəvi ənənələr pozulursa, məhəbbət ucuzlaşırsa, maddi ehtiyac ülvi hissləri ayaq altına atırsa, Füzulinin, Aşıq Ələsgərin vəsf etdiyi gözəllər mənən dəyərsizləşirsə və bütün bunlar sənin Vətənində, ən yaxın ətrafında baş verirsə, özünün də övladlarının da gec-tez bu xəstəliyə mübtəla olmayacağına əminlik haradandır? Axı insan mühitdə formalaşır. Və bu mühitdə "söymə nökər atama, söyərlər bəy atana" misalı da vardır" (Səlahəddin Xəlilov. Şərq zehniyyəti (mənəviyyatın prioritetliyi) Bakı. 2016. s. 460-461).

Hələ Aristotel yazırdı ki, "...qanunverici ümumiyyətlə dövlətdən nalayiq sözləri və bu kimi

şeyləri uzaq etməlidir (çünki ağzına gələni danışmaq vərdişindən, həm də yaramaz əməllərə meyillilik artır); xüsusən də gənclərdən, ona görə ki, onlar özləri belə şeylər danışmasınlar, bunları başqasından da eşitməsinlər... madam ki, biz dövlətdə bu kimi sözlərin işlənməsinə icazə vermirik, onda aydındır ki, ədəbsiz rəsmlərə və tamaşalara da baxmağa izn vermirik. Beləliklə, qanunverici o işin qeydinə qalmağa borcludur (Аристотель. Политика. Москва. 2017. с. 356).

S.Xəlilov fikirlərinə davam edərək yazır: "Özünü qorumaq istəyən, ilk növbədə ətrafını, yaşadığı mənəvi mühiti qorumalı deyilmi? Özünü mənən yüksək görmək üçün yüksəkmənəviyyatlı millətin nümayəndəsi olmaq şərt deyilmi? Alçaldılmış və təhqir olunmuş millətin övladı başucalığı, qəlbrahatlığı tapa bilərmi? Qəlbində Vətən sevgisi, millət sevgisi olmayan adamın şəxsi məhəbbətinə, ailə sevgisinə inanmaq olarmı?

Bu sualların cavabını şair gözəl vermişdir:

Mən vətəni canım kimi sevərəm,
Ruhum, ətim qanım kimi sevərəm.

*Abbas Səhhət.*

*Əsərləri iki cilddə. I cild. Bakı. 1975. s. 81.*

Yaxud:

Vətəni sevməyən insan olmaz,
Olsa da ol şəxsdə vicdan olmaz.

*Abbas Səhhət.*
*Əsərləri iki cilddə. I cild. Bakı. 1975. s. 35.*

Əlbəttə, vicdansızlıq, biganəlik, milli hissiyyatdan məhrumluq heç də hamıya aid deyil. Hələ də millətin hər bir nümayəndəsinin şərəf və ləyaqətini özününkü hiss edən, hər bir Vətən qızına alçaldıcı münasibətin qeyrətini çəkən, Xocalı faciəsini də, Dubay ləkəsini də, əsir düşən və maddi ehtiyac üzündən könlünü satan, təhqir olunan hər bir qız-gəlinin izzət-nəfsini də özününkü sayan və qəlbi qubar bağlayan, millətin bu böyük dərdini öz çiyinlərində daşıyan və bu ağırlıqdan bir az xilas olmaq üçün "mənə biganəlik öyrət, ürəyim", – deyən, amma bir an da biganə ola bilməyən Məmməd Arazlar nə yaxşı ki hələ vardır... Vardır?!" (Səlahəddin Xəlilov. Şərq zehniyyəti (mənəviyyatın prioritetliyi) Bakı. 2016. s. 461-462).

Biganəlik elə bir bəladır ki, "yer tərpənsə də", biganə insanların tükü tərpənmir: Sabir demişkən:

"Oylə səngindir ki, əsqali-təssübdən yüküm,
Gündə min tərpənsə yer, tərpənməz əsla
bir tüküm!".

*Mirzə Ələkbər Sabir.*
*Hophopnamə. Bakı. 1980. s. 278.*

Biganəlik son nəticədə "ruhun zədələnməsinə", "astarla üzü ayıra", "düzün gözünə baxa" bilməməyə, "zamanın üzə qabarmasına", "insanlığın itirilməsinə" səbəb olur.

Bəxtiyar Vahabzadə:

"Kimisə aldatmaq, nəyisə danmaq
Elə bil çevrilib xislətimizə.
Gözümüz önündə haqq ölən zaman
Fəryad qopardıqmı?

Yox, susan olduq.
Biz ömür qazanıb susmağımızdan,
Amma insanlığı uduzan olduq.
Bu gün üzümüzə qabarır zaman...

...Fikrimiz o qədər hədələnib ki,
Ruhumuz o qədər zədələnib ki,
Anlaya bilmirik astar nə, üz nə?
İndi baxammırıq düzün gözünə...

İnsan insanlığı uduzursa, insanda insanlıq ölürsə, onda bəs insanda nə qalır və ümumiyyətlə, bu halda insandan söhbət getməlidirmi? Nizami Gəncəvi insanlığın itməsini insan nəfsi ilə əlaqələndirir, hesab edir ki, hər dövrün insanlıq nəfsi, o dövrün insanlığından xəbər verir:

İnsanda insanlıq öləndən bəri
İtmiş insanlığın parlaq gövhəri.
İnsanlıq nəfsini oxusan bir-bir,
Bilərsən bugünkü insanlıq nədir.

*Nizami Gəncəvi.*
*İskəndərnamə. Bakı. 1982. s. 161.*

"Əl-Hucurat" surəsində buyurulur:

"9. Əgər möminlərdən iki dəstə bir-biri ilə vuruşsa, onları dərhal barışdırın. Əgər onlardan biri təcavüzkarlıq etsə, təcavüzkarlıq edənlə Allahın əmrinə (itaətinə) qayıdana qədər vuruşun. (Təcavüzkarlıq edən Allahın əmrinə) qayıtsa, hər iki dəstənin arasını ədalətlə düzəldin və insafla hərəkət edin. Şübhəsiz ki, Allah insaflıları sevər!

10. Həqiqətən möminlər (dində)qardaşdırlar. Buna görə də (aralarında bir mübahisə düşsə) iki qardaşınızın arasını düzəldin və Allahdan qorxun ki, bəlkə (əvvəlki günahlarınız bağışlanıb), rəhm olunasınız!"

Maududi yazır: "Bu, tərəflərdən heç birinə aid olmayan və vasitəçi kimi çıxış edə bilən bütün müsəlmanlara aiddir. Başqa sözlə, Allah müsəlmanın hissiyyatsız başqalarının mübahisəsinə baxmasına bəraət qazandırmır. Bu cür kədərli vəziyyət baş verdikdə, o, bütün müsəlmanlara şamil olunur və onlar tərəfləri barışdırmaq üçün imkanlarında olan hər şeyi etməlidirlər. Onlar tərəfləri münaqişəyə son qoymağa

təhrik etməli; hörmətə malik olan adamlar mübahisə iştirakçılarını vicdana səsləməli, münaqişənin səbəbini aydınlaşdırmalı, əgər bu mümkündürsə, əmin-amanlığı bərpa etməlidirlər" (Значение и смысл Корана. 5-й том. Сура 42-114. Сура Аш-шура до сура Ан-нас.Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. c.2461).

Göründüyü kimi, "Qurani-Kərim"in tələbləri də ondan ibarətdir ki, insanlar biganəlik hissindən kənar olmalı, hər bir işdə insanlıq, dövlətçilik, qardaşlıq, vətəndaşlıq mövqeyini nümayiş etdirməli və cəmiyyətin sabitliyini təmin olunmasında öz sözlərini deməli, fəaliyyət göstərməlidirlər.

İslam dini ilə yanaşı, digər dinlər də biganəliyi pisliyin mənbəyi kimi qiymətləndirmiş, buna yol verən xalqın əzabını çəkəcəyini qabaqcadan xəbər vermişdir. Antiox yepiskopu, sonradan Konstantinopolun arxiyepiskopu olan İoann yaşadığı dövrdə mömin kimi tanınmış, ölümündən sonra isə bəzi xristian kilsələri onu müqəddəs kimi qəbul etmişlər. O, 388-ci ildə antiox xalqı ilə "Söhbət"lərindən birində deyir: "Kilsə tamaşa deyil, biz orada ancaq həzz almaq üçün qulaq asmağa gələk; oradan ibrət, hər hansı mühüm məqamın əldə olunması, fayda ilə çıxmaq lazımdır; bax bu cür oradan çıxmaq lazımdır!..

Sizin öz işinizlə sözlərimə bəraət qazandırmağınız mənim üçün fəxr olardı. Siz məndən eşitdiklərinizi

qəbul etməklə yanaşı, tam cidd-cəhdlə onları icra etdikdə, mən xoşbəxt və məmnunam. Qoy hər kəs öz yaxınını düz yola çəksin, çünki deyilir: "Biriniz digərinə nəzarət edin" (1 Sol. 5:11). Əgər biz bunları etməsək, onda hər kəsin ayrılıqda cinayəti şəhərə ümumi və ağır zərər vuracaqdır. Bax elə indi biz, ədəbsiz adamların cinayətlərində iştirak etməsək də, çarın qəzəbinin bizi yaxalamaması üçün onlardan az qorxuya və həyəcana məruz qalmamışıq. Və biz deyə bilmərik bağışlayın: mən orada olmamışam, bilməmişəm, iştirak etməmişəm. Ona görə də deyirlər: sən orada olmadığına, onların qarşısını almadığına, həyasızları saxlamadığına, çarın şərəfini qorumağa görə özünü təhlükəyə atmadığına görə bütün ciddiliyi ilə mühakimə olunmalı və cəzalandırılmalısan. Sən təqsirkarların ədəbsizliyində iştirak etməmisən? – Sağ ol. Bunu bəyənirik; lakin sən baş verənlərə mane olmamısan və bu, mühakimə olunmağa layiqdir. Əgər Tanrıya qarşı təhqir və söyüş başlananda susuruqsa, bu cür sözləri biz Tanrıdan da eşidəcəyik" (Иоанн Златоуст. О смысле богатства и бедности. Антиохия, 388 год. // Речи, изменившие мир. Автор-составитель В. Апанасик. Москва. 2018. с.43-44).

İkram müəllimin yazdıqlarını, onun keçdiyi həyat yolunu sadəcə oxumaq, ondan həzz almaqla kifayətlənmək olmaz. Yazılanlardan, çətin və şərəfli həyat yolundan ibrət, fayda götürmək lazımdır.

# DOQQUZUNCU YAZI

## Milli-mənəvi dəyərlərin daşıyıcısı

İkram müəllimin "Zirvədən zirvəyə..." kitablarında oxumağa, öyrənməyə, barəsində söz deməyə çox məqamlar vardır. Təbii ki, onların hamısından söz açmaq fikrindən uzağıq. Kitabların hüquqşünas üçün dəyərliliyi ilə yanaşı, diqqətimizi cəlb edən məqamlardan biri də onlarda İkram müəllimin milli-mənəvi dəyərlərimizə, Azərbaycan mədəniyyətinə, onun ədəbiyyatına, yaradıcı adamlarına sevgisini əks etdirməsidir.

İnsanın Vətəninə, xalqına, onun milli-mənəvi dəyərlərinə, yaradıcı insanlarına sevgisinin özünün kökləri olmaqla, həmin sevgi müəyyən bir zəmin üzərində inkişaf edir. Bu cəhətdən insanın söy-kökü, ailə tərbiyəsi, yetişdiyi mühit, torpaq, təhsil aldığı məktəb, elm ocaqları mühüm rol oynayır.

Biz "Zirvələrin ən ucası" adlı yazıda ana südü və ailə tərbiyəsinin insanın inkişafında, onun püxtələşməsindəki rolundan bəhs etmişdik. Həmin məqamlar insanın milli-mənəvi dəyərlərinə hörməti üçün zəmin yaradan əsas amillərdəndir. Valideyn məhəbbəti uşağın nəinki uşaqlığının, həm də gələcək xoşbəxtliyinin rəhni olmalıdır. Hələ Aristotel yazırdı ki, "Uşaqlar anadan olandan sonra

zənn edilir ki, onların bədənini qüvvətləndirmək üçün keyfiyyət cəhətdən çoxlu seçmə yeməklər hazırlamaq lazımdır... Hərəkət də faydalıdır, çünki bu, ümumiyyətlə, belə erkən yaşla bir araya sığır... Ümumiyyətlə, uşağa nə öyrətmək mümkündürsə, onu bilatəxir lap əvvəllərdən, lakin yavaş-yavaş öyrətmək yaxşı olar". (Аристотель. Политика. Москва. 2017. с. 154-156).

Ailə tərbiyəsinin düzgün təşkili cəmiyyətdə mənəvi dəyərlərin formalaşmasına yardım edir, ailənin ənənəvi olaraq yüksək sosial statusu, ailənin maddi cəhətdən təminatının ailə başçısının ən vacib borcu olması, ata-anaya hörmət, yalnız halal zəhmətlə əldə edilmiş vəsaitlər hesabına dolanmaq, uşaqların müəyyən etik normalara uyğun olaraq tərbiyə edilməsi, işgüzar münasibətlərdə halallıq, verilən sözə sadiqlik, xeyriyyəçilik, imkansız insanlara maddi yardım edilməsi və digər bu cür əsrlərlə formalaşmış əxlaqi keyfiyyətlərin, adət-ənənələrin, ümumiyyətlə, dünyagörüşünün sabitliyini dayanıqlığını təmin edir, cəmiyyətin inkişafına zəmin hazırlayır.

Qədim Çin sərkərdəsi, strateq və mütəfəkkir Sun Tszı yazırdı: "Yeni doğulanlar hər yerdə eyni cür ağlayır. Nə vaxtkı onlar böyüyür, onlarda vərdişlər müxtəlif olur. Bu – tərbiyənin nəticəsidir (Сунь-Цзы (544-496 до н.э.) // Великие философы о жизни (афоризмы и цитаты). Москва-Санкт-Петербург. 2016. с.621).

İkram müəllim kitablarında ailə tərbiyəsi üzərində xüsusi dayanmasa da, kitablarda yer alan ayrı-ayrı yazılarda, onun özünün valideynlərinə, qohumlarına, ömür-gün yoldaşı və ailə üzvlərinə münasibəti hiss olunur, yazdığı sətirlərdən, onların mətnlərindən mənəvi saflıq, ailə tərbiyəsinin saf ruhu özünü təzahür etdirir.

Kitabda əxz edilməli məqamlardan biri də elmə, biliyə olan münasibətdir. Kitablar oxunduqca əmin olursan ki, İkram müəllimin zirvələrdə qərar tutmasının bir səbəbi də onun elmə, biliyə olan münasibəti, həmişə öyrənmək, özünü təkmilləşdirməyə verdiyi diqqətin nəticəsidir.

Bizim milli-mənəvi dəyərlərimizdə, o cümlədən "Qurani Kərim"də də elmə yiyələnmək fəzilət kimi qiymətləndirilir. "Bəqərə surəsinin 31-ci ayəsində buyurulur: "(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün şeylərin adlarını (isimlərini) öyrətdi. Sonra onları (həmin şeyləri) mələklərə göstərərək: "(İddianızda) doğrusunuzsa, bunların adlarını mənə bildirin!"– dedi".

Hacı Mirməhəmməd Kərim əl-Bakuvi həmin ayənin şərhi ilə bağlı qeydində yazır: "Bu ayə elmin fəzilətinə və elmin insana hər şeydən daha əvvəl lazım olmasına işarə edir, çünki Allah-təala Adəm babanı yaratdı, ona məişəti üçün lazım olan yemək, içmək, libas və sair şeylərin hamısından əvvəl Adəmə

elm öyrətdi... Demək, insanın yaradılışındakı əsl məqsədi elmdir. Adam babanın şərəfi elm səbəbinə zahir olduğu üçün onun övladları da gərək ona tabe olub elm öyrənməkdən qafil olmasınlar" (Hacı Mirməhəmməd Kərim əl-Bakuvi. Kəşfül-həqayiq. Bakuvi Quran Təsviri. Bakı. 2014. I cild. s. 39).

Şərhçilər hesab edirlər ki, həmin ayədəki "adlar" sözündə daxili mahiyyət, əşyaların xarakteristikası gizlənmişdir (Yusif Əli). Yaradılana ad vermək qabiliyyəti və onu başa düşmək, nə qədər ki şeyləri başa düşməkdə onların üzərində hökmranlıq etməyi də əhatə edir, insanın Allahın yerdəki nümayəndəsi (canişin) rolunu yerinə yetirmək üçün açardır. Bu qabiliyyət adamlar arasında qarşılıqlı anlaşma və əməkdaşlıq üçün qeyd-şərtsiz ilkin şərtdir və yaradılan üzərində hakimiyyəti təmin edir. Bununla belə mələklərə öz tapşırıqlarını yerinə yetirmək üçün bu qabiliyyət lazım deyil və buna görə də onlara bu bilik verilməmişdir (Kutb). Allah şeylərin adları və xüsusiyyətlərini ona görə Adəmə öyrətdi ki, Adəm və onun varisləri həmin şeylər haqqında dəqiq biliklərə malik olmadan onlardan istifadə etmək və onlara etibar olunmuş vəzifəni – Yerdə Allahın canişini olmaq vəzifəsini yerinə yetirə bilməzdilər (Siddiki) (Значение и смысл Корана. 1-й том. Сура 1-5. Сура Алб-Фатиха до сура Ал-Маида Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. c.18).

Məktəbə, elm ocağına, müəllimə hörmət İkram müəllimin kitablarında həm özünün onlara sevgisinin təzahürü, həm də, övladlarına, gənclərə nəsihət kimi əks olunur.

N.K.Rerix yazır: "Bir dəfə Finlandiyada Ladoqanın sahilində kəndli balası olan bir oğlanla oturmuşdum. Orta yaşlarda olan kim isə bizim yanımızdan keçdi və mənim kiçik dostum cəld yerindən qalxıb onu səmimi hörmətlə papağını çıxardaraq salamladı. Mən ondan soruşdum: "O adam kimdir?" Oğlan qeyri-adi ciddiliklə cavab verdi: "O, müəllimdir". Mən yenidən soruşdum: ″O sizin müəllimdir?" – "Yox, – oğlan cavab verdi, – qonşu məktəbin müəllimidir". – "Siz onu şəxsən tanıyırsız?" – "Yox" – mənim gənc dostum cavab verdi. "Nə üçün bəs onu hörmətlə salamladın?" Oğlan daha ciddi surətdə cavab verdi: ″Ona görə ki, o, müəllimdir". Həqiqətən həmin müəllim qarşısında papağını çıxaran oğlanda öz keçmişini bilən və "yaratmaq" sözünün mənasını dərk edən xalqının sağlam toxumu vardır" (Н.К.Рерих Учительство. Москва. 1932. http://roerich.spb.ru/page/nk_rerih_i_ei_rerih_o_proshlom).

Heç şübhəsiz ki, insanın xarakterinin formalaşmasında onun xalqına, vətəninə, torpağına sevgisinin yaranmasında irsi amillər, ana südü, valideynlər, ailə tərbiyəsi, məktəb və sairlə yanaşı, təbiət amilləri də mühüm rol oynayır. İnsan doğulduğu torpağın ətri, qoxusu, suyu, havasına həmişə ehtiyac duyur. Heç

olmazsa, vaxtaşırı bu ətri, qoxunu alanda rahatlaşır, cana gəlir, qüvvə toplayır.



Qabil deyirdi:

“Mən gözümü bu torpaqda
açmışam,
Mənim dilim bu torpaqda söz tutub.
İməkləmiş, yerimişəm, qaçmışam –
Dizlərimi qanadanda daş-kəsək
İlk yaram bu torpaqda göz tutub”.

Torpaq da ana kimi insan üçün əzizdir. Ona görə də biz doğulduğumuz torpağa “ana torpaq” deyirik. Azərbaycan torpağı eyni zamanda xalqımızın milli və mənəvi sərvətidir. Bu torpaqlar bizim əcdadlarımızın təri və qanı ilə sulanıb, kəsilmiş qolları, dəlinmiş sinələri, bədəndən ayrılmış başları ilə qorunmuşdur. Torpaq bizim mədəniyyətimizin, adət-ənənəmizin beşiyidir, torpaq bizim halal süfrəmiz, nemətimiz, bərəkətimizdir. Torpaq bizim gələcək nəsillərimizin beşiyi, keşmiş nəsillərimizin əbədi məskəni, hazırkı nəslin qanı ilə, canı ilə qorumalı olduğu varlığımız, qürurumuz, şərəfimizdir. Ona görə insanın formalaşmasına, xalqına sevgisinin yaranmasına doğma torpaq da öz təsirini göstərir.

“Qurani-Kərim”in “əl-Hicr” surəsinin 19-cu ayəsində buyurulur: “Biz yer üzünü döşədik (orada

hər şeyi yerbəyer etdik), orada möhkəm dayanan dağlar yerləşdirdik, hər şeydən (bütün meyvələrdən) müəyyən ölçüdə (lazım olan qədər) yetişdirdik.

"Taha" surəsində buyurulur:

"53. O (böyük Allah) ki, yer üzünü sizin üçün döşəmiş (döşək etmiş), orada sizin üçün yollar salmış, göydən yağmur yağdırmışdır. Biz o yağmurla növbənöv bitkilərdən cütlər yetişdirmişik.

54. (Onlardan nuşcanlıqla) yeyin, həm də heyvanlarınızı otarın. Həqiqətən, bunda (gördüyümüz bu işlərdə) ağıl sahibləri üçün (Allahın vəhdaniyyətinə, qüdrətinə dəlalət edən) əlamətlər vardır!

55. Sizi (ulu babanız Adəmi) də ondan (o torpaqdan) yaratdıq. Sizi (öləndən sonra) ora qaytaracaq və (qiyamət günü) bir daha oradan (dirildib) çıxardacağıq".

Surənin 53-cü ayəsinin şərh edərkən Kutb yazır: "Həmişə və hər yerdə uşaq üçün olduğu kimi torpaq insan üçün beşikdir. Çünki insan bu torpağın uşağıdır, onun yaşa dolduğu yuva, əmdiyi döşdür" (Значение и смысл Корана. 3-й том. Сура 12-24. Сура Йусиф до сура Ан-нур.Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. с.1446).

Surənin 55-ci ayəsinin şərh edərkən Kutb yazır: "Sizin üçün beşik olan, yolları və cığırları ilə sizin sərbəst hərəkət etdiyiniz, sizin və sizin heyvanlarınız üçün ərzaq verən torpaqdan Biz sizi yaratdıq. İnsan bu torpağın tərkibindən yaradılıb, onun məhsulları ilə

qidalanır, onun suyunu içir, onun havasını udur. O, torpağın uşağıdır, torpaq isə onun beşiyi" (Значение и смысл Корана. 3-й том. Сура 12-24. Сура Йусиф до сура Ан-нур.Copyright by SKD Bavaria Verlag & Handel GmbH. Auflage. 1999. c.1447).

Fransız yazıçısı F.R.Şatobrian torpaqla əlaqədar yazır: "Torpaq anadır. Biz onun ağuşundan çıxırıq nə qədər ki, uşağıq, o bizi süd və balla dolu döşləri ilə əmizdirir. Yeniyetməlik yaşına, həddi-büluğa çatanda bizə saf suyunu, taxılını, məhsulunu bəxş edir. O bizi kölgəsi, işığı, qidası, yatağı ilə hər yerdə təmin edir, öləndə isə bizi yenidən ağuşuna alır, cansız bədənimizə otlardan və güllərdən örtük salır, hansısa gözəl formada yenidən yaratmaq üçün bizi tədricən öz təbiətinə uyğunlaşdırır" (Шатобриан Ф.Р. Замогильные записки. Москва. 1995. c.108).

Nüsrət Kəsəmənli yazırdı:

"Torpağın köksündə baba ocağı,
Torpağa bağlanan istini duyun.
Çörəktək öpürəm mən bu torpağı,
Öləndə, gözümün üstünə qoyun!.."

*Nüsrət Kəsəmənli.*
*Təklikdə danışaq. Bakı. 1983. s. 167.*

Kitabların hər birində İkram müəllimin Vətəninə, torpağına sevgisi özünü göstərir. Elə birinci kitabın

ilk yazısını “Kürdəmir” adlandıraraq anadan olduğu, boya-başa çatdığı torpağa həsr etməsi bunu aydın təzahür etdirir.

Alman professoru Rolf Knieper İkram müəllim haqqında “Bir dostluq barədə xatirələr”ində yazır: “Cənab Kərimov ölkəsini sevir və başqa ölkələrin dəyərini aşağılamadan onunla qürur duyur... O, Bakını və regionları, xüsusilə İsmayıllını sevir. İsmayıllıda (Basqal qəsəbəsindəki) öz evinə məni dəvət edərək, oranı mənə göstərmiş, təbiəti daha yaxından hiss etmək üçün məni bir ata otuzdurmuş, ciddi və məzəli, kuryoz və məşhur hekayələr danışmışdır. Onun hazırcavablığının sərhədi yoxdur”. Rolf Kniper. Fevral. 2015. (Üçüncü kitab. s. 324-327).

Deməli, İkram müəllim doğulub boya-başa çatdığı torpağı sevir, həm də bunu başqalarına nümayiş etdirə bilir.

Bədii ədəbiyyat insana həyatı dərk etməyə, onu əhatə edən adamlara, ətrafa, cəmiyyətdə baş verən hadisələrə müxtəlif rakurslardan baxmağa sövq edir, insanın həyata baxışının formalaşmasında, mənəvi-estetik, mənəvi keyfiyyətlərinin inkişafına, bütövlükdə insanın şəxsiyyət kimi formalaşmasına öz təsirini göstərir. Ədəbiyyat insana özünə qiymət verməkdə, hərəkətlərinə, fəaliyyətinə başqalarının gözü ilə baxmaqda və nəticə çıxarmağı bacarmaqda, böyük M.Füzulinin “Mətlə əl-etiqad” adlı fəlsəfi əsərində

ifadə etdiyi kimi yanaşsaq, insana doğum və ölüm çərçivəsindəki zamanı ləyaqətlə yaşamaqda kömək edir.

Xüsusən erkən yaşlardan şifahi xalq ədəbiyyatı – xalq nağılları, dastanlar, xalq rəvayətləri və nəğmələri və s. ilə tanışlıq onlarda milli ruhun bilavasitə ifadəsi olduğundan həm dərk olunmada problem yaratmır, həm də insanı inkişaf yönümünün milliliyinə, xəlqiliyinə müsbət təsir göstərir. M.Ə.Rəsulzadə bu barədə yazırdı: "Milliyyət hissini itirməyənlər və milliyyət ruhundan uzaqlaşmayanlar üçün aşıq Kərəmdə, Koroğluda və bunun əmsalındakı nəğmələrdə o qədər ülvi hisslər və o qədər geniş zövqlər vardır ki, onu ancaq saz nəğməsi ilə oxunduğu zaman hekayə qəhrəmanının dərdinə tamamilə aşina ola bilən köylülər qədər saf və pak ürəklərimiz anlaya bilərlər" (Rəsulzadə M.Ə. Əsərləri. İkinci cild. Bakı. 2001. s. 306).

Bu baxımdan İkram müəllimin yaradıcı insanlara münasibəti, onlarla təmasa meyilliliyi, ədəbiyyata, şeirə sevgisi yazdığı kitabların müəyyən bir hissəsini təşkil etməklə onlara xüsusi rəng, dəyər və məzmun gətirir, insanın hərtərəfli inkişafının gözəlliyini təcəssüm etdirir. Kitabın oxucusu təkcə hüquq elmi, müstəntiq, prokuror, hakim, polisin fəaliyyəti ilə deyil, ədəbiyyatla, incəsənətlə, ayrı-ayrı ölkələrin özəllikləri ilə tanış olur və bu müxtəliflikdən zövq alır. Kitabı oxumaqdan yorulmur. Bir mövzudan digərinə ke-

çidlə sanki soyuq qış günlərində divanda oturub sobada yanan odunların səsinə qulaq asa-asa isinərək istirahət edir.

İkram müəllimin sənət, ədəbiyyat vurğunu olması birinci kitabdan hiss olunur. Ana ilə bağlı yazıdan sonra Cəfər Cabbarlının "Ana" şeirinin kitaba daxil edilməsi bir tərəfdən anaya məhəbbətin təzahürüdürsə, bir tərəfdən də şeirin böyük yaradıcılıq nümunəsi olmasında, "anaya itaətdə rahib olmanın" şeirdə yüksək sənətkarlıqla əsaslandırılmasındadır. Ana saflığına, ana müqəddəsliyinə tapınan insan həmin şeirə biganə qala bilməz, onu oxuduqca özündə bir mənəvi rahatlıq tapacaqdır.

Kitabın "Bəxtiyar Vahabzadə və Mehdi Hüseyn haqqında" (İkram Kərimov. Zirvədən zirvəyə...Birinci kitab. Bakı. 2018. s. 128-130) yazısında İkram müəllim tələbə vaxtı Azərbaycan hüquqşünaslarının yetişdirilməsində xüsusi əməyi olan, hər bir tələbəyə, xüsusən elmə həqiqi marağı olanlara Vətəninin gələcəyi kimi münasibət bəsləyən Məmməd Xələfovun təklifi ilə Bəxtiyar Vahabzadənin "Vicdan" poemasının, Mehdi Hüseynin "Alov" əsərlərinin müəlliflərin iştirakı ilə müzakirəsinin keçirilməsindən söhbət açır, Bəxtiyar Vahabzadə, Xudu Məmmədov, Nurəddin Rzayevlə bağlı xatirələrindən danışaraq gənc yaşlarından ədəbiyyata olan həvəsini, ondan bəhrələndiyini nümayiş etdirir.

“O susmadı!” yazısında İkram müəllim Azərbaycan ədəbiyyatı və ictimai həyatında böyük xidmətləri olan Xalq yazıçısı İsmayıl Şıxlı və Xalq şairi Xəlil Rza ilə bağlı xatirələrini qələmə alır: “Azərbaycan xalqı tarixin yaddaş kitabına həkk olunmuş çox istedadlı oğullar yetişdirmişdir. Onların sırasının daim genişlənməsini biz qürur hissi ilə qeyd etməliyik. Həyatda öz layiqli yerini tutanlardan biri də Xalq yazıçısı İsmayıl Şıxlıdır.

...Xəlil Rza və qeyrilərinin məhkəmə prosesinə hazırlıq gedirdi. Hamıya məlumdur ki, Xəlil Rza SSRİ Dövlət Təhlükəsizliyi Komitəsi tərəfindən həbs ediləndə ibtidai istintaqa nəzarəti İttifaq prokurorluğu həyata keçirmişdi... Məhkəmə prosesi isə ərazi aidiyyəti üzrə şəhər məhkəməsində olacaqdı...

İsmayıl müəllim mənə zəng etdi və hal-əhval tutandan sonra yalnız bunu dedi: “Xəlil əmanəti”. Başqa bir söz demədi. Mən isə ona cavab verdim ki, işin baxılması savadlı, səriştəli hakimə tapşırılıb, nəticəsi obyektiv olacaq. Buna heç kimdə şübhə olmamalıdır. Xudahafizləşdik.

Bəllidir ki, Xəlil Rza və onunla birlikdə müttəhimlər kürsüsündə əyləşənlər məhkəmə zalından azad edildilər, dövlət ittihamçısının cəza istəməsinə baxmayaraq, barələrində bəraət hökmü çıxarıldı. Məhkəmə eyni zamanda ibtidai istintaqın gedişatında müqəssirlərin hüquqlarının pozulması və prokuror

nəzarətindəki qanunsuzluqlar barədə SSRİ Baş Prokurorluğunun ünvanına xüsusi qərar göndərdi" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 54-55).

Üçüncü kitabın 58-60-cı vərəqələrində Xəlil Rza və Firəngiz Ulutürkün imzaları ilə aşağıdakı qeydlər verilmişdir:

*"Azərbaycanın mərd, cəsur oğlu İkram müəllimə yadigar. Xəlil Rza. Mərdəkan 30 mart 1981".*

*"Türk Azərbaycanın cəsur və qeyrətli oğlu İkram Heydər oğlu Kərimli kişiyə – şair ürəkli, alim zəkalı ustadımıza dost ərməğanı. Xəlil Rza Ulutürk. T. 62 87 87. Bakı 4 ocaq 1991".*

*"Azərbaycanın qüdrətli, cəsur oğlu, şair ürəkli, alim zəkalı hüquq xadimi, əzizimiz İKRAM KƏRİM kişiyə dost ərməğanı. X.R.Ulutürk. Bakı. 24 əkim 1993. Sizə və kitabı Sizə yetirən Könül xanıma məhəbbətlə. T. 62 87 87".*

*Gəlimli-gedimli dünyamızda haqqın, ədalətin keşiyində duran Xəlilimi zindanlardan xilas edənlərdən biri olan İKRAM KƏRİMLİ cənablarına!*

*Qüdrətli bir ruhun hayqırtılarını vərəqləməyi xahiş edirəm. Hörmətlə Firəngiz Ulutürk. 21.III.99."*

Həmin qeyd Xəlil Rza Ulutürkün 1998-ci ildə "Azərbaycan nəşriyyatı"nda çap olunmuş "Lefortovo zindanında" kitabının titul vərəqində yazılmışdır (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 58-60).

Düşünürəm ki, Xəlil Rzanı şeirsiz yada salmaq düz olmaz:

"Azadlığı istəmirəm
Zərrə-zərrə, qram-qram.
Qolumdakı zəncirləri qıram gərək,
Qıram! Qıram!
Azadlığı istəmirəm
Bir həb kimi, dərman kimi.
İstəyirəm səma kimi,
Günəş kimi,
Cahan kimi.
Çəkil, çəkil ey qəsbkar!
Mən bu yurdun gur səsiyəm.
Gərək deyil sısqa bulaq,
Mən ümmanlar təşnəsiyəm".

*Xəlil Rza*

Növbəti qeyddə Azərbaycanda milli mədəniyyətinin dirçəlməsində, xüsusən "Novruz bayramı"nın milli bayram kimi yaşadılmasında böyük xidməti olan Şıxəli Qurbanov yada düşür:

Gülnar Şıx-Əli qızının "Итог раздумий" (Баку. 2013) kitabının titul vərəqindəki qeydi: "Ailəmin xeyirxahı, gözəl insan, dəyərli mütəxəssis, sonsuz simpatiyaya malik olan hörmətli İkram müəllimə uzun, sağlıqlı ömür arzusu və dərin minnətdarlıq hissi ilə kitabımı hədiyyə edirəm.

Xoşbəxtəm ki, Sizin kimi insanlar həyatda olub və VAR! Üzünüz gülsün! Sizi sevənlər və sevindirənlər çox olsun! Öpüb, bağrıma basıram, Gülnar Şıx-Əli qızı. 17.12. 2014. (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 78-80).

Birinci kitabda yer alan "Təyinatlar" yazısında İkram müəllim yazır "Gizli deyil ki, işə düzəlmək, müasir dildə desək, karyera məsələsi hər kəsin taleyindən, müxtəlif enişli-yoxuşlu yollardan keçir. Burada bəxtlə yanaşı, yaxşı insanlarla rastlaşmaq, bilik və ağıl, həyatın yolunu düzgün istiqamətləndirmək bacarığı önəmlidir". İkram müəllimin fikirlərini şair Qabilin "Səhv düşəndə yerimiz" seiri ilə əsaslandırması yazdıqları ilə həmahənglik təşkil etməklə yanaşı, İkram müəllimin şeirdən istifadə sahəsindəki bacarığının mükəmməlliliyinə də dəlalət edir (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 181-182).

"Sabiri xatırlayarkən..." yazısından:

"...Təsadüf elə gətirdi ki, keçirilən tədbirlərin birində sevimli şairimiz Qabilin "Səhv düşəndə yerimiz" şeirini özünəməxsus pafosla deməsinin şahidi oldum. Şeir məndə xoş təəssürat oyatdı. İnsanı düşündürən şeir idi. Arzu etdim ki, bu şeiri əldə edim. Lakin cəhd etmədim. Yazıçı Əli Səmədli mənim bağ qonşum idi. Mərdəkan qəsəbəsində Qabil, digər yazıçı və şairlər tez-tez Əli müəllimin

qonağı olurdular. Bir dəfə həmin məkanda Qabillə rastlaşdım. Ondan həmin şeiri haradan əldə edə biləcəyimi soruşdum. Qabil özünəməxsus yumorla cavab verdi: "Pul ilə kitab mağazalarından, havayı isə məndən". Gülüşdük və ayrıldıq... Bir müddət keçmiş Qabil iş yerimə gəldi. Mənə müəllif yazısı ilə 2 ensiz vərəqdə "Şirvannəşr"də çap edilmiş "Səhv düşəndə yerimiz" şeirini və "Adsız-ünvansız iradlar" kitabını təqdim etdi – 15 iyul 1997-ci ildə".

İkram müəllim həmin yazıda Qabillə bağlı bir neçə məzəli əhvalatı da qələmə almışdır. (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 752-754).

İkram müəllim "namuslu insanlar haqsızlığa biganə qala bilməzdilər" fikrini həyatdan vaxtsız köçmüş gənc şair dostu Əfrayıl Məhərrəmovun "Cəmilə" şeiri ilə oxucuya çatdırır. Şair haqsızlığı azadlığı uğrunda mübarizə aparan gənc qızın həbs edilməsində, qəfəsə salınmasında, davada, qırğında görürdü:

"Necə deyim Cəmiləyə qəfəs nədir? Məhbəs nədir?
Desəm onun vətənində, körpə bacım, dava gedir,
Gərək başa salım onu qırğın nədir, dava nədir" (İkram Kərimov. Zirvədən zirvəyə... Birinci kitab. Bakı. 2018. s. 742-743).

"Azad Talışoğlu haqqında" yazısında İkram müəllim şair Azad Talışoğlu, Rəfiq Zəka, Fikrət Qoca, "Azərbaycan gəncləri" qəzetinin redaktoru Qəşəm

Aslanov ilə münasibətlərindən və birlikdə Şuşa şəhərində keçirdikləri vaxtdan söhbət açır. Bu xüsusat İkram müəllimin yaradıcı insanlarla ünsiyyətinə dəlalət edən faktlardan biridir. Bir çox hallarda bu cür münasibətlər şeir, məqalə və digər yazılarda öz əksini tapırdı. Azad Talışoğlu İkram müəllimə ithaf etdiyi "Sənin" şeirində yazır:

"...Hamıdan əzizsən Talışoğluna,
Alovlu bir ilham verirsən ona.
Artır gündən-günə, lap andan-ana,
Misli görünməmiş şöhrətin sənin".

"Təbrik edirəm" şeirində şair ürək sözlərini belə bildirir:

"Mən sənə dost dedim, sən mənə qardaş,
Qardaşın öz yeri, dostun öz yeri.
Qardaşım sənintək dost olaydı kaş,
Mənə qardaş olan ilk gündən bəri,
Qardaşın öz yeri, dostun öz yeri".

İkram müəllimin ədəbi yaradıcılıq, müxtəlif sahələrdən olan sənət adamları, o cümlədən xaricdən olan həmkarları ilə ünsiyyətlərində Vətən, torpaq sevgisi, ədəbiyyata, incəsənətə, musiqiyə olan məhəbbəti öz təcəssümünü tapır. Bunların təsdiqi kimi kitablarda yer alan bəzi məlumatları qeyd etmək istərdik.

Şeyxülislam Allahşükür Paşazadə "Значение и смысл Корана" kitabı üzərində qeydində yazır: "İkram müəllim! Bütün xeyirxah işlərinizdə Allah köməyiniz olsun! 03.01.2001" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 562).

Qeyd edim ki, hörmətli Şeyx mənə də eyniadlı kitablardan hədiyyə etmiş və mən yazılarımda onlardan istifadə etmişəm.




Rəfiq Zəka Xəndan 18/II-97-ci ildə "Dünyanın yarısı türkdür" şeirlər və poemalar kitabını İkram müəllimə "Azərbaycanımızın ən layiqli oğlu, böyük hakim, böyük insan, əziz dostum İkram Kərimova ən yaxşı diləklərimlə" yazısı ilə hədiyyə etmişdir (İkram Kərimov. Zirvədən zirvəyə...İkinci kitab. Bakı. 2019. s. 522).

Xalq yazıçısı Elçinin 2000-ci ildə "QAPP-POLİQRAF" nəşriyyatında çap olunmuş "Baladadaşın ilk məhəbbəti" kitabının titul vərəqəsi üzərində qeyd: "Əziz dostum İkram üçün ən gözəl arzular naminə yadigar. 27.I.04" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 723).

Hüseyn Arif. "Əziz qardaşım İkram! Siz bizim ilk tanışlıq günlərimizdən həssas, düşünən, şair xislətli

bir insan kimi qəlbimə həkk olunmusunuz. Bu inam və məhəbbət getdikcə artmış, ülviləşmişdir. Əminəm bu ikicildliyi siz və balalarınız diqqətlə oxuyacaq, Hüseyn Arifi zaman-zaman xatırlayacaqdır" 1986 (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 759).

Zəlimxan Yaqub "Mən bir dağ çayıyam..." kitabını bu sözlərlə təqdim edib: "Könül dünyasını könlümə həmdəm bildiyim, seirimizin və şairlərimizin dostu İkram müəllimə Zəlimxan Yaqubdan dost xatirəsi. 30.I.2007" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 767)

Məmməd İsmayıl. "Seçilmiş əsərləri". Bakı. 1992. "Hörmətli İkram müəllim! Zamanın aldadıcı rüzgarlarına baş əyməyən dost etibarın üçün sağ ol. 10.09.92" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 761)

Sabir Rüstəmxanlı. "Ölüm zirvəsi". "Bu dəyişən, haldan-hala düşən dünyada öz dəyişməz sifətini və mərdliyini qoruyub saxlayan, əsl xalq hakimi, əziz dostum İkram bəy Kərimliyə tariximizin parlaq bir dövrünün əksi olan bu kitabımı ən xoş arzularla bağışlayıram. 5.10.2007 (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 768).

İman Mustafayev, Sadıq Murtuzayev. "İmam Şamil". 1993. "İkram Kərimov üçün ərməğan Və: Sizdə də cəngavərlik əlamətlərinin şahidi və məlumatım

olduğundan çox məmnunam. Böyük ehtiramla Sadıq Murtuzayev. 29.05.2018. (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 771).

Məmməd İsmayıl və Sabir Rüstəmxanlı, Sadıq Murtuzayevin qeydlərində ümumi bir cəhətə – "hal-dan-hala düşən dünyada, zamanın aldadıcı rüzgarlarına baş əyməyərək, öz dəyişməz sifətini və mərdliyini, etibarını cəngavər kimi qoruyub saxlamaq" cəhətinə diqqəti cəlb etmək istərdim.

İlyas Tapdıq. "Məhəbbət yolları". Bakı. Yazıçı. 1990. "Müəllifdən hörmətli İkram Kərimov üçün xatirə. Əziz İkram müəllim, Siz mükəmməl biliyə malik, gözəl hüquqşünasımız olmaqla bərabər, həm də gözəl natiq və ictimai xadimimizsiz. Sizə böyük hörmətlə bu kitabımı xatirə verirəm. Müəllif İ.Tapdıq. 10.II.91 (İkram Kərimov. Zirvədən zirvəyə...Üçüncü kitab. Bakı. 2020. s. 761).

Cəlal Bərgüşad. "Boz atın belində". "Şəxsiyyətinə böyük hörmət bəslədiyim, insan taleyinin ən həssas müdafiəçisi, yaxın dostum İkram Kərimova kiçik hədiyyə. Cəlal Bərgüşad. 18.03.1976". (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 758).

Vasif Məmmədəliyev "Quran və elm" kitabının titul vərəqində yazır: "Azərbaycan hüquqşünaslığının sütunlarından biri, elmi ilə əməli bir-birini tamamlayan insan, böyük ürək sahibi, mayası xeyirxahlıqla

yoğrulmuş köhnə dostum İkrama kiçik bir ərməğan. Bakı. 11/I-2007. (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 561).

Əli Cəmədli Həzi Aslanova həsr etdiyi “Generalın uşaqlığı” kitabının titul vərəqində İkram müəllimin oğlu Kərim üçün aşağıdakı qeydi yazıb: “Əziz Kərim! Bütün sənətlər və peşələr gözəldir. Ancaq gərək öz sənətinin və ya peşənin generalı olasan. Əli. 31.VIII.93. Mərdəkan” (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 755).

Gəray Fəzli “Gecə günəşi” (Bakı. Gənclik. 1981) kitabını “Ürəyi gün kimi təmiz, fikri və düşüncəsi nurlu qardaşım, əziz və mehriban İkram və onun gözəl ailəsinə kiçik bir müəllif yadigarı. Ən səmimi arzu və gələcək uğurlarla yeni 1982-ci ilin astanasında. – Gəray Fəzli. 30.XII.81” qeydi ilə təqdim etmişdir. (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 758).

Davud Dəmirli. “Dahilik məşqi”. “Xalqımızın müdrik oğlu İ.Kərimov üçün kiçik bir xatirə” 16.III.88. (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 758)

Kitablarda, həmçinin müxtəlif ədəbiyyat və elm adamlarının İkram müəllimə müxtəlif kitabları ərməğan etməsi öz əksini tapmışdır: Kamal Abdulla. “Sirr içində dastan və yaxud gizli Dədə Qorqud” 1999; İsgəndər Etibar. “Ürək səni istəyir. Şeirlər”.

Bakı, Yazıçı. 1986; Firudin Şuşinski. "Cabbar Qaryağdıoğlu". Bakı. 1987; Baba Pünhan. "Nə dedim ki?!"; Teymur Bünyadov. "Bilsəydim ayrılıqdı". Bakı. 1998; Teymur Əhmədov. "Nəriman Nərimanov" Bakı. 2006; Orxan Fikrətoğlu. "Səhər". Bakı. Gənclik. 1994; Sabir Hüseynov. "Xocalıya qayıdacağıq"; B.Ə.Budaqov. "Akademik H.Ə.Əliyev" Bakı. 1995; H.Bədəlov, Z Bağırova. "İnsanın ömür yolu". Bakı. Gənclik. 1992; Vidadi Xəlilov. "Süleyman Ələsgərov". Bakı. 1999; Yusif Seyidov. "Şairin dərdi". Bakı 1996; Hacı Hacıyev "İstiqlalın əzablı yolu". Bakı 1996; Südabə Şəfa "İntizar". Bakı. 1990; Şahmar Ələkbərzadə "Haqqa pəncərə" Bakı. 1998; Atif Zeynallı "Qüdrətli sənətkar" Bakı 2001; Qazi Mirəziz Seyidzadə (Əziz Pünhan). "Divan" Bakı. 2008; Qüdrət Muğanlı "Səni ürəyimdə yaşadacağam". Sumqayıt. 2001; Hüseyn Bağırov "Antraktida gündəliyi"; Paşa Salahlı. "Göyəzən çiçəkləri". 1995; Ramiz Məmmədzadə. "İşıq günü". Bakı 2007; Abbas Axundbəyli. "Qurdun sürüsü olmaz". Bakı. 2001; Davud Ordubadlı. "Ləyaqət"; Əsədulla Cəfərov "Quruçay dərəsində". Bakı. 1990.

İkram Kərimova ithaf edilmiş şeirlərdən:

*"Ömrün baharında" şeirindən:*

"Halal, təmiz bir ocaqdan boy atmısan sən,
Çətin yollar səni heç vaxt yora bilməyib.
Məhəbbətlər üfüqündə ucalmısan sən,

Heç kim sənin haqq sözünü qıra bilməyib".

*Tahir Taisoğlu – şair publisist, siyasi elmlər üzrə fəlsəfə doktoru, Əməkdar jurnalist laureatı* (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 698).

"Ləyaqət ünvanı" şeirindən:

"Peyğəmbər libası geyib əyninə,
Bir müdrik ağsaqqal əl edir bizə.
"Gəlin ey özünə dəyər verənlər,
Ləyaqət ünvanı göstərim sizə".

*Mədət Əyyuboğlu – şair publisist, "Qızıl qələm",*

*H.B.Zərdabi adına "Media" mükafatı laureatı* (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 700).

"Odlar yurdum" yazısında İkram müəllim yazır: "Atif Zeynallını həyatda görməmişəm və tanımamışam. "Odlar yurdum" (Gənclik,1981) kitabını da iş yerimdə dəftərxanaya vermişdi. Kitabın titul vərəqində mənə həsr etdiyi şeirini yazmışdı. Onun bu şeiri yazmasının nədən qaynaqlandığını bilmirəm. Sonradan da təmasımız olmayıb. Həmin vaxtlar mən Mərdəkanda işləyirdim, şair də Mərdəkanda yaşayıb, orta təhsilini də orada alıb. Ola bilsin, kənardan barəmdə müəyyən təəssüratları olub". Həmin "kənardan olan təəssüratları" şair aşağıdakı bənd ilə bitirir:

"Kəsməz yolumuzu boran da, sel də,
Əsməz üstümüzdən bir qara yel də.
Hamı əmindir ki, bu doğma eldə

Ədalət at çapar İKRAM olarsa!" (10.05.82). Mərdəkan" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 523-527).

Həmid Abbas. "Tarla qızları". Bakı. 1997. "Bu kitabın 163-cü səhifəsində şeirin baş qəhrəmanı olan əzizim İkram Heydər oğlu Kərimova ən xoş arzularla. 24.04.97".

Polad Bülbüloğlu. "Ədalət naminə yaşanan ömür" yazısından:

"...İkram müəllim mənim sayca çox olmayan yaxın ailə dostlarımdan biridir. Bunu xüsusi vurğulamaq istəyirəm. Çünki biz çox fərqli, zahirən uzaq sahələrdə çalışsaq da, aramızda daxili bir ahəng, doğmalıq mövcuddur. Ürəkaçıqlığı ilə deyə bilərəm ki, biz onunla bir yolun yolçusu, eyni əqidənin, dünyagörüşün daşıyıcısı sayıla bilərik. Bir çox konkret hallara münasibətdə hadisələrə eyni prizmadan, vahid dəyərlər sistemindən yanaşdığımızı, hissiyyat baxımından ruh əkizliyimizi aydın-açıq sezmişəm. Uzun-uzadı söhbətlərimiz, dərdləşmələrimiz bir yana qalsın, ən təsadüfi, ayaqüstü, qısa görüşümüz belə məni həmişə sevindirir, pozitiv impuls və enerji verir.

İkram müəllim yalnız üç sözlə xarakterizə etməli olsaydım, cox güman ki, sıralamam bu şəkildə alınardı: vicdan, qətiyyət, mərhəmət. 18.07.12. Moskva".

İkram müəllimin milli ədəbiyyata, müsiqiyə, xalqının milli mədəni sərvətlərinə, o cümlədən ləyaqətli

şəxsiyyətlərinə münasibəti "Firudin Şuşalı..." yazısında da özünü büruzə verir:

"Kimdir Firudin Şuşalı?.. Mənim düşüncəmdə o xalqını, elini-obasını sevən, vətəninə sadiq olan, tədqiqatları ilə musiqi tarixində əvəzsiz iz buraxmış azərbaycanlı kimi qalıb.

...Mətbuatda müntəzəm olaraq ifaçılıq sənəti barədə ciddi tənqidi yazılarla çıxış edərək, xalqımıza müsiqi mədəniyyətimizin tarixindən, mövcud olmuş ədəbi məclislərdən, muğamdan, görkəmli xanəndələr və sənətkarların həyatından zəngin məlumatlar verirdi.

...Milli adət-ənənələrimizdən ən gözəl hesab etdiyi toy məclislərinin musiqimizin inkişafında müstəsna rol oynadığını qeyd etməklə yanaşı, onun adi evlənmək məclisi çərçivəsindən çıxıb milli şənlik məclisinə çevrilməsini xüsusi olaraq vurğulayırdı. İfaçılıq sənətinin tərəqqisində toyların rolunu bizlərə çatdıra bilirdi.

...Sovet hakimiyyətinin güc nümayiş etdirdiyi zamanda heç kimin ağlına gəlmədiyi bir vaxtda "Şuşanı alacaqlar" deyən və bunun şahidi olduqda, dözməyərək hönkür-hönkür ağlayaraq dünyasını dəyişən Firudin Şuşalı!" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 775-777).

"Akademik Ziya Bünyadovu xatırlayarkən..." yazısında Ziya Bünyadovun "İnturist-Azərbaycan" mehmanxanasının 16-cı mərtəbəsində yubileyi ilə

bağlı xatirələrini qələmə alaraq yazır “Məclisdə Ziya müəllimlə yanaşı oturmuşduq. Digər tərəfdən yanında ömür yoldaşı Tahirə xanım və bəstəkar, Xalq artisti Tofiq Quliyev əyləşmişdi. Məndə həmin məclisdən xatirə olaraq fotoşəkillər qalıb. Qəribədir – Ziya müəllim ayaq üstə durub söz deyir, mən başımı qaldırıb ona baxıram. Mən ayaq üstə sağlıq deyəndə o, başını qaldırıb mənə baxır. Bir-birimizin əks pozaları” (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 783).

Mən burada əks pozaları deyil, eyni istiqamətə baxmağı görürəm. Hər iki dinləyici natiqə baxır. Deyirlər “əsl sevmək biri-birinə baxmaq deyil, hər iki nəfərin eyni istiqamətə baxmasıdır”. İkram müəllim xalqın qəhrəman, onu düşünən, ziyalı, mərd insanları ilə eyni istiqamətə baxan bir şəxsiyyətdir. Bu da onun xalqına, vətəninə, onun tərəqqisinə olan sevgisindən, istəyindən irəli gəlir.

“Xalq artisti Əliabbas Qədirov...” yazısında oxuyuruq: “Əliabbasın sənətkar kimi aludəçisi olmuşam. “Ölülər” əsərində Şeyx Nəsrullah və Əli Əmirlinin “Mesenat” tamaşasında yaratdığı əvəzolunmaz, Azərbaycan xalqının fəxri Hacı Zeynalabdin Tağıyev obrazlarını heç vaxt unuda bilmirəm”... Kiçik qızım Günellə birlikdə onun oynadığı “Ölülər” tamaşasına baxmışdım” (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020.. s. 788).

“İki xalçanı birləşdirən tarix” yazısında İkram müəllim Əməkdar incəsənət xadimi Ağarəhim Əliyevin bir çox tarixi abidələrin bərpasında əməyindən, Azərbaycan mətbəxini Yaponiyada, Kanadada və digər ölkələrdə təmsil etdirməsindən və Xalq rəssamı Kamil Əliyevin xalça üzərində tarixi şəxsiyyətlərin, dövlət və ictimai xadimlərin portretlərini yaratmasından, bu sənətin incəliklərindən söhbət açır: Ağarəhim Əliyev “Finlandiyanın prezidenti Urho Kekkonen Azərbaycanda səfərdə olanda Lənkəranda – Xanbulançayda istirahət edərkən onun milli Azərbaycan xörəkləri (o cümlədən Talış diyarında olduğundan yerli talış xörəkləri – V.İ) ilə “tanış olmasını” təşkil etmişdi. Mətbəximiz qonağın o qədər xoşuna gəlmişdi ki, Ağarəhimi Finlandiyaya dəvət etmişdi. Bir aya yaxın şimal ölkəsində qalan həmyerlimiz yerli aşpazlara Azərbaycan milli xörəklərinin hazırlanma qaydalarını mümkün qədər öyrətmişdi.

İkram müəllim həmin yazıda Kamil müəllimin dediklərini qələmə alaraq yazır: “Adamlar elə bilir ki, xalçada toxunmuş portret hansısa fotoşəklin əksidir – üzünə baxılıb, xalçaya köçürülüb. Əslində bu, belə deyil. Adətən, rəssamlar şəxsi qarşılarında əyləşdirib, ona baxa-baxa rəsmini kətan parça üzərinə köçürürlər. Bu bəzən saatlarla, aylarla vaxt tələb edir. Xalçadakı portret isə şəxsin bir neçə, mümkün qədər çox sayda fotoşəklinə baxıb təhlil edilməklə, rəssamın

öz təxəyyülündə onun mövcud olmayan əksini yaradıb, xalçaya toxutdurmasıdır. Şəxsin xalçadakı portreti əvvəllər həyatda olmayıb".

İkram müəllim daha sonra böyük sənətkar Kamil müəllimin onun özünün və ömür yoldaşı Arifə xanımın xalça üzərində birgə yaratdığı gözəl sənət nümunəsinin necə həyata vəsiqə almasından söhbət açır. (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 802-805). Yazını oxuduqca İkram müəllimin hər bir sənətin incəlikləri ilə tanış olmaq, onları mənimsəmək istəyinin və hətta özünə aid olmayan sənət sahələrində belə yeni yaradıcılıq toxumları səpə bilmək qabiliyyətinin şahidi olursan. Bu əslində yaradıcı insana xas xüsusiyyətdir. İkram müəllim isə daim axtarmaq və yaratmaq eşqi ilə yaşayır. Bu yaradıcılıq işinin hələ uzun illər davam etməsini arzulayırıq.

Vətəni sevmək, bu sevgini etiraf etmək, bu haqda yazmaq, Vətən sevgisini təbliğ etmək, mənə görə, yaxşı əməllər sırasındadır və bunu çoxları edir. Lakin Vətən sevgisini əməllərdə nümayiş etdirməyi hər kəs bacarmır. 2013-cü ilin avqust-sentyabr aylarında İkram müəllimin böyük nəvəsi, 13 yaşlı Abbasla Sloveniyada Novo Qoritsada Mehdi Hüseynzadənin büstünü, xatirə muzeyini ziyarət etməsi məhz Vətənə olan sevginin əməldə nümayişidir. "İkram müəllim "Mixaylonun izi ilə" yazısında bu barədə

söhbət açaraq kifayət qədər geniş səpkili məlumatları oxucuya çatdırır: "Muzeyin əməkdaşı, cavan xanım "Mihailo"nun barəsində həvəslə, kövrək tonda bizə verdiyi məlumatlar adamı qürurlandırır. Sevinirsən ki, söhbət sənin xalqının övladından gedir." (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 813-819).

Bax budur Vətən sevgisi – Vətəndən uzaqlarda, onun övladlarının qəhrəmanlığı barədə söylənilənləri dinləyib qürurlanmaq. 44 günlük Vətən müharibəsi də Mehdi Hüseynzadə kimi qəhrəmanları, Vətən yolunda canından keçən oğulları üzə çıxardı. Onlar xalqımızın qürur yeri, bizim fəxrimizdirlər. Bu qəhrəmanlıqların davamlı olması, Vətən sevgisinin əbədi olması üçün biz təcavüzkar Ermənistan üzərində qələbəmizin təmin olunmasında əməyi olan hər bir kəsə minnətdar olmalı, onları daim xatırlamalı, çəkdikləri zəhməti heç vaxt unutmamalıyıq. Şəhidlərin xatirəsini əbədi yaşatmalı, qazilərin Vətən yolunda şikəst olmalarına təəssüflənməsinə şərait yaratmamalıyıq. Bu bizim Vətən qarşısında borcumuzdur.

Rolf Knieperin "Bir dostluq barədə xatirələr" yazısından:

"Əslində gözləyirdim ki, o, Şəhər Məhkəməsinin səlahiyyətlərinə toxuna biləcək islahatlara qarşı çıxacaq. Lakin təəccübləndim: cənab Kərimov hər bir

yeniliyə açıqlıq göstərirdi. O, ölkəsini irəliyə aparmaq istəyirdi və islahatların hüquqi dövlətçiliyin inkişafı üçün vacibliyini vurğulayırdı. Digər tərəfdən isə o, əvvəlcədən bilirdi ki, “öz” hakimlərini qorumaq istəyir ki, onlar islahatlardan uduzanlara çevrilməsinlər.

...Mənim onun ölkəsindəki hüquqi islahatlara marağımın ciddi olduğunu anlayandan sonra intensiv, peşəkar və şəxsi əlaqələr inkişaf etməyə başladı.

...O, tanıdıqlarımın heç birində görmədiyim həddə, dövlətlərin və cəmiyyətlərin, müharibələrin, qələbələrin, inqilabların və dinc inkişafların “böyük” tarixini “kiçik” hekayə və lətifələrlə simvolik və obrazlı şəkildə, həyatla dolu həmsöhbətinə çatdırmaq qabiliyyətinə malikdir. Bu hekayələrdə o, hökmdarların, siyasətçilərin, hüquqşünasların, incəsənət xadimlərinin, fəhlələrin və kəndlilərin talelərini və xüsusilə maraqlı hərəkətlərini böyük tarixdən ayırır və eyni zamanda həmin tarixə qovuşdurur. O, Basqalda nəinki mənə, xüsusilə qonağı Bremen şəhərinin valisi cənab Henninq Şerfə Almaniyanın tarixindən və Bremenin şəhər tarixindən elə detallar danışmışdır ki, onlar hətta bizə məlum deyildi. Belə hekayələrin tez-tez Azərbaycanla bağlılığı olur.

...Onun qonaqsevərliyi və səxavəti hətta qonaqpərvər və səxavətli ölkə olan Azərbaycan üçün qeyri-adidir. O, məni daim yeni restoranlara dəvət etmişdir.

Heç biri digərinə bənzəmirdi, hamısı orjinallığı ilə seçilirdi; demək olar ki, həmişə zəngin Azərbaycan məxbəx mədəniyyətinin xüsusi bir aspekti ön plana çıxarılırdı. Elə bil ki, o, həmişə mənim nələrdən xoşlanacağımı və məni necə təəccübləndirəcəyini bilirdi.

Bir dəfə Bremenin yaxınlığında bir alman restoranına dəvət olunduğumuz zaman o, gözəl bir motiv əks etdirilmiş, yağlı boya ilə çəkilmiş Azərbaycan rəsm əsərini restoran sahibinə hədiyyə etməklə onu təəccübləndirdi.

...Bakıda çoxsaylı dostların dəvət olunduğu bir şam yeməyi yaddan çıxmayacaq bir xatirədir. Mən, yəqin ki, operadan xoşlandığımı ona demişdim. Yemək başlayan kimi işıqlar qismən söndürüldü və əsas diqqət yaxınlarda İtaliya səfərindən qayıdan Azərbaycan Dövlət Opera və Balet Teatrına geri dönən çox gözəl, istedadlı, məşhur və böyük müğənni olan Fidan Hacıyevaya yönəldildi. Cənab Kərimov onu dəvət etmişdi ki, Bizenin "Karmen"-indən "Məhəbbət" ariyasını bizim üçün ifa etsin.

Beləliklə, peşəkar fikir mübadiləsi və şəxsi görüşlər zamanı olan ünsiyyət tədriclə illərin sınağından keçən dərin bir dostluğa çevrilmişdir. Azərbaycanla bağlı uzunmüddətli fasilədən sonra 2014-cü ildə yenidən Bakıya qayıtdıqdan sonra o məni şəhərdən kənarda kiçik bir restorana dəvət etdi. Mənə əsir düşmüş şəxslər və əsgərlər, neftçıxaranlar və dənizçilər barədə elə

əhvalatlar danışdı ki, bunların hamısı özünəməxsus tərzdə Azərbaycanın uzun və zəngin tarixi üçün əhəmiyyət kəsb edir. O, həmişə olduğu kimi, vətənpərvər və eyni zamanda onun gözəl ölkəsinə xeyirxah məqam göstərən istənilən əcnəbi üçün açıq idi. *Rolf Kniper. Fevral 2015"* (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 324-327).

Düşünürəm, bəlkə də, hüquq sahəsində alman professoru Rolf Kniperin yazısını tam olduğu kimi vermək lazım idi. Çünki o, yazının hər sətrində bir azərbaycanlının öz dövlətinə, xalqına sevgi və məhəbbətini, torpağına bağlılığını, digər dövlətlərə və xalqlara münasibətdə dözümlülüyünü, öz xalqının tarixini bilməklə yanaşı, digər xalqların da tarixindən, mədəniyyətindən kifayət qədər, bəzi hallarda onların özlərindən artıq məlumatlı olduğunu nümayiş etdirməsi öz ifadəsini tapır. Bu, xalqını, dövlətini düşünən insanlara xas olan xüsusiyyətdir. Bu xüsusiyyəti yazının Sergey Yeseninlə bağlı hissəsində bir daha hiss edəcəyik.

Rolf Kniperin Bakı və Tbilisidə təşkil etdiyi bir sıra tədbirlərdə "Almaniya Texniki Əməkdaşlıq Təşkilatı"nın xətti ilə mən də iştirak edib, onun hüquq sahəsində yüksək səviyyədə biliyinin, təşkilatçılıq, həmkarlarını dinləmək, təklif və mövqeləri bacarıqla müzakirə etmək qabiliyyətinin şahidi olmuşam. Ümumiyyətlə, hüquq islahatları çərçivəsində Azərbaycanda fəaliyyət göstərən alman mütə-

xəssislərin – Tomas Vennenin, Andreas Buşun, Tomas Hermanın böyük səy və həvəslə fəaliyyət göstərmələrinin şahidi olmuş və belə qənaətə gəlmişəm ki, onlar nəzərdə tutulan tədbirlərin yüksək səviyyədə həyata keçirilməsində maraqlı olmaqla yanaşı, həm də obyektiv qiymətləndirməyə, zəhmətə dəyər verilməsinə diqqət yetirirlər. Misal olaraq göstərə bilərəm ki, 2004-cü ildə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən "Azərbaycan Respublikası Hüquq və Məhkəmə sisteminin təkmilləşdirilməsi və islahatı" TASİS layihəsi çərçivəsində Almaniyanın Berlin Humboldt Universitetinin professoru, doktor Alexander Blankenaqelin praktiki, texniki məsləhət və dəstəyi ilə "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin kommentariyası. Cinayət mühakimə icraatının vəzifələri, əsas prinsipləri və şərtləri. Maddələr 8-36" kitabını yazdım. Prof.dr. A.Blankenaqel kitaba "Giriş" yazısını bu sözlərlə bitirir: "Biz əvvəldə qeyd etdik ki, bu şərh müasir hüquqi dövlətçiliyin şərtlərindən ikisinə, hüquqtətbiqetmənin yüksək keyfiyyəti və hüquqtətbiqetmə üçün mühüm olan informasiyanın əlçatan olmasına kömək etmək məqsədi daşıyır. Şərhin üçüncü şərti, yəni hüquqtətbiqetmənin peşəkar və şəxsi keyfiyyətlərinin səviyyəsinin artırılması ilə bağlı aydındır ki, yalnız köməkçi rol oynaya bilər. Ancaq biz deyə bilərik ki, əsasən müəlliflə birgə

fəaliyyət bizə peşəkar və şəxsi keyfiyyətlərinin səviyyəsinin yüksəldilməsi üçün müvafiq şəraitin mövcud olduğunu göstərdi. Eyni zamanda qeyd etmək istəyirik ki, azərbaycanlı həmkarımızla bu şərh üzərindəki birgə iş bizə böyük zövq vermiş və bizim peşəkar təcrübəmizi zənginləşdirmişdir. Biz burada təqdim olunan şərhin Azərbaycanın hüquq sahəsi üzrə mütəxəssislərinin və bütün ictimaiyyətin də zövqünü oxşayacağına ümid edirik".

"Sergey Yeseninlə bağlı müsahibə" yazısında İkram müəllimin dediklərindən:

"Hər bir yaradıcı şəxsin əsərləri bu və ya digər formada müəyyən tarixi hadisələrə söykənir.

...Çox şairlərin 1 May bayramına həsr edilmiş şeirləri var. O cümlədən Sergey Yesenin də. Vaxtilə Sabunçu Balaxanı rayonu adlanırdı. Razin təpəsi də onun inzibati-ərazi vahidinə daxil idi. Bayram şənlikləri, "Mayovka"lar orada keçirilirdi. 1925-ci ilin 1 may günü həmin ərazidə Razin (indiki Bakıxanov) qəsəbəsinin təməli qoyuldu. Həmin mərasimdə Sergey Yesenin də iştirak edirdi. Onun yazdığı "1 May" şeiri məhz bu tədbirə həsr edilmişdi. Şeiri oxuduqca təmtəraqlı təməlqoyma mərasiminin necə keçdiyi adamın gözlərinin qabağına gəlir. Bu bizim tariximizdir. Bunları bilmək lazımdır.

Başqalarını bilmirəm, əgər Yesenenin yazışmalarını oxumasaydım, mənə bəlli olmazdı ki, Şuşada doğu-

lub boya-başa çatmış azərbaycanlı xanəndələr barəsində el arasında "əgər o, oxuyandırsa, deməli, şuşalıdır" məsəli movcuddur.

...Yeri gəlmişkən, SSRİ Yazıçılar İttifaqının birinci katibi Nikoplay Semyonoviç Tixonovun Mərdəkanda Sergey Yeseninin ev-muzeyinin açılışında işlətdiyi ifadə maraq doğurur: "Siz Sergey Yesenini rus xalqına yenidən qaytardınız".

Azərbaycan ziyalısı məhz bu xüsusiyyətləri ilə fərqlənməlidir. Son iki yazıdan iki xarici vətəndaşın etiraflarından məlum olur ki, İkram müəllim məhz həmin keyfiyyətə malik Azərbaycan ziyalısıdır.

Yesenin yazırdı:

«Но донесу, как счастье, до могилы
И волны Каспия, и балаханский май».

İkram müəllim xarici qonaqlarla münasibətində ona nail olurdu ki, qonaqlar "Xəzərin dalğaları", "Balaxanı mayı" ilə yanaşı, həm də Azərbaycan mədəniyyətini, azərbaycanlı ziyalılığınının təsirini sona qədər özləri ilə daşısınlar.

Fazil Rəhmanzadə "Duyğuların gözü ilə. İkram Kərimova dostyana məktub" yazısında İkram müəllimin yazdığı kitabla bağlı fikirlərini ifadə edərək yazır:

"Ağıllı-zəkalı, geniş erudisiyalı, görkəmli hüquqşünas olmağının, məharət və vicdan hissini fəaliyyəti

dövründə həmişə uca tutduğunun daim canlı şahidi olmuşam. Ədəbiyyat aləminə yaxınlığından, tarixi keçmişimizlə bağlı bilgilərindən xəbərdaram.

...İkram bəy!.. kitabı bədii çalarlarla ətə-qana doldurmağın, yüksək yazı mədəniyyətin, nəhayət, süjet pərakəndəliyinə yol vermədən hadisələri məntiqi ardıcıllıqla təsvirə gətirməyin təqdirəlayiqdir və çoxtərəfli istedadını tam şəkildə açıqlayır.

Dramatik, gərgin məqamların təsviri, dolaşıq hadisələrdə kələfin ucunun məhz peşəkar hüquqşünas intuisiyası ilə, faktlarla, fəhmin gücü ilə açılması böyük istedaddır, hətta mən deyərdim, Tanrı vergisidir.

...Şəxsiyyətin, mənliyin haqqında "Zirvədən zirvəyə..." kitabından aldığım təəssüratımı cəmləşdirmək istəyi məqamında qəti fikrim bu oldu: kitab hər hansı gənc hüquqşünas üçün "ustad dərsliyidir". Elə bilirəm ki, müvafiq fakültələrdə təhsil alan cavanlar "ustad dərslərindən" çox şey əxz edə bilərlər. Kitabda elə məqamlar var ki, (məsələn, tut ağacının yerə düşmüş bir budağı ilə bağlı) məhz İkram Kərimov fəhmi, öncəgörmə qabiliyyəti gərəkdir. Kitabda bu qəbildən olan çox mürəkkəb hadisələrin açılmasında İkram Kərimov peşəkarlığı vacib kriteriya kimi göz önünə gəlir".

"Qızıl qələm", "Dan ulduzu", "Humay" və H.Zərdabi mükafatları laureatı Fazil Rəhmanzadənin birinci kitabla bağlı yazısı İkram müəllimin təkcə hü-

quq sahəsində deyil, bir çox sahələrdə, xüsusən ədəbiyyat sahəsində də istedadlı bir insan olmasını bir daha təsdiqləyir.

**P.S.** Yeniyetməlik yaşlarımda Lənkəran rayonunun Vilvan kəndində yaşasam da, təxminən 14-15 yaşlarımda, keçən əsrin 60-cı illərinin axırı və ya 70-ci illərin əvvəllərində Fazil Rəhmanzadə ilə bir-iki dəfə görüşmüşəm. Onda Fazil müəllim "Bakı (axşam)"



Nüsrət Kəsəmənli



Kamal Rəhmanov

qəzetində müxbir, ya da şöbə müdiri işləyirdi. Hər halda onun iş otağı o dövrdən "sevgi şairi" kimi tanınmış Nüsrət Kəsəmənlinin otaqları ilə yanaşı idi. Nüsrət Kəsəmənli isə Azərbaycan Dövlət Universitetinin Jurnalistika fakültəsində qardaşım Kamal

ilə bir qrupda oxuyur və Azadlıq prospektində bir otaqda kirayədə yaşayırdılar. 1973-cü ildə mən qəbul imtahanı verəndə təxminən bir ay həmin otaqda Nüsrətlə birlikdə yaşamalı oldum. Onda qardaşım rayonda olurdu. Məni qəbul imtahanı vermək üçün Bakıya gətirib Nüsrətin yanında qoymuşdu. Nüsrətlə bağlı qardaşlarımın, mənim, bizim ailənin çoxlu xatirələri var. O, tez-tez kəndə gəlir, anamın hazırladığı ləvəngilərlə (balıq, qaşqaldaq, ördək, toyuq) talış plovunu (əlbəttə ki, sirkəyə qoyulmuş badımcan və sarımsaqla) xüsusi iştahla yeyərdi.

1995-ci ilin 9 mayında Vilvan kəndində atamın 70 illlik yubileyini, həm də müharibə veteranı kimi qələbənin 50 illiyini qeyd edəndə Nüsrət də həyat yoldaşı Rəhilə xanımla tədbirdə iştirak etdi. Onların tədbirdə iştirakı məclisə xüsusi rəng qatdı. Nüsrət təbrik sözü deyəndə atama müraciətlə onu da qeyd etdi ki, "7 müqəddəs rəqəmdir, Sizin isə 6 övladınız var. Yəqin ki, Tanrı 7-ci yeri mənim üçün saxlayıb. Mən Sizi özümə ata, Ayna xanımı ana kimi qəbul edirəm".

Nüsrət Kəsəmənlinin "Lənkəranda qız toyu", "Biri vardı, biri yox" və bəzi başqa şeirlərində qardaşlarımla bağlı məqamlar vardır. Bir də onda qabağı görmək qabiliyyəti var idi. Sonuncu dəfə İrana müalicəyə yola düşməmişdən əvvəlki axşamı qardaşlarımla birlikdə Hüseyn Cavid prospektindəki mənzillərinə onu yola salmağa getdik. Bir xeyli

söhbət etdik. Ayrılanda dedi ki, "İrana ayaqlarımla gedirəm, amma deyəsən, çiyinlərdə qayıdacağam". Dediyi kimi də oldu. Allah rəhmət etsin. Həm gözəl şair, həm də yaxşı insan idi.

Həyatın mahiyyət və məzmunun dərki, onda baş verən hadisələrə şüurlu münasibət, onları qiymətləndirmək, onlardan nəticə çıxarmaq, gələcək fəaliyyəti planlaşdırmaq insana məxsus keyfiyyətlərdir. İnsan bütün yaradılmışlar içərisində yeganə şüurlu varlıq olmaqla düşünür və yaradır.

İnsan tərbiyə olunmalı, düz yola, düz əmələ çağırılmalıdır.

"Böyük övliyalar. Həyatları. Rəvayətləri. Hikmətli sözləri" kitabında verilmiş Bişr-i Hafinin hikmətli sözlərindən biri belə səslənir: "Dünənimiz öldü, bugünümüz can verir, sabahımız isə hələ açılmayıb. Zamanımıza bu nöqteyi-nəzərdən baxın və yararlı işlər görməyə çalışın" (Rəcəb Dıkıcı. Böyük övliyalar. Həyatları. Rəvayətləri. Hikmətli sözləri. Bakı 1993. s. 37).

İkram müəllim yaşadığı bütün zamanlarda, indinin özündə də xalq üçün, cəmiyyət üçün faydalı işlər görmüş və bu fəaliyyətinin indi də davam etdirir. Onun "Zirvədən zirvəyə..." kitablarının gördüyü faydalı işlərin təcəssümü kimi hələ uzun illər xeyirxah işlər üçün bir nümunə olacağına inanıram.

# ONUNCU YAZI

## Erməni vəhşilikləri Nürnberq prosesi prizmasında

"Zirvədən zirvəyə..." kitabında diqqətimi çəkən məqamlardan biri də İkram müəllimin İkinci Dünya müharibəsi zamanı alman faşistlərinin törətdikləri beynəlxalq cinayətlərə görə mühakimə olunduqları Nürnberqdə keçirilən məhkəmə prosesində Amerika tərəfindən baş ittihamçı Robert Ceksonun, SSR İttifaqı tərəfindən Baş dövlət ittihamçısı R.A.Rudenkonun və İngiltərədən baş ittihamçı Hartli Şoukrossun nitqlərinə istinad etməsi oldu.

İkram müəllim "R.A.Rudenkonun xatirələrindən" yazısında xatırlayır: "...Danılmazdır ki, Roman Andreyeviç Rudenko tarixi şəxsiyyətdir. O, Nürnberq məhkəmə prosesində SSRİ tərəfindən dövlət ittihamını müdafiə edən prokuror kimi tarixdə qalıb.

...Tədbirlərin birində R.A.Rudenko nasistlərin mühakiməsi ilə bağlı bizə xatirələrini danışdı. Qeydlərim yoxdur, ancaq yadımda qalan bir xatirəni yazmaq istərdim (bilmirəm, Roman Andreyeviç bunu haradasa yazıb, ya yox). Onun söylədikləri: "Bir gün məhkəmədə vəsatət qaldırıldı ki, Stalinqrad vuruşmasında univermağın zirzəmisində məskunlaşan ştabdan əsir götürülən 6-cı Ordunun komandanı

feldmarşal Fridrix Vilhelm Paulyus dindirilsin. Mən tərəf kimi vəsatətə münasibətimi bildirməliydim. Ancaq bilmirdim, Stalinin mövqeyi necə olacaq. Odur ki, xahiş etdim, vəsatətin müzakirəsi hələlik açıq saxlanılsın. Paulyusun ifadə verməyə hazır olub-olmaması mənə bəlli deyildi. Prosesdən sonra qaldığım otağa gəldim (nasistlərin mühakiməsi ilə bağlı məhkəmə prosesinin iştirakçıları – mühakimə olunanlar, mühafizə xidməti, hakimlər, prokurorlar, tərcüməçilər, stenoqrafçılar, şahidlər, texniki personal, tibb işçiləri və b. vaxtilə SS-çilərin ştabı olmuş, hazırda ədliyyə sarayı adlanan möhtəşəm binada qalırdılar. Bu həm təhlükəsizlik, həm də vaxta qənaət baxımından çox uğurlu seçim idi (Sonradan Nürnberqdə həmin sarayı ziyarət etmək mənə nəsib oldu – ***İ.K.***).

Gördüm stolun üstündə şifrəli teleqram var: "Paulyus hazırda sərhəddədir, ifadə verməyə hazırdır. Stalin". Ertəsi gün qaldırılan vəsatətlə razı olduğumu bəyan etdim. Paulyus məhkəmədə dindirildi və lazımi ifadəni verdi".

Bu fakt Stalinin məhkəmə prosesinin gedişatını necə izləməsinə dəlalət edir. Əfsuslar olsun ki, xatirimdə qalan ancaq budur" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 534-535).

Yazının bu yerində Hitlerin general-feldmarşal Paulyusun əsir düşməsinə münasibətinə dair bir mə-

qamı xatırlatmağı məqsədəmüvafiq hesab etdim: "Almanların baş qərargah rəisi Tseytslerin şahidliyinə görə (həmçinin 1 fevral 1943-cü ildə "canavar yuvası"nda keçirilən müşavirənin stenoqramına müvafiq olaraq) Paulyusun əsir düşməsi haqqında məlumat daxil olandan sonra Hitler əsl isterika sərgilədi. Onun özündən çıxmasının başlıca səbəbi Paulyusun intihar etməməsi idi. Yeri gəlmişkən, Paulyus Xarkovdan Stalinqrada qədər yolda üç hərbi rütbə almışdı: tank qoşunları generalı, 1 dekabr 1942-ci ildə general-polkovnik, 30 yanvar 1943-cü ildə isə general-feldmarşal. Hitler hesab edirdi ki, bununla o, Paulyusun üzərinə həyatına sui-qəsd öhdəliyi qoyurdu, çünki general-feldmarşal əsir düşməli deyildi. Lakin hərbi rütbənin təqdim olunduğu ikinci gün general-feldmarşal özü əsir kimi təslim oldu. Hitler qışqırırdı: "Axı gülləni alnına çaxmaq çox asandır. Necə qorxaq olmaq lazımdır ki, bundan qorxasan. Ha! Yaxşısı budur ki, özünü ölməmiş dəfn etdirəsən. Həm də ki o (Paulyus – ***V.K.***), yaxşı bilirdi ki, ölümü başqa yerdə mühasirəyə düşənlərin davam gətirməsi üçün nümunə olacaqdır… Burada ancaq demək olar: özünü güllələmək lazım idi, əvvəllər sərkərdələrin davrandığı kimi – işin uduzulduğuna əmin olandan sonra qılıncın üstünə atılmaq lazım idi. Bu ki özü-özlüyündə aydındır" (Владимир Карпов. Полководец. Москва. 1988. с.349).

Onun da qeyd edim ki, general-feldmarşal Paulyusun təslim olub, əsir düşməsində həmyerlimiz Həzi Aslanovun alayının böyük xidmətləri olmuşdur: “Manşteyn artıq Paulyusa kömək etməyi təxirə salıb öz hayına qalmışdı. İndiyədək gördüyü bütün işlərin alt-üst olması feldmarşalı hər şeydən çox yandırırdı. İmkan varkən böyük bir zərbə ilə hücuma keçib Paulyusun ordusu ilə birləşmədiyinə peşmançılıq çəkirdi...

Aslanovun alayı ilə birlikdə vuruşan Don kazakları süvari alayının atlıları geri çəkilən düşməni daban-dabana təqib edir, onları müdafiə xətti yaratmağa qoymurdular” (Hüseyn Abbaszadə. General. Bakı. 1962. s. 205).

İkram müəllimin “R.A.Rudenkonun xatirələrindən” yazısında Roman Andreyeviç Rudenkonun Nürnberq prosesi ilə bağlı xatirələrindən söhbət açması, A.İ.Poltarakın 1983-cü ildə Mockvanın “Юридическая литература» nəşriyyatında çapdan çıxmış «Нюрнбергский эпилог» kitabından (s. 397-401) verdiyi yazıda alman faşistlərinin mühakimə olunması ilə bağlı bəzi məqamlara müraciət etməsi məni Azərbaycan Ordusunun 30 il işğal altında qalmış torpaqlarımızı azad edərkən göstərdiyi qəhrəmanlıqları, işğalçılara qarşı mübarizənin müqəddəsliyini və vacibliyini, qısa da olsa, Nürnberq prosesi prizmasında müəyyən paralellər əsasında qeyd etməyə sövq edir.

2020-ci ildən başlayaraq Ermənistanın təcavüzkar siması özünü yenidən nümayiş etdirirdi. “Təcavüzkar ritorika və təxribatlar Ermənistanın Azərbaycana qarşı yeni təcavüzə hazırlaşdığından xəbər verirdi. BMT və beynəlxalq ictimaiyyətin Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməsi zəruriliyi, təxribatların baş verməsinə və gərginliyin artırılmasına görə məsuliyyətin Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşməsi barədə çağırışlar nəticə vermirdi” (“Azərbaycan” qəzeti. 22 sentyabr 2020-ci il**)**.

Uinston Çörçill Fulton nitqində haqlı olaraq deyirdi: “Çətinliklər və təhlükələr biz onları sezməsək, belə aradan qalxmayacaqdır. Biz hər şeyi öz axarına buraxdığımız və nə baş verəcəyini gözlədiyimiz zaman da onlar yoxa çıxmayacaqdır. Əgər biz əmin-amanlıq siyasətini həyata keçirsək, bu halda da onlar yoxa çıxmayacaqdır. Nizamasalma lazımdır. Biz nə qədər uzun zamana bunu təxirə salsaq, onu əldə etmək bir o qədər çətin olacaq, bizi hədələyən təhlükə bir o qədər artacaqdır” (Уинстон Черчилль говорит о железном занавесе. Фултон, 5 марта 1946 года // Автор-состовитель В. Апанасик. Речи изменившие мир. Москва. 2018. с.277).

Azərbaycanın “taleyi öz əlində olmaqla gələcəyi xilas etməyə gücü çatardı” təəssüf ki, Ermənistanın siyasi və hərbi rəhbərliyi reallıqları qiymətləndirə və sağlam düşüncə nümayiş etdirmək iqtidarında

deyildi. İşğal olunmuş torpaqları qaytarmaqdan imtina etmək, yad torpaqlara öz millətinin nümayəndələrini yerləşdirmək, özgə torpaqlarına sahib çıxmaq alman faşistlərinin siyasəti idi. Ermənilərin siyasəti alman faşistlərinin siyasətindən heç də fərqlənmirdi.

Nürnberq Beynəlxalq Tribunalının sənədlərində təcavüzkarların bu cür hərəkətləri pislənilir. Bu cür hərəkətlərin təcavüz cinayəti kimi dəyərləndirilməsi tövsiyə olunurdu.

Nürnberq prosesində Böyük Britaniyadan olan baş ittihamçı Hartli Şoukross ittiham olunanların təcavüzkar niyyətlərinin getdikcə genişlənməsindən söhbət açaraq deyirdi: "Təcavüzün həyata keçirilməsi gələcək təcavüzkar hərəkətlər üçün iştahı yalnız artırdı ...onlar artıq alman millətindən olan əhalinin yaşamadığı əraziləri də işğal etməyə başladılar" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.171).

Amerika Birləşmiş Ştatlarının baş ittihamçısı Robert Ceksonun 21 noyabr 1945-ci ildə Nürnberq prosesindəki giriş nitqindən: "Bizim mühakimə etməyə və cəzalandırmağa cəhd etdiyimiz cinayətlər o qədər qabaqcadan düşünülmüş, qərəzli və o dərəcədə dağıdıcı nəticələrə malikdir ki, onları rədd etməyə sivilizasiya tab gətirə bilməz, belə ki, onlar təkrar olunarsa, o, məhv olacaqdır… Bu məhkəmə baxışı dörd böyük dövlətin daha 15 dövlət tərəfindən

dəstəklənən bizim dövrün böyük təhlükəsinə – təcavüzkar müharibəyə qarşı durmaq üçün beynəlxalq hüquqdan istifadəsinin praktiki cəhdini əks etdirir. Bəşəriyyətin sağlam düşüncəsi qanunun xırda adamlar tərəfindən törədilən azəhəmiyyətli cinayətləri mühakimə etmək ilə kifayətlənməməsini tələb edir. Qanun, həmçinin hakimiyyəti əldə edərək ondan dünyada heç bir ocağın yan keçə bilməyəcəyi pisliyi fəaliyyətə gətirmək üçün qəsdən və birgə istifadə edən adamları da əhatə etməlidir.

Bu məhkəmə araşdırması ona görə əhəmiyyətlidir ki, burada mühakimə olunanlar özlərinin simasında elə naqis qüvvələri təmsil edirlər ki, bu adamların bədənləri toza dönəndən sonra da hələ xeyli zaman kəsiyində dünyada gizli qalacaqlar. Bu adamlar hakimiyyətin doğurduğu irqi nifrətin, terrorun və zorun, dikbaşlığın və qəddarlığın, canlı simvollarıdır. Onlar biri-birinin ardınca gələn nəsillərinin Avropanı onun kişi cinsindən olan əhalisini məhv etməklə, onların evlərini dağıtmaqla və onları yoxsulluğa qərq etməklə müharibə burulğanına çevirən qəddar millətçilik və millitarizmin, intriqa və təxribatın simvollarıdır…

Onlar alman xalqını bizim hər bir insan üçün təbii və ayrılmaz hesab etdiyimiz bütün ləyaqət və azadlıqlardan məhrum etmişlər… Onlar almanlarda "ali irq" olmaq arzusu oyadıblar ki, bu da özü-

özlüyündə digərləri üçün qul olmağı ehtiva edir. Onlar öz hökmranlıqlarını müəyyən etmək üçün xalqını ağılsız avantüraya uğratmışlar. Onlar sosial enerji və ehtiyatları məğlubedilməz hesab etdikləri hərbi maşın yaratmaq üçün istifadə etmişlər. Onlar qonşu dövlətlərə soxulmuşlar. "Ali irq"in müharibə aparmasına kömək göstərilməsi üçün onlar milyonlarla şəxsi qula çevirərək Almaniyaya gətirmiş, hazırda həmin bədbəxtlər "köçkün şəxslər" kimi dolaşmaqdadırlar.

Sonda pislik və xəyanətkarlıq o dərəcəyə çatdı ki, sivilizasiyanın təhlükəsi qarşısında yatmış qüvvələr oyandılar. Onlar birgə səylər ilə alman hərb maşınını darmadağın etdilər" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.97-98).

Bəli, Nürnberq prosesində ABŞ-nin baş ittihamçısının dilindən səslənən bu fikirlər tamamilə Ermənistan rəhbərliyinə də aid idi. Ermənistan rəhbərliyi də öz xalqını səhv yola salır, onların düşüncələrini qonşu dövlətlərin ərazilərini "Böyük Ermənistan" yaratmaq məqsədilə zəbt etmək xülyası ilə zəhərləyir, xalqı müharibə meydanlarında qırğına verirdi.

Azərbaycan ərazilərini işğal etdikdən sonra həmin ərazilərdə erməniləşdirmə siyasətini həyata keçirmək faşist Almaniyasının İkinci Dünya müharibəsi zamanı ətraf əraziləri almanlaşdırmaq siyasəti kimi nəzərdən keçirilə bilər. Ümumiyyətlə, ermənilərin təcavüzkar

müharibəni planlaşdırması, hazırlaması, həyata keçirməsi, müharibə dövründə və müharibədən sonra həyata keçirdikləri fəaliyyət, törətdikləri cinayətlər alman faşistlərinin əməlləri və fəaliyyətindən fərqlənmirdi.

Nürnberq prosesində ABŞ-dən olan baş ittihamçı Ceksonun Almaniyanın siyasi rəhbərliyinə və alman xalqına münasibətdə söylədiklərinin bir çox hissəsi Ermənistanın da siyasi rəhbərliyinə və erməni xalqına münasibətdə tətbiq oluna bilərdi: "...Faşist təcavüzünün son nəticəsi belədir ki, Almaniya indi dağıntılar altındadır. Faşistlərin alman xalqı adından rahatlıqla verdiyi vədlər, sonradan onları utanmadan və tərəddüd etmədən pozmaları, alman diplomatiyası üçün ikiüzlülük reputasiyası qazanmışdır və bu vəziyyət bir çox gələcək illər üçün maneə kimi çıxış edəcəkdir.

Faşistlərin özləri barədə lovğalıqla ucadan söylədikləri "ilahi irq" gələcəkdə bir neçə nəsil ərzində almanlara irad tutulması üçün əsas olacaqdır.

Faşist dəhşəti "alman" sözünün özünə yeni və uğursuz məna gətirmiş və bütöv yüzilliklər ərzində bu sözlə assosiasiya olunacaqdır…

Müharibənin başlanması və onun aparılması faktının özü bizim prosesin əsas məsələlərindəndir və özündə tarixi təmsil edir...

Bu hücumlar bütün dünyaya qarşı və beynəlxalq birliyə qarşı törədilmiş cinayətdir...

Bütün xalqların pislədiyi bu müharibə təcavüzkar müharibə idi. Bu müharibə ümumi sülhü qorumalı olan müqavilələrin pozulması müharibəsi idi.

Bu müharibə qəflətən inkişaf etməmişdi – o, uzun müddət ərzində böyük ustalıq və xəyanətkarlıqla planlaşdırılmış və hazırlanmışdı...

Hitlerin 24 fevral 1920-ci ildə Münhendə açıq qaydada elan etdiyi proqramı "bütün almanların millətlərin öz müqəddəratını həll etmək əsasında Böyük Almaniya yaratmaq məqsədilə birləşməsini" tələb edirdi. Bu proqram "bizim xalqın varlanması və millətimizin artığının məskunlaşması üçün torpaq və ərazilər "tələb edirdi..." (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.101-108).

Müqəddəratı təyinetmə ilə bağlı Ermənistanın alman faşistləri ilə üst-üstə düşən və Nürnberq prosesində ABŞ-nin baş ittihamçısı R. Cekson tərəfindən Hitlerin 24 fevral 1920-ci ildə elan etdiyi proqramdakı müddəalara münasibətdə səsləndirilən bir fikri də qeyd etmək yerinə düşərdi: O (proqram – ***V.İ.***), "bütün almanların böyük Almaniya yaratmaq məqsədilə millətlərin müqəddəratını təyin etmək hüququ əsasında birləşməsini" tələb edirdi. O, "bizim xalqın varlanması bizim əhalinin artığının məskunlaşması üçün torpaq və ərazilər" tələb edirdi (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.103).

Böyük Britaniyanın baş ittihamçısı Hartli Şoukross isə qeyd edirdi ki, "5 noyabr 1937-ci ildə Hitlerin imperiyanın dəftərxanasında keçirdiyi konfransda səsləndirdiyi fikirlər də faşist Almaniyasının hər bir vəchlə torpaqlar işğal etmək niyyətlərindən xəbər verirdi... Həmin konfransın protokolu sübut kimi məhkəməyə təqdim olunmuşdu. Orada həmçinin qeyd olunurdu ki, "Bütün zamanların tarixi – Roma imperiyasının, Britaniya imperiyasının – sübut edir ki, böyük ərazi ekspansiyaları ancaq müqaviməti aradan qaldırmaq və məlum riski qəbul etmək yolu ilə həyata keçirilə bilər. Hətta müvəffəqiyyətsizliklər belə zəruridir: nə əvvəllər, nə də indi sahibsiz məkan mövcud olmuşdur. Hücum edən həmişə sahibkarla rastlaşır. Almaniya qarşısında duran problem az dəyərlə daha çox zəbt üçün daha əlverişli imkanı müəyyən etməkdən ibarətdir" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с. 167).

Ermənistanın millətlərin öz müqəddəratını müəyyən etmək hüququna istinad etməsi də məhz həmin məqsədə, yəni özgə ərazilərinin müharibə vasitəsi ilə ələ keçirməsinə xidmət edirdi.

Azərbaycan xalqı erməni təcavüzünün ilk günündən işğala qarşı çıxmış, heç vaxt doğma torpaqlarının işğal altında qalması ilə barışmamış, milli adət-ənələrinə yad ünsürlərin Azərbaycan torpaqlarında

məskunlaşmasına etiraz edərək doğma torpaqlara qayıtmaq üçün mübarizə aparmışdır.

Fransadan olan ittihamçı Fransua de Menton Fransa adından, onun azadlıq uğrunda mübarizə aparıb həlak olmuş qəhrəmanları adından səsini ucaldaraq ədalət mühakiməsinin həyata keçirilməsini tələb edirdi. Bu haqlı tələb idi: "Təcavüzkar müharibəni başlayanlar, başqa dövlətin ərazilərini işğal edənlər, mülki əhalini heç bir səbəb olmadan öldürənlər, şəhər və kəndləri xarabazarlığa çevirənlər hökmən törətdiyi əməllərə görə mühakimə olunmalı və cəzalarını almalıdırlar. Lakin heç kəs, o cümlədən fransız xalqının bütün nümayəndələri də bunu yalnız törədilən cinayətlər ona toxunanda tələb etməməli, əksinə, o dəhşətləri unutmayaraq, bir də heç vaxt bu dəhşətlərin təkrarlanmaması üçün həmişə eyni mövqedən çıxış etməlidir" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.192).

Menton daha sonra deyirdi: "Millətlərin əməkdaşlığının sabahkı günü beynəlxalq əxlaqdan kənarda mövcud ola bilməz, millətlər mənəvi sahədə sivilizasiyanın müəyyən ümumiliyinə malik olmaya, mənəvi dəyərlərin vahid qradasiyasına (sırasına) malik olmaya bilməz; beynəlxalq hüquq təsir tədbirlərini müəyyən etmək və beynəlxalq əxlaqın ümumqəbulolunmuş qaydalarının daha ciddi pozulması hallarında onların tətbiqini təmin etməyə xidmət

etməlidir. Bu əxlaq və xatırladılan beynəlxalq cinayət hüququ son nəticədə dinc əməkdaşlıq və möhkəm əsasda inkişafın təminini bərqərar olunması üçün zəruridir" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.193).

Fransua de Menton qeyd edirdi ki, "bizim beynəlxalq əxlaq və beynəlxalq hüquq əsasında azad əməkdaşlıq ruhunda beynəlxalq birliyin yaradılmasına əmin olmaq üçün bir dövlət kimi Almaniyanı təcavüzkar müharibəni hazırlamaq və onu inkişaf etdirməyə, milyonlarla insanı ölümə məhrum etməyə, xalqları yoxsulluğa məhkum etməyə, hərbi əməliyyatlar nəticəsində ağlasığmaz cinayətlər törətməyə görə təqsirli hesab etməliyik. Almaniyanın rəhbərlərini də cəzalandırmaq lazımdır. Əgər onlar mühakimə olunmasa, əgər ədalət mühakiməsi həyata keçirilməsə, onda xalqlar ədalət mühakiməsinin mümkünlüyünə inamı itirəcəklər" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.193-194).

Menton nitqinə davam edərək deyirdi: "Ədalət mühakiməsinin həyata keçirilməsi həmçinin alman xalqının gələcəyi üçün zəruridir. Bu xalq uzun müddət ərzində faşizm ilə zəhərlənmiş və faşist rejimi əhəmiyyətli müddətdə onun bəzi cəhdlərində ifadəsini tapmış, dərin kök salmışdır. Onun tam məsuliyyəti təkcə ümumi razılığında deyil, həm də

bir çox cinayətlərin törədilməsində səmərəli iştirakındadır. Onun yenidən tərbiyə olunması zəruridir. Bu mürəkkəb işdir və uzun zaman tələb edir" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.194). Lakin təəssüf ki, Fransanın hazırkı rəhbərliyi bir vaxtlar Nürnberq prosesində onları təmsil edən ittihamçının söylədiklərini ya unutmuş, ya da simalarını unutqanlıq pərdəsi altında gizlədir.

Ermənistan da özünün təcavüzkar niyyətlərinə nail olmaq üçün müharibəni bir vasitə kimi istifadə etmək istəyirdi. Onlar yeni əraziləri zəbt etməklə mövcudluqlarını davam etdirmək üçün yeni ehtiyatlar axtarırdılar ki, onları dağıdıb, söküb Ermənistana daşısınlar, yeni təbii ehtiyatlara yiyələnsinlər.

Birinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Ermənistanla atəşkəsə nail olmasından keçən dövrdə iqtisadi inkişafı, dünya miqyasında aparıcı dövlətlərlə əməkdaşlığından, çoxsaylı beynəlxalq layihələri reallaşdırmaqla dünya iqtisadiyyatında özünəməxsus rola malik olmasından, hərbi qüdrətinin artmasından, xalqla iqtidar arasında möhkəm birlikdən Ermənistan qorxuya düşərək, bir vaxtlar Hitlerin həmvətənlərinə tövsiyəsini xatırlayaraq, Azərbaycanın siyasi, iqtisadi, hərbi sahədəki nailiyyətlərini Ermənistana "hücum" kimi dəyərləndirirdi. Ermənistanın Azərbaycana qarşı İkinci

Qarabağ müharibəsinə başlamasının səbəblərindən biri də bu idi.

Ermənistan Birinici Qarabağ müharibəsi zamanı işğal etdiyi torpaqları "yandırılmış ərazi"lərə çevirərək Azərbaycan üzərində qələbə qazandığını düşünür, yenidən başladığı müharibədə də havadarlarına arxayın olaraq eyni nəticələrə nail olacağını fikirləşirdi. Lakin zaman təsdiq edirdi ki, onlar səhv yoldadırlar.

Ermənistanın vandalizm hərəkətləri nəticəsində işğal olunmuş rayonlardakı vəziyyət bir vaxtlar faşistlərin törətdiklərindən daha ağırdır. Çünki Azərbaycanın işğal olunmuş rayonları tam dağıdılmış, bir çox rayonlarda isə dağıdılmamış tikili qalmamışdır. Hər tərəf uçurulmuş tikililərin dağıntıları ilə vəhşilikdən xəbər verir. Əslində XX–XXI əsrdə insanın bu cür vəhşiliyə qadir olması təəccüb doğurur. Görəsən, bu cinayətləri törədənlərdən bunun səbəbləri soruşularsa, onlar özlərinə bəraət qazandırmaq üçün nə isə deyə bilərlərmi? Mənə elə gəlir ki, bu əməllərə heç nə ilə bəraət qazandırmaq olmaz.

Nürnberq Beynəlxalq Hərbi Tribunalında Böyük Britaniyadan olan baş ittihamçı Hartli Şoukross alman faşistlərinin işğal etdikləri ərazilərdəki dağıntılardan söhbət açaraq deyirdi: "...şəhərlər səhraya çevrilmiş, həyati rahatlıqlar məhv edilmiş, ...çox ölkələrdə sivilizasiyanın ən zəruri əsasları mövcud deyildir, dünya

xarabazarlığa çevrilmiş, o, bu dağıntılardan yalnız bir neçə nəsil sonra çıxa bilər" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.159).

Nürnberq prosesinin SSRİ-dən olan baş ittihamçısı R.A.Rudenko isə deyirdi: "Hitlerçilər özlərinin işğalçı, qarətçi planlarını həyata keçirərkən sistematik olaraq şəhər və kəndləri dağıdır, bir neçə nəsil tərəfindən yaradılan dəyərləri məhv edir, mülki əhalini qarət edirdilər. (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.273).

Nürnberq Beynəlxalq Hərbi Tribunalında Fransadan olan baş ittihamçı F.de Menton çıxışının sonunda deyirdi: "Tanınmış beynəlxalq hüquqşünas Politis özünün ölümündən qabaq yazdığı "Beynəlxalq əxlaq" kitabında bizə xatırladır ki, beynəlxalq qarşılıqlı münasibətləri tənzimləməli olan əxlaqın bütün qaydaları heç bir şübhəsiz qəbul olunmalıdır, bütün xalqlar belə bir inama gəlməlidirlər ki, bu qaydaları pozmaq deyil, onlara riayət etmək onların maraqlarına xidmət edir" (Нюрнбергский процесс. Сборник материалов. Том 1. Москва. 1952. с.260).

Ümid edək ki, bir gün, beynəlxalq qarşılıqlı münasibətləri tənzimləməli olan əxlaqın bütün qaydaları heç bir şübhəsiz qəbul olunacaq, bütün xalqlar belə bir inama gələcəklər ki, bu qaydaları pozmaq deyil, onlara riayət etmək onların maraqlarına xidmət edir.

İkram müəllim 4 aprel 2001-ci il tarixdə "Respub-

lika" qəzetinə veridiyi müsahibəsində Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyini aşağıdakı kimi izah etmişdi: "…Qarabağla bağlı mənim mövqeyim "biz hərb istəmirik, lakin hərbə hazırıq" prinsipidir. Məsələnin həllini də belə görürəm. Hər bir müstəqil dövlət ərazi bütövlüyünü, suverenliyini qorumaq üçün bütün zəruri tədbirlərə hazır olmalıdır. İş belə gətirib ki, Azərbaycan Qarabağ münaqişəsinə zorla cəlb olunub. Və bu hansı vasitə ilə olur olsun həll olunmalıdır. Mən, əlbəttə ki, məsələnin diplomatik, dinc yolla həllinə üstünlük verirəm. İnsan zəkası, əqli üstünlük qazanmalıdır. İdrakın təntənəsi qələbə çalmalıdır. Məsələ həm də həllini elə tapmalıdır ki, torpaqların toxunulmazlığı, ərazi bütövlüyü qorunub saxlanılsın. Müdafiə Nazirliyinin əsas funksiyası da ondan ibarətdir ki, dövlətin suverenliyinə yönəldilmiş hər hansı qəsdə, təcavüzə qarşı sözünü deyə bilsin. Biz də ölkənin müdafiə qabiliyyətini, iqtisadi qüdrətini elə möhkəmləndirməliyik ki, təcavüz olunarsa, təcavüzkara cavab verməyə qadir olaq. Ümumiyyətlə, dünya təcrübəsinə, tarixi hadisələrə nəzər yetirərək, əminliklə deyə bilərəm ki, Azərbaycan da Qarabağ üzərində suverenliyini gec-tez bərpa edəcək. Bölgədə sabitlik nə qədər tez bərqərar olunarsa, bu həm regionun, həm əcnəbi donorların ürəyincə olar. Ləngimə Azərbaycanın günahı

üzündən deyil. Hörmətli Prezident Heydər Əliyev bütün imkanlardan istifadə edir ki, məsələ sülh yolu ilə həll edilsin. Şübhəsiz ki, bu səylər öz bəhrəsini verəcəkdir. O ki qaldı Qarabağla bağlı Milli Məclisdə, ictimaiyyət arasındakı müzakirəyə, mən hər hansı bir məsələnin müzakirəsinin tərəfdarıyam və bunda müsbət cəhətdən başqa heç nə görmürəm. İstər kollektivdə, istər ailədə və ya hər hansı bir yerdə məsələnin müzakirəsi qaranlıq məqamlara aydınlıq gətirmək deməkdir. El məsəli var, deyərlər: "Məsləhətli don gen olar". Heç kəs də deməsin ki, bu müzakirə gecikdirilib. Hər bir məsələni dərhal da müzakirəyə çıxarmaq olmaz. Hər işin öz məqamı var. Müdrik dövlət başçısı məsələni lazım bildiyi vaxtda gündəmə gətirib. Ümid edirik ki, münaqişə geç-tez öz həllini yalnız dinc danışıqlar yolu ilə tapacaqdır. Yenə də təkrar edirəm: biz hərb istəmirik, lakin hərbə hazırıq" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 550-555).

"Odlar yurdum" yazısında İkram müəllim Atif Zeynallının "On min çinar" şeirində təsvir etdiyi çinarların vəziyyətini erməni qəsbkarlarının Azərbaycan ərazilərində törətdikləri vəhşiliklər prizmasında qiymətləndirərək yazır: "Şeir Mincivan ilə Zəngilanın arasındakı yolun hər iki tərəfində əkilmiş çinarlara həsr edilib. Ərazinin, müvəqqəti də olsa, düşmən işğalı altında olması nəzərə alınaraq həmin şeir tam mətni ilə

verilir. Zaman gələr, gələcək nəsil çinarları bərpa edər, şairin də ruhu şad olar" (İkram Kərimov. Zirvədən zirvəyə... İkinci kitab. Bakı. 2019. s. 523).



Soldan: Vəfaddin İbayev, Çingiz Başirov, Qurbət Əsgərov, Ələddin Cəfərov, Tahir İsmayılov, Müzəffər Ağazadə, İkram Kərimov, Əsəd Mirzəliyev, Kəramət Əliyev, Qəhrəman Allahverdiyev

**During the 44-day war, as a result of rocket attacks by the Armenian armed forces on civilian areas located far from the front line, 93 civilians were killed, including 12 children and 27 women, and 454 were injured. 13,580 residential houses, non-residential areas and vehicles were destroyed.**

**On October 17, 2020, Ganja city was hit at night by a ballistic missile (Эльбрус – 9k72 Скад). As a result, 16 people were killed and 55 people were injured.**

**The photo shown above was taken in front of the ruins of thatarea.**

**44 günlük müharibə zamanı Ermənistan silahlı qüvvələrinin cəbhə xəttindən uzaqda yerləşən mülki ərazilərə raket zərbələri endirməsi nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 dinc sakin həlak olub, 454-ü yaralanıb. 13580 yaşayış evi, qeyri yaşayış sahəsi və nəqliyyat vasitələri dağıdılıb.**

**17 oktyabr 2020-ci il tarixində gecə saatlarında Gəncə şəhəri ballistik raketlə (Эльбрус – 9k72 Скад) vurulub. Nəticədə 16 nəfər həlak olub, 55 nəfər yaralanıb. Yuxarıda göstərilən foto həmin ərazinin xarabalıqları qarşısında çəkilib.**

Azərbaycan əsgəri torpaqlarını azad etdi. Biz Şuşaya – Qarabağa qayıtdıq. Bu qayıdış olmalı idi. Biz – hər bir azərbaycanlı, damarlarında azərbaycanlı qanı axan, bu torpağın havasını udan, onun suyunu içən, nemətindən bəhrələnən və bunların dəyərini, qədrini bilən, dərk edən hər kəs bu qayıdışa inanır, onu gözləyirdi. Şuşa qayıdışına inanan, onu ümidlə gözləyən milyonlarla azərbaycanlıdan biri olaraq inamımı 2006-cı ildə çapdan çıxan "Ermənistan – Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində" adlı kitabıma ön söz əvəzi kimi yazdığım "Xarıbülbül həsrətində" ifadə etmişdim.

**“Xarıbülbül həsrətində”**

Bədii əsər yazmış olsaydım, onu “Xanbülbül həsrətində” adlandırardım. Bu həsrəti mənim kimi çəkənlər çoxdur. Çoxları sənə qovuşmaq, sənin gözəlliyinə tamaşaya durmaq istər, xarıbülbül...

Xarıbülbül Şuşanın rəmzi hesab olunur. Xarıbülbülü Şuşasız, Şuşanı isə xarıbülbülsüz təsəvvür edə bilmirik. Odur ki, Şuşa həsrətini çəkdiyimiz kimi, xarıbülbülün də həsrətindəyik.

Əziz oxucu, düşünmə ki, xarıbülbülün əsrarəngiz gözəlliyindən uzun-uzadı danışacağam. Etiraf edim ki, bu sahədə bilgilərim elə də çox deyil. Müxtəlif ədəbiyyatları, ensiklopediyaları qarşıma töküb xarıbülbül barədə nəyisə öyrənib yaza da bilərdim. Ancaq məqsədim ayrıdır. Kitaba ön söz yazmaq barədə düşünəndə Şuşada – Cıdır düzündə dostumla söhbətim yadıma düşdü. Ona görə də ənənəvi olaraq kitaba giriş, ön söz kimi beynəlxalq hüquqla bağlı məsələləri deyil, illərdən bəri yaddaşımda həkk olunmuş o xatirə ilə bağlı düşüncələrimi yazmaq qərarına gəldim. Yəqin daxilən məni Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən təkrar-təkrar yazmağa məcbur edən, yeni kitabımı oxucuların müzakirəsinə verməyə sövq edən də, o yerlərin – Qarabağımızın, Şuşamızın həsrəti, nisgili, düşüncələrimdir...

Qarabağ uğrunda döyüşlərin iştirakçısı, vətəndaş

kimi haqqı, həqiqəti söyləmək. Vətən övladı kimi borcumu yerinə yetirmək istəyimdir...

Təxminən 25 il əvvəl birinci dəfə Şuşada olmuşam. Dostum (Bərdə şəhərində yaşayan Vaqif Şərifov) məni Şuşa ilə tanış edib, şəhəri, tarixi abidələri, Üzeyir bəyin, Xan qızının, Bülbülün yaşadığı evləri göstərib xeyli məlumat verəndən sonra Cıdır düzünə qalxdıq. Bir çiçəyi mənə göstərib: "Xarıbülbül ancaq Şuşada çiçəkləyir" – dedi. Məndən çiçəyə baxıb onu nəyə oxşatdığımı soruşdu. Bir daha təbiətin əsrarəngiz gözəlliyinə, Ulu Tanrının yaratdıqlarına heyran qaldım. Çiçək özü gülə qonmuş bülbülü xatırladırdı.

Elə o vaxtdan mənim təsəvvürümdə Xarıbülbül və Şuşa qoşalaşıb. Xarıbülbülün yalnız Şuşada bitməsinin nə dərəcədə həqiqətə uyğun olduğunu deyə bilmərəm. Ancaq inandım dostuma. Yeniyetmə yaşlarımda Fikrət Qocanın şeirlərini oxuyub "dəmirağacın talış olmasına" inandığım kimi. İndi də inanıram ki, dəmirağac talışdır, xarıbülbülsə şuşalı.

Çiçəyə bir qədər diqqət yetirib, dostuma demişdim: çiçəyin gülə qonmuş bülbülü xatırlatması təsadüfi deyil. Bülbül nəğməkar quşdur, şuşalılar da musiqisiz, nəğməsiz yaşaya bilmir. Hər ağacın kölgəsində, hər bulağın başında dəstə-dəstə yığışıb musiqi dinləyirlər. Çiçək nəğməkar insanların nəfəsindən, "Qarabağ şikəstəsi"nin sədalarından maya yığıb, cana gəlib nəğməyə, musiqiyə məhəbbətin rəm-

zi olan bülbül kimi gülə qonmuşdur.

Düşünürəm ki, o nəğməkar insanlar, o səs, o nəfəs Şuşanı tərk edəndən xarıbülbül daha açmır, saralıb, solub xarıbülbül. Günəşsiz, havasız, işıqsız qalan çiçəklər solan kimi, xarıbülbül də nəğməsiz, muğamsız, tarsız, kamansız qalıb cücərə, pöhrələnə bilmir. Biz xarıbülbülə həsrət qaldığımız kimi, o da tara, kamana həsrət qalıb.

Düşündüklərimi yazdım. Reallıq isə belədir ki, Qarabağda doğulmasam da, Qarabağı Vətənimin bir parçası, Üzeyirin, Xan qızının, Bülbülün vətəni, gözəllik təcəssümü kimi sevirəm.

İstəyim, arzum bir daha Cıdır düzündə gəzib o əzəməti, o gözəlliyi duymaqdır. Qışda lopa-lopa yağan qarda gəzib Şuşanın təmiz, saf havasını udmaq istəyirəm. Yayda istinin cırhacırında İsa bulağının suyundan içmək, "Qarabağ şikəstəsi"ni Qarabağda dinləmək istəyirəm. Cıdır düzündə dizimi torpağa qoyub xarıbülbülün gözəlliyinə tamaşa etmək, ətrini duymaq istəyirəm.

Bir də inandıqlarım var. O gün gələcək, arzularım çin olacaq. Buna inanıram. Ulu Tanrı təbiəti o incisiz – yaratdığı xarıbülbülsüz qoya bilməz. Xarıbülbülün çiçəklənməsi üçünsə, o insanlar – şuşalılar, o səs, o nəfəs, tar, kaman Şuşaya qayıtmalıdır. Yenə hər ağacın kölgəsində, hər çeşmənin başında nəğmələr, muğamlar səslənməlidir.

Çiçəkləyəcək xarıbülbül. Mütləq çiçəkləyəcək! O, bizi – səni, məni, hamımızı, muğamımızı, tarımızı, kamanımızı, nəfəsimizi, səsimizi gözləyir. Sədamızı eşidən kimi torpağın bağrını yarıb cücərəcək. Yenə bülbül öz budağına qonub çiçəyinə nəğmələrini oxuyacaq, həsrətimizə son qoyacaq!

Çiçəkləyəcək xarıbülbül. Mütləq çiçəkləyəcək!" (Vəfaddin İbayev. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. Bakı. 2006. s. 3-4).

Sonuncu dəfə Şuşada 1991-ci ilin yayında üç ay polis müstəntiqi kimi Vahid İstintaq – Əməliyyat Qrupunun üzvü olaraq çalışmış, Şuşanı daha da çox sevmiş, ona bir daha vurulmuşdum. 2006-cı ildə yuxarıda qeyd etdiyim sözlərlə Şuşa, Qarabağ sevgisini bəyan edib, onu qaytaracağımıza inamımı ifadə etmişdim. Şükür bu günə.

"Biz Şuşaya qayıtmışıq!" xəbərini Bakıda küçədə olarkən eşitdim. Bu xəbərin sevinci sonsuzdur. Sevincin dərəcəsini ölçən cihaz bildiyim qədərincə yoxdur. Olsaydı belə, bu sevinci ölçmək mümkün deyildi. Cihazın göstəricisi çətin ki buna dözərdi.

Şuşanın azadlığı xəbəri uzun illərdən bəri həsrətində olduğumuz, azadlığını hər gün arzuladığımız Şuşanı bizə – azərbaycanlılara qaytardı. Şuşa bizə Azərbaycanın Prezidenti İlham Əliyevin dili ilə, onun qəlbindən keçirdiyi hissolunan həyəcanlarla qayıtdı. Xarıbülbüllə yanaşı, İlham Əliyevi də Şuşanın rəmzlərindən birinə çevirdi.

"Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq". Bu döyüşə rəhbərlik edən Ali Baş Komandanın, bu meydanda döyüşən hər bir əsgər, hər bir zabit, hər bir general, bu Qələbədə əməyi olan hər bir kəsin, bu yolda qurban gedən hər bir şəhidin, sağlamlığını itirən hər bir qazinin bütöv Azərbaycan üçün xidməti əvəz olunmaz, yaddan çıxmaz və əbədidir. Azərbaycan xalqı bu insanlara minnətdardır. Minnətdardır ona görə ki, bu qələbə bizə fəxarətlə "biz azərbaycanlıyıq", "mən azərbaycanlıyam", "övladlarımız azərbaycanlıdır" deməyə imkan verdi. Minnətdarıq ona görə ki, onlar haqqı, ədaləti qanı, canı, sağlamlıqları hesabına bərpa etdilər. Minnətdarıq ona görə ki, onlar Şuşada yenidən "Qarabağ şikəstəsi"nin səslənməsini təmin etdilər. Minnətdarıq ona görə ki, onlar xarıbülbülün çiçəklənməsinə, illərin həsrətindən sonra torpağın bağrını yarıb, pöhrə atmasına, çiçək açmasına şərait yaratdılar.



İkram müəllim "Zirvədən zirvəyə"nin üçüncü kitabının sonunda "EPİLOQ ƏVƏZİ" bölümündə yazır: "Bunu xüsusi olaraq qeyd edim ki, hər bir azərbaycanlı kimi, çox xoşbəxtəm ki, bu trilogiyanın III kitabı ərsəyə gəldiyi ərəfədə doğma Qarabağımızın işğaldan azad olunması xəbərini eşitmək mənə nəsib oldu. Bu Qələbə möhtəşəm birlik nümayiş etdirən gözəl xalqımızın tarixinə qürurverici hadisə kimi əbədi olaraq həkk olundu. Əfsuslar olsun ki, şəhidlərimiz də oldu… Amma hər kəs – hər bir vətəndaşımız da öz növbəsində başa düşür ki, doğma torpağa "Vətən daşı" olan şəhidlərsiz də Qələbə qazanılmır, Vətən tam olmur. Ölməz, əbədiyaşar şəhidlərimizə Uca Tanrıdan rəhmət diləyib, yaralı qazilərimizə tezliklə sağalmağı, Ali Baş Komandan İlham Əliyev başda olmaqla, müzəffər Ordumuza, hər bir əsgər və zabitimizə cansağlığı və uğurlar arzulayıram" (İkram Kərimov. Zirvədən zirvəyə... Üçüncü kitab. Bakı. 2020. s. 841).



* * *

Vilvan Azərbaycan Respublikasının Lənkəran rayonunun kənd inzibati ərazisi olmaqla inkişaf etmiş iri yaşayış məntəqələrindən biridir. Kəndin talış dilində "Vılvon" ("vıl" azərbaycan dilinə tərcümədə "gül", "von" isə "baxıcı", "becərən" deməkdir) adı rəsmi sənədlərdə Vilvan kimi yazılmışdır.

Vilvan qədim yaşayış yerlərindədndir. Kəndin 5-6 hektarlıq ərazisində aparılmış apxeoloji tədqiqatlar ərazidə IV əsrə məxsus yaşayış məskəninin olmasını müəyyən etmişdir.

Vilvan kəndi Lənkəran-Boradigah şose yolu ətrafında, rayon mərkəzindən 12 kilometr şimal-qərbdə yerləşir. Kəndin ərazisi 926 hektar olmaqla əhalinin məşğuliyyətini çayçılıq, tərəvəzçilik, sitrus meyvəçiliyi və heyvandarlıq təşkil edir. Əhali zəhmətsevərliyi və ziyalıları ilə tanınır.

Kənd əhalisinin sayı 5173 nəfərdir. Əhali etnik mənsubiyyətinə görə talışdır. Böyük Vətən müharibəsində Vilvan kəndindən 129 nəfər iştirak etmiş, onlardan yalnız 77 nəfəri geri qayıtmışdır.

44 günlük müharibədə həqiqi hərbi xidmətdə olanlardan əlavə 19 nəfər könüllü kimi iştirak etmiş, onlardan 3 nəfəri şəhidlik zirvəsinə ucalmışdır. Ruhları şad olsun!

*Lənkəran, Vilvan kəndi.*
*2024-cü il*

# Mündəricat

**ÖN SÖZ ƏVƏZİ**
Üç kitab, üç səbəb və ya xatirələr cığırıyla . . . . . . . . . . . . . . . . . . 7
**BİRİNCİ YAZI**
Zirvələrin ən ucası . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 18
**İKİNCİ YAZI**
Xoşbəxt uşaqlığın izləri . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 65
**ÜÇÜNCÜ YAZI**
“Bənzərsiz istintaqçı” . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 80
**DÖRDÜNCÜ YAZI**
Prokurorun fəaliyyəti ilə bağlı mülahizələr . . . . . . . . . . . . . . . . 156
**BEŞİNCİ YAZI**
Hakim – savad, ədalət və yüksək əxlaqi keyfiyyətlər daşıyıcısı olmalıdır . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 202
**ALTINCI YAZI**
Keçid dövrü və “dəyişməyən sükançı” . . . . . . . . . . . . . . . . . . . . 248
**YEDDİNCİ YAZI**
Asudə vaxt – məsuliyyətdən azad vaxt deyildir . . . . . . . . . . . . . 252
**SƏKKİZİNCİ YAZI**
Etinasızlıq, laqeydlik, biganəlik haqqında . . . . . . . . . . . . . . . . . 273
**DOQQUZUNCU YAZI**
Milli-mənəvi dəyərlərin daşıyıcısı . . . . . . . . . . . . . . . . . . . . . . . 284
**ONUNCU YAZI**
Erməni vəhşilikləri Nürnberq prosesi prizmasında . . . . . . . . . . 323

| | |
|---|---|
| Elmi redaktor: | **İbrahim Quliyev**<br>*hüquq elmləri doktoru, professor,*<br>*Əməkdar müəllim* |
| Rəyçi: | **Müzəffər Ağazadə**<br>*Ali Məhkəmənin sabiq hakimi,*<br>*Əməkdar hüquqşünas* |
| İdeya müəllifi və<br>nəşrə hazırlayanı: | **Telman Zülfüqaroğlu**<br>*yazıçı-publisist* |
| Redaktor: | **Mətanət Kərimova** |
| Korrektor: | ***Kərimova Mətanət*** |
| Dizayn və səhifələmə: | ***Duxanina Alianna*** |

**Vəfaddin Ələm oğlu İbayev.**
**Zirvələrin ən ucası.** Bakı. Letterpress, 2025. 353 səh.


"Zirvələrin ən ucası" kitabı uzun illər (1966–2012) məhkəmə hakimiyyəti orqanlarında müxtəlif məsul vəzifələrdə işləmiş, təqaüdə çıxdıqdan sonra vəkil kimi fəaliyyət göstərən İkram Kərimovun "Zirvədən zirvəyə..." bioqrafik memuar kitablarının təsiri altında müəllifin düşüncələrindən bəhs edir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmaqla yanaşı, İkram Kərimovun mustəntiqlik, prokurorluq, hakimlik fəaliyyəti ilə muşayiət olunan həyat yolunu əks etdirdiyinə görə gənc hüquqşünaslara böyük örnəkdir.


© V.İbayev, 2025
© Letterpress, 2025



Kağız formatı 70×84 $^{1}/_{16}$. Fiziki çap vərəqi 22. Tiraj 200. Sifariş 12.

"Letterpress" nəşriyyat evində çap olunmuşdur.
e-mail: office@letterpress.az